AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

# Tarix, insan və cəmiyyət

*Elmi-nəzəri və elmi-metodik jurnal*

**2018, 3 (22)**

**BAKI-2018**

# Tarix, insan və cəmiyyət

Elmi-nəzəri və elmi-metodik jurnal № 3 (22), 2018

*Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən 16 aprel 2005-ci il tarixdə qeydə alınmış (№ 1279), 2005-ci ildən Bakı Pedaqoji Kadrların İxtisasartırma və Yenidənhazırlanma İnstitutunda nəşr edilmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən 2011-ci ildən tarix, tarixin tədrisi metodikası, 2015-ci ildən psixologiya və pedaqogika, 2017-ci ildən siyasi elmlər, antropologiya elmi istiqamətləri üzrə də "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər siyahısı"na daxil edilmişdir. 2016-cı ildən Azərbaycan Dövlət Pedaqoji Universitetinin təsisçiliyi ilə nəşr edilir.*

## REDAKSİYA HEYƏTİ

**Cəfər Cəfərov** (baş redaktor), **Asəf Zamanov, Bəxtiyar Əliyev, Urxan Ələkbərov, Yaqub Mahmudov, Vəli Əliyev, İzzət Rüstəmov, Abbas Seyidov (**baş redaktorun müavini**), İradə Hüseynova, Oqtay Sultanov, Anar İsgəndərov, Ramiz Əliyev, Fərrux Rüstəmov, Rüfət Hüseynzadə, Sevinc Quliyeva** (məsul katib)

**UOT 94(479.242).**

# QƏDİM NAXÇIVAN ƏRAZİSİNDƏ İBTİDAİ "METALLURGİYA" VƏ METALİŞLƏMƏ (e.ə. VI-I minilliklər)

***Abbas Seyidov***
*Azərbaycan Dövlət İqtisad Universiteti*
abbas.seyidov@gmail.com

**Açar sözlər:** *Naxçıvan, tunc dövrü, metallurgiya, metalişləmə, mis, mərgümüş, xammal bazası*

*Qədim metallurgiyanın meydana çıxması və inkişafı üçün xammal bazasının olması çox vacibdir. Tədqiqatlarla müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikasının ərazisi yeraltı sərvətlərlə zəngindir. Onların arasında mis, mərgümüş, polimetal yataqları və təbii meşələr ibtidai metallurgiyanın formalaşmasında mühüm rol oynamışdır.*

*Bunlara əsasən söyləmək olar ki, e.ə.VI minillikdən başlayaraq Naxçıvan ərazisi Cənubi Qafqazın və Ön Asiyanın müstəqil metallurgiya ocaqlarından biri olmuşdur.*

*Eramızdan əvvəl IV minillikdən bu ərazidə mərgümüşlü tuncdan, e.ə.III minilliyin ortalarından isə qalaylı tuncdan geniş istifadə olunmuşdur. Qalay yataqlarının o dövrdə Azərbaycan ərazisində və Ön Asiyada olmaması səbəbindən, bu metal digər uzaq ölkələrdən gətirilmişdir. Bu dövrün metal əşyalarının tərkibində əhəmiyyətli dərəcədə gümüş, mərgümüş, qurğuşun və s metallara rast gəlinir.*

*Naxçıvanın bu dövr arxeoloji abidələrindən tərkibində sürmə olan əşyalar da tapılıb. Bu da onu göstərir ki, artıq orta tunc dövründə sürməli tunc metallurgiyası da inkişaf etmişdir.*

## ПЕРВОБЫТНАЯ «МЕТАЛЛУРГИЯ» И МЕТАЛЛООБРАБОТКА НА ТЕРРИТОРИИ ДРЕВНЕГО НАХЧЫВАНА (VI-I тыс. до н.э.)

***Аббас Сеидов***

**Ключевые слова:** *Нахчыван, бронзовый век, металлургия, металлообработка, медь, Ì ышьяк сырьевая база*

*Для развития и становления древнейшей металлургии необходимы, прежде всего, сырьевая база и наличие топлива, что в достаточном*

*количестве имеется на территории Нахчыванского края. Это локальное месторождение меди, мышьяка, полиметаллических руд, а также естественных лесов, древесина которых являлась топливом для металлургического производства.*

*Исходя из вышеизложенного, можно сказать, что Нахчыван в древности, начиная с VI тыс. до н.э. был самостоятельным центром металлургии, как на Кавказе, так и на Ближнем Востоке.*

*В IV тыс. до н.э. на территории Нахчывана использовался мышьяк, в середине III тыс. до н.э. – олово, которое является привозным как на Ближнем Востоке, так и в Азербайджане. В составе изделий этого периода наблюдается также значительное количество серебра, свинца, мышьяка, месторождения которых имеются на территории Нахчыванаи несомненно разрабатывались в это время.*

*В археологических памятниках Нахчывана обнаружены также бронзовые изделия с высоким содержанием сурьмы. Это говорит о том, что в эпоху средней бронзы выплавляли также и сурьмяную бронзу.*

## PRIMITIVE "METALLURGY" AND METAL-WORKING IN THE TERRITORY OF THE ANCIENT NAKHCHIVAN (VI-I millennia BC)

***Abbas Seyidov***

**Key words:** *Nakhchivan, Bronze age, metallurgy, copper, arsenic, raw material base, fuel resources*

*For the development and formation of the ancient metallurgy raw materials and fuel resources are mainly required. In the Nakhchivan region, those are available in sufficient quantities, including local deposits of copper, arsenic, polymetallic ores, as well as natural forests, the wood of which was the fuel for metallurgical production.*

*Based on this, we can say that in antiquity, starting from the 6$^{th}$ century B.C., Nakhchivan was an independent centre of metallurgy both in the Caucasus and in the Middle East.*

*In Nakhchivan, Arsenic and tin were used in the 4$^{th}$ millennium B.C. and the 3$^{rd}$ millennium B.C., respectively. Tin was imported to the Middle East and Azerbaijan. Specimens of this period contain also a significant amount of silver, lead and arsenic. Their deposits are located in the territory of Nakhchivan and were consumed at that time.*

*In the archaeological monuments of Nakhchivan, bronze items with a high content of antimony were also found. It means that in the Middle Bronze Age, antimony bronze was also smelted.*

1951-1964-cü illərdə O.H.Həbibullayev tərəfindən I Kültəpədə aparılmış arxeoloji qazıntıların nəticələri [1] göstərdi ki, eneolit dövründən başlayaraq(e.ə.VI minilliyin əvvəlləri) Naxçıvan ərazisində metal alətlər meydana çıxmışdır. İlk tunc dövründə sosial-iqtisadi, ictimai-siyasi və mədəni sahələrdə bir sıra ciddi dəyişikliklər baş vermişdir. Hakim ana nəsli e.ə.IV minillikdə öz yerini ata nəslinə vermiş, patriarxal ailə münasibətləri formalaşaraq, təşəkkül tapmış, cəmiyyətdə ibtidai "metallurgiya"nın əsası qoyulmuşdur.Məhsuldar qüvvələrin inkişafı nəticəsində sinifli cəmiyyətin ilk rüşeymlərinin yaranmasına rəvac verən ilk ictimai əmək bölgüsü meydana çıxmış, əkinçilik, maldarlıq, sənətkarlıq inkişaf edərək dövrünə görə yüksək pilləyə çatmışdır. Orta tunc dövründə baş vermiş ikinci ictimai əmək bölgüsü sənətkarlığın müstəqil sahəyə çevrilməsinə, metallurgiyanın və metalişləmənin daha surətli inkişafına, iqtisadi-mədəni əlaqələrin genişlənməsinə şərait yaratmışdır.

Naxçıvan ərazisində qədim metallurgiya və metalişləmə yerli zəmin əsasında inkişaf etsə də, Ön Asiya və digər qonşu ərazilərlə birbaşa bağlı olmuşdur. Ən qədim zamanlardan ərazinin müxtəlif filiz yataqları ilə zəngin olması qədim metallurgiyanın inkişafına təsirsiz qalmamışdır. Arpaçay sahilində Gümüşlü, Ordubadda - Ağdərə, Culfada - Darıdağ mis, mərgümüş, sürmə, sink, gümüş və qızıl yataqları, Şahbuzda - Vayxır, eyni zamanda qonşu Gədəbəy, Daşkəsən, Zəngəzur rayonları və Qarabağ ərazisində, Cənubi Azərbaycanda – Qaradağ və Təbriz yaxınlığında olan qədim filiz yataqları bu problemin həlli üçün şərait yaratmışdır.

Naxçıvanın arxeoloji abidələrindən tapılmış yüzlərlə metal əşyanın miqdarı-spektral analizinin nəticələri açıq-aydın göstərir ki, onların hazırlanmasında istifadə olunan metallar (qalay və nikel istisna olmaqla) yerli yataqlara məxsusdur. Tapılmış əşyaların əksəriyyətinin əsası mis tərkibli olub, mərgümüşlü, qalaylı tuncdan, sürmə, qurğuşun, qızıl, gümüş və s.-dən ibarətdir.

Metal əşyaların miqdarı-spektral analizlərinin nəticələri göstərir ki, müxtəlif dövrlərdə bir, iki, üç, dörd və daha çox komponentli ərintilər hazırlanmışdır. Naxçıvandan tapılmış bəzi metal məmulatlarının tərkibində nikelin olması qədim tayfaların Şumerlə əlaqəsini göstərən əsas dəlillərdəndir. Qalay yataqlarının Ön Asiya və Zaqafqaziyada olmaması, ibtidai insanların bu metalla qeyri tanışlığı və sonralar onun Azərbaycan ərazisinə ancaq başqa ölkələrdən gətirilməsi, qədim metallurqları məcbur edirdi ki, onu əvəz edəcək başqa filizlərin axtarışında olsunlar.

A.A.İyessen, M.A.Kaşqay, İ.R.Səlimxanov Azərbaycan ərazisində və bütövlükdə Qafqazda mis yataqları ilə zəngin olan mədənlərdən qədim dövrlərdə də istifadə olunduğunu göstərmişlər.

Məlumdur ki, misin əridilməsi üçün 1083 dərəcə istilik lazım olmuşdur. Təbii ki, bu qədər istiliyi əldə etmək o dövrün insanları üçün çətin idi. Lakin misə 20-21% mərgümüş qatılırdısa, onda ərinti üçün 680-700 dərəcə istilik tələb olunurdu [2, s.40].

Sonrakı dövrlərdə misə qatılan qalayın da miqdarından asılı olaraq az istilik tələb olunurdu. Belə ki, misə 8% qalay qatılanda - 1020, 13% qatılanda – 980, 25% qatılanda isə – 800 dərəcə istilik lazım gəlirdi [4, s.139]. Qalayın miqdarından asılı olaraq metalın rəngində də dəyişiklik yaranırdı. 10% və ya bir qədər artıq qalay qatılmış metal cəlbedici - qızılı, 16%-a qədər qırmızımtıl - qızılı, 16-20% arası sarımtıl - ağ, 31%-dən artıq isə ağ tunc rəngi alır [5, s.449-459].

Arxeoloq R.M.Munçayevin fikrincə [3, s.403], tuncun erkən meydana çıxdığı dövrdən başlayaraq Qafqaz ərazisi metallurgiyanın əsas aparıcı mərkəzlərindən biri olmuşdur. Söz yox ki, Naxçıvan ərazisində yaşayan qədim tayfalar qalayla tanış olana qədər misin tərkibinə qatdıqları mərgümüşü Culfa mədənlərindən əldə etmişlər.

Tədqiqatçılar qeyd edirlər ki, Azərbaycanda və Cənubi Qafqazda eneolit və ilk tunc dövrü metallurgiyası üç mərhələdən keçmişdir. Birinci mərhələ misdən hazırlanmış kiçik əşyalarla xarakterik olub. İkinci mərhələdə təmiz mislə bərabər, tərkibinə mərgümüş və ya az miqdarda nikel ərintisi qatılmış, süni yolla hazırlanmış alətlərə rast gəlinir. Üçüncü mərhələ e.ə.IV minilliyin ortalarından başlayaraq Kür-Araz mədəniyyəti dövrünü əhatə edir ki, bu mərhələdə metallurgiya tərəqqi edərək tuncdan çoxsaylı alətlərin hazırlanmasına şərait yaratmışdır [6, s.5-14].

Naxçıvanın ilk tunc dövrü abidələrindən xeyli metal əşya əldə edilmişdir. Bu tapıntılar sırasına tunc oraq, bıçaq, sancaq, nizə ucu, biz, iynə və müxtəlif məqsədlər üçün istifadə edilən digər əşyalar daxildir.

O.H.Həbibullayev göstərir ki, metallurgiya dövrünə görə normal inkişaf mərhələsi keçmişdir. I Kültəpənin ilk tunc dövrü təbəqəsindən 17 mis-arsen qarışığı olan və bir xalis qurğuşundan hazırlanmış əşya, metal şlak qalığı və gil qəliblər tapılmışdır [1, s.231]. Eyni zamanda, II Kültəpənin ilk tunc dövrü təbəqəsində körük ucluğuna (dördüncü tikinti qatı, dər.7,6 m), metal şlak qalığına, tunc əşyalara və gil qəliblərə rast gəlinmişdir. II Kültəpənin bu təbəqəsindən metalişləmə emalatxanasının qalıqları aşkar olunmuşdur [7, s.12; 8, s.126]. Kimyəvi-skektral analizlərin nəticələri I Kültəpədən tapılmış metal əşyaların tərkibində 6,79 %-ə qədər mərgümüş qarışığı olduğunu göstərir [1, s.231].

Eramızdan əvvəl III minilliyin ikinci yarısından etibarən Naxçıvan

ərazisində yaşayan tayfaların ictimai-siyasi, sosial və təsərrüfat həyatında baş verən nəzərə çarpacaq dəyişikliklər onunla bağlı idi ki, artıq Kür-Araz mədəniyyəti öz yerini yeni, inkişaf etmiş mədəniyyət olan orta tunc dövrünə verirdi. Bu dəyişikliklər insan həyatının bütün sahələrində özünü büruzə vermişdir. İlk tunc dövrü mədəniyyətinin tarix səhnəsindən çıxması səbəblərinin tam dəqiqliyi ilə izahı mümkün olmasa da, müəyyən edilən arxeoloji abidələr onu göstərir ki, geniş ərazini əhatə edən Kür-Araz mədəniyyəti məkanında ondan sonra gələn mədəniyyəti təmsil edən abidələr öz lokal xüsusiyyətlərinə görə bir neçə kiçik ərazili mədəniyyətlərə bölünür.

Naxçıvanın orta tunc dövrü abidələrindən müxtəlif tərkibli və formalı metal məmulatı aşkar olunmuşdur. Onlar iynə, xəncər, nizə ucu, ox ucluğu, bilərzik, üzük, asma və s. ibarətdir. Əmək alətləri biz və iynələrlə təmsil olunur.

Arxeoloji materialdan görünür ki, orta tunc dövrü abidələrində istər daş, istərsə də sümük məmulatı azlıq təşkil edir. Bu, şübhəsiz ki, metallurgiyanın inkişafı ilə bağlıdır. Çünki, haqqında danışılan abidələrdən tapılan tunc əşyaların müxtəlifliyi bunu sübut edir. Lakin tuncun inkişafı daş və sümük alətləri tamamilə ortadan çıxara bilməmişdir. Tədqiqatlar göstərir ki, daş və sümük alətlərdən uzun müddət - inkişaf etmiş dəmir dövrünə qədər istifadə edilmişdir.

Naxçıvanın son tunc dövrü abidələrindən aşkar olunmuş metal əşyalar da silah və bəzəklərlə təmsil olunmuşdur. Silahlar xəncər, nizə ucları, ox ucluqları, bıçaq və s. ibarətdir. Bunların içərisində xəncər və nizə uclarının hazırlanması daha çox maraq doğurduğundan onlar haqqında qısa məlumat vermək yerinə düşər.

Naxçıvanınbu dövrə aid xəncərləri dörd tipə ayrılır. Birinci tip xəncərlər qısa saplaqlı, yastı tiyəlidir. Onlar 1926-cı ildə İ.İ.Meşaninovun qazıntıları zamanı Qızılburun, sonralar isə Ordubad rayonu ərazisində yerləşən Mərdangöl, Şahbuz rayonunun Kolanı və Haqqıxlıq nekropollarından [10, şək.40,7] əldə edilmişdir. Bu tip xəncərlərə tunc dövrünün sonlarında Cənubi Qafqazın çox abidələrində rast gəlinir. Onlardan dəmir dövrünün ilk əsrlərində daha çox istifadə etmişlər.

İkinci tip xəncərlərin tiyəsinin dəstək hissəsi hər iki yandan ortaya doğru qatlanıb və üzərində ağac yerləşdirmək üçün çənbərlər vardır. Onların şəbəkəli başlıqları tiyələrdən ayrı tökülmüşdür. Belə xəncərlər yalnız Kolanı nekropolundan aşkar olunmuşdur. Bu tip xəncərlərə Xocalı-Gədəbəy mədəniyyəti abidələrində çox rast gəlinir. Analoji xəncərlər Azərbaycan ərazisində Mingəçevir, Xoşbulaq yaylağı, Qarabağ, Xanlar, Gədəbəy, Killikdağ ərazilərindən tapılmışdır. Bu tip xəncərlərin tapıldığı komplekslər e.ə. XI əsrə aid edilir [11, tab. II-III; 12, tab. II, 4; 13, s. 80-81, tab. 49, 10,17, tab. 50, 1,16,23-24; 204, s. 126].

Üçüncü tip xəncərlər bütöv tökülmüşdür. Onların tiyəsi yastı olub, ortada

bir qədər qabarıqdır. Bu cür xəncərlərin şəbəkəli başlığı üçbucaq şəkillide şiklərlə bəzədilmişdir. Onlara Şahbuz rayonu ərazisində tədqiq edilən Kolanı və Bayəhməd nekropollarında rast gəlinmişdir. Kolanı xəncərinin uzunluğu 29 sm-dir.

Dördüncü tip xəncərlər Ön Asiya tiplidir. Onlar Culfa nekropolundan məlumdur və gətirilmə hesab edilirlər. Bu xəncərləri səciyyələndirən əsas əlamət onların dəstəyinin çərçivə formasında olması və tiyə ilə dəstələrinin bir qəlibdə tökülməsidir. Xəncərlərin bəzisinin dəstəyi klassik Ön Asiyatiplilərin (o cümlədən Naxçıvanda Qızılburundan tapılan xəncər) dəstəyi kimi enli deyil, qısadır. Onlarda tiyə dəstəkdən ayrı tökülüb və dilçəyi dəstəyin içərisinə bənd edilib. Arxeoloq V.H.Əliyev Culfadan tapılmışvə Ön Asiya tipli xəncərlər əsasında yerli istehsala məxsus olan buxəncərləri e.ə. XII-IX əsrlərə aid edir [14, s.81].

Nizə ucları iki tipə ayrılır və hazırlanma üsuluna görə bir-birindən fərqlənirlər. Birinci tip nizə uclarının düzəldilməsi zamanı qəlib forması əvvəl mumdan hazırlanır, sonra onun üzəri gillə suvanaraq qurudulur və ərinmiş metal qəlibdəki birdeşikdən içəri tökülür. Bu zaman mumdan olan formanı sıxışdırıb oradan çıxaran metalın özü forma alır. Belə qəliblərdən yalnız bir nüsxə tökmək üçün istifadə edilmişdir.

İkinci tip nizə ucları düzəldilən zaman lövhə metaldan onların biçimi kəsilir, uc tərəf olan yarısı üçbucaq yarpaq formasında hazırlanır. Qalan yarısı isə hər iki yandan qatlanaraq boru şəklinə salınır. Ağac dəstək boruya taxılır. Belə nizələrin borusunda deşik açılır və möhkəm olması üçün ağac dəstəyə mismarla bərkidilir. Onların bir qrupunun uca doğru ensizləşən yarpaq biçimli tiyəsinin arxası boyunca qabarıq zolaq keçir.Onlar Culfa [14, s.79] və Xaraba-Gilana bidələrindən məlumdur [15, s.101-149]. Tədqiqatçılar belə nizə uclarının tapıldığı kompleksləri e.ə. II minilliyin sonu - e.ə.I minilliyin əvvəlləri və ortalarına, H.F.Cəfərov e.ə. XIII-XII əsrlərə [13, s.149] aid edir. Naxçıvan abidələrinin xronoloji cəhətdən araşdırılması bu nizə uclarını e.ə. XIV-XI əsrlərə aid etməyə imkan verir.

Bu dövrdə bəzək əşyalarının çoxluğu, onların mürəkkəb konfiqurasiyası bəzək əşyaları ilə məşğul olan xüsusi sənətkarların mövcud olduğunu göstərir.

Naxçıvanın tunc və erkən dəmir dövrü arxeoloji abidələrindən tapılmış metal əşyaların miqdarı-spektral analizlərinin nəticələrindən məlum olur ki, onlar tərkibinə görə iki qrupa ayrılır:

- tərkibində qalay olmayan əşyalar;
- qalaylı əşyalar.

Birinci qrupa aid (tərkibində qalay olmayan əşyalar) əşyaların tarixi e.ə.VI minilliyin birinci yarısı və ya ortalarından başlayır və bəzi hallarda e.ə.III minlliyin ikinci yarısına qədər davam edir. Bu metallurgiyanın erkən dövrüdür və iki mərhələyə bölünür:

Birinci insanın təbii metalla tanışlığı olmuşdur. Bu təbii mis olmuşdur. İbtidai insan onu dərk edərək əvvəl onun emalı ilə soyuq döymə üsulu ilə məşğul olmuş, sonralar isti döymə üsulu ilə ondan xırda bəzək əşyaları hazırlamağı bacarmışdır. Bir qədər sonra insan misi əritməyə başlamış və mis əşyalar meydana çıxmışdır (I Kültəpə, Ovçular təpəsi). Misi əritməklə bərabər, insan mis-mərgümüş ərintisindən tunc əldə etmişdir (I Kültəpədə 2 mis-mərgümüşlü əşya). Bu mərhələ e.ə.V minilliyin sonlarına qədər davam edir. Bu dövr metallurgiya sahəsində ilk addımların atılmasıdır. Bu mərhələnin metal məmulatı yaşayış yerləri və qəbir abidəsindən (I Kültəpənin eneolit dövrü qəbirlərindən) tapılmış kiçik məişət və bəzək əşyalarından ibarətdir.

İkinci mərhələe.ə.IV minillikdən e.ə.III minilliyin ortaları və ya ikinci yarısına qədər davam edir. Bu mərhələdə insan artıq mis-mərgümüş metallurgiyasını mənimsəyir və əksər metallarda yüksək faizli mərgümüş filizi müşahidə olunur. Bu mərhələ Azərbaycanda mis-mərgümüş dövrü adlanır. Əsas ərinti kimi mərgümüş başlıca rol olynayır. Təkcə metal əridilməsi yox, onun qəliblərə tökülməsi işi mənimsənilərək, daha geniş yer alır. Məhsulların çeşidi artır. Daha böyük və keyfiyyətli əşyalar istehsal olunur.

Tərkibində qalay olan əşyalar və onların istehsalı isə üç mərhələyə bölünür:

Birinci mərhələ e.ə.III minilliyin ortaları və ya ikinci yarısından e.ə.II minilliyin ortalarına qədər olan dövrü əhatə edir. Bu mərhələdə ilk qalaylı tunca rast gəlinir ki, (Qarabulaq kurqanları, Maxta yaşayış yeri), bu da ilk tunc dövründən orta tunc dövrünə keçid mərhələsində qalaylı tuncdan istifadə olunduğunu, mis-qalay metallurgiyasının yaranmasını və inkişafını göstərir.

İkinci mərhələ e.ə.II minilliyin ortalarından e.ə.I minilliyə qədər olan dövrü əhatə edir. Bu mərhələnin ərintilərində sink meydana çıxır (Şahtaxtı, Qızılburun, Kolanı). İnsanlar çətinliklə əldə etdikləri qalayı sinklə əvəz etməyə çalışırlar.

Üçüncü mərhələ e.ə.I minilliyin əvvəllərindən ilk orta əsrlərə qədərki dövrü əhatə edir. Bu mərhələdə dəmir əridilməyə başlanılır. İlk dəmir əşyalar meydana çıxır. Azərbaycanda olan yataqlardan səmərəli istifadə olunmaqla çoxkomponentli əşyalar istehsal olunur. Miqdarı-spektral analizlərin nəticələri Naxçıvan ərazisində metallurgiya və metalişləmənin yerli zəmin əsasında inkişaf tapdığını göstərir [16, s.268-271].

Qeyd etmək yerinə düşər ki, Türkiyə ərazisində-Anadoluda yerləşən Çayonu təpəsindən tapılmış metal əşya son nəticələrə görə e.ə.IX-VIII minilliklərə aid edilir. Ondan təxminən 700-800 km aralı yerləşən I Kültəpənin alt təbəqəsi e.ə.VII minilliyin sonlarını əhatə edir.

Son olaraq onu demək olar ki, aparılmış tədqiqatlardan Naxçıvan ərazisində e.ə.VI minilliyin ortalarından başlayaraq son orta əsrlərə qədər zəngin metal kolleksiyası əldə olunub. Qədlim dağ-mədən işlərinin mövcudluğu

cəsarətlə deməyə imkan verir ki, Naxçıvan ərazisi Azərbaycanın və Cənubi Qafqazın ən qədim metallurgiya mərkəzlərindən biri olmuşdur.

## ƏDƏBİYYAT


1. Абибуллаев О.А.Энеолит и бронза на территории Нахичеванской АССР. Баку: Элм, 1982, 314 с.
2. Тавадзе Ф., СаквареледзеТ. Бронзы древней Грузии, Тбилиси: 1959, 144 с.
3. Мунчаев Р.М. Кавказ на заре бронзового века, Москва: 1975.414 s.
4. Алиев В.Г. Культура эпохи средней бронзы Азербайджана. Баку:Элм, 1991, 256 с.
5. Кашкай М.А., Селимханов И.Р.,Исследование медно-мышьяковых предметов из раскопок холма Кюльтепе в Нахичеванской АССР. ДАН Азербайджанской ССР, 1957, № 4, с. 449-459.
6. Нариманов И.Г., Джафаров Г.Ф. О древнейшей металлургии меди на территории Азербайджана. Журн. «Советская Археология» №1, 1990.s. 5-14.
7. Алиев В.Г., Бахшалиев В.Б. Новые археологические находки по древней металлургии Нахичевани. АЭИА, Баку:Элм, 1986, с. 11-14.
8. Сеидов А.Г. Памятники куро-аракской культуры Нахичевани. Баку:Билик, 1993, 164 с.
9. Seyidov A.Q. Naxçıvan tunc dövründə, Bakı: Elm, 2000, 318 s.
10. Novruzlu Ə.İ., Baxşəliyev V.B. Şahbuz bölgəsinin arxeoloji abidələri. Bakı: Elm, 1992, 144 s.
11. Qazıyev S.M. Mingəçevirdən tapılmış bəzi silahlar haqqında / AMM. II c. Bakı: Azərb.SSR EA Nəşriyyatı, 1951, s. 5-30.
12. Kəsəmənli H.P. Xaçbulaq daş qutu qəbirləri haqqında / AMM, VI cild. Bakı: Elm 1965, s. 32-43.
13. Cəfərov H.F. Azərbaycan e.ə.IV minilliyin axırı - I minilliyin əvvəllərində (Qarabağın Qarqarçay və Tərtərçay hövzəsinin materialları əsasında). Bakı: Elm, 2000, 187 s.
14. Алиев В.Г. Джульфинские археологические находки. Известия АН Азербайджанской ССР (история, философия, право), 1968, № 3, с.79-81.
15. Baxşəliyev V.B., Seyidov A.Q., Qədirzadə H.Q., İbrahimli B.Ə. Qədim Ordubad, Naxçıvan:Əcəmi Nəşriyyat-Poliqrafiya birliyi, 2014, 312 s.
16. Seyidov A.Q., Həsənova Ə.M. Naxçıvanın qədim metalı. Bakı: Elm, 2005, 315 s.

UOT 94(479.24).+911.3

# GƏNCƏ-QARABAĞ ƏYALƏTİNDƏ İQTİSADİ VƏZİYYƏT (1725-1735-ci illər)

***Xədicə Abbaslı***
*Azərbaycan Dövlət İqtisad Universiteti*

**Açar sözlər:** *Gəncə-Qarabağ, Osmanlı dövləti, iqtisadi vəziyyət, vergi sistemi, Səfəvilər dövləti*

*Məqalədə XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin dərin tənəzzülə uğramasından istifadə edən Osmanlı Türkiyəsi və çar Rusiyasının mühüm iqtisadi və strateji əhəmiyyəti olan Azərbaycan torpaqlarını bölüşdürmək uğrunda mübarizəsindən bəhs olunur. Bu mübarizə 1724-cü ildə Istanbul sülhünün bağlanması ilə nəticələndi. İşğal edilmiş torpaqlar arasında Gəncə-Qarabağ bəylərbəyiliyi də var idi. Osmanlı hökuməti Azərbaycan torpaqlarının işğalını başa çatdırdıqdan sonra buranın iqtisadi cəhətdən mənimsənilməsinə başladı. Xəzinəyə daxil olacaq gəlirlərin sabitliyini təmin etmək məqsədilə işğal olunmuş ərazilərin «müfəssəl dəftərləri» tərtib edildi. Gəncə-Qarabağ əyaləti üçün «müfəssəl dəftər»in tərtib edilməsi işi 1727-ci ildə başa çatdırıldı.*

# ЭКОНОМИЧЕСКОЕ ПОЛОЖЕНИЕ В ГЯНДЖА-ГАРАБАГСКОЙ ПРОВИНЦИИ (1725-1735 гг.)

***Хадиджа Аббаслы***

**Ключевые слова:** *Гянджа–Гарабах, Османское государство, экономическая ситуация, налоговая система, Сефевидская государство*

*Османские власти после завершения захвата Азербайджанских земель, в 1727 г. в Гянджа-Гарабагской провинции провели перепись населения, т.е. составили подробный реестр, на основе которого составлялись канун-наме (законоположения). В них указывались все налоги, взимаемые с населения, способ и время их сбора. Близкое ознакомление с подробным реестром и законоположением Гянджа-Гарабагской провинции показывает, что часть налогов, собираемых при*

*сефевидах, была сохранена, а часть заменена османскими налогами. Османская налоговая система в Гянджа-Гарабагской провинции, как и в других завоеванных территориях Азербайджана, представляла собой, сочетание собственно «шариатских», т.е. налогов, юридически основанных на принципах шариата и налоговоснованныхнаобычае.*

# THE ECONOMIC SITUATION IN GANJA-KARABAGH PROVINCE (1725-1735)

***Khadija Abbaslı***

**Key words:** *Ganja-Karabagh, Ottoman state, economic situation, tax system, state of the Safavid*

*After the occupation of Azerbaijan territory by Ottoman Empire, in 1727 Ottoman Empire conducted the enrollment of the people or compiled full registration in Ganja-Karabagh province and according this registration, code of laws was compiled. Taxes collected from the people and their collection methods and time were indicated in the code of laws. Close acquaintance with the Ganja-Karabagh registration and code of laws shows that one part of the taxes collected during Safavi rule was kept and their other part was substituted with Ottoman taxes. Ottoman taxation system in the other occupied areas of Azerbaijan as well as in Ganja-Karabagh province was the system of taxation based on shariat and tradition principles.*

XVIII əsrin əvvəllərində Səfəvilər dövlətinin dərin tənəzzülə uğramasından istifadə edən Osmanlı Türkiyəsi və çar Rusiyası mühüm iqtisadi və strateji əhəmiyyəti olan Azərbaycan torpaqlarını bölüşdürmək uğrunda mübarizəyə başladılar. Bu mübarizə 1724-cü ildəIstanbul sülhünün bağlanması ilə nəticələndi. Sülhün şərtlərinə görə Osmanlı Türkiyəsi Azərbaycanın vəİranınXəzərsahili vilayətlərinin Rusiya tərəfindən işğalını tanıdı. Rusiya isə öz növbəsində Azərbaycanın yerdə qalan torpaqlarnıın Osmanlı Türkiyəsi tərəfindən işğalına mane olmayacağını öhdəsinə götürdü. Osmanlı Türkiyəsi 1724-1725-ci illərdə keçirdiyi hərbi əməliyyatlar nəticəsində Azərbaycan torpaqlarının böyük bir hissəsini işğal etdi. İşğal edilmiş torpaqlar arasında Gəncə-Qarabağ bəylərbəyiliyi də var idi [5, s.60-73].

Osmanlı hökuməti Azərbaycan torpaqlarınınişğalını başa çatdırdıqdan sonra buranın iqtisadi cəhətdən mənimsənilməsinə başladı. Xəzinəyə daxil olacaq gəlirlərin sabitliyini təmin etmək məqsədilə işğal olunmuş ərazilərin «müfəssəl dəftərləri» tərtib edildi. Gəncə-Qarabağ əyaləti üçün «müfəssəl

dəftər»in tərtib edilməsi işi 1727-ci ildə başa çatdırıldı. Onu da göstərmək lazımdır ki, osmanlı işğalı altında olan bütün əyalətlər üzrə dəftərlər iki nüsxədə hazırlanır və təsdiq olunmaq üçün dövlətin paytaxtına göndərilirdi. Təsdiq edildikdən sonra dəftərin bir nüsxəsi nəzarət üçün paytaxtda saxlanılır, digər nüsxəsi isə icra olunmaq üçün müvafıq əyalətə göndərilirdi [9, s.43]

Digər əyalətlərin müfəssəl dəftərləri kimi, Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri də xüsusi tərtib olunmuş «qanunnamə» ilə başlayırdı. Qanunnamədə osmanlı vergi siyasətinin əsas istiqamətləri əks olunurdu. Daha dəqiq desək, osmanlı hakimiyyəti altına düşmüş konkret əyalətdə vergilərin adları və onların toplanması ilə bağlı olan bütün məsələlər qanunnamədəəks olunurdu [7, s. 12]. Göstərilən sənəddə Gəncə-Qarabağ əyalətinin sərhədləri, təbii-coğrafı şəraiti vəəhalinin əsas məşğuliyyəti haqqında məlumat verilib, ən başlıcası isə, əhalinin ödədiyi vergi və rüsumların dəqiq miqdarı müəyyənləşdirilib [2, s.24-28].

Müfəssəl dəftərin «Gəncə-Qarabağ əyalətinin qanunu» adlanan hissəsini diqqətlə araşdırdıqda aydın olur ki, Osmanlı hökuməti özünün Gəncə-Qarabağ əyalətində tətbiq etdiyi vergi siyasətində müəyyən dəyişikliklər etmiş, onu yerli şəraitə uyğunlaşdırmışdı. Bir çox hallarda Səfəvilər dövründə tətbiq edilən vergilər olduğu kimi saxlanılmışdı. Konkret olaraq «bəhrə» adlanan vergiyə münasibətdə qanunda yazılırdı: «Əcəm dövründəAran ərazisində dörddə bir üşr və bundan əlavəon beşdə bir bəhrə almaq qayda imiş. Əcəm istilahında bəhrənin mahiyyəti bu imiş: hər kəndə axan su arxının bir sahibi olurmuş. Sudan istifadə edən şəxs torpaq sahibinə (sahibi-ərz) dörddə bir üşr verdikdən sonra, arx sahibinə dəon beşdə bir bəhrə verirmiş. Hal-hazırda bəhrə yenə də həmin qayda ilə alınır» [2, s.25].

Osmanlı vergi sisteminin yerli şəraitə uyğunlaşdırılması özünü Səfəvilər dövründə istifadə olunan pul, ölçü və çəki vahidlərinin olduğu kimi saxlanmasında da göstərir. Konkret olaraq Gəncə-Qarabağ əyalətində geniş yayılmış pul vahidi olan «abbasi», habelə, ölçü vahidi olan «tağar» ümumi istifadədə qalmaqda davam edirdi. Qanunnamədə tağarın hətta osmanlı ekvivalenti müəyyənləşdirilmiş və onun 150 okkaya bərabər olduğu göstərilmişdir [1, s.146].

Vergilərin tətbiqi zamanı əkin yerlərinin məhsuldarlığı nəzərə alınırdı. Aranla müqayisədə qeyri-məhsuldar vəəkinə yararsız torpaqların üstünlük təşkil etdikləri dağlıq ərazidəəsas məhsul vergisi olan üşr 1/10 həcmində müəyyənləşdirilmişdi. Osmanlılar bu məsələdə də Səfəvilər dövründəmüəyyənləşdirilmiş qaydanı saxlamışdılar [2, s.25]. Bütün bunlar göstərir ki, XVIII əsrin 20-30-cu illərində Gəncə-Qarabağ əyalətində tətbiq edilən vergi sistemi özündə Osmanlı və Səfəvi vergi sistemlərinin əsas ünsürlərini birləşdirmişdi.

Bir çox tədqiqatçıların göstərdikləri kimi, Osmanlı vergi sistemi, istər Osmanlı Türkiyəsinin özündə, istərsə də işğal edilmiş ərazilərdə, üç əsas hüquqi

kateqoriyadan ibarət olmuşdur. Birinci kateqoriyaya şəriət qanunlarına əsasən toplanan vergilər («təkalif-i şəriyə və ya «rüsum-i şəriyə»), ikinci kateqoriyaya yerli adət-ənənələrə görətoplanan vergilər («təkalif-i erfiyə» və ya «rüsum-i erfiyə»), üçüncü kateqoriyaya isə fövqəladə vergilər («əvariz-i divaniyyə») daxil idi [5, s.95; 9, s.44]. Osmanlılar işğal olunmuş ərazilərin müfəssəl dəftərlərinə ancaq şəriət vergilərini və yerli adətlərəəsaslanan vergiləri daxil etmişdilər. Müharibələr və dövlət əhəmiyyətli digər hadisələr zamanı toplanan fövqəladə vergilər üçün ayrıca dəftərlər tərtib edilirdi. Tədqiqatçı H.Məmmədov dövlət xəzinəsinin xeyrinətoplanan belə vergilər sırasında «əvariz», «nüzul», «sursat»və «mübaya» kimi vergilərin adını çəkir [8, s.20-22]. Əvariz hərbi əməliyyatla keçirildiyi rayonların, eləcə də hərbi hissələrin yerləşdiyi bölgələrin əhalisindən pulla toplanırdı. Əslindənatural vergilər olan nüzul və sursatı da bəzən pulla əvəz edirdilər. Mübaya adlı rüsum ordunun ehtiyacları üçün zəruri olan ərzaq məhsullarının, tikinti materiallarının və mal-qaranın əhalidən bazar qiymətindən aşağı qiymətlə alınmasını nəzərdə tuturdu [4, s.305-348; 9, s.45-46].

Osmanlı xəzinəsinin əsas gəlir mənbəyini şəriət vergiləri və yerli adətlərəəsaslanan vergilər təşkil edirdi. Bu vergilər, xüsusilə şəriət vergiləri, özünün klassik anlamını saxlasa da, əslindəbu kateqoriyaya daxil olan üşr, xərac, cizyə, zəkat kimi vergilərin hər biri ayrı-ayrı vergi qruplarınınəsasını təşkil edirdilər. XVIII əsrəaid osmanlı vergi qanunlarında onlar ayrıca vergi növü deyil, bir neçə vergini özündə birləşdirən vergi qrupu kimi nəzərdə tutulurdu. Məsələn, torpaq vergisi olan xərac özündə «rəsmi çift» və yaxud «çift akçası», «tapu-yi zəmin», «bənnak», «zəmin akçası», üşr isə özündə «rəsmi-bağ», «rəsmi bostan», «rəsmi-qovan», «rəsmi-roqan» və başqalarını, zəkat isə özündə müstəqil şəkildətoplanan «rəsmi-əğnam», «rəsmi-dəvə», «rəsmi-mərkəb», «rəsmi-xınzır»,«rəsmi-öküz», «rəsmi-inək» və digər vergiləri birləşdirirdi [3, s.20-22; 5, s.93-94].

Osmanlı vergi sisteminin tədqiq edilməsi bizim qarşımızda duran vəzifələrəaid olmadığından verilən bu ümumi məlumatlarla kifayətlənməyi məqbul hesab edirik. İndi isəəsas diqqəti osmanlıların 1727-ci il qanunnaməsinəəsasən Gəncə-Qarabağ əyalətindən topladıqları vergilərə yönəltməyə çalışacağıq. Bu vergilər, əsasən, aşağıdakılardan ibarət idi:

l.Üşr. Torpaqdan istifadəyə görəəldə edilən məhsulun 1/10-i həcmində toplanılması nəzərdə tutulan bu vergi osmanlıların Gəncə-Qarabağ əyalətindən topladıqları ən geniş yayılmış vəən ağır vergilərdən biri idi. Əslində isə hələ Səfəvilər dövründəbu vergi əkinçiliyin daha çox inkişaf etdiyi düzənlik rayonlarda əldə edilən məhsulun 1/4, dağlıq ərazilərdə isə1/10 hissəsini təşkil edirdi. Üşr vergisinin bu qayda ilə toplanılması Osmanlı işğalı dövründə də davam etmişdi [2, s.26].

Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərində hər bir kənddən vəəhali

yaşamayan məzrəədən ayrı-ayrı dənli bitkidən, pambıq və ipəkdən toplanılan üşrün həcmi haqqında konkret məlumat verilmişdir. Bu məlumatdan aydın olur ki, türk hakimiyyət orqanları üşr vergisini natura ilə deyil, pulla toplamağa üstünlük verirdilər. Belə ki, buğdanın hər tağarına görə200, çəltiyin hər tağarına görə600, digər dənli bitkilərin (arpa, darı, pərinc, mərci) hər tağarına görə100, pambığın hər batmanına görə120, ipəyin hər batmanına görə1200 ağça alınırdı [2, s.26].

Osmanlıların Gəncə-Qarabağ əyalətindən topladıqları üşr vergisinin həcmi haqqında daha düzgün təsəvvür əldə etmək üçün həmin əyalətin müfəssəl dəftərinin verdiyi məlumatlara nəzər salmaq lazımdır. Həmin məlumatlar əsasında apardığımız hesablamalardan aydın olur ki, üşr vergisinin ən böyük ödəyiciləri Gəncəbasan (990,334 ağça), Şəmkirbasan (1.054.522 ağça), Kürəkbasan (579.210 ağça), Şütürbasan (599.849 ağça), Xılxına (557.410 ağça), Bərdə(637.780 ağça), Xaçın (1.02.618 ağça), Keştək (1.698.320 ağça), Vərəndə (1.081.335 ağça), Dizaq (556.299 ağça) və Bərgüşad (1.504.270 ağça) nahiyələri idi. Dənli bitkilərdən üşr vergisi daha çox buğdadan toplanırdı. Bütün Gəncə-Qarabağ əyaləti üzrətoplanan buğda üşrü 7.089.661 ağça təşkil edirdi. Bu rəqəm yerdə qalan digər dənli bitkilərdən toplanan üşr vergisindən bir neçə dəfə çox idi.

2.Bəhrə-süni suvarma sahiblərinin əkinçilərdən sudan istifadəyə görə topladıqları vergi idi və yuxarıda qeyd edildiyi kimi, əldə edilən məhsulun 1/15 hissəsini təşkil edirdi. Onu da göstərmək lazımdır ki, bu verginin ayrı-ayrı yaşayış məntəqələrindən hansı həcmdə toplanması haqqında əyalətin müfəssəl dəftərində heç bir qeyd yoxdur. Lakin həmin sənədin «Gəncə-Qarabağ əyalətinin qanunu hissəsinin «Gəncə livası. Gəncə şəhərinin müqatiələri» adlı dördüncü bəndində göstərilir ki, Gəncə şəhəri və nahiyələri üzrə bu ildə330.000 ağça təşkil edirdi [2, s.28].

3.Rəsmi-asiyab. Dəyirman sahiblərinin hakim feodala ödədikləri vergi belə adlanırdı [3, s.21]. Verginin həcmi hər bir dəyirman üçün illik 120 ağça həcmində müəyyənləşdirilmişdi. «Müfəssəl dəftər» üzrə apardığımız hesablamalar göstərir ki, əyalətdə 1000-dən artıq dəyirman fəaliyyət göstərirdi ki, onlardan da ildə102.085 ağça həcmində vergi toplanırdı.

4.Rəsmi-qovan arıçılıqla məşğul olan kəndlilərdən pətəklərin sayına görə toplanırdı və həcmi hər pətəyə görə12 ağça müəyyənləşdirilmişdi. Müfəssəl dəftərin məlumatları göstərir ki, əhali arıçılıqla əyalətin bütün nahiyyələrində deyil, Gəncəbasan, Sunqurabad, Şəmkirbasan, Kiçik Kürəkbasan, Talis, Xılxma, Həsənsuyu, Qaraqaya, Türkənlər, Aşağı Zəyəm, Bayad, Çiləbörd, Vərəndə, Bərgüşad və Lori nahiyələrində məşğul olurdu. Bu nahiyələr üzrətoplanan verginin ümumi həcmi, apardığımız hesablamalara görə, 78970 ağça təşkil edirdi.

5.Rəsmi-roqan. Ölçüsü 12 ağça olan bu vergi sağmal inək və camışdan

alınırdı. «Müfəssəl dəftərdə» bu vergi «kərə yağı» vergisi kimi verilir. Bütün əyalət üzrə «kərə yağı» vergisinin ümumi həcmi, təxminən, 165.439 ağça təşkiledirdi [2, s.31-570].

6.Rəsmi-dinq. Tədqiqatçıların bir çoxunun verdiyi məlumata görə dinq darı və çəltiyi döyüb qabığından ayıran xüsusi alətdir. Hər bir alət üçün illik məbləğ 300 ağça həcmində müəyyənləşdirilmişdi [5, s.94].

7.Rəsmi-bənnak. Əslindəcan vergisi olan bu vergi torpaqsız vəaz torpaqlıkəndlilərdən alınırdı. «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərində» bu vergi «bənnak və subay vergisi» kimi verilir və həcminin 40 ağça olduğu göstərilir. Apardığımız hesablamalar göstərir ki, bu verginin bütün əyalət üzrə ümumi həcmi 560.120 ağça təşkil edirdi. Bu rəqəm bütün əyalət üzrə torpaqsız və aztorpaqlı kəndlilərin sayını müəyyənləşdirməyə kömək göstərə bilər.

8.Rəsmi-ispəncə. Əmlak və ailə vəziyyətindən asılı olmayaraq bütün qeyri-müsəlmanlardan toplanan bu can vergisinin həcmi 120 ağça həcmində müəyyənləşdirilmişdi.

9.Rəsmi-ərasanə. Toy edib evlənənlərdən toplanan vergi idi. Ö.L.Barkana əsaslanan Ə.Hüseynzadə göstərir ki, hələ Səfəvilər dövründən mövcud olan bu vergini osmanlılar ləğv etmişdilər. Lakin «Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərinin» verdiyi məlumatlar bunun heç də belə olmadığını göstərir. Bu məlumatdan aydın olur ki, osmanlılar Gəncə-Qarabağ əyalətinin bütün nahiyələrindən həcmi 25 ağça olan «gəlinlik vergisi» toplayırdılar**.**

10.Rəsmi-əğnam. Bu vergi qoyunçuluqla məşğul olan əhalidən toplanırdı və «Müfəssəl dəftərdə» «qoyun vergisi» adı altında qeyd olunmuşdur. Bütün əyalət üzrəbu vergini əsas məşğuliyyəti qoyunçuluq olan Cavanşir, Otuziki tayfaları, Kəbirli, Kəngərli vəƏtyeməzli camaatları, Püsyan və Qaraçorlu kürdləri ödəyirdilər. Bu əhalinin ödədiyi «qoyun vergisi»nin illik həcmi 432.960 ağçaya bərabər idi [2]. Əyalətin yarımköçəri maldarlıqla məşğul olan əhalisi, bundan əlavə, yataq, qışlaq və yaylaq vergiləri də ödəyirdilər.

11.Tapuyi-zəmin. Osmanlı mənbələrinəəsaslanan Ə.Hüseynzadə bu verginin bu və ya digər səbəbdən əkilməyən torpağın sahibindən toplanıldığını və Osmanlı istilası dövründə Gəncə-Qarabağ əyalətinəaid edilmədiyini bildirir [3, s.21]. Lakin «Müfəssəl dəftərin» materialları ilə yaxından tanışlıq bizi bu fıkrə bir qədər şübhə ilə yanaşmağa vadar edir. Həmin materiallardan aydın olur ki, əyalətin bütün nahiyələrindən «dəştibani vəəkin yeri üçün tapu» adı altında ayrıca vergi toplanırdı. Bütün əyalət üzrə bu verginin ümumi həcmi 207.124 ağçaya bərabər idi.

12.Badi-hava. Ə.Hüseynzadə bu vergini də Osmanlı istilası dövründə Gəncə-Qarabağ əyalətində ləğv edilmiş vergilər sırasına daxil edir və göstərir ki,bu vergi bənnak vergisi ilə eynidir [3, s.21]. Lakin «Müfəssəl dəftərin» materialları bizə bu fıkri tamamilə təkzib etməyə imkan verir. Bu materiallar göstərir ki, Osmanlı işğalı dövründəəyalətin əhalisindən eyni vaxtda həm

«bənnak», həm də «Badi-hava» vergiləri toplanırdı. «Müfəssəl dəftərdə» sonuncu vergi «Badi hava, işlənmiş günah, varissiz ölənlərin mirasının və azmış malların satışından əldə edilən gəlir» adı altında verilmişdir [2, s.250]. Osmanlılar bu ad altında Gəncə-Qarabağ əyalətindən ildə391.380 ağça vergi toplayırdılar [2, s.31-570].

13.Rəsmi-bağ adlanan vergi üzüm və meyvə bağlarından toplanırdı. Səfəvilər dövründə «bağbaşı» adlanan bu vergi əldə edilən məhsulun 1/10 hissəsini təşkil edirdisə, Osmanlı işğalı dövründə onun toplanma üsulunda və həcmində dəyişiklik edilmişdi. Əvvəla, «Müfəssəl dəftərdə» üzüm bağlarından, meyvə bağlarından, tut bağlarından və qoz bağlarından toplanan vergilər ümumi ad altında deyil, hər biri üçün ayrılıqda qeyd edilmişdi. İkincisi, vergi toplanan məhsula görə deyil, bağların əhatə etdikləri sahəyə görə pulla toplanırdı. Belə ki, üzüm və meyvə bağlarının hər dönümü üçün 24 ağça, tut bağları üçün isə12 ağça vergi müəyyənləşdirilmişdi [2, s.28]. Lakin bu vergilərin toplanılması zamanı, bəzən, qanunnaməyəəməl olunmurdu. Məsələn, Tavus nahiyyəsinin Girzan kəndinin üzüm bağlarının hər dönümündən 24 ağça əvəzinə40 ağça toplanırdı [2, s.250]. Belə vəziyyət Bərdə nahiyyəsinin Həsənqaya kəndində də mövcud idi [2, s.293]. Ola bilsin ki, bu, adları çəkilən kəndlərdədaha məhsuldar üzüm növlərinin yetişdirilməsi ilə bağlı idi.

14.Rəsmi-bostan. Adından göründüyü kimi, bostan məhsullarından toplanırdı və həcmi hər dönüm üçün 60 ağça müəyyənləşdirilmişdi.

15.Salariyyə vergisi. Farsca «başçı» mənasını verən salar Osmanlı vergi istilahında dənli bitkilər zəmidən xırmana yığılan vaxt yığılmış məhsulu çəkib müfəssəl dəftərdə yazılmış vergi nisbətinə uyğun olaraq vergi toplayan məmuru bildirir. Gördüyü bu işlərə görə həmin məmurun xeyrinə toplanan vergi «salariyyə» adlanırdı. «Müfəssəl dəftər»də cəmisi bir yerdə bu verginin adı çəkilir. Bərdə nahiyyəsinin məzrəələrindən birindən «salar üçün 50 tağar» toplanılması haqqında məlumat verilir [2, s.296].

Əlbəttə, Osmanlı dövlətinin Gəncə-Qarabağ əyalətindən əldə etdiyi gəlir yalnız bu vergilərlə məhdudlaşmırdı. Osmanlı işğalı altında olan digər ərazilərdəki kimi, burada da xəzinənin mühüm gəlir mənbələrindən birini ticarət və sənətkarlıqdan toplanan vergilər təşkil edirdi. Osmanlı xəzinəsinin yalnız boyaqxanalardan əldəetdiyi illik gəlir 132.000 ağça təşkil edirdi [2, s.28].

Osmanlı maliyyə sistemində vergi və rüsumların müqatiəyə verilməsi geniş miqyas almışdı. Bu, dövlət gəlirlərinin dağıdılmasının və oğurlanmasının qarşısını almaq məqsədi güdürdü. Ayrı-ayrı vergi növlərinin müqaitəyə verilməsi üçün açıq hərraclar təşkil edilirdi. Bu hərraclarda müəyyən vergi növünü toplamaq hüququnu qazanan şəxsə «səbəb-i təhrir-i hökm» adlanan xüsusi sənəd verilirdi. Sənəddə müəyyən vergi növünü müqatiəyə götürən şəxsin dövlət xəzinəsinə ödəyəcəyi məbləğ göstərilirdi. Müqatiəçinin hər il ödədiyi məbləğ əyalət qazisi tərəfmdən müqatiə sənədinin əks tərəfində qeyd

olunurdu [10, s.25-32;13, s.250-251; 6, s.76-81; 14, s.421-429].

Vergilərin müqatiəyə verilməsi Osmanlı işğalı altmda olan digər ərazilər kimi, Gəncə-Qarabağ əyalətində də geniş yayılmışdı. Həmin əyalətəaid olan «müfəssəl dəftərin» qanunnaməsinin sonuncu bəndində bu barədəətraflı məlumat verilir. Həmin məlumatdan aydın olur ki, Gəncənin və ona tabe olan yerlərin «mizani hərir» adlanan rüsumu ildə4.020.000 ağçaya, gömrük, un qapanıvə heyvan yeri ambarının rüsumu 132.000 ağçaya, mirabiyyə rüsumu 330.000 ağçaya, at bazarı rüsumu 60.000 ağçaya, sabunxanalar 36.000 ağçaya, şamxanalar 36.000 ağçaya, dabbaqxanalar 24.000 ağçaya, balıq ovu vəət vergisi rüsumu 30.000 ağçaya, qəhvə qovrulan və üyüdülən yerlərin rüsumu 12.000 ağçaya müqatiəyə verilirdi [2, s.28].

Osmanlı vergi orqanlarının Gəncə-Qarabağ əyalətindən topladıqları vergi və rüsumların ümumi həcmi çox böyük məbləğ təşkil edirdi. Yalnız kənd təsərrüfatı məhsullarından toplanan vergilərin ümumi miqdarı 26.001.356 ağça təşkil edirdi. Bu məbləğin 7.960.165 ağçası Gəncə qəzasının, 2.456.500 Xılxına livasının, 2.582.050 ağçası Bərdə livasının, 2.857.080 ağçası Bərgüşad livasının, 2.064.160 ağçası Arasbar livasının, 549.540 ağçası Lori qəzasının, 931.900 ağçası Çuləndər livasnın, 6.349.960 ağçası isə tabeçiliyi bilinməyən nahiyələrin payına düşürdü [2, s.10-11]. Kənd təsərrüfatından toplanan vergilərin üzərinə ticarət və sənətkarlıqdan müqatiə yolu iləəldə edilən gəlirləri dəəlavə etsək, osmanlıların bütün əyalətdən əldə etdikləri gəlirlərin ümumi həcminin 32.927.155 ağçaya bərabər olduğunu görərik. Bu türk hakimiyyət orqanlarının İrəvan əyalətindən əldə etdikləri gəlirdən (8.927.477 ağça) təxminən 3,6 dəfə, Naxçıvan sancağından əldə etdikləri gəlirdən (2.629.059 ağça) isə təxminən 12,5 dəfə çox idi [2, s.11].

Osmanlı hökümətinin Gəncə-Qarabağ əyalətindən əldə etdiyi gəlirin bir hissəsi mərkəzi xəzinəyə göndərilir, digər hissəsi isə yerli ehtiyacları ödəmək üçün Gəncədə yerləşən xəzinənin sərəncamında saxlanılırdı. Gəlirin Gəncədə saxlanılan hissəsindən, əsasən, iki məqsəd üçün - məmur aparatının saxlanılması və hərbi ehtiyacların ödənilməsi üçün istifadə edilirdi [8, s.21]. Məmur aparatının saxlanılmasına ayrılan xərclər əyalətin hərbi, inzibati və maliyyə baxımından idarə edilməsindəəsas rol oynayan bəylərbəyin, sancaqbəyin, xass, timar və ziamət torpaqları idarə edənlərin, dəftərdarların, katiblərin və başqalarının əmək haqlarının ödənilməsinə sərf edilirdi. Bəzi hallarda məmur aparatının, ilk növbədə isə məhkəmə orqanlarında çalışanların (qazı, naib, subaşı) məvacibləri yerli əhalinin hesabına ödənildiyindən [8, s.21-22], Gəncə xəzinəsindən bu məqsədlər üçün ayrılan xərclər elə də böyük olmurdu.

Əyalətdən toplanan gəlirlərin Gəncədə saxlanılan hissəsi daha çox hərbi ehtiyaclar üçün istifadə olunurdu. Hərbi ehtiyaclar sırasına isəəyalətdə yeni müdafıə qurğularının tikilməsi və köhnələrinin təmir edilməsi, əsgərlər üçün

silah, sursat, paltar, ərzaq alınması, onlara məvacib verilməsi və s. daxil idi. Türk işğallarının ilk illərində yerli əhalinin ciddi müqavimət göstərməsi Osmanlı hökümətini əyalətdə ordunun sayını artırmağa məcbur edirdi. Bu isə, öz növbəsində, ordunun saxlanılmasına çəkilən xərclərin artmasına səbəb olurdu. Məsələn, 1726-cı ildə Gəncə xəzinəsindən ordunun saxlanılmasına 1725-ci illə müqayisədə62% çox vəsait xəclənmişdi [8, s. 19].

Gəncə qalasının möhkəmləndirilməsi üçün də xeyli vəsait sərf olunmuşdu. 1726-cı ildə şəhərin mərkəzində4 qülləli yeni qala tikdirilmiş və bu qalaya, təxminən, 35 ədəd mis və çuqun top yerləşdirilmişdi [5, s.99].

Beləliklə, Gəncə-Qarabağ bəylərbəyiliyini işğal edən osmanlılar burada özlərinin vergi sistemini tətbiq etdilər. Lakin bu sistem mahiyyət etibarı ilə Səfəvilər dövrünün vergi sistemindən çox da fərqlənmirdi. İşğal edilmiş əraziləri əllərində daha uzun müddət saxlamağı və buradan mümkün qədər daha çox gəlir götürməyi qarşılarına məqsəd qoyan osmanlılar vergilərin müqatiəyə verilməsindən geniş istifadə edir və bu yolla Gəncə-Qarabağ əyalətindən gəlir əldəedirdilər.

## ƏDƏBİYYAT

1. Barkan Ö.L. Osmanlı imperatorluğunda zirai ekonominin hükuki və mali əsasları. c.I, Kanunlar. Istanbul. 1943.

2. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. Ön söz, tərcümə, qeyd vəşərhlərin müəllifı H.Məmmədov. Bakı. 2000.

3. HüseynzadəƏ. Gəncə vilayətinin iqtisadi tarixinə dair bir sənəd. Azərb. SSR EA Xəbərləri. Tarix, fəlsəfə və hüquq. ser. №4, 1984.

4. Osmanlı Kanunnaməlәri. Milli Tetebular mecmuesi. c.I, sayı 1, Istanbul, 1981.

5. Mustafazəda T. XVIII yüzillik - XIX yüzilliyin əvvəllərində Osmanlı-Azərbaycan münasibətləri. Bakı. 2002.

6. Кальди-Надь. Турецкие реестровые книги мукатаа как исторические источники. Восточные источники по истории народов Юго-Восточной и Центральной Европы. М, 1964.

7. Орешкова С.Ф. Государственная власть и некоторые проблемы формирования социальной структуры османского общества. Османская империя (система государственного управления, социальные и этнорелигиозные проблемы. М., 1986).

8. Мамедов Г.М. Османская налоговая система в Азербайджане в 20-30-х годах XVIII века (на материалах эялатаГянджа и санджака Казах). Автореферат. Баку. 1985.

9. Мамедов Г.М. Некоторые вопросы Османской налоговой

системы в 20-30-х годах XVIII века. Azərb. SSR EA Xəbərləri, Tarix, fəlsəfəvə hüq. ser. №1, 1984.

10. Мамедов Г.М., Шенгелия Н.Н. Документы о финансировании османских войск в Азербайджане (1724-1735 годы). Azərb. SSR EA Xəbərləri, Tarixfəlsəfə və hüq. ser. №2, 1984.

11. Мамедов Г.М. Османская налоговая система и статьи расходов в Азербайджане в 20-30-х годах XVIII в. Актуальные проблемы стран Ближнего и Среднего Востока. Баку. 1984.

12.Петрушевский И.П. Очерки по истории феодальных отношений в Азербайджане и Армении в XVI - начале XIX в.в. М., 1949.

13.Тевертинова А.С. Второй трактат Кочи-бея. Уч. записки ИВ АН СССР. т.1, 1953.

14.Цветкова Б.А. К исследованию аграрных отношений в Османской империи с конца XVI в. до середины XVIII века. Труды XXV Международного Конгресса востоковедов. т. II, М., 1963.

**UOT 070.**

# JURNALİSTİN SİYASİ MÖVQEYİ VƏ PEŞƏ FƏALİYYƏTİ

***Bəhruz Quliyev***
*AMEA-nın Fəlsəfə İnstitutu*
*behruzguliyev@mail.ru*

**Açar sözlər:** *jurnalist, siyasi mövqe, siyasi proses, ümumbəşəri dəyərlər, siyasi qüvvələr, pəşə fəaliyyəti, jurnalistin yardıcılıq fəaliyyəti, siyasi jurnalistika*

*Məqalədə jurnalistin ideoloji-siyasi mövqeyi və pəşə fealiyyətinin siyasi proseslərə təsiri politoloji aspektdən araşdırılır, jurnalistin siyasi mövqeyinin təhlili əsasında siyasi proseslərin faktoru olan jurnalistikanın siyasi sistemin demokratikləşməsində oynadığı rol göstərilir. Siyasi proseslərdə jurnalistikanın rolu ictimai - siyasi məsələlərə dair jurnalistin mövqeyi ilə müəyyən olunur. Jurnalist mövqeyinin reallaşmasına peşə fəaliyyətinin huquqi tənzimlənməsi mühüm təsir göstərir.*

## ПОЛИТИЧЕСКАЯ ПОЗИЦИЯ ЖУРНАЛИСТА И ПРОФЕССИОНАЛЬНАЯ ДЕЯТЕЛЬНОСТЬ

***Бахруз Гулиев***

**Ключевые слова:** *журналист, политическая позиция, политический процесс, общечеловеческие ценности, политические силы, профессиональная деятельность, творческая деятельность журналиста, политическая журналистика*

*В статье было исследовано влияние на политические процессы идеологической и политической позиции журналиста и профессиональная деятельность, с политического аспекта. Было отмечено, что на основе анализа политической позиции журналиста, журналистика, которая является актором политических процессов, играет определенную роль в демократизации политической системы. Роль журналистики в политических процессах определяет позицию журналиста по социально-политическим вопросам. На реализацию позиции журналиста*

*значительное влияние оказывает юридическое регулирование профессиональной деятельности.*

## THE POLITICAL POSITION OF THE JOURNALIST AND HIS PROFESSIONAL ACTIVITY

***Bahruz Guliyev***

**Key words:** *journalist, political position, political process, human values, political forces, professional activity, journalist's creative activity, political journalism*

*In article influence on political processes of an ideological and political position of the journalist and professional activity, from political aspect have been investigated. It has been noted that on the basis of the analysis of a political position of the journalist, the journalism which is an actor of political processes plays a part in democratization of political system. The journalism role in political processes defines the journalist's position on socio-political questions. On realization of a position of the journalist considerable impact is exerted by legal regulation of professional activity.*

Jurnalistin yaradıcılığında onun müəllif və siyasi mövqeyi mühüm yer tutur. Bu problem jurnalistin hadisə və prosesləri dəyərləndirməsi, onun subyektivliyi, əqidə və dünyagörüşü ilə əlaqədardır. Tədqiqatçılar mövqe anlayışını daha çox qiymətləndirmə ilə bağlayırlar. Onu siyasi nöqteyi-nəzərdən izah edərək göstərirlər ki, «siyasi mövqe» anlayışı insanın spesifik və ya daimi siyasi davranışa meylini ifadə edir. Siyasi mövqe anlayışına siyasi hadisəyə aid olan müəyyən və daimi emosional vəziyyəti, siyasi proseslərə xas olan əqidəni daxil etmək olar. Siyasi mövqe siyasi qiymətləndirmədən daha geniş anlayışdır. Çünki siyasi qiymətləndirmə siyasi mövqeyin tərkib hissəsi olan onun elementidir. Siyasi mövqe jurnalistin davranışını dərk etməyə imkan verən fərdi hadisədir.

Jurnalistin peşə etikası üzrə tədqiqatçı D.S.Avramov siyasi mövqe anlayışının strukturu haqqında yazır və göstərir ki, mövqenin "strukturunda əsas dünyagörüşü prinsiplərilə yanaşı, ümumiləşmiş biliklər, ideya-siyasi və mənəvi əqidə də iştirak edir. Lakin həyati mövqenin çox komponentliliyi onun bütövlüyünü istisna etmir. Burada əsas sintezləşdirici amil kimi mənəviyyat çıxış edir... Subyektiv həyati mövqe ilə mənəviyyat mövqeyi üst-üstə düşür. İnsan mövqenin strukturunda biliyi və mənəviyyatı bir-birindən ayırmır" [6,

102]. Bununla da müəllif «siyasi mövqe» anlayışının strukturuna və məzmununa əqidə, ideoloji-siyasi, mənəvi, dünyagörüşü amillərini daxil etmiş, «mövqe» anlayışı haqqında ümumi təsəvvür yaratmışdır. Əslində, müəllif mövqe anlayışını əqidə anlayışı ilə yanaşı dünyagörüşünün tərkib hissəsi, davranış sistemi, müəyyən qiymətdləndirici mənəvi yönüm və subyektivliyə xidmət edən şəxsiyyətin dərk olunmuş məsuliyyəti kimi təqdim edir.

Jurnalist peşəsi subyektiv olduğundan onun mövqeyilə öz arasında səbəb-nəticə əlaqəsi vardır. Jurnalist cəmiyyət qarşısında məsuliyyət daşıyır, bu və ya digər siyasi hadisə haqqında öz mövqeyini, baxış və təsəvvürlərini ifadə edir.

Bütün postsovet ölkələrində olduğu kimi Azərbaycanda da geniş ideoloji və siyasi plüralizmin elan edilməsi jurnalistlərin ən müxtəlif sosial-siyasi mövqelərini ifadə etməyə imkan yaratdı.

Hər bir jurnalist əslində həqiqət, xeyirxahlıq və ədalət uğrunda çıxış edir. Həqiqətə gedən yol isə dialoqdan keçir. Jurnalistin fəaliyyətində qnoseoloji və idraki aspektə malik olmaq həqiqətə cəhddən başqa bir şey deyildir. Jurnalistin fəaliyyətinin sosial-siyasi aspektində vahid mövqe problemi tamamilə başqa cür görünür. Müxtəlif sosial-siyasi qüvvələri – təbəqələri, millətləri, dinləri, regionları, xalqları və ölkələri təmin edən siyasi jurnalistika arasındakı mübahisələr zamanı həmin qüvvələrin maraqlarını və real vəziyyətlərini əks etdirən yanaşmaların, baxışların, cəhdlərin fərqləri sayəsində çox az hallarda vahid qərar qəbul olunur. Buna görə də elə bir optimal qərar axtarıb tapmaq lazımdır ki, yalnız jurnalistlərin deyil, bütün cəmiyyətin maraqlarına uyğun gəlsin. Siyasi jurnalistikanın cəmiyyətdə fəallığı nə qədər yüksək olsa, onun "dördüncü hakimiyyət" kimi nüfuzu arta bilər. Lakin onun fəaliyyəti cəmiyyətdəki müxtəlif sosial-siyasi qüvvələr tərəfindən tənqidə məruz qalır. Bəzən siyasi jurnalistlər faktları kifayət qədər bilmədiklərinə, siyasi prosesləri və hadisələri əsaslı şərh etmək bacarığına malik olmadıqlarına görə, düzgün olmayan mövqeni birtərəfli müdafiə etdiklərinə görə ittiham olunurlar. Əgər jurnalistə onun nəşrinə və proqramına qarşı irəli sürülən iddialar qnoseoloji cəhətdən həqiqətən əsaslıdırsa, əgər jurnalist kifayət qədər faktik materiala malik deyildirsə, bu və ya digər siyasi qüvvələrin baxışlarını təhrif olunmuş şəkildə ifadə edirsə, idraki xarakterli səhvlərə yol verirsə, siyasi faktları dəqiq şərh etmirsə, onun tənqidə ən düzgün reaksiyası iradlarla razılaşmaq və sonrakı nəşrlərdə düzəliş verməkdir.

Jurnalistin siyasi-ideoloji mövqeyi ardıcıl, hərtərəfli olmalı, siyasi məsələlərin bütün aspektlərini sistemli əhatə etməlidir. Əksinə, bəzən zəif qeyri-ardıcıl, əsaslandırılmamış siyasi mövqe cəmiyyətdə kəskin tənqidlərlə qarşılanır. Siyasi jurnalistin yazdığı məqalələrin mətnlərində onun siyasi mövqeyi müxtəlif şəkildə təzahür edə bilər. Siyasi jurnalist bu və ya digər siyasi qüvvələrin və partiyaların maraqlarını açıq şəkildə müdafiə edə bilər və yaxud

jurnalist "sağlam düşüncəyə" uyğun, heç bir siyasi qüvvədən "asılı olmadığını" iddia etsə də, hər hansı qüvvənin, qruplaşma və partiyanın mövqeyini gizli ifadə edə bilər. "Lakin hər bir halda mövqe müəyyən ictimai (siyasi – B.Q.) qüvvələrin (obyektiv olaraq cəmiyyətin sinfi, milli, regional və digər qruplarının, subyektiv olaraq – partiyaların, ittifaqların, blokların) maraqlarının müdafiəsinin ifadəsi kimi jurnalistin həyat hadisələrinə, onların anlaşılmasına, qiymətləndirilməsinə, iqtisadi, siyasi, hüquqi və digər sahələrdə məsələlərin həll olunmasına yanaşmalarını müəyyən edir" [7]. Jurnalist siyasi məsələlərdə öz mövqelərini müdafiə edə, digər hallarda dəqiqləşdirə, düzəldə və inkişaf etdirə bilər.

Siyasi jurnalist ədalətsiz ittihamlarla razılaşmaya, öz müddəalarını əsaslandıra bilər, digər halda o güzəştə də gedə bilər, başqasının rəyinə, fikrinə hörmətlə yanaşa da bilər. Bəzi hallarda jurnalist ayrı-ayrı əsərlərdə öz siyasi-ideoloji mövqeyini gizli də ifadə edə bilir. Lakin siyasi jurnalist öz mövqeyini mütləqləşdirsə, inadkarlıqla müdafiə etsə, jurnalistikaya onun ziyanı dəyə bilər, onun hərtərəfli siyasi yönüm və informasiya əldə etmək kimi həqiqi amil olmaq imkanı olmaya bilər. Buna görə də hər bir jurnalist üçün şəxsi, sosial-qrup, millilik və ümumbəşəriliyin qarşılıqlı münasibətlərini onların mürəkkəb əlaqələri, obyektiv və subyektiv münasibətlərini, həyatda bunların real təzahür xüsusiyyətlərini bilməsi olduqca vacibdir. Siyasi jurnalistikanın mahiyyəti dialektik olaraq öz mövqeyini əsaslandırılmasının və təsəvvürlərinin möhkəmləndirilməsinin birliyini tələb edir. Eyni zamanda, jurnalist digər siyasi qüvvələrin fikirlərinə tolerant münasibət bəsləməlidir, ictimai-siyasi əhəmiyyətli məsələlərdə fikir ayrılıqlarını aradan qaldırmağa, qarşılıqlı güzəşt bazası əsasında kompromisə getməyi bacarmalıdır.

Pandeli Pani və Ulrike Fişer Butmalqiun jurnalistika və insan hüquqlarının bir-biri ilə bir çox nöqtədə kəsişdiyini göstərərək yazırlar: "Bir tərəfdən jurnalistikanın özünü belə insanın məlumat almaq və paylaşmaq hüququ kimi müzakirə edə bilərik, ikinci tərəfdən isə, insan hüquqlarının qorunması və ona dəstək verilməsi media və jurnalistika olmadan qeyri-mümkündür. Media-radio, televiziya, jurnal-qəzetlər və internet-insan hüquqları problemlərini işıqlandırmaqda və həllində mərkəzi rol oynayır. Medianın həmçinin, ictimaiyyətin müxtəlif hissələrinin bir-biri ilə əlaqələndirilməsi onların arasında qarşılıqlı anlaşmanın yaxşılaşdırılmasında əsas yer tutur. Hər nə cür olsa da, jurnalistika iki tiyəli qılıncdır. Jurnalistika bir tərəfdən real faktlarla, yəni konkret vaxt içində, konkret yerdə baş vermiş hadisələrlə işləyir, bir tərəfdən də ictimai fikiri belə formalaşdırmaq qüdrətinə malikdir və bu baxımdan, onun funksiyası adi reportajdan da genişdir. Bu, o deməkdir ki, bir çox hallarda hadisələri yalnız müşahidəçi qismində izləyən jurnalistlər, həmin hadisələrin (öz düşüncəsi olan, güclü) iştirakçıları da ola bilərlər. Dəmir pərdənin yırtılmasından sonra bir çox humanizm böhranı və qanlı toqquşmalar

nəinki insanların həyatına son qoydu və bir xeyli əvvəllər qurulmuş ictimai asayişi məhv etdi, habelə, keçmiş kölgələri oyatmaqla, qorxu və xof, mövhumatçılıq yaratmaqla jurnalistikanın ictimai qruplar arasındakı qarşıdurmaya və fəsada, etnik münaqişələrin qabardılmasına nə kimi töhvə verdiyini də ortaya çıxardı. Beləliklə, əgər media və jurnalistika, mədəniyyətlərarası anlaşmaq üçün zəruri məlumat ötürmək əvəzinə yalan, nifrət və dözümsüzlük mənbəyinə çevrilərsə, o zaman onları insan hüquqlarını pozan alətlər gözündə görməliyik" [4, 12]. Müəlliflər haqlı olaraq siyasi jurnalistikanı "iki tiyəli qılınc" adlandıraraq bir tərəfdən milli-etnik toqquşmaları alovlandıran siyasi vasitə, digər tərəfdən əmin-amanlığa, mədəniyyətlərarası anlaşma, tolerantlıq təbliğ edən bir alət kimi dəyərləndirirlər.

Bütün müasir, mürəkkəb təşkil olunmuş ictimai-siyasi problemlərin həlli üçün ümumi olan bəşəriyyətin inkişafı prosesində yaranan, insanları birləşdirən siyasətdə, iqtisadiyyatda, dövlətin həyatında və özəl həyatda, xalqlar və ölkələr arasında hər kəsin davranış fonunu yaradan ümumbəşəri, humanist dəyərlərdir. "Jurnalistika üçün ümumbəşəri humanist dəyərlər yeni sivilizasiyaya doğru hərəkət edən, qarşıdurma və axıra qədər qələbə" uğrunda mübarizə aparan müxtəlif qüvvələrin bəşəriyyətin özünün mövcudluğunu təhdid etdiyi zaman dünya birliyinin vahid qarşılıqlı əlaqəsinin formalaşdığı müasir şəraitdə mühüm əhəmiyyət kəsb edir" [7].

Ümumbəşəri dəyərlərin spektri olduqca genişdir. Buraya dünya dinlərinin islamın, xristianlığın, buddizmin ümumbəşəri ideyaları və tələbləri, azadlıq, bərabərlik, qardaşlıq kimi liberal-demokratik sərvətlər, xeyirxahlıq, həqiqət və ədalət kimi əbədi ideyalar daxildir. AMEA-nın müxbir üzvü, professor Z.Göyüşov ümumbəşəri sadə əxlaq normaları olmadan heç bir insan cəmiyyətinin keçinə bilmədiyini göstərərək yazır: "Bu sadə əxlaq normalarının ümumbəşəri xarakter daşıması da məhz bundan irəli gəlir. Hər bir cəmiyyətdə... bu sadə əxlaq normalarına riayət etməyi fəzilət, bunlara əməl etməməyi isə qəbahət hesab etməyə məcbur olurlar... məlumdur ki, hələ lap qədim vaxtlardan başlayaraq insanlar sinfi mənsubiyyətindən və dinindən asılı olmayaraq ədalət və şərəfi, vicdanlılığı, sadəlik və təvazökarlığı, əməksevərliyi, mərdliyi, alicənablığı, sədaqəti və səmimiyyəti, dostluğu və yoldaşlığı, dəyanət və ehtiramı, vədəyə əməl etməyi, dar gündə başqalarına kömək etməyi, vətənpərvərliyi, özündən böyüklərə, valideynlərə hörmət etməyi v.i.a. həmişə gözəl əxlaqi keyfiyyət kimi təqdir etmişlər və bu hal indiki dövrdə davam etməkdədir" [2, 46-47]. Lakin müəllif marksizm-leninizmin dar sinfi məhdudiyyət konsepsiyasına uyğun olaraq sadə əxlaq normalarının ümumbəşəri əxlaqın ünsürləri olmaq etibarı ilə "zəhmətkeşlər arasında təşəkkül tapdığını və onların mənafeyini ifadə etdiyini" bildirmiş, bununla da xalqı parçalamışdır. Halbuki ümumbəşəri dəyərlər müxtəlif səviyyəli qlobal dəyərləri – dinc yanaşı

yaşamanı, xoş qonşuluq hüququn hökmranlığı, insanlara, xalqlara, etnoslara, ölkələrə qeyri-zorakı münasibəti, özəl-məişət dəyərləri əhatə edir.

Hər bir insan ümumbəşəri statusa malikdir. Azərbaycanda demokratik konstitusion, qanunvericilik və etik normalara bütün cəmiyyətdə riayət olunur ki, onlar da ümumbəşəri yanaşmalardan çıxış edir. Siyasi jurnalistika da bu normaları təsdiq və təbliğ etməklə yanaşı, onların ümumi şəkildə qəbul olunmasına kömək edir. Jurnalistika üzrə Azərbaycan tədqiqatçısı, siyasi elmlər üzrə fəlsəfə doktoru Xalid Niyazov jurnalistlərin və KİV-in siyasi proseslərdə səmərəli iştirakını yalnız yaradıcılıqla bağlı deyil, siyasi prosesə subyekt qismində qatılmaları ilə əlaqələndirərək yazır: "KİV-in siyasətdə rolu, ilk növbədə onun funksiyalarında özünü göstərir. KİV-in funksiyaların isə aşağıdakı kimi təsnifləşdirmək mümkündür: vətəndaşların məlumatlandırılması, onlara zəruri informasiyaların verilməsi; siyasi maarifləndirilməsi, siyasi sosiallaşma; müxtəlif ictimai maraqların ifadə olunması, artikulyasiya imkanlarının mövcudluğu, siyasət subyektlərinin inteqrasiyası; ictimai fikrin formalaşdırılması, çatışmazlıqların tənqidi. Daha əhəmiyyətli hadisələr barədə məlumatın çatdırılması ilə xarakterizə edilən informasiya funksiyası digərlərindən öndə gəlir və mahiyyətcə ümumi xarakter daşıyır. Bu zaman KİV-in spesifik funksiyası qismində informasiyanın seçilməsi, təhlili və qiymətləndirilməsi çıxış edir. Məhz belə bir zəmində digər funksiyalar həyata keçirilir. Siyasi maarifləndirmə və sosiallaşma funksiyası insanları siyasi proseslər barədə bilgiləndirir, onların həmin prosesdə iştirakını təmin edir, hadisələrin gedişini qiymətləndirmə imkanı yaradır. Nəticə etibarilə siyasi mədəniyyətin formalaşmasında əsas faktorlardan biri kimi iştirak edən media, insan-subyekt vasitəsilə siyasət dünyasının tanıdılmasının ən effektiv vasitələrindən biri kimi çıxış edir. Cəmiyyətin siyasi həyatının ən müxtəlif tərəfləri barədə balanslaşdırılmış, obyektiv, qərəzsiz və tam informasiya verilməsi ilə KİV siyasi mədəniyyətin təkmilləşdirilməsinin başlıca amilləri sırasında yer alır" [3, 28]. Müəllif siyasi jurnalistikaya təsir edən əsas subyekt kimi dövlət və hakimiyyət orqanları sistemini göstərir. Belə ki, qanunlar və qərarlar vasitəsilə hakimiyyət orqanlarının və digər institutların fəaliyyəti əsasında siyasi jurnalistikanın mövqeyi müəyyən edilir.

Araşdırmalar əsasında belə qənaətə gəlmək olur ki, ümumbəşəri dəyərlər jurnalistikanın sosial-siyasi mövqeyinin əsasını təşkil edir. Jurnalist öz peşə fəaliyyətinə müəyyən sosial-siyasi qrupun daşıyıcısı kimi daxil olur və buna uyğun olaraq həmin qrupun maraq və dəyərlərinin müdafiəçisi və ifadəçisi kimi çıxış edir. Jurnalistin siyasi mövqeyinin əsasında insana qayğı durur. Jurnalistin peşə fəaliyyətində ümumbəşəri və xüsusi qrup maraqları uzlaşır. Ümumbəşəri və xüsusi qrupların qarşılıqlı münasibətlərini aşağıdakı təsəvvür etmək olar: bu zaman şəxsiyyət dini, cinsi, yaş, regional, peşə, milli qruplara daxil olur. Jurnalistin sosial-siyasi mövqeyi onun yerinə yetirdiyi vəzifədə daha

aydın təzahür edir. Jurnalist müasir dünyada baş verənləri aydın dərk etməli, cəmiyyətin müxtəlif təbəqələrinin yekcins olmayan mövqelərinin – liberal, sosialist, dini konseptual yanaşmalarının xüsusiyyətlərini dərindən öyrənməlidir. Jurnalist eyni zamanda cəmiyyətin sosial strukturunda öz yerini müəyyən etməlidir. Jurnalistin sosial-siyasi və ideoloji mövqeyi formalaşarkən bəşəriyyətin müxtəlif hissələri-Qərb və Şərq, Şimal və Cənub, müxtəlif sivilizasiyalar, mədəniyyətlər, xristianlar, müsəlmanlar, buddistlər, konfutsiçilər arasındakı ziddiyyətləri və dialoqu, mürəkkəb münasibətləri anlamalıdır.

Jurnalistin sosial-siyasi və ideoloji mövqeyinə bir çox amillər – nüvə silahının bütün canlıları məhv etmək təhlükəsi, dünya maliyyə böhranı, ekoloji problemlər, qlobal informasiya, humanitar, demoqrafik məsələlər təsir edir. Belə bir şəraitdə jurnalistlərin ideoloji-siyasi mövqeləri beynəlxalq münasibətlərin ideologiyasızlaşması ideyaları əsasında formalaşır. Jurnalistlər yeni mövqelərinə müasir cəmiyyətin siyasi, iqtisadi sosial həyatının əsaslarında baş verən ciddi dəyişikliklər də təsir edir.

Jurnalist etikası üzrə tədqiqatçı S.Rəhimova jurnalistin fəaliyyətində peşəkarlığa və onun siyasi mövqeyinə üstünlük verərək yazır: "Təcrübə göstərir ki, KİV yarandığı vaxtdan vahid kodeksə deyil, minlərlə kodeksə, nizamnamələrə və qaydalar toplusuna istinad etmişdir. Bütün bu kodekslərə nəzər salsaq görərik ki, onları birləşdirən vahid xüsusiyyətlər vardır: I. Kodekslərdə üstünlük verilən dəyərlər: doğruluq, həqiqilik, tərəfsizlik, obyektivlik, ictimai maraq və s. II. Kodekslərdə tənqid olunan xüsusiyyətlər: yalan, qeyri-dəqiqlik, ədalətsizlik, şəxsi maraq, konflikt və qorxaqlıq. Kodekslər jurnalist etikası sahəsində mövcud olan bütün problemləri həll etmək iqtidarında deyil. Jurnalist mürəkkəb etik normaları həll edərkən 3 cəhəti rəhbər tutmalıdır: 1) həqiqəti axtarmaq və onun haqqında mümkün qədər geniş məlumat vermək; 2) müstəqil fəaliyyət göstərmək; 3) başqalarına xələl gətirməmək. Jurnalist fəaliyyətində mənəvi-əxlaqi seçimlə bağlı çətin məqamlarda etik kodekslər öz məsləhət xarakterli göstərişləri ilə jurnalistin köməyinə gəlir. Kodekslər jurnalistə düzgün qərar çıxartmaq üçün verilən imkandır. Jurnalistin kiçik bir səhlənkarlığı, diqqətsizliyi, kiminsə, nəyinsə xətrinə həqiqəti təhrif etməsi ağır mənəvi psixoloji sarsıntılar, adamların ləyaqətinə, nüfuzuna xələl gətirə bilər. Buna görə də, jurnalist daim məsuliyyətli olmağa və etik kodekslərdə irəli sürülən prinsiplərə ciddi yanaşmağa, öz fəaliyyətində qanunları, etik kodeksləri, prinsipləri, normaları nəzərə almağa borcludur. Jurnalist peşəsi çətin, təhlükəli və həm də çox məsuliyyətlidir. Ona görə jurnalist öz mövqeyində düzgün və obyektiv olmalıdır" [5, 181]. Müəllif haqlı olaraq jurnalistin mövqeyini etik normalarla əlaqələndirir, jurnalistikanı elə bir siyasi institut hesab edir ki, o, mühüm ictimai-siyasi əhəmiyyət kəsb edən hadisələrə nəzarət edə bilir, ictimaiyyət adından hökm verir, dövlət məmurlarına xalqın maraqlarını qorumağı tələb edir.

Jurnalistin maraqlarını, ideya-siyasi mövqeyini müxtəlif cür anlamaq olar. Onun siyasi mövqeyinin ideoloji müəyyənliyi müxtəlif qüvvələrin maraqları ilə bağlıdır. Bu isə jurnalistin maraqlarını ifadə etdiyi siyasi qüvvələrin həqiqi tələbatlarının dərk olunmasına sadiqliyindən və sistemliliyindən asılıdır. Bütün bunlar jurnalistin dünyagörüşü yönümünün düzgünlüyü və dərinliyi məsələsini önə çıxarır. Öz siyasi-ideoloji mövqelərini siyasi xadimlər və jurnalistlər siyasi proqramlarda və müxtəlif siyasi partiyaların taktiki qərarlarında ifadə edirlər. Bu cür siyasi təşkilatlar çərçivəsində ideoloji və taktiki qaydaların dəyişməsi, dəqiqləşdirilməsi və inkişafı baş verir. Belə siyasi təşkilatlar çərçivəsində hərəkət edən jurnalist öz fəaliyyətində siyasi, maddi, yaradıcılıq və təşkilati yardım əldə etmiş olur. Jurnalistin fəaliyyətinin və ideoloji-siyasi mövqeyinin müstəqilliyi məsələsi çox önəmli məsələdir. Jurnalist kimi maraqlarını ifadə etməsindən asılı olmayaraq ideoloji və praktiki cəhətdən müstəqil olmalı, öz daxili inamına, əqidəsinə əsaslanaraq müstəqil qərar qəbul etməlidir, prinsipsizliyə yol verməməlidir. Dövlətçilik və vətənpərvərlik mövqeyindən, prinsipial davranış xəttindən jurnalisti döndərmək üçün heç bir qüvvənin gücü çatmamalıdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev jurnalistin prinsipial mövqeyini yüksək dəyərləndirərək deyir: “Mən istərdim ki, jurnalistlərin məsuliyyəti ilə bağlı mövqeyimi bildirim. Dediyim məsələlər bu məsələ ilə də bağlıdır. Jurnalistlər çox məsuliyyətli olmalıdırlar. Burada qərəzsiz mövqe çox vacibdir. Mən media sahəsində gələcək inkişafı müstəqil, sözün əsl mənasında, müstəqil medianın gücləndirilməsində görürəm. Çünki hələ ki, bizdə bu sahədə, xüsusilə yazılı mediada siyasiləşmə meyilləri çox güclüdür. Ola bilər ki, bu, müəyyən mərhələdə - Azərbaycanda siyasi sistem, siyasi münasibətlər formalaşdığı bir dövrdə qaçılmaz idi. Ancaq mən hesab edirəm ki, bu gün medianın inkişafı üçün siyasiləşmə prosesi gərək azalsın. Çünki birinci növbədə, Azərbaycan cəmiyyəti siyasiləşmiş cəmiyyət deyildir. Azərbaycan cəmiyyəti vətənpərvər cəmiyyətdir. Dövlətə, dövlətçiliyə sadiq olan cəmiyyətdir, ancaq siyasiləşmiş cəmiyyət deyildir. Hesab edirəm ki, cəmiyyəti süni şəkildə siyasiləşdirmək bizə uğur gətirə bilməz. Hər şey təbii olmalıdır, o cümlədən mediada da. Siyasi sifarişlərlə çıxan orqanlar nə qədər az olarsa, bizim mediamız da o qədər həm güclü, həm də ki, daha da müsbət reputasiyaya malik olacaqdır. Bu məsələ ilə bağlı mən heç kimə heç bir göstəriş verə bilmərəm. Ancaq sadəcə olaraq, öz fikirlərimi bildirmək istəyirəm və hesab edirəm ki, Mətbuat Şurası da bu istiqamətdə öz lazımi tədbirlərini görəcək ki, jurnalistlərin məsuliyyəti və müstəqil jurnalistikanın müstəqil orqanlarının gücləndirilməsi işində biz daha da böyük uğurlara nail olaq. Mən bunu da bilirəm, bəzi hallarda xarici dairələrin təsiri altında çıxan orqanlar fəaliyyət göstərirlər. Onların sifarişi ilə yazılan məqalələr də dərc olunur. Bu məsələ ilə də bağlı məndə kifayət qədər məlumatlar var. Mən indi ad çəkmək istəmirəm,

amma sadəcə olaraq, fikrimi bildirmək istəyirəm ki, bu, ümumiyyətlə, yolverilməzdir. İndi hansısa daxildən gələn siyasi sifariş əsasında yazılan məqalə, yaxud da ki, hansısa başqa reportaj qəbulolunmaz olsa da, bu, bizə o qədər də böyük problem yaratmaz. Ancaq xarici dairələrin sifarişi ilə, göstərişi ilə və onların planları əsasında Azərbaycanda hansısa mövzu ətrafında rəy yaratmaq cəhdlərinə ümumiyyətlə, son qoyulmalıdır. Burada mən sadəcə olaraq, jurnalistləri vətənpərvərliyə çağırıram. Biz imkan verməməliyik ki, Azərbaycan hansısa qüvvələrin, xarici dairələrin qarşıdurma arenasına çevrilsin» [1, 91].

Dövlət başçısı haqlı olaraq jurnalistləri ultravətənpərvərlik, kosmopolitizmdən uzaq öz ölkəsini həqiqi vətənpərvəri olmağa çağırmaqla yanaşı, prinsipial dövlətçilik mövqeyində duran, xalqın və dövlətin maraqlarına zərbə vuran heç bir daxili və xarici qüvvələrə xidmət etməməyə çağırır. Bu və ya digər qüvvələri deyil, jurnalist şüurlu olaraq öz fəaliyyətində vətənin maraqlarını müdafiə etməlidir. Jurnalistin ideoloji-siyasi mövqeyi dərindən şüurlu olmalı və dövlətin maraqlarını düzgün əks etdirməlidir. Jurnalistin fəaliyyətində reallıqları düzgün, aydın dərk etməsi sayəsində onun prinispləri, onun fəaliyyətinin ən mühüm istiqamətlərindən olan jurnalist prinsipiallığı formalaşır.

Jurnalist prinsipiallığı onun fəaliyyətinin nəzəri-metodoloji əsasını təşkil edir. Prinsiplər sisteminin formalaşması ilə jurnalist ətraf aləmdə fəaliyyət göstərən qanunları dərk edir. Aşağıdakı qanunlar əsasında obyektiv surətdə prinsiplər meydana gəlir:

* Yer kürəsində bəşəriyyətin həyatının və təbiət qanunları;
* Müxtəlif sosial qrupların böyük məcmusu kimi xalq;
* Əhali kütləsi (bütün ölkələrin, regionların, peşədən və yaşdan olan);
* Ölkələr və dünya ölkələrinin birliyi;
* Dövlət idarəçiliyi formaları;
* Millətlər və beynəlmiləl birliklər;
* Bütün sosial münasibətlərin subyekti kimi insan [7]. Jurnalist bütün bunlara öz mövqeyindən yanaşır, öz fəaliyyətində onların spesifik fundamental cəhətlərini nəzərə alır. Jurnalist əgər ictimai-siyasi həyatın obyektiv qanunauyğunluqlarını dərk edə bilməsə, onda subyektivizm mövqeyində dura bilər. Jurnalistin ideoloji-siyasi mövqeyində reallığa obyektiv baxış, demokratiyanın və demokratizmin üstünlüyünə inam, bütün xalqların bərabərliyinə və hər bir xalqın, millətin bəşəriyyətin həyatında roluna vətənpərvərlik və beynəlmiləlçilik mövqeyindən yanaşmaq əsas yer tutmalıdır.

Beləliklə, jurnalistin ideoloji-siyasi mövqeyində humanizm, demokratizm, vətənpərvərlik, beynəlmiləlçilik, düzgünlük, həqiqətpərəstlik, obyektivlik, operativlik prinsipləri əsas yer tutur.

Müəyyən ictimai-siyasi ideyaların daşıyıcısı və təbliğatçısı kimi jurnalist mövqeyi siyasi hadisələrə dair rəyi, hakimiyyətə, ictimaiyyətə peşə fəaliyyəti subyektinin münasibətini bildirir.

Jurnalistin ideoloji-siyasi mövqeyi milli siyasi jurnalistikanın ənənəvi xüsusiyyətlərindən biri olub jurnalistikanın ictimaiyyət və siyasi institutlarla normal münasibətlərini formalaşdırır.

Jurnalist siyasi mövqeyinin reallaşmasına jurnalist fəaliyyətinin hüquqi tənzimlənməsi böyük təsir göstərir.

Jurnalistin siyasi mövqeyində cəmiyyətin nöqteyi-nəzəri, problemli yanaşma, informasiya mənbələrinin xarakter və spesifikası, siyasi yönümlü materialların tematikası əks olunur.

Jurnalistin siyasi mövqeyi jurnalistin daxili aləminə, onun təfəkkür və dünyagörüşünə də təsir edir. Bu proseslərdə mövqe və müxalifətin dialekt vəhdəti də əsas yer tutur.

## ƏDƏBİYYAT

1. İlham Əliyev. "Mən jurnalistləri vətənpərvərliyə çağırıram". Bakı: Apostrof Çap Evi, 2010, 276 s.

2.Göyüşov Z. Əxlaqi sərvətlər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1966, 308 s.

3.Niyazov X. KİV-in siyasi institut kimi modernləşmə prosesində yeri. //Geostrategiya. 2015, № 1 (25) s. 27-32

4.Pani, İlrike F.B. Multimədəni məsələlərin işıqlandırılmasının əsasları. Bakı: Azadlıq Uğrunda Fridrix Nauman Fondu, 2017, 56 s.

5.Rəhimova S. Jurnalist mövqeyi etik normalar kontekstində. //Bakı Universitetinin Xəbərləri. № 3. Humanitar elmlər seriyası. 2009, s. 179-181.

6.Аврамов Д.С. Профессиональная этика журналиста. Москва: Изд.во Моск.Унив.та, 1991, 224 с.

7. Социальная позиции журналиста//hhtp:www.hi-edu/e-books/xbookn/74/01.part-005.htm

**UOT 159.9.**

# RƏHBƏR KADRLARIN ATTESTASİYASININ SOSİAL-PSİXOLOJİ PROBLEMLƏRİ

***Şəfəq Şahməmmədova***
*Azərbaycan Dillər Universiteti*
*shafaqss@mail.ru*

**Açar sözlər:** *fəaliyyət istiqamətləri, şəxsiyyət, idarəetmə fəaliyyəti, təhsil, idarəetmə, kollektiv*

*Məqalədə müasir dövrdə rəhbər kadrların seçilməsi, attestasiyasının aparılmasının sosial-psixoloji məsələləri araşdırılır. Göstərilir ki, bir tərəfdən attestasiyanın keçirilməsi onların peşəkarlığının, rəhbərlik etdiyi sahədə bilik və bacarığının, digər tərəfdən şəxsi keyfiyyətlərinin öyrənilməsi məqsədi daşıyır. Məlum olur ki, kollektivin fəaliyyəti həm yüksək vəzifəli rəhbərlərdən, həm də ayrı-ayrı strukturların işinin keyfiyyətindən asılıdır. Attestasiya nəticəsində toplanmış faktiki materiallar qərarların qəbuluna, rəhbər işçinin tutduğu vəzifəyə uyğun olub-olmamasını müəyyənləşdirir.*

## SOCIAL AND PSYCHOLOGICAL PROBLEMS OF ADMINISTRATIVE STAFF PREPARATION

***Shafaq Shahmammadova***

**Key words:** *activity directions, personality, administrative activity, education, management, groups*

*The article deals with the recruitment of the administrative staff and social and psychological problems of their certification. It is stated in the research that providing certification may cause professional development of the staff , increase their knowledge and competences in the sphere of administration and get them better acquainted with personal characteristics. It is common knowledge that success of collaborative work depends both on the effectiveness of administrative staff and the activities of separate organizations. The results of certification may affect the law of control and define whether or not the administrative worker is suitable for the current position.*

# СОЦИАЛЬНО- ПСИХОЛОГИЧЕСКИЕ ПРОБЛЕМЫ АТТЕСТАЦИИ АДМИНИСТРАТИВНЫХ КАДРОВ

***Шафаг Шахмамедова***

**Ключевые слова:** *направления деятельности, личность, управленческая деятельность, образование, управление, коллектив*

*В статье рассматриваются проблемы выбора административных кадров и социально-психологические основы проведения аттестации. Также исследования показывают, что целью проведения аттестации является выявление с одной стороны профессиональных качеств административных работников, уровня их знаний и навыков в сфере управления, а с другой стороны ознакомление с личными качествами. Также становится известно, что деятельность коллектива зависит не только от администрации, но и от качества работы отдельных структур.*

Müasir dövrdə rəhbər kadrların seçilməsi, müvafiq qaydada yerləşdirilməsinin müxtəlif forma və metodları mövcuddur və onlar daim təkmilləşdirilir. Bunların sırasında idarəetmə fəaliyyəti ilə məşğul olanların attestasiyası xüsusi əhəmiyyət kəsb edir. Getdikcə rəhbər vəzifə tutanların attestasiyasının keçirilməsinin məzmun və metodları daha da təkmilləşir, yeni qaydalar tətbiq olunur. Bu, bir tərəfdən fəaliyyətin praktik, digər tərəfdən də elmi-nəzəri aspektdən vəhdət şəklində öyrənilməsi ilə bağlıdır.

Əlbəttə, bu deyilənlər eyni zamanda cəmiyyət həyatında gedən proseslərlə, ictimai münasibətlər sistemi ilə bağlıdır. S.İ.Seyidov yazır: “Digər münasibətlər formasından, üsullarından fərqli olaraq, yalnız demokratik cəmiyyətdə şəxsiyyətin real hüquqlarını həyata keçirmək mümkündür” [5, s.195].

Müstəqillik əldə etdikdən sonra beynəlxalq əlaqələrin genişlənməsi, humanizm və demokratiyanın daha geniş formada həyata keçirilməsi səriştəli kadrlara olan ehtiyacı da artırır. Deməli, onların seçilməsində həm tələbkarlıq artırılır, həm də yeni dövrün tələbləri nəzərə alınır. İndi idarəedən sadəcə olaraq yuxarı təşkilatların göstərişlərinin icrası ilə məşğul olmur, daha çox funksiyanı yerinə yetirir. O, bir tərəfdən özünün fəaliyyət göstərdiyi sahəni dərindən bilməli, daha dəqiqi peşəkarlıq, səriştəlilik bacarığına malik olmalı, digər tərəfdən insanlarla işləməyi bilməlidir. Başqa sözlə, nüfuz sahibi olmalıdır. Nüfuz isə yalnız öz sahəsinin bilicisi olmaqla məhdudlaşmır. Aparılan tədqiqatlar göstərir ki, daha çox şəxsi keyfiyyətlər əhəmiyyət kəsb edir.

Ali təhsil sistemində rəhbər işçilərin, o cümlədən idarəetmə funksiyasını yerinə yetirən müəllimlərin nüfuzu inteqral xarakter daşıyır. Bura onun peşəkarlığı, kollektiv üzvləri arasında mövqeyi, statusu daxildir. Bu keyfiyyətlər isə özünü iş yoldaşları, tələbələrlə qarşılıqlı münasibətlərdə əks etdirir və təlim-tərbiyə işinin səmərəliliyini müəyyənləşdirir.

Rəhbər işçinin və müəllimin nüfuzu həm də bir-birilə sıx bağlı olan peşəkarlıqdan və şəxsiyyətin xüsusiyyətlərindən asılıdır. Əgər əvvəllər işçinin peşəkarlığı qiymətləndirilirdisə, indi onun şəxsiyyəti önə keçir. Buna həm də cəmiyyətin tələbi kimi baxılmalıdır. Deməli, attestasiyasının keçirilməsi prosesində başlıca diqqət bu amillərə yönəldilməlidir.

Attestasiyanın məqsədi rəhbər işçilərin və digərlərinin peşəkarlığının, fəaliyyət göstərdiyi sahədə bilik və bacarığının, şəxsi keyfiyyətlərinin öyrənilməsindən ibarətdir. Bundan başqa, attestasiya işçinin tutduğu vəzifəyə uyğun gəlib gəlmədiyini də müəyyənləşdirir. Bir sıra hallarda isə konkret işçinin, idarə edənin tutduğu vəzifəyə uyğun gəlib gəlməməsini müəyyənləşdirmək lazım gəlir.

Bütün bu deyilənlər, rəhbərin fəaliyyətinin və şəxsiyyətinin qiymətləndirilməsi zamanı psixoloji faktorların nəzərə alınmasını zəruri edir. Bunlarla yanaşı qeyd etmək lazımdır ki, attestasiyanın keçirilməsi mürəkkəb, kompleks faktorları özündə birləşdirən bir işdir.

Müasir dövrdə rəhbər işçilərin attestasiyasının keçirilməsi bir sıra hüquqi sənədlərlə tənzimlənir. Onun hüquqi aspektinə attestasiyanın keçirilməsini məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi, reqlamenti, prodsedur qaydaları və s. daxildir. Bunlarla yanaşı onun dövrülüyü, sənədləşdirilməsi, xüsusi təşkil olunmuş komissiyanın yaradılması da zəruri şərtlərdəndir.

Attestasiyanın keçirilməsi eyni zamanda bir sıra praktik məsələlərin həllinə xidmət edir. Bura daxildir:

-kadrların düzgün seçilib yerləşdirilməsi, onların biliyinin təkmilləşdirilməsi, təcrübənin öyrənilməsi;

-rəhbər işçilərin əməyinin stimullaşdırılması, yaradıcı potensialının yüksəldilməsi;

-biliyinin artırılması, konkret sahə üzrə ixtisasının artırılması;

-konkret rəhbərin əmək fəaliyyətinin yaxşılaşdırılması, fəaliyyətin səmərəliliyinin yüksəldilməsi üçün məsləhətlərin verilməsi;

-tərbiyəvi, formalaşdırıcı təsir göstərilməsi.

Təbii ki, bu işlər bir-birilə vəhdətdə götürülməlidir. Rəhbər işçi özünün şəxsi keyfiyyətlərində, fəaliyyətində olan nöqsanları görməli və onları aradan qaldırmağa çalışmalıdır.

Bunlarla yanaşı rəhbər işçilərin attestasiyası zamanı fəaliyyətin səmərəliliyi, kollektivin həyatına onun təsiri, iqtisadi, mənəvi səmərəsi, kollektivdə

sosial-psixoloji mühitin formalaşmasına təsiri və s. amillər də nəzərə alınmalıdır.

“Araşdırmalardan aydın olur ki, məktəbdə pedaqoji əməyin elmi təşkili, işin müvəffəqiyyəti ilk növbədə məktəb rəhbərlərinin öz əməyini elmi əsasda qura bilməsindən asılıdır” [1, s.51].

Rəhbərlik fəaliyyəti eyni zamanda kollektivin fəaliyyətinin nə dərəcədə səmərəli olması baxımından da qiymətləndirilməlidir. Attestasiya zamanı rəhbər işçinin idarəçilik qabiliyyəti, səriştəsi xüsusi qaydada nəzərdən keçirilməlidir.

Təcrübə göstərir ki, kollektivin fəaliyyəti, eləcə də ayrı-ayrı bölmələrin müvəffəqiyyəti həm kollektivin yüksək vəzifəli şəxslərindən, həm də ayrı-ayrı struktur rəhbərlərindən asılıdır. Yəni hər hansı ayrılıqda götürülmüş bir strukturun müvəffəqiyyəti və ya uğursuzluğu yalnız həmin strukturundan yox, iyerarxiya qaydasında yüksək vəzifə tutanların fəaliyyətindən də asılıdır. Problemin bu cəhəti rəhbər işçilərin fəaliyyətinin qiymətləndirilməsində bəzi çətinliklər yaradır. Belədə struktur rəhbərlərinin fəaliyyəti onların birbaşa aid olduqları sahənin strukturun fəaliyyətinə əsasən qiymətləndirilməlidir.

Tədqiqat göstərdi ki, ayrı-ayrı strukturların, eləcə də onların rəhbərlərinin fəaliyyəti ya birbaşa müəssisənin rəhbərinin fəaliyyətindən asılıdır, yaxud da dolayısıyla. “Hansı strukturların ki, fəaliyyəti daha çox göz qabağındadır və fəaliyyətlərinin nəticəsi tez bir zamanda özünü göstərir, onların fəaliyyəti birbaşa rəhbərlikdən də asılıdır. Ona görə də hansısa bir strukturun, onun rəhbərinin fəaliyyəti qiymətləndirilərkən onun spesifikliyi nəzərə alınmalıdır” [6, s.43].

Rəhbərin özünün fəaliyyəti qiymətləndirilərkən onun obyektiv və subyektiv amillərdən nə qədər asılılığı, mövcud imkanlardan nə dərəcədə istifadə etməsi də diqqətdən kənarda qalmamalıdır.

Müasir dövrdə rəhbərin fəaliyyətinin bir aspektinə də nəzər yetirilir. Eyni nəticə göstərən iki rəhbərdən hansının həmin nəticəni hansı şəraitdə alması və fəaliyyətin səmərəlilik dərəcəsi. Rəhbərin fərdi-psixoloji xüsusiyyətləri, fiziki və psixi baxımdan sərf etdiyi enerji də bura daxildir. Eyni zamanda işin müvəffəqiyyətli icrasına rəhbərin hansı keyfiyyətlərinin əngəl törətdiyi, psixoloji gərginlik keçirib keçirmədiyi də nəzərə alınmalıdır. Çünki bu sosial-psixoloji vəziyyət kollektiv üzvlərinə, kollektivin psixoloji mühitinə, fəaliyyətin səmərəliliyinə təsir göstərir. Çünki istər rəhbər özü, eləcə də rəhbərlik etdiyi işçilər uzun müddət psixoloji gərginlik içərisində məhsuldar şəkildə işləyə bilməzlər. Burada bir-birilə sax bağlı olan çoxsaylı amillər təsir göstərir. İlk növbədə iş qabiliyyətinin səmərəliliyi psixofizioloji və fərdi xüsusiyyətlərdən asılıdır.

Göstərilən üsullardan hər birinin qiymətləndirilməsi rəhbərin fəaliyyətinin müxtəlif istiqamətlərinin göstəricisidir. Fəaliyyətlə bağlı hansısa üsulun

seçilməsi konkret vəzifənin tələblərindən irəli gəlməlidir. Digər üsul və vasitələr isə yardımçı rolunu oynaya bilər.

Rəhbərin attestasiyası bir qayda olaraq metodoloji baxımdan fəaliyyət və şəxsiyyətin vəhdəti prinsipi üzrə aparılmalıdır. Attestasiyanın bu prinsipə əsaslanması rəhbərin funksional xüsusiyyətlərinin öyrənilməsinə imkan verir. Yəni rəhbər tutduğu vəzifəyə nə dərəcədə uyğun gəlir və ya gəlmir. Eləcə də vəzifənin tələb etdiyi keyfiyyətlər onda var, ya yox [4].

İdarəetmədə başlıca cəhətlərdən biri də rəhbər kadrların seçilməsi ilə bağlıdır. Adətən bu və ya digər rəhbər isə təyinat zamanı ilk növbədə onun peşəkarlığı və işgüzar keyfiyyətləri nəzərə alınır. Nədənsə bu zaman kollektivin sosial-psixoloji xüsusiyyətləri nəzərdən qaçır. Ona görə də bir çox hallarda rəhbərin bütün göstəriciləri qənaətbəxş olmasına baxmayaraq kollektiv tərəfindən qəbul olunmur. Nəticədə hətta perspektivli rəhbər gözlənilən uğuru qazana bilmir.

Rəhbər kadrların seçilməsi zamanı problemin sosial-psixoloji aspekti ondan ibarətdir ki, ilk növbədə rəhbərin xüsusiyyətləri ilə kollektivin xüsusiyyətlərinin uyğunluğu nəzərə alınmalıdır. Bu zaman yalnız "şəxsiyyət" və "fəaliyyət" kateqoriyası azlıq edir. Problemin psixoloji tərəfinə əsaslansaq burada üç kateqoriya – "şəxsiyyət", "kollektiv" və "fəaliyyət" nəzərə alınmalıdır.

Rəhbərin şəxsi keyfiyyətləri içərisində liderlik keyfiyyəti mühüm yer tutur. "Rəhbər işçi eyni zamanda Lider rolunda çıxış etdikdə, kollektivin ahəngdar inkişafı üçün əlverişli psixoloji şərait yaranır" [3, s.231].

Rəhbərlə işçilərin qarşılıqlı əlaqəsinə rəhbərin idarəetmə üslubu da əsaslı təsir göstərir. Rəhbərin idarəetmə üslubuna ilk növbədə işçiləri reaksiya verir və adekvat olaraq qiymətləndirirlər. Ona münasibət də bu zəmində formalaşır. Rəhbərin işçilər tərəfindən idarəçilik üslubunun qiymətləndirilməsi rəhbərin attestasiyası zamanı nəzərə alınmalı cəhətdən hesab oluna bilər. Hətta rəhbərin başqa bir kollektivə təyin olunması zamanı əvvəlki iş yerində kollektiv üzvləri ilə münasibəti də diqqətdən kənarda qalmamalıdır.

Attestasiya zamanı rəhbərin şəxsiyyətinin nəzərə alınması da vacibdir. Bura şəxsiyyətin mühüm komponentlərindən olan ideya-siyasi baxışları, peşəkarlığı, səriştəliliyi, təşkilatçılıq və pedaqoji qabiliyyətləri, ünsiyyəti və s. daxildir. Bununla yanaşı o da məlumdur ki, rəhbərin şəxsiyyətinin qiymətləndirilməsinə dair hətta idarəetmə psixologiyası ilə məşğul olan mütəxəssislər arasında yanaşma fərqi vardır. Başqa bir cəhət ondan ibarətdir ki, elmi əsaslarla işlənmiş, praktikada sınaqdan çıxarılmış vahid bir metodika yoxdur ki, onun əsasında rəhbərlərin attestasiyası keçirilsin. Hesab edirik ki, bunun daha münasib yolu hər bir təşkilatın spesifikası nəzərə alınmaqla həyata keçirilsə daha yaxşı olar. Başqa sözlə, istehsalat sahəsi ilə ali təhsil sistemi arasında fərq olduğu kimi, onların idarəetmə metodları arasında fərq mövcuddur. Hətta bu sahələrin hər biri üçün

fərqli üslub lazım gəlir. Tədqiqatlar göstərir ki, istehsal sahəsi ilə məşğul olan müəssisələrdə avtoritar-demokrativ üslub daha sərfəlidir. Təbii ki, ali təhsil sistemi üçün bu yaranır. Burada demokratik üslub daha münasib hesab olunur. Hər bir sahənin kollektivinin özünəməxsus davranış, düşüncə tərzi var. Tutaq ki, dəmir yol sistemində çalışan işçilərinin yerişi, danışıq tərzi, səsinin tonu başqadır. Onlar hətta, işin xüsusiyyətlərindən irəli gələn tələblərə əsasən yüksək tonla danışırlar. Ali təhsil sistemində isə bu göstərilən xüsusiyyətlər səmərəsiz, hətta qəbul olunmazdır. Deməli, peşəyə uyğun stereotiplər, sosial normalar formalaşır. Kollektivin də davranışı ona uyğunlaşır. Belədə rəhbərlik edən şəxsdən də bu tələbələrə uyğün keyfiyyətlər tələb olunur.

Son zamanlar rəhbər kadrların attestasiyasında işgüzar oyunlardan da istifadə olunur. Bu metodla qərarların qəbulu, qərarların hazırlanması zamanı idarəetmədən nə dərəcədə səmərəli istifadə olunması yoxlanılır. Bu metodla təbii ki, rəhbər kadrların peşə və şəxsi keyfiyyətlərini tam mənası ilə müəyyənləşdirmək mümkün olmur. Ona görə də bu, yardımçı metod sayılır və digər metodların doğruluğunun, əldə olunan nəticələrin bir daha təsdiqlənməsi baxışından səmərəli sayılır. Bu metod həm də rəhbərin digər oxşar vəzifədə çalışanlarla müqayisəsinin aparılmasına imkan yaradır. Əks halda attestasiyanın nəticələri həmin şəxsdə şübhə yarada bilər.

İşgüzar oyunlar həm də attestasiya zamanı rəhbərin idarəçilik keyfiyyətlərinin psixoloji məqamlarını üzə çıxarır. Bu isə attestasiyanın nəticələrinin qiymətləndirilməsində vacib şərtlərdəndir. İşgüzar oyunlar iki mühüm komponenti: idraki və kommunikativ komponentləri üzə çıxarır.

İdarəetmənein qiymətləndirilməsi aydındır ki, fəaliyyətin təhlilində də meydana çıxır. Lakin işgüzar oyunların üstünlüyü ondadır ki, bu zaman gizlin qalan keyfiyyətləri də müəyyənləşdirmək mümkündür.

Kommunikativ komponentlər müzakirə, diskussiya, kollektiv şəkildə qərarların qəbulu, təcrübə mübadiləsi və s. proseslərdə meydana çıxır. Bu zaman ünsiyyət qura bilmək, qrupla işələmək, empatiya kimi keyfiyyətlər özünü göstərir. Şəxsiyyətin empatiya qabiliyyəti rəhbərlə kollektiv üzvləri arasında qarşılıqlı münasibətlərin formalaşmasına səmərəli təsir göstərir. İşgüzar oyunlar da məhz bu keyfiyyətləri inkişaf etdirir. İşgüzar oyun imkan verir ki, rəhbər işçi özünü başqalarının yerinə qoya bilsin. Çünki bu oyunlarda hər kəs müxtəlif rolları yerinə yetirir. Rəhbər işçi özü başqasının vəziyyətində olduqda istər istəməz özünün davranışına, maraqlarına "yeni gözlə" baxmalı olur. Bu vəziyyət onun başqalarını daha dərindən davrama və dərk etməsinə kömək edir. Gələcəkdə o, hadisələri, situasiyanı daha real şəkildə qiymətləndirir.

Rəhbərin işgüzar oyunda iştirakı zamanı onun real fəaliyyəti arasında uyğunluq olmalıdır. Belədə rəhbər oyun prosesində özünü, öz fəaliyyətini və şəxsi keyfiyyətlərini görə bilər. Bu onu özü, fəaliyyəti barədə düşünməyə təhrik edər.

İşgüzar oyun zamanı zahiri effektlərə meyl etmək düzgün deyil. Tutaq ki, işgüzar oyun zamanı idarəetmə məsələlərindən bəhs olunursa kabinet, texniki vasitələr və s. olmamalıdır. Bu oyunun zahiri tərəfidir. Başlıca olanı rəhbərin fəaliyyətinin psixoloji tərəfi, təşkilatçılığı, ünsiyyət bacarığı və sairədir.

Rəhbər işçilərin attestasiyası zamanı işgüzar oyunlardan istifadə etmək həm onların müəyyən bilik əldə temələri, həm də attestasiyanın daha effektiv keçirilməsini təmin etmək mümkündür.

Rəhbər işçilərin attestasiyasının keçirilməsinə bir sıra tələblər verilir. Birincisi, attestasiya etibarlı şəkildə keçirilməlidir. Yəni yuxarıda şəkildə obyektiv, nəticələr mötəbər olmalıdır. Onun etibarlılığı başlanğıcdan düzgün qoyulmalıdır. Attestasiyanın necə keçirilməsi, fəaliyyətin necə qiymətləndirilməsi, rəhbərin şəxsiyyətinə verilən tələblər dəqiq müəyyənləşdirilməli və meyarlar yazılı şəkildə olmalıdır.

İkincisi, qiymətləndirmə şkalasının olmasıdır.

Üçüncüsü, hazırlanmış meyarlar hər kəsə aid olmalıdır. Başqa sözlə birinə bir, başqasına başqa tələblər qoyulmamalıdır.

Qeyd etmək lazımdır ki, son dövrlərdə işə qəbul, kadrların seçilməsi və s. sahədə psixoloji amillərə xüsusi diqqət yetirilir. İş yerlərində, o cümlədən ali təhsil sistemində psixoloji xidmətdən istifadə olunur.

Rəhbər kadrların attestasiyası və fəaliyyətinin qiymətləndirilməsi prosesində psixoloqların iştirakı birmənalı qəbul edilmir. Bir çox hallarda ziddiyyətli mövqe ortaya çıxır. Ümumi bir tələb ondan ibarətdir ki, attestasiya zamanı psixoloqların iştirakı müəssisənin ümumi fəaliyyətinə uyğun olmalı, onunla ziddiyyət təşkil etməməlidir.

Rəhbər kadrların, ali təhsil sistemində şəxsiyyətlərarası münasibətlərin, əks əlaqənin, müsahibin qavranılması mühüm əhəmiyyət kəsb edir. Burada ilkin informasiya, ilkin təəssürat və digər amillər mühüm rol oynayır. Təcrübə göstərir ki, müəllim-tələbə münasibəti davranışda, təlim fəaliyyətində öz əksini tapır.

Attestasiya zamanı ali məktəblərdə vacib olan qarşılıqlı münasibətlərə: müəllim-tələbə, tələbə-rəhbər, rəhbər-müəllim münasibətlərinə də diqqət yetirilməlidir.

"Psixoloqlar başqa adamların qavranılmasının üç tipini ayırırlar: pozitiv, neqativ və adekvat. Pozitiv qavrayış zamanı insanın müsbət xüsusiyyətləri səciyyələnir, ona inam bəslənilir. Neqativ qavrayışda isə bir qayda olaraq mənfi keyfiyyətlər qabardılır və ona şübhə ilə yanaşılır.

Təbii ki, ən yaxşısı adekvat ustanovkadır. Belədə insanın həm müsbət, həm də mənfi keyfiyyətləri diqqəti cəlb edir" [2, s.36].

Problemin digər bir cəhəti onunla bağlıdır ki, attestasiya keçirənlərin fikrincə psixoloqla problemin subyektiv cəhətlərinə diqqət yetirirlər. Bu zaman onların əlində informasiya olmadığından problem yaranır. Nəticədə ola bilsin ki, rəhbərdə həmin şəxslə bağlı ikili fikir yaransın. Ola bilsin ki, bu fikirlərdən

biri pozitiv, digəri neqativ olsun. Ona görə də psixoloqun fikri ayrıca götürülə bilməz. Yəni psixoloqun gəldiyi nəticələr də digər məlumatlarla bilikdə ümumi rəyə gəlinməsi üçün attestasiya komissiyasına təqdim olunmalıdır.

Tutduğu vəzifəyə uyğun olaraq dövrü qoydada rəhbər kadrların attestasiyasının keçirilməsi özünü təcrübədə doğruldan bir işdir. Təcrübə göstərir ki, attestasiyanın keçirilməsi həm məsuliyyət hissini artırır, həm də fəaliyyətin səməorəliliyini yüksəldir. Belədə rəhbər kadrların işgüzar keyfiyyətləri inkişaf edir, onların təşəbbüskarlığı, tapşırılan işə qarşı məsuliyyəti artır.

Attestasiya nəticəsində toplanmış faktiki materiallar qərarların qəbuluna, rəhbər işçinin tutduğu vəzifəyə uyğun olub olmamasının müəyyənləşdirilməsinə, vəzifəsinin böyüməsinə, səlahiyyətlərinin genişlənməsinə və ya əksinə, azaldılmasına imkan yaradır. Ona görə də attestasiya müəssisənin fəaliyyətinin yaxşılaşdırılmasına, yeniliyin tətbiq olunmasına, kadrlardan səmərəli istifadə olunmasına, bununla yanaşı sağlam psixoloji mühitin formalaşmasına şərait yaradır.

Yuxarıda deyilənləri belə ümumiləşdirmək olar ki, attestasiya bir neçə funksiyanın yerinə yetirilməsinə imkan verir. Birincisi, attestasiya diaqnostik və qiymətləndirici funksiyanı yerinə yetirir. Bu isə rəhbərin fəaliyyətini, şəxsi keyfiyyətlərini, davranışını qiymətləndirməyin ən yaxşı yoludur. Eyni zamanda imkan yaranır ki, rəhbər özü səmərəli fəaliyyət göstərsin, işində, davranışında olan pozitiv və neqativ cəhətləri görə bilsin. İkincisi, attestasiyanın proqnozlaşdırma funksiyasıdır. Bu, imkan verir ki, rəhbərin potensialı üzə çıxarılsın, gələcək fəaliyyətini təkmilləşdirə bilsin. Üçüncüsü, attestasiyanın korreksiyaedici funksiyasıdır. Bu isə imkan verir ki, prosesin gedişində buraxılan nöqsanlar vaxtı-vaxtında aradan qaldırılsın.

Attestasiya həm də tərbiyəvi xarakter daşıyır. Yəni onun vasitəsilə rəhbərin emosional-motivasiya sferası tənzimlənir.

Bütün bunların nəticəsində, başqa sözlə, attestasiyanın elmi əsaslarla keçirilməsi kollektivin qarşısında duran məqsədin ahəngdar şəkildə yerinə yetirilməsini təmin edir. Belədə rəhbərin maraları ilə kollektivin maraqları üst-üstə düşür.

Attestasiyanın mühüm tərəflərindən biri də ondan ibarətdir ki, heç bir rəhbərdə özünün toxunulmaz olduğu fikri formalaşmır. İşçilərdə isə belə bir inam yaranır ki, özünü, öz fəaliyyətini təkmilləşdirməklə o da kollektivdə öz mövqeyini yaxşılaşdıra bilər. Beləliklə, həm də kollektivdə pozitiv rəqabət mühiti yaranır.

## ƏDƏBİYYAT

1. Cabbarov R.V. Təhsil müəssisələrinin idarə edilməsi məsələləri. Bakı: Müəllim, 2001.
2. Əliyev R.İ. Məktəbə psixoloji xidmətin aktual məsələləri. Bakı: Nurlan, 2004.
3. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf, 2003.
4. Василиев Ю.В. Социальная модель управления школой // Вопросы психологии, 1990.
5. Сеидов С.И. Феноменология творчества (История. Парадоксы. Личность). Баку: Чашыоглы, 2009.
6. Травин В.В., Дятлов В.А. Основы кадрового менеджмента. М.: Дело, 1995.

**UOT 94+930.22.**

# AZƏRBAYCAN-AVROPA MÜNASİBƏTLƏRİNƏ TARİXİ VƏ MİLLİ MARAQLAR

***Aygün Əliyeva***
*Xəzər Universiteti*
*aygunaliyev@yahoo.com*

**Açar sözlər:***Azərbaycan Respublikası, Avropa, inteqrasiya, xarici siyasət, beynəlxalq əməkdaşlıq*

*Dünyaya inteqrasiya yolunu tutan, müasir Avroatlantika məkanının tərkib hissəsinə çevrilməyi qarşısına strateji məqsəd qoyan müstəqil Azərbaycan üçün Avropa regionunda təbliğ olunmaq, öz dəyərlərini, maddi və mənəvi incəsənət abidələrini, musiqisini, poeziyasını, elmini digər millətlər, xalqlar arasında təbliğ etmək milli maraqların qorunması uğrunda atılan mühüm addımlardandır. Bəzi dövlətlərdən fərqli olaraq, Azərbaycanın dünyaya deməyə sözü, göstərməyə maddi mədəniyyət inciləri vardır. Həm ulu öndər Heydər Əliyev, həm də onun siyasətinin layiqli davamçısı İlham Əliyev bu müqəddəs amal uğrunda bütün imkanlarını səfərbər edərək, Azərbaycanın dünyada, xüsusən Avropa məkanında layiqincə təbliğ edilməsi üçün əllərindən gələni əsirgəməmişlər. Aparılan bu uzaqgörən siyasət nəticəsində proses bu gün də eyni istiqamətdə inkişaf etməkdədir.*

# ИСТОРИЧЕСКИЕ И НАЦИОНАЛЬНЫЕ ИНТЕРЕСЫ АЗЕРБАЙДЖАНО-ЕВРОПЕЙСКИХ ОТНОШЕНИЙ

***Айгюн Алиева***

**Ключевые слова:** *Азербайджанская Республика,Европа, интеграция, внешняя политика, международное сотрудничество*

*В качестве ведущих действующих лиц в современных международных отношениях важную роль играют не только государства, но и надгосударственные организации. Такие организации являются примерами политических, экономических и военных организаций, включая глобальные и региональные организации. Хотя столетия назад была создана идея объединить европейское пространство, его практическое решение было возможно только*

*во второй половине прошлого века. В настоящее время политическая карта мира не разделена географическими возможностями, и если союз шире, это более мощный принцип. С этой точки зрения Европа не довольна своими границами и стремится к дальнейшему расширению. Таким образом, Азербайджан также является важным партнером, и в настоящее время отношения между Европой и Азербайджаном развиваются на растущей линии.*

## HISTORICAL AND NATIONAL INTERESTS OF AZERBAIJAN-EUROPE RELATIONS

***Aygun Aliyeva***

**Key words:***Republic of Azerbaijan, Europe, integration, foreign policy, international cooperation*

*As the leading actors in contemporary international relations, an important role is played not only by states, but also by supranational organizations. Such organizations are examples of political, economic and military organizations, including global and regional organizations. Although centuries ago an idea was created to unite the European space, its practical solution was possible only in the second half of the last century. At present, the political map of the world is not divided by geographical possibilities, and if the union is wider, this is a more powerful principle. From this point of view, Europe is not satisfied with its borders and is striving for further expansion. Thus, Azerbaijan is also an important partner, and at present the relations between Europe and Azerbaijan are developing on the growing line.*

### Vahid Avropa ideyasının yaranması və onun reallaşdırılması prosesi

*"Vahid Avropa evini" yaratmaq*ideyası ilk dəfə 600 il öncə P. Dö Bua tərəfindən ortaya atılmışdır. Fransa kralı IV Henri isə XVI əsrdə Avropa dövlətlərini birləşdirərək "xristianlardan ibarət vahid respublika" yaratmaq fikrində olmuşdur. Məhz bu ideya sonralar avropalaşma ideyasının təməlini qoymuş oldu [11,29].

Sonralar 1690-cı ildə ingilis V.Peni Ümumavropa parlamenti yaradılması nəzəriyyəsini ortaya atdı, XIX əsrin əvvəllərində isə Fransa imperatoru Napoleon Bonapart Avropanı hərb yolu ilə birləşdirməyə cəhd göstərdi. XIX əsrin ikinci onilliyində Fransa imperatoru Napoleona qarşı Vyana konfransı zamanı birləşməyi bacaran Avropa bu yolda öz ilkini yaza bildi. Bütün bu proseslər isə XIX əsri avrosentrizm ideyalarının formalaşmağa başlaması kimi tarixdə qaldı. 1923-cü ildə R.Kudenxove-Kalergi, 1930-cu ildə isə Fransanın

xarici işlər naziri A.Brian bu səpkidə müəyyən layihələrlə çıxış etdilər [12,65-66]

"Avropa ailəsini yaratmaq" ideyasını 1946-cı ildə Sürixdəki çıxışında İngiltərə hərbi kabinetinin başçısı Uinston Çörçill də irəli sürmüşdür. Çörçill bu ideyanı reallaşdırmaq üçün Fransa və Almaniyanın onlarla əməkdaşlığını zəruri amil hesab edirdi. Bu sahədə aparılan fəaliyyət yönümündə 8-10 may 1948-ci ildəHaaqada Avropa Konqresi keçirilir və burada "avropalılara müraciət" ictimaiyyətin nəzərinə çatdırılır. Bu konqresdə "Vahid Avropa evini" yaratmaq ideyası ortaya atılır və bu ideyanın tezliklə Avropa Federasiyası şəklində həyata keçirilməsi vurğulanır[5,300].

Bu gün Avropa İttifaqına üzv olan dövlətlərin, bu təşkilatın özünün Azərbaycanla qurulan münasibətlərdə müəyyən maraqları vardır. Bu maraqların nədən ibarət olmasına da aydınlıq gətirmək lazımdır. Vahid Avropa ailəsi çərçivəsində diplomların qarşılıqlı tanınması ilə müşayiət edilən təhsil reformaları, ilk növbədə isə Boloniya sistemi bunu özündə çox gözəl əks etdirir. İnsanların həyat tərzi, iqtisadi və ticari fəaliyyətə dəstək, iş və təhsil imkanlarının təmin edilməsi baxımından bu inteqrasiya prosesləri kifayət qədər mütərəqqi və proqressiv rola malikdir və bu aspekti inkar etmək mümkün deyil [10,23-29].

Məlum olduğu kimi, SSRİ-nin süqutundan sonra müstəqillik əldə etmiş dövlətlərin əksəriyyəti avrointeqrasiyanı xarici siyasət kursuna çevirmişlər. Avropa daxilində inteqrasiya prosesinin sonu siyasi inteqrasiya-Vahid Avropa Dövlətinin tərkibinə qatılma mənasını verir. Bu, sonda Avropa maraqları naminə siyasi suverenliyin tamamilə itirilməsi anlamına gəlir. Avropa İttifaqına üzv olan dövlətlərin əksəriyyəti düşünülmüş formada buna getmişdir. SSRİ-nin tərkibində olmuş dövlətlər sırasında Baltikyanı dövlətlər bu yolu seçmişdir. Bildiyimiz kimi, Azərbaycan özünün avrointeqrasiya siyasətində belə bir məqsəd daşımır. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev bu məsələyə toxunmuş və onu konsepstual cəhətdən aşağıdakı kimi əsaslandırmışdır: "Azərbaycan dövləti inkişafın yeni mərhələsinə qədəm qoymuşdur. Ölkə Prezidenti İlham Əliyev Azərbaycanın intellektual inkişafının təmin edilməsini milli prioritet kimi bəyan etmişdir. Qarşıdakı mərhələdə qlobal elm, təhsil və informasiya məkanına inteqrasiya, modernləşmə və innovasiya kursunu həyata keçirmək üçün yeni nəsil tədqiqatçıların, XXI əsrin kreativ elitasının formalaşmasına böyük zərurət yaranmışdır. Azərbaycan üçün bir tərəfdən Qərb məkanına inteqrasiyanın siyasi, iqtisadi və elmi-texnoloji əhəmiyyəti getdikcə artır. Digər tərəfdən, MDB məkanında, habelə türk dövlətləri arasında qarşılıqlı əlaqələrin inkişaf etdirilməsində yeni imkanlar açılır"[9,329].

Azərbaycan Avropaya inteqrasiya istiqamətində tərəfdaş və ya üzv qismində əməkdaşlıq etdiyi təşkilat və dövlətlərlə daim praktik və nəzəri

biliklərin mübadiləsini aparmaqdadır. Bu həm sözü gedən istiqamətdə daha sürətlə uyğunlaşmaya köməklik göstərir, həm də ölkənin etibarlı tərəfdaş qismində çıxışına imkan yaradır. Bu zaman vahid mərkəzdən həyata keçirilən siyasi, iqtisadi, hüquqi və digər reformalar sayəsində dövlətlər qlobal məkanın subyektlərinə çevrilirlər. Avropaya inteqrasiya və vahid avropa ailəsinə qoşulmaq ideyası tarixən mövcud olan və çoxşaxəli məsələlərdən biridir. Bu proses Azərbaycan üçün kifayət qədər yeni olsada, əslində tarixən mövcud olan və əsası hələ orta əsrlərdə qoyulan məlum prosesin müəyyən bir hissəsini təşkil etməkdədir.

Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında 1999-cu ildən qüvvəyə minmiş Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi siyasi dialoq, demokratiyanın və azad fikirliliyin inkişafına kömək, eləcə də iqtisadi sahədə təmin edilən əməkdaşlıq və sərmayə qoyuluşu üçün əlverişli mühiti formalaşdırır[4,29]. Hadisələrin axarında 2004-cü ildə ölkəmiz Avropa İttifaqının “Yeni qonşuluq siyasəti”nə daxil edildi, 2006-cı ildə isə Aİ-Azərbaycan arasında Fəaliyyət Planının icra olunmasına başlanılması siyasi, iqtisadi, eləcə də institusional dialoq baxımından əlaqələrin keyfiyyətcə yeni mərhələyə keçməsi kimi qiymətləndirilə bilər. Artıq hamıya məlumdur ki, qloballaşma prosesi, bizim ona necə reaksiya verəcəyimizdən asılı olmayaraq, dünyanın hazırkı nizamını dəyişən obyektiv bir tarixi prosesdir. Bu zaman dünya və insanlar daha universal təbiətə malik olur, həyat tərzi ilə bağlı vahid stereotiplər meydana gəlir, sənaye və kənd təsərrüfatı, ticari əlaqələr qarşılıqlı qaydada inteqrasiya edilir. Dövlətlər və millətlər daha sıx sosial-iqtisadi, mədəni və informativ əlaqə qurmağa başlayırlar. Bütün bu proseslərin fonunda milli, ən əsası isə etnik sərhədlər aradan qalxmağa başlayır.

Akademik Ramiz Mehdiyev Azərbaycanın bu yolda tutduğu inkişaf xəttini, seçdiyi strategiyanı belə müəyyən edir: “Bu, Avropanın problemlərinin həllində Azərbaycanın fəal iştirakının vacibliyini və Avropanın təhlükəsizliyi arxitekturasının formalaşması prosesinin iştirakçısı kimi onun mövqeyini müəyyənləşdirən avrosentrizmdir”[9,362].

## Azərbaycanın Avropaya inteqrasiya prosesi və onun mərhələləri

Azərbaycanın Avropaya inteqrasiyası təkcəhətli baxımdan öyrənilə bilməz. Çünki Avropanın siyasi arxitekturasında regional olmaqla bərabər, eləcə də beynəlxalq əhəmiyyətli AŞ, Aİ, ATƏT və NATO ilə sıx əlaqələrin qurulması milli maraqlardan irəli gələrək hətta bu qurumlarda tamhüquqlu üzvlük məsələsini də ortaya qoymuş olur.[7,55]. Bununla bağlı R,Mehdiyevin qeyd etdiyi kimi, Azərbaycanın xarici siyasətində avrointeqrasiya istiqaməti əsas vektorlardan biri kimi qalmaqda davam edir. Bunu labüd edən məqamlardan biri də qloballaşan dünyada daha güclü olmaqdan ötəri daim

ittifaqlarda birləşməyin lazımlı olmasıdır. Onu da unutmaq olmaz ki, hələ də istehlakçı olaraq qalan Avropa üçün təbii və zəngin sərvətlərə malik Azərbaycan heç də maraqsız məkan deyil[8,674]. Bundan əlavə, əhəmiyyətli regional enerji layihələrinin məhz Cənubi Qafqazdan başlaması və hazırki durumda bunun aternativsizliyi də Azərbaycanın dəyərini artırmaqdadır.

Professor Əli Həsənov Avrointeqrasiya proseslərini bilavasitə Azərbaycanın xarici siyasət prioritetlərindən biri kimi nəzərdən keçirmir. O, bu prosesi daha iri bir prioritetin tərkib hissəsi kimi verir. O, yazır: "Azərbaycanın xarici siyasət prioritetləri sferasında Qərb ölkələrinin təmsil olunduğu Avropa Birliyi sisteminə [iqtisadi, siyasi, sosial, mədəni sahədə] və qlobal dünya siyasəti məkanına inteqrasiya mühüm yer tutur[3,245]. Ə.Həsənov Azərbaycanın xarici siyasətində Avropaya yönəlik vektorlarda nəzərdə tutulan prioritetləri aşağıdakı kimi şərh edir: "Azərbaycanın geosiyasi perspektivlərində mühüm əhəmiyyət kəsb edən dünyanın və regionun geosiyasi güc mərkəzləri ilə əlaqələri və münasibətləri, xüsusən Xəzərin enerji daşıyıcılarının istismarı və dünya bazarlarına çıxarılması, neft və təhlükəsizlik strategiyasının hazırlanması və həyata keçirilməsi, Şərq-Qərb nəqliyyat və kommunikasiya dəhlizinin yaradılması və təhlükəsizliyinin təmin edilməsi problemlərinin tədqiqi ... günün aktual məsələləri sırasındadır"[5,12].

Bütövlükdə Azərbaycanın Avropaya inteqrasiya prosesi 1991-ci ildən bəri üç mərhələdən keçmişdir. Hər bir mərhələdə Azərbaycanın Avropa məkanına inteqrasiya prosesi öz xarakterinə və intensivliyinə görə fərqlənmişdir. Avropaya inteqrasiyanın birinci mərhələsi 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra başlamış və 1993-cü ilin iyuluna qədər davam etmişdir [deklarativ mərhələ]. Uzun müddət totalitar rejimdə yaşamış və nəinki siyasi, hətta iqtisadi hüquqlara malik olmayan Azərbaycan xalqı imperiyanın süqutu dövründə üzləşdiyi xaos, qanunsuzluq, özbaşınalıq və haqsızlıqdan qurtulmaq və müasir, demokratik, hüquqi və ədalətli dövlət qurmaq üçün Avropa məkanına - Qərb sivilizasiyasına inteqrasiyanı özünün xarici siyasətinin prioriteti elan etdi[6,493].

1991-ci ildə Azərbaycan ATƏT-ə [o zaman ATƏM] üzv olmaqla Avropaya inteqrasiya yolunda ilk addımını atmış oldu. Bu dövrü həm də ATƏT-in inkişafının "Qızıl dövrü" adlandırmaq olar. Belə ki, 1990-1999-cu illərdə təşkilata üzv dövlətlərin dövlət və hökumət başçılarının beş zirvə görüşü keçirilmiş, təşkilatın strukturu möhkəmləndirilmiş, fəaliyyət istiqamətləri genişlənmiş və intensivləşmişdir. ATƏT-lə bərabər, Azərbaycan Respublikası 1992-1993-cü illərdə Avropanın digər beynəlxalq strukturları ilə də münasibətlər qurmaq niyyətini bəyan etdi. Azərbaycan 1992-ci ilin mart ayında NATO-nun 1991-ci ildə təsis edilmiş və sosializmdən azad olunmuş Şərqi Avropa ölkələri ilə qarşılıqlı tərəfdaşlığı və əməkdaşlığı nəzərdə tutan Şimali Atlantika Əməkdaşlıq Şurasına daxil oldu[7,57].

Lakin bütün bu siyasi addımlar bəyannamə səviyyəsindən irəli gedə bilmədi. Azərbaycan daxilində başlayan siyasi böhran, vətəndaş qarşıdurması və qeyri-legitim hakimiyyət dəyişiklikləri Azərbaycanın Avropaya inteqrasiya potensialını zəiflətdi, imkanlarını məhdudlaşdırdı, eyni zamanda Qərbin Azərbaycana olan etibarını azaltdı. Təsadüfi deyildir ki, məhz bu dövrdə, yəni 1992-ci ildə Azərbaycana qarşı ABŞ Konqresi tərəindən bədnam "Azadlığı Müdafiə Aktına 907 saylı düzəliş" adlanan sənəd qəbul edildi.

1991-ci ilin ortalarına doğru Azərbaycan hökuməti nəinki Avropaya inteqrasiya etmək, insan hüquq və azadlıqlarının aliliyinə əsaslanan demokratik və dünyəvi dövlət yaratmaq imkanlarını itirmişdi, hətta ölkənin ərazi bütövlüyünü və suverenliyin itirilmək təhlükəsi ilə üz-üzə idi. Belə bir ağır vəziyyətdə tarixçilərin sonradan Azərbaycanın müasir tarixinin vacib dövrünün başlanğıcı kimi qiymətləndirdikləri hadisə baş verdi. 1993- cü ilin iyun ayında Azərbaycanda hakimiyyətə müasir dövrün ən böyük siyasətçilərindən biri - Heydər Əliyev gəldi. Bu görkəmli tarixi şəxsiyyət hakimiyyətin zirvəsinə qalxdıqda Azərbaycan faktiki parçalanmış vəziyyətdə idi, ölkədə vətəndaş müharibəsi təhlükəsi real parametrlər almışdı. Azərbaycan xalqının demokratik quruculuqla bağlı bütün arzuları 1918-1920-ci illərdə olduğu kimi, tarixə qovu-şa bilərdi. Bu ağır tarixi şəraitdə öz xalqının əsl lideri kimi Heydər Əliyev demokratik dəyərlərdən imtina etmədi, mövcud problemləri güc yolu ilə, avtoritar üsullarla həll etmək siyasəti aparmadı, demokratik idarəetmə üsullarına üstünlük verdi.

Hakimiyyətinin ilk ilində Heydər Əliyev çox vacib bir konseptual məqamı – müasir dünya siyasi sistemində deklarativ deyil, real suverenliyə nail olmağı ön plana çəkərək qeyd edirdi: "Müstəqillik təkcə beynəlxalq təşkilatların bizi tanımasından ibarət deyil... müstəqilliyi inkişaf etdirmək, onu əldən buraxmamaq, bütün sahələrdə (rəhbər prinsip kimi) həyata keçirmək lazımdır"[2,19].

Beləliklə, Azərbaycanın siyasi inkişafında yeni bir mərhələnin (uyğunlaşma mərhələsi) əsası qoyuldu: milli demokratik dövlət quruculuğu ümumi bəyannamələrdən real siyasi proseslərə doğru irəlilədi. 1993-cü ildən başlayaraq Azərbaycan beynəlxalq əməkdaşlığın reallıqlarına sürətlə uyğunlaşmağa başladı. Yalnız 1994 - cü ildə həyata keçirilən siyasi fəaliyyət uyğunlaşma prosesinin yüksək templərlə gerçəkləşdirildiyini göstərir. NATO-nun Avropa məkanında təhlükəsizliyin təmin edilməsində artan rolunu və nüfuzunu nəzərə alaraq, mayın 4-də Heydər Əliyev "Sülh naminə tərəfdaşlıq proqramı"nın çərçivə sənədini imzaladı[1,19].

Bu dövrdə Heydər Əliyev dünyanın aparıcı dövlətlərinə, o cümlədən Avropa ölkələrinə intensiv xarici siyasi səfərlər edərək, Azərbaycanı informasiya blokadasından çıxarmağa, onu nəinki təbii sərvətlərlə zəngin olan ölkə olaraq tanıtmağa, həm də Avropa siyasi-hüquqi məkanına inteqrasiya etmək istəyən ölkə kimi təqdim etməyə nail oldu[1,17].

## Nəticə

Qısa zaman ərzində ölkənin yeni demokratik dəyərlərə uyğunlaşması sahəsində əhəmiyyətli uğurlar əldə edildi. Artıq bu dəyərlər nəzəri kateqoriyalar kimi deyil, gündəlik həyatın normaları kimi qəbul olunmağa başlanmışdı. Avropa məkanına inteqrasiyanın inkişafı əldə edilən nəticələrin yeni konstitusiyada əks olunmasını tələb edirdi. 1995-ci ildə referendum yolu ilə müstəqilliyin bərpasından sonra ilk konstitusiya qəbul edildi. Bu konstitusiya insan hüquq və azadlıqlarının ehtiva olunması baxımından ən yüksək normalara və standartlara cavab verirdi və Azərbaycanın demokratik inkişafının əsasını qoymaqla, onun beynəlxalq siyasətin yeni şərtlərinə uyğunlaşmasına zəmin yaratdı.

## ƏDƏBİYYAT

1. Əliyev H.Ə. "Müstəqillik yolu: seçilmiş fikirlər". Bakı, "Azərbaycan Universiteti nəşriyyatı", 1997, 136 s.
2. Əliyev H.Ə. "Müstəqilliyimiz əbədidir". 10-cu kitab. Bakı, "Azərnəşr", 2002, 472 s.
3. Həsənov Ə. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti". Bakı, "Azərbaycan", 2005. 752 s.
4. Həsənov Ə.M. "Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti". Bakı, "Letterpress" nəşriyyat evi, 2011, 440 səh.
5. Həsənov Ə.M. "Geosiyasət: nəzəriyyələri, metodologiyası, aktorları, tarixi, xarakteristikası, anlayışları". Ali məktəb tələbələri üçün dərslik. Bakı, "Aypara-3", 2010, 602 s.
6. Həsənov Ə.M. "Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri". Dərs vəsaiti. Bakı,"Azərnəşr", 2007. 248 s.
7. Hüseynova H. "Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində". Bakı, "Hərbi nəşriyyat", 1998, 280 s.
8. Mehdiyev R.Ə. "Demokratiya yolunda: irs haqqında düşünərkən". Bakı,"Şərq-Qərb", 2008, 792 s.
9. Mehdiyev R.Ə. "Azərbaycan: qloballaşma dövrünün tələbləri. Keçmişin dərsləri, bu günün reallıqları və gələcəyin perspektivləri". Bakı, "XXI-Yeni nəşrlər evi", 2005, 464 s.
10. Борко Ю.А., Буторина О.В. "Перспективы Евросоюэа в новом веке Современная Европа". 2001, № 3, С.23-29.
11. "Европеизация и разрешение конфликтов: конкретные исследования европейской периферии". Москва, изд. "Весь Мир", 2005, 312 с.
12. "Страны Центральной и Восточной Европы на пути в Европейский Союз".Отв. ред. Н.В. Куликова. Москва,"Наука", 2002. 206 с.

UOT 159.9.

# AİLƏDAXİLİ MÜNASİBƏTLƏRƏ KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN TƏSİRİ PROBLEMİNƏ NƏZƏRİ YANAŞMALAR

***Əli İbrahimbəyli***
*Bakı Slavyan Universiteti*
*ibrahimbeyli63@gmail.com*

**Açar sözlər:** *ailədaxili münasibətlər, ailə psixologiyası, ailədaxili münasibətlərin psixologiyası, ailəyə sosial təsir, sosial təsirin psixologiyası, KİV-in sosial təsiri, psixoanalitik yanaşma, biheviorist yanaşma, geştalt yanaşma, sosial-koqnitiv yanaşma*

*Məqalədə ailədaxili münasibətlərə kütləvi informasiya vasitələri, o cümlədən, televiziya və internetin təsirinə fəlsəfi, sosioloji, psixoloji və pedaqoji yanaşmalardan bəhs edilir. Bu fenomenin quruluşuna daxil olan məsələlərə: ailədaxili münasibətlər, ailə psixologiyası, ailədaxili münasibətlərin psixologiyası, ailəyə sosial təsir, sosial təsirin psixologiyası, KİV-in sosial təsiri, bu problemlərə psixoanalitik, biheviorist, geştalt və sosial-koqnitiv yanaşmaların istiqamətlərinə ayrılıqda baxılır. Qeyd edilir ki, ailədaxli münasibətlərə KİV-in təsirinin necə baş verdiyini və nəticələrin nədən ibarət olduğunu müəyyənləşdirmək üçün onun quruluşuna daxil olan problemlərə də ayrılıqda yanaşılır.*

*Məqalədə məsələni əhatəli araşdırmaq üçün sosial təsirin özünün psixoloji xüsusiyyətlərinin, şəxsiyyətin inkişaf problemlərinin, tədqiqtaın obyekti olan gənclərin psixologiyasının öyrənməyin də vacibliyi vurğulanır. Nəticə olaraq göstərilir ki, KİV-in təsiri ilə ailə münasibətlərində yaranan dəyişmələrin səbəbləri aydınlaşdırlaraq qabaqlayıcı tədbirlər görülmədikdə qarşılıqlı münasibətlərdə münaqişələrin yaranması, ailə üzvlərində şəxsiyyətdaxili münaqişələrin baş qaldırması mümkündür.*

## ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ К ПРОБЛЕМЕ ВЛИЯНИЯ СМИ НА ВНУТРИСЕМЕЙНЫЕ ОТНОШЕНИЯ

***Али Ибрагимбейли***

**Ключевые слова:***внутрисемейные отношения, семейная психология, психология семейных отношений, социальное воздействие на семью, психология социального воздействия, социальное воздействие СМИ,*

*психоаналитический подход, бихевиоральный подход, гештальт-подход, социально-когнитивный подход.*

*В статье рассматриваются подходы СМИ к внутрисемейным отношениям, в том числе философские, социологические, психологические и педагогические подходы к влиянию телевидения и интернета. Отдельно анализируются психоаналитический, бихевиористский, гештальтный и социально-когнитивный подходы к таким проблемам, как внутрисемейные отношения, семейная психология, психология взаимоотношений семьи, социальное воздействие на семью, психология социального воздействия, социальное воздействие СМИ, которые относятся к структуре данного феномена. Отмечается, что вопросы, затрагивающие структуру семьи, рассматриваются отдельно, чтобы определить влияние СМИ на внутрисемейные отношения и их результаты.*

*В статье подчеркивается важность изучения психологических особенностей социальных воздействий, проблем развития личности и психологии молодых людей, являющихся объектом исследований. В конце можно прийти к такому заключению, что если причины изменения семейных отношений, возникшие посредством средств массовой информации, не проясняются и в связи с этим не принимаются превентивные меры, то возможны конфликты во взаимоотношениях и внутриличностные конфликты внутри семьи.*

## THEORETICAL APPROACHES TO THE PROBLEM OF MEDIA INFLUENCE ON FAMILY RELATIONS

***Ali Ibrahimbeyli***

**Key words:** *family relations, family psychology, psychology of family relations, social impact on the family, psychology of social impact, social impact of mass media, psychoanalytic approach, behavioral approach, gestalt approach, socio-cognitive approach.*

*The main poit of the following article is the psychological, social and pedagogical attitude towards the mass media, as well as TV and internet impacts on familly relationships. The main issues included in the structure of this phenomena such as: familly relationships, familly psychology of social effect, social effect of mass media, directions of psychoanalytic, behaviorist, gestalt and socio-cognitive attitudes are analyzed in detail. It is marked that in*

*order to determine the content of mass media's impacts on familly relationships as well as the process itself, the issues included in it are touched, too.*

*An importance of analyzing the psychological features of social effect, problems in personality development, psychology of young generation who are the research object, is noted for deep investigation of the issue. It is emphasized that future familly conflicts can easily occur in the case of not taking preventing actions after investigating the reasons of relationship changes in families.*

İnsanın dünya mədəniyyətinə qovuşmasının, sosial normaları və dəyərləri mənim- səməsinin təməli ailədə qoyulur. Uşaq dünyaya gəldiyi gündən ailədə özünü sosial varlıq kimi dərketmə yoluna qədəm qoyur. Bu yolda mərhələ-mərhələ irəliləyir. Bioloji fərddən-sosial fərdə, şəxsiyyətə, nəhayət fəal subyektə çevrilir. Bundan başqa, ailə uşaqda sosial əlaqələr haqqında fikir formalaşdırır və uşağı bu əlaqələrə daxil edir. Deyilənlərdən ailənin əsas tarixi-ictimai funksiyaları əmələ gəlib: şəxsiyyətin sosiallaşması, mədəni irsin yeni nəslə ötürülməsi və d.

Müasir şəraitdə ailənin sosial funksiyaları xeyli dəyişiib. Çünki müasir ailənin inkişafı bir çox hallarda ailədaxili münasibətlər, şəxsi maraqların müxtəlifliyi, sərvət meyilləri, sosial rollar və s. ilə bağlı olur. Bu, bazar iqtisadiyyatı, hüquqi dövlət, kütləvi informasiya vasitələrinin təsiri kimi amillərdən qaynaqlanır. Nəticədə ailənin hər bir üzvündə qarşı tərəfə yeni münasibət formalaşır və ailə münasibətlərinin yeni, müasir mənzərəsi yaranır.

Digər tərəfdən, ailədaxili münasibətlər etnopsixoloji əsaslara malikdir. Hər bir dəyişən şəraitdə baş verənlərin özü fərqli olmaqla yanaşı, etnopsixoloji baxımdan da ayrı-ayrı xalqlarda özünəməxsus qaydada baş verir. R.İ.Əliyev bunları əsaslandıraraq qeyd edir ki, "aparılan bütün tədqiqatlarda millətin, xalqın formalaşmasında mühitin, etnogenin və tərbiyənin rolu göstərimişdir. Q.Lebon, Z.Freyd, və başqalarının fikrincə, etnogen əsas aparıcı təsir və əhəmiyyətə, mühit və tərbiyə isə ötəri, keçici, ikinci dərəcəli rola malikdir. V.Bexterev, Q.Tayd, S.Stouns və digərləri isə mühitin həlledici rol oynadığı fikrini ön plana çəkirlər" [1, s. 20].

Ə.Ə.Əlizadə xalqların ailə münasibətlərinə xas olan mədəniyyətinin: ənənələrin, qayda və normaların, davranış stereitiplərinin transformasiyasının necə baş verdiyini sadə şəkildə belə izah edir: "Güzəran psixologiyasına aid olan biliklərin köklərini xalqın çoxcəhətli təcrübəsi təşkil edir. İnsanlar bu bilikləri necə deyərlər, ana südü və laylası ilə mənimsəyirlər. Onların ünsiyyət təcrübəsində, bu biliklər özlərinin əslində ikinci ömrünü yaşayır, min bir görünüməz tellərlə nəsillərdən-nəsillərə verildikcə, daha da dərinləşir və yeni məna çalarları kəsb edir, etnopsixoloji fenomenlər kimi inkişaf edir" [2, s. 4].

İnsan şəxsiyyətinin formalaşmasına ailə münasibətlərinin təsiri çoxşaxəlidir. Bu münasibətlər mürəkkəb məzmuna malikdir. Burada bir çox üfiqi və şüqulu əlaqələr sistemi vardır: "ər-arvad", "valideyn-valideyn", "valideyn-övlad", "övlad-övlad". Hələ övladların özlərini münasibətləri də cinslərə görə dəyişir. Məsələn, "qardaş-bacı", "qardaş-qardaş", "bacı-bacı". Əgər ailədə nənə-baba, əmi-bibi, yaxud dayı-xala varsa, onların qarşılıqlı münasibətləri də bu məzmuna alavə olunur. Hansı ki, onların hər birinin qarşılıqlı münasibətləri tarixən fərqli modellərlə qurulur və indi də belədir.

Bundan başqa, ailədə münasibətlərin tənzimlənməsi yalnız ailə daxilindəki insanların qarşılıqlı əlaqələri müstəvisində getmir. Onlara çoxsaylı sosial amillərin də təsiri vardır. Z.N.Nəsrullayeva bunun səbəbini belə izah edir: "Ailə münasibətləri birbaşa, açıq şəkildə cəmiyyət həyatında baş verən proseslərlə bağlıdır. Cəmiyyət daxilində gedən yeniləşmə qeyd-şərtsiz ailə həyatına da ciddi və güclü şəkildə təsir göstərir. Ailə tərbiyəsi, ailədaxili münasibətlərin öyrənilməsi tədqiqata cəlb ounması bütün dövrlərdə diqqət mərkəzində olmuşdur" [3, s. 3].

Müasir dövrdə mühit amili dedikdə aparıcı yeri ailənin daxilinə nüfuz etmiş, onun hər bir üzvünü özünəməxsus şəkildə "özünə əsir etmiş" informasiya sistemi tutur. Deməli, ailədaxili münasibətlər özündə həmçinin mövcud sosial şəraitdəki informasiya sistemi ilə bağlı mürəkkəb məsələləri də birləşdirir. Burada bizi konkret olaraq maraqlandıranlar isə televiziya və internetdir. Göstərilən mürəkkəblikləri nəzərə alaraq problemə konkret nöqteyi-nəzərdən yanaşmalıyıq. Təhlillərimiz də bu istiqamətdə getməlidir. Ona görə biz burada aşağıdakı istiqamətləri əsas götürdük:

1) "təsir" fenomeni və onun münasibətlərlə əlaqəsi;
2) ailədaxili münasibətlərin sosial-psixoloji məzmunu;
3) ailə və onun üzləri informasiya (televiziya və internetin) təsirinin subyektləri kimi;

Əvvəlcə birinci istiqaməti nəzərdən keçirək.

Tədqiqatımızla bağlı aparılmış apardırmaların daha əsas istiqamətini, ümumiyyətlə, təsir fenomeni təşkil edir. Əgər biz ailədaxili münasibətlərə televiziya və internetin təsirini öyrənməyi qarşımıza məqsəd qoymuşuqsa, o halda əvvəlcə təsirin özünün psixoloji xarakterini ayınlaşdırmalı, onunla münasibət arasındakı əlaqələrin necə qurulmasını, hansı halda pozitiv, hansı halda isə neqativ olmasını bilməliyik.

Bu sahədə psixologiya elmində bir sıra fundamental tədqiqatlar aparılmış, problem daha çox kütlə psixologiyası, sosial təsirlər qismində öyrənilmişdir. Psixologiyada münasibətlərə təsirin sosial psixoloji əsasları F.Zimbardo, M.Lyapple tərəfindən sosial təsir [4], R.Çaldini tərəfindən təsirin psiologiyası baxımından tədqiq edilmişdir [5].

F.Zimbardo, M.Lyapple tərəfindən sosial təsirin bir sıra xassələri aydınlaşdırmışdır. Onların təhlillərində sosial təsirlərin müxtəlif psixoloji aspektləri göstərilir:
- təsirlər ailəmi;
- davranışa təsir;
- davranış vasitəsilə ustanovkaya təsir;
- təsirin şüur və şüuraltı ilə bağlılığı və s.

R.Çaldiniyə görə, davranış heç də həmişə situasiyaya uyğun gəlmir. Çünki, hətta ən yaxşı stereotip və xassələr həmişə yaxşı işləmir. Ancaq biz onların mükəmməl olmadığını etiraf edirik. Stereotiplər olmasa, biz sanki qeyd edərək, qiymətləndirərək, yoxlayaraq donub qalarıq. Nə qədər ki, həyatımızı dolduran stimullar daha da mürəkkəbləşərək daha da müxəlifləşir, bu halda real düşünmək və hərəkət etmək qabiliyyətlərimizdən rasional qaydada asılı olarağıq [5, s. 22].

Bu təhlillər o anlama gəlir ki, münasibətlərə olan (kənar) sosial təsirlərə verilən reaksiyalar heç də həmişə bu təsirlərin məzmununa adekvat olmur. Bizim təsirə münasibətimiz bir çox amillərdən, xüsusilə altşüurdan, keçmiş təcrübədən, stereitip və arxetiplərdən, həmçinin təsirin yaratdığı sensor təəssüratlardan asılı olur. Halbuki, ailə münasibətlərində qarşılıqlı təsirə rasional yanaşılmalı, düçünülərək reaksiya verilməlidir.

Sual yaranır: “Bəs ailədaxili münasibətlərin hansı tərəfləri sosial təsirə aid etdiyimiz informasiya (televiziya və internetin) təsirlərinə daha çox məruz qalaraq qarşılıqlı münasibətlərdə dəyişmələr yaradır. Əlbəttə, bu sualın cavabı bizi daha çox düşündürür. Axtarışlarımız da bu istiqamətdədir. Ancaq, hələlik bir sıra məsələləri aydınlaşdırmalıyıq. Ona görə də ilk növbədə problemə sosial-psixoloji yanaşmaları nəzərdən keçirək.

Psixoloji nəzəriyyələrdə problemə münasibət ailədə qarşılıqlı münasibətlər şəraitində psixika, fəaliyyət, davranış, nəhayət şəxsiyyətin inkişafı baxımından araşdırılır. Bunlardan psixoanaliz, biheviorizm, geştaltizm, şəxsiyyətəyönəlik, koqnitiv və sosial koqnitiv nəzəriyyələri qeyd etmək olar. Həmin nəzəriyyələrin (Freyd, Adler, Yunq və b.) əsas mahiyyəti ondan ibarətdir ki, hər bir fərd hələ kiçik yaşlardan başlayaraq ailədə sosial rolları yerinə yetirir. Bu prosesdə ailədəki insanlarla qarşılıqlı münasibətlərdə olaraq özünün informasiya tələbatını ödəyir, tələbatlarını ödəmək üçün yeni informasiyaya yiyələnir, yeni sosial rollar mənimsəyir. Beləliklə, özünün ailədəki və cəmiyyətdəki roluna müvafiq münasibətlər sisteminə sahib olur. Digər tərəfdən, o, məhz yeni informasiyalar sayəsində müntəzəm olaraq özündə ictimai təcrübənin müxtəlif nümunələrini formalaşdırır. Özünü mühitə uyğunlaşdırır. Beləliklə o, bir sıra mərhələlərdən keçərək, insanlarla qarşılıqlı münasibətlərini daha da təkmilləşdirərək yeni sosial təcrübə əldə edir, oriyentasiyaya sahib olur,

özünün davranışını nizamlayır. Davranışın normalarını yaşadığı mühitdə qəbul edilmiş normalara münasib olaraq tənzimləyir.

Dünyada ailə mədəniyyətinin ilk tədqiqtaçıları sosioloqlar olmuşdur (Ç.Kuli, D.Mİd, D.Mayers və b.). Ç.Kuli ailə münasibələrini kiçik qrup kontekstində nəzərdən keçirir. O, ailəni, dostları, yaxın qonşuları "birinci" qrupa aid edir. Ç.Kulinin fikrincə, "birinci" qruplarda insanlar bilavasitə ünsiyyətə girirlər, lakin bu əlamət əsas götürüldükdə "birinci" qrup kiçik qrupla eyniləşdirilmiş olur [6, s. 326-239].

Əgər şəxsiyyətin inkişafinın əsas məqsədinin öz imkanlarını, qabiliyyətlərini, bilik və bacarıq potensialını reallaşmaq olduğunu nəzərə alsaq, onların reallaşmasında, göründüyü kimi, sosial təsirlərin vacibliyi də danılmazdır, lakin bu təsirlər həmişə inkişaf üçün əhəmiyyətli olmur. Ona görə də bəşəriyyətin inkişafı dövründə olduğu kimi, hər bir fərdin inkişafında da sosial təsirlərə seçici yanaşılır: "Tədqiqatlar göstərir ki, cəmiyyətdəki hər hansı dəyişiklik və insanın yeni sosial münasibətlər sisteminə qoşulması onun şəxsiyyətinin tamlığını pozur. Psixoanalizin sosializasiya istiqamətinin nümayəndələri (K.Xorni, A.Adler və b.) uşaqların erkən tərbiyəsi ilə böyüklərin həyat şəraiti arasında determinasiya olduğunu göstərirlər. Q.Erikson isə tərbiyənin əsasını cəmiyyətin mənəvi dəyərləri, məşğul olduqları fəaliyyət sahəsi və başlıcası, iqtisadi durumdan asılı olduğu qənaətinə gəlir. Onun fikrincə, iqtisadi sistem və mədəniyyətin sintezi tərbiyədə başlıca rol oynayır. Cəmiyyətin mənəvi dəyərləri isə iqtisadi, psixoloji və əxlaqi bazaya əsaslanmaqla fərdin ictimai davranışı mənimsəməsinın səbəbi olur" [1, s. 17].
Z.Freydin ailə münasibətlərinin psixikaya təsiri ilə bağlı psixoanalitik yanaşması aşağıdakılardan ibarətdir [7].

- Ailə münasibətləri strukturunun açıq və gizli tərəfləri vardır. Açıq (fasad) strukturu izah etməyə imkan verənlər, qeyri-legitim yarımstruktura aid olanlar (ailə dostları, sevgililər) ailə sisteminin formal müəyyənləşdirilmiş sərhədlərində yerləşənlərdir.
- İnsanın simptomlarının identifikasiyasını onun pozulmuş ailə münasibətlərinin ifadəsi, simptom-simvol kimi müzakirə etmək olar. Simptomun açarını taparaq ailə sisteminin güclü və zəif tərəfini, "axillesin dabanı"nı da tapmaq mümkündür.
- İdentifikasiya edilən pasiyentin simptomlarını ailədəki hakimiyyətin strukturu, ierarxiya və onu müdafiə edənləri, onun üçün təhlükə yaradanları, yaxud pozulmasına səbəb olanları, üsyankarlıq, məsuliyyətsizlik edənləri aydınlaşdırmaq mümkündür.
- İnsanın psixoloji simptomları ailə sisteminə daxil olan digər üzvlərlə qarşılıqlı münasibətlərin vasitəsi olmaqla onun stabitliyini pozur, ya da pozumuş balansı bərpa edir.

- Gizlədilənlər, uşaq qavrayışına, şüuruna yol açmadan sıxışdırılalar və ya qovulanlar mümkün qarışmalar yaradaraq xatirələri pərdələməklə fərdi hafizənin strukturunu müəyyən edir. Ailə sirləri və onu gizlədən, ailə mifi ilə pərdələyənlər şəxsiyyətin formalaşmasının xarici faktorlarıdır. Eqo, özünüdərketmə şəxsiyyət mifinin identikliyidir.

K.Yunqun analitik nəzəriyyəsində şüuraltı amillər, xüsusilə, arxetiplər psixi inkişafın məzmununu müəyyənləşdirən mühüm şərtlərdən biri kimi qəbul edilir. K.Q.Yunq bu amillərin istər fərdlər, istərsə də təmsil etdiyi insan qrupuna təsirini aydınlaşdırır: “Uşağın öz anası ilə bağlı olan qavrayışındaonun xarakteristikası haqqındakı arxetipik anaatributları: tərbiyə, nəsilartırma, cismani bağlılıq kimi məsələlər barədə noqteyi-nəzərlər mühüm rol oynayır” [8, s. 201]. K.Q.Yunqa görə, ailə münasibətləri də əvvəlcə bu şüuraltı təsirlər fonunda qurulur.Getdikcə, yuxarı yaşlarda münasibətlərin real tərəfləri özünü göstərir.Ailədə münasibətlər də məhz həmin dövrlərdə özünün real görkəmini almağa başlayır.

İrəli sürdüyü fərdiyyət nəzəriyyəsində A.Adlerin qənaətinə görə, ailədəki qarşılıqlı münasibətlərin məzmunu nəinki uşaqda sosial rola sahibolma marağına, həmçinin, ümumiyyətlə, sosial maraqlarına da təsir edir: “Sosial maraq sosial əhatədə inkişaf edir. Bşaqa insanlar, hər kəsdən əvvəl ana, ondan sonra ailənin digər üzvləri inkişaf prosesinə yardım edirlər, lakin məhz ana həyatın ilk illərindən başlayaraq ona daha çox təsir edərək sosial maraqların inkişafına səy göstərir. Adler tərbiyə prosesinə ananın təsirinə ikili yanaşır: rəğbətləndirmə və ətrafdakı insanalrın dəstəyi sosial maraqların yaranmasını gücləndirir” [8, s. 175].

Biheviorizmdə münasibətlərin psixikaya təsiri davranışda öyrənilir.Belə ki, onlar inkişafda valideynlərin uşağa mənfi təsirinin nəticələri haqqındakı faktlara istinad edərək sosial amillərin rolunu ikincidərəcəli amil kimi qiymətləndirirlər. Məsələn, D.Uotson biheviorizmin problemə münasibətini belə izah edir: “Əgər biz soyləsək ki, valideynlər uşağın psixikasını öz valideynlərinin tətbiq etdikləri tərbiyə metodlarından istifadə etməklə korlayırlar, fikrimiz aydın olar” [9, s. 344].

Dünyada ailə nəzəriyyələrinin banisi Mürrey Bouen hesab olunur. O, XX əsrin ortalarında Amerikada ilk dəfə olaraq praktik ailə terapiyası məktəbi yaratmışdır. M.Bouen həmin dövrlərdə Z.Feydin yaratdığı analitik terapiyanın fərdiliyə, subyektivliyə yönəlməsindən narazı idi.Eləcə də, feridizmdə təbii elmlərin iştirak etməməsini qənaətbəxş saymırdı [10, s. 156].

M.Bouenin nəzəriyyəsində ailə sisteminin çoxşaxəli vəziyyəti

**Şəkil 1.**




M.Bouenin ailə nəzəriyyəsinin əsasında canlı orqanizmlərin hər hansı mürəkkəb səviyyəli emosional vəziyyəti haqqındakı fikirlər durur. O, insanın davranışında qarşılıqlı münasibətlərin az və çox dərəcədə mexaniki xarakter daşıdığını göstərir. Əgər qıcıqlanma çoxdursa, insanın reaksiyası daha çox avtomatik, “emosional” olacaq. Qıcıqlanma az olduqda daha az avtomatik və düşünülmüş xarakter daşıyacaq. Onun ailə sistemi nəzəriyyəsində səkkiz vəziyyət ayırd edilir [10, s. 157]**(şəkil 1).**

İnsanın “emosional” xəstələnməsini M.Bouen ailənin emosional ssiteminin disfunksiyası ilə əlaqələndirir.Onun nəzəriyyəsinə əsaslanan mütəxəssilər psixiatrik xəstəliklərin səbəblərini tibbi amillərdən daha çox insanın psixoloji, somatik və ya sosial simptomları hesab edirlər.Belə ki, emosional problemlər nəsillər boyu ailənin qarşılıqlı münasibətlərində bir nəsildən digərinə daşınır.

M.Bouenin bu mülahizələrinin tədqiqatımız üçün də xüsusi əhəmiyyəti vardır.Əgər ailədə nəsillər boyu trasformasiya edilən emosional informasiyalar varsa, deməli ailə üzvlərinin altşüurundakı genetik hafizədə saxlanılan istək və meyillərlərin informasiya seçiciliyinə təsiri də mümkündür.Çünki genetik informasiyaların avtomatik olaraq özünə adekvat informasiyalarla assosiasiya yaratması daha qanunauyğundur.

Belə məlum olur ki, inkişafda olan insanın daxili aləmi ətraf aləmin təsirlərinə seçici yanaşır.Yalnız özünü qaneedənləri mənimsəyir.Hər bir şəraitdə yalnız ənənələrə görə deyil, həmçinin özünün şəxsiyyətinə, eləcə də kənar

təsirlərə uyğun olaraq davranış nümayiş etdirir. Bu halda ona öyrədilənlərin konkret nümunələrlə təsdiqlənməsini, ona göstərilən təsirlərdə vahidliyin olmasını, ailədəki yaşlıların təsirləri, şəxsi nümunəsi ilə digər informativ təsirlərin: televiziya, internet, radio, sosial məkan və s. vəhdət təşkil etməsi çox mühümdür.

Araşdırmamızın digər bir istiqamətinə görə ailə və onun üzləri informasiya təsirinin subyektləridir.Yəni, ailədəki insanların hər biri hansısa formada televiziyanın, internetin təsirinə məruz qalırlar.Bəziləri bü təsirə, ümumiyyətlə açıqdırlar.Yaşlı nəsil daha çox televiziyadan, yeniyetmə və gənclər isə internetdən istifadədə maraqlı və təşəbbüskardırlar.Bəziləri öz həyatını bu əlaqələr olmadan təsəvvür belə edə bilmirlər.Hətta, yeniyetmə və gənclər arasında artıq “internet asılılığı” adında psixoloji sindromlar qeydə alın¬maqda, onun statistikası isə getdikcə artmaqdadır.Uşaqlarda əsrin telefon asılılığından daha çox inkişaf edən yeni xəstəliyi - “PİKA” sindromu aşkar edilmişdir.Ona görə də ailə üzvlərinin hər biri, əslində, televiziya və internetdə yayılan informasiya təsirlərinin subyektləridir.Bu təsirlərdən hansının pozitiv, hansının neqativ olması isə ayrıca mövzudur.Hələlik biz burada ailə münasibətləri və onunla KİV-in əlaqəsini öyrənməyə çalışırıq.

Ailədaxili münasibətlərin formalaşmasına KİV-in təsirini daha məzmunlu öyrənmək üçün münasibətlərin psixologiyasına qısaca nəzər salaq. Problemlə bağlı araşdırdığımız mənbələr arasında V.N.Myasişevin münasibətlərin psixologiyası [11], M.İ.Lisinanın ünsiyyətin ontogenetik problemləri [12]və d. mənbələr bizim üçün mühüm məlumatlar əldə etməyə imkan vermişdir, lakin nəzərdən keçirdiyimiz bu mənbələrdə konkret olaraq münasibətlər KİV-in təsirinə ayrılıqda baxılmır.

V.N.Myasişevin münasibətlərin psixologiyasını izah edərkən göstərir ki, insan psixikasının sağlamlıq vəziyyəti, eləcə də inkişafın isitqaməti münasibətlərin məzmunundan asılıdır: “Pozulmuş münasibətlərin nevroz və terapiyadakı rolunuun izahı aydın göstərir ki, nevnopsixoloji profilaktika və gigiyena şəxsiyyət və onun münasibətlərindən nəinki yan keçmir, həm də insanın ayrı-ayrı xassələrinin formalaşmasında bir sıra vəzifələr qoyur. Göstərə bilərik: fərdilik və eqosetrizm, qapalılıq və gizlilik, təəssüratların ənənəvi, emosional işlənməsi, özünə və özünüsevərliyə tənqidi münasibətin çatışmazlığı yalnız psixi travmaların mənbəyi sayılmır, onlar həm də həyati çətinliklərin əmələ gəlməsinin qeyri-adekvat porologiyası hesab olunur” [11,s.15].

Problemə sosial-pedaqoji yanaşmaları öyrənmək də bizim üçün bir neçə baxımdan əhəmiyyətlidir:

- Birincisi, ailə sosial institutdur. Onun sosial pedaqoji və sosial psixoloji problemləri çox zaman biri-biri ilə çulğalaşır.
- İkincisi, ailənin demoqrafik problemləri də vardır ki, onun nəticələri bilavasitə özünü ailədaxili münasibətlərdə göstərir.

H.Ə.Əlizadə bununla bağlı olaraq ailənin üzləşdiyi çətinliklərin nəticələrini aydınlaşdırır.Tədqiqatçı ailənin özünün daxili quruluşunun da münasibətlərə təsir göstərdiyini önə çəkir.“Ailə münasibətlərini hansı formada olursa-olsun, zəifləməsi ailə ixtilaflarının əmələ gəlməsi üçün əlverişli şərait yaradır.Mütəxəssislər son zamanlar bu baxımdan uğursuz və natamam ailələrə xüsusi diqqət yetirirlər.Uğursuz ailə mahiyyət etibarilə sosioloji və sosial-psixoloji fenomendir, onun xüsusiyyətləri də əsasən həmin elmlər çərçivəsində öyrənilir. Uğursuz ailənin sosial-pedaqoji problemləri də çoxdur” [12, s. 244].

Ailədaxili münasibətlər və şəxsiyyətlərarası münasibətləri bir çox hallarda sinonimlər kimi yanaşılır, çünki ailədəki insanlar (ağır psixi xəstələr istisna olmaqla) özləri də şəxsiyyətlərdir.Hər şey onların qarşılıqlı təsirindən, qarşılıqlı qavramasından, dərketməsindən, qəbuletməsindən, o cümlədən, adaptasiya və uyğunlaşmasından başlanır.

A.M.Mustafayev bu məsələyə - birgə fəaliyyət şəraitində şəxsiyyətlər-arası qavrayışın dinamikası [13], L.B.Şneyder - ailə münasibətlərinin psixologiyası, Z.N. Nəsrullayeva - ailədaxili münasibətlər və şəxsiyyətin formalaşmasına onun təsiri [15], K.M. Şiriyeva - Azərbaycanın cənub zonasında ailə konfliktləri və onların psixoloji təhlili [16], R.O.Məmmədova ailədaxili münaqişələrin kiçikyaşlı məktəblilərin psixi inkişafına təsiri [17] baxımından yanaşırlar. Z.N. Nəsrullayeva öz fikirlərini belə izah edir: “Ailə-daxili münasibətlər cəmiyyətin həyatında gedən münasibətlərdən, sosial mühitin təsirlərindən, eyni zamanda obyektiv hadisələrin subyektiv qavranıl-ması və dərk olunmasından, proseslərin düşüncə və davranışa hansı aspektdə: pozitiv və ya neqativ təsirindən çox asılıdır” [3, s. 14].

Nəzərdən keçirdiyimiz bu və digər mənbələrdə televiziya və internetin bilavasitə ailədaxili münasibətlərə təsiri haqqında daha konkret faktlar əldə edə bilmədik.Bu araşdırmalar bizə problemi yaradan amilləri öyrənmək baxımından daha əhəmiyyətli olmuşdur.

KİV-in ailə münasibətlərinə təsirinin öyrənilməsi başlıca məqsəd-lərimizdən biridir.Bu sahədə dünyada müxtəlif istiqamətlərdə statistik nəticələr üzərində işləyən təşkilatlar fəaliyyət göstərir.Belə təşkilatlardan biri Amerika Tibbi Assosiasiyasıdır.ATA-ın internet saytlarında KİV-in psixikaya zərərli təsiri haqqında rəsmi statistika haqqında informasiyalar yayılır.Belə saytlardan biri “http://www.amassn. org.”; “http://www.who.int/ru”; “http://minobr.org.” adlanır. Tədqiqatda yeri gəldikcə bu məlumatlardan yararlanmışıq.

Digər mühüm məsələ ailədaxili münasibətlərə KİV-in təsirinin məzmununu açmaqdır. Birincisi, bu məzmun fərqli istiqamətlərdə öyrənil-məlidir:

a) təsir pozitiv və neqativ ola bilər;

b) təsir hər bir fərdə, onun yaş və cinsi xüsusiyyətlərinə görə fərqli tərzdə ola bilər;

c) təsirin ailə münasibətlərində yaratdığı dəyişmələr onun mənbəyində (internet və televiziyada) axtarılmaya bilər.

Bu zaman qarşılıqlı münasibətlərdə münaqişələrin yaranması, ailə üzvlərində şəx¬siyyətdaxili münaqişələrin baş qaldırması və d. hallar mümkündür.Sonda bu vəziyyətin özü ailədaxili münasibətlərində münaqişlərin yaranmasına gətirib çıxaracaqdır.

Qeyd edilən məsələlərlə bağlı tədqiqatçıların araşdırmaları da yetərincədir.Bu istiqamətdə T.V.Konyuxova informasiya mühitində KİV-in kütlə şüuruna təsirini müəyyənləşdirir [18].T.D.Marsinovskaya problemi informasiya mühitini müasir yeni nəslin sosiallaşmasının əsas faktoru kimi diqqət mərkəzinə gətirir [19].

KİV-in şəxsiyyətə təsiri barədə araşdırmalarda (Q.Y.Boxonov, V.A.Tufanova) onun müsbət və mənfi tərəfləri ayırd edilir.Televiziyanın dəyər-oriyentasiyasına təsiri və onun neqativ nəticələrinin aradan qaldırılması yollarını müəyyənləşdirən (N.A.Matveyeva), məktəblilərin televiziyaya baxmalarının arzuolunan və olunmayan tərəflərini ayırd edən (A.V.Şarikov), televizorun uşaqların sağlamlığına təsiri haqqında faktlarla çıxış edən (D.Lemiş) tədqiqatlarda maraqlı və əhəmiyyətlidir.

KİV- dən istifadədə özünənəzarətin təşkili mühüm şərtir.Bu yollar gənclərə psixoloji xidmətin təşkili vasitəsilə öyrədilə bilər.Mövzunun aktuallığı nəzərə alınaraq ailəyə və təhsilə psixoloji xidmətin aktual psixoloji problemlərini (Əliyev, Bəylərov, Əmrahlı və b.)də ayrılıqda təhlil etdi. Bu sahədə E.B.Bəylərovun tədqiqatları əsasında internetdən istifadədə üstünlük verilən istiqamətləri aşkara çıxarmaq üçün gənclərin dəyər-motivasiya sahəsini, yönəlişliyi müəyyənləşdirdik.Sınanılanların intellekt səviyyələrinin inkişaf etdirilməsində testlərdən istifadə yollarını öyrəndik [20].

Problemlə bağlı digər araşdırmalarımız aşağıdakı isitqamətlərdə olmuşdur:

- valideynlərdən asılılığın psixoloji səbəbləri (O.P.Makuşina);
- ailə münasibətlərinin psixologiyası ilə bağlı konsultasiyaların nəticələri (V.P.Kaznaçayev, O.A.Karabanova, E.V.Yejanova);
-valideynlərin ustanovka və reaksiyalarının ölçülməsi metodikası (T.V.Arxipeyeva).

Başqa bir istiqamətdə tədqiqatçıların ailə münasibətlərinin praktik tərəfləri ilə əlaqəsi olan məsələləri - diaqnostika, korreksiya, konsultasiya, terapiya və d. öyrəndik.Bu araşdırmalar sayəsində ailənin praktik psixologiyasında öz izini qoymuş mütəxəssislər tərəfindən işlənmiş tədqiqatların faktlarınıümumiləşdirdik. O cümlədən ailəyə psixoloji xidmətlə bağlı edilən psixoterapevtik təsirlərin metodoloji əsaslarının müəyyənləşdirdik.

Ailə terapiyası modelləri

**Şəkil 2.**




Şəkildə verilmiş mənbələr əsasında tədqiqatın metodikası, iş formaları, nəticə, təklif və tövsiyələrlə bağlı elmi - nəzəri istiqaməti qurulmuşdur.

Beləliklə, ailədaxili münasibətlərin formalaşmasına kütləvi informasiya vasitələrinin təsirinin nəzəri məsələlərinin ədəbiyyatda qoyuluşunun təhlil edərək bu nəticəyə gəlirik ki, araşdırdığımız problem çoxsahəli və mürəkkəbdir. Burada bir tərəfdən ailə, onun psixologiyası, ailə münasibətlərinin fərqli tərəfləri, xarakterik xüsusiyyətləri, tipləri və növləri öyrənilməli, digər tərfdən müxtəlif yaş qrupunu təmsil edən ailə üzvlərinin (orta yaş səviyyəsində olan valideynlərin və erkən yaşlı gənclərin) yaş, fərdi, cinsi xüsusiyyətlərini öyrənməli, qarşılıqlı münasibətlərdə onların sosial rollarına xas olan norma və qaydaları, mənəvi-əxlaqi məsələləri, mədəni dəyərləri və tələbləri aydınlaşdırmalıyıq.

## ƏDƏBİYYAT

1. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının etnopsixoloji əsasları// avtoref. psixol. elm. dokt. Bakı: BDU, 2004, 58 s.
2. Əlizadə Ə.Ə. Azərbaycan etnopsixologiyasına giriş. Bakı: Renessans, 2003, 258 s.
3. Nəsrullayeva Z.N. Alədaxili münasibətlər və şəxsiyyətin formalaşmasına onun təsiri // Psixol. üzrə fəl. dok... avtoreferat. Bakı: 2011, 18 s.

4. Зимбардо Ф., Ляйппе М. Социальное влияние.СПб.: Питер, 2011, 448 с.

5. Чалдини Р. Психология влияния. СПб.: Питер, 2012, 304 с.

6. Кули Ч. Социальная самость //Американская социологическая мысль: Тексты / Под ред. В.И. Добренькова. М.: Изд-во МГУ, 1994, с. 316-329

7. Фрейд З. Психоанализ. Санкт-Петербург, 2001, 420 с.

8. Адлер А., Юнг К.Г. Резултаты пересмотра динамического направления // Тео¬рии личности. СПб.: Питер, 1997, с.161-213

9. Уотсон Б. Дж. Психологический уход за ребенком //Дошкольная психология. Хрестоматия.М.: Академия, 2000, с.342-350

10. Теория семейных систем М.Боуена // http://www.voppsy.ru

11. Мясищев В.Н. Личность и отношения человека // Проблемы личности: Материалы симпозиума. М.: Сборник работ ЛГУи НИИ им. Бехтерева, 1969, 342 с.

12. Лисина М.И. Проблемы онтогенеза общения. М.: Педагогика. 1986, 263 с.

13. Əlizadə H.Ə. Sosial pedaqogikanın aktual problemləri. Bakı: Səda, 1998, 342 s.

14. Mustafayev A.M. Birgə fəaliyyət şəraitində şəxsiyyətlərarası qavrayışın dinamikası//psixol. üzrə fəl dok. avroreferatı. Bakı: 2004, 22 c.

15. Шнейдер Л.Б. Психология семейных отношений.М.:Владос, 2009, 346с.

16. Şiriyeva K.M. Azərbaycanın cənub zonasında ailə konfliktləri və onların psioloji təhlili //psixol. elm. nam.diss. Bakı: 1998, 142 s.

17. Məmmədova R.O. Ailədaxili münaqişələrin kiçikyaşlı məktəblilərin psixi inkişafına təsiri // psixol. elm üzrə fəl. dok. diss..., 2017, 153 s.

18. Конюхова Т.В. Влияние сми на массовое сознание в информационном обществе // Фундаментальные исследования, 2005, № 3, с. 71-72

19. Марцинковская Т.Д. Информационное пространство как фактор социализации современных подростков // Мир психологии, 2010, №3, с. 90-102

20. E.B. Şagirdlərin intellekt səviyyələrinin inkişaf etdirilməsində testlərdən istifadə // Ped. elm. nam. dis. avtoreferatı. Bakı: ADPU-nun mətbəəsi, 2005, 23 s.

21. http://www.intellectrate.ru/stadisotsializatsiyalichnosti.htm.Стадии социализация личности

**UOT 376.**

# ANADANGƏLMƏ DODAQ VƏ DAMAQ YARIĞI OLAN KÖRPƏLƏRİN PSİXOMOTOR İNKİŞAFININ XÜSUSİYYƏTLƏRİ

***Nailə Hüseynova***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*nailyahuseyn72@gmail.com*

**Açar sözlər:** *anadangəlmə dodaq və damaq yarığı, inkişaf qüsurları, nitq aktivliyi, damaq əməliyyatı, səs tələffüzü çatışmazlığı, nitq inkişafı*

*Sağlamlıq imkanları məhdud olan uşaqların sayının daim artması son iki onilliyin sabit tendensiyasıdır; bu qrupda əsas yerlərdən birini anadangəlmə dodaq və damaq yarığı olan uşaqlar tutur.Damaqda yarığın olması uşağın həyatının ilk saatlarından tənəffüs və qidalanma funksiyalarının pozulmasına gətirib çıxarır.Damaq yarığı olan uşaqlar mövcud əmmə refleksini həyata keçirə bilmir. Onlarda ağız boşluğunun hermetizasiyası yoxdur, aspirasiya mümkün deyil, udma zamanı isə südün bir hissəsi burun yollarından tökülür.Bundan əlavə qeyd etmək lazımdır ki, rinolaliyalı uşaqlarda düşüncə fəaliyyətinin ayrı-ayrı sahələrinin inkişafdan qalması psixi inkişafın nitqin artikulyasiya sahəsinin qüsuru nəticəsində ikinci ləngiməsi xarakteri daşıyır.*

# ОСОБЕННОСТИ ПСИХОМОТОРНОГО РАЗВИТИЯ МЛАДЕНЦЕВ С ВРОЖДЕННЫМИ РАСЩЕЛИНАМИ ГУБЫ И НЕБА

***Наиля Гусейнова***

**Ключевые слова:** *врожденные расщелины губы и неба, дефекты развития, речевая активность, операция неба, недостаточность звукопроизношения, развитие речи*

*В последние годы увеличения численности роста детей с ограниченными возможностями здоровья превратилась в постоянную тенденцию. В этой группе одной из основных мест составляют дети с врожденными расщелинами губы и неба. С первых часов жизни ребенка расщелина неба приводит к нарушениям функции дыхания и приема пищи. Дети с расщелинами неба не приспособлены к сосательным рефлексам. У*

*них нет герметизации ротовой полости, невозможна аспирация, а часть молока при глотании выливается из носовых путей.Следует указать, что у детей с ринолалией недоразвитие отдельных зон мыслительной деятельности, в результате задержки психического развития и дефекта речевой артикуляции носит характер вторичной задержки.*

## FEATURES OF PSYCHOMOTOR DEVELOPMENT OF THE CHILDREN WITH CONGENITAL CLEFT LIP AND PALATE

***Naila Huseynova***

**Key words:** *congenital cleft lip and palate, developmental disorders, speech activities,surgery of cleft palate,voice pronounce disability,speech development*

*The constant increase in the number of children with special needs is a steady tendency of the last two decades; one of the main places in this group is children with congenital cleft lip and palate. There is a cleft in the palate leads to the breakdown of respiratory and nutritional functions in the early hours of the child's life.Children with cleft palate cannot perform an absorption reflex.They do not have a hermetisation of the oral cavity, aspiration is not possible, and during absorption, some of the milk drops into the nasal passages.We must also to note that the development of thinking in the children with the rinolalia is the second delay in the development of mental development as a result of defect of articular field.*

Uşağın həyatının ilk ili daha sonrakı dövründən bununla fərqlənir ki, bu da dövr ərzində hələ yalnız bütün psixoloji funksiyaların inkişaf əsası toplanır, körpə isə artıq öncəki nəsil tərəfindən yığılmış ictimai-tarixi təcrübə prosesinə keçid etmiş olur. L.S.Vıqotski (1984) körpə yaşın iki məqamın inkişafının bütün özünəməxsusluqlarını müəyyən edən əsas xüsusiyyətlərini xarakterizə edir. Bunlardan birincisi körpənin tam bioloji köməksizliyi ilə bağlıdır ki, bunun nəticəsində də uşaq böyüyün asılılığına düşür. İkinci məqam budur ki, böyüklərdən maksimal asılı olduğu zaman uşaq insan nitqi kimi əsas sosial ünsiyyət vasitəsindən məhrum olur [1, səh.,35].

Sağlamlıq imkanları məhdud olan uşaqların sayının daim artması son iki onilliyin sabit tendensiyasıdır, bu qrupda əsas yerlərdən birini anadangəlmə dodaq və damaq yarığı olan uşaqlar tutur. Anadangəlmə dodaq və damaq yarığının yayılması 1:1000-dən 5,38:1000-ə qədər dəyişir və anadangəlmə

inkişaf qüsurları arasında ikinci yer tutur (M.V.Yeqorova (2011), V.P.Kozlova (1999).

Yarığın əmələ gəlmə səbəbləri, embrional inkişaf dövrünün 7-8-ci və 11-12-ci həftələrində (hamiləliyin 1-ci üç ayı) uşağa təsir edən patoloji faktor hesab olunur. Anadangəlmə dodaq və damaq yarığının dəqiq genetik şərtləri yoxdu, risk faktorları arasında isə ekzogen (fiziki, kimyəvi, bioloji, psixogen) və endogen zərərlərin toplusu, həmçinin—asosial həyat şərtləri, ailədə pis qarşılıqlı münasibət, hamiləlik zamanı ananın tam qidalanmaması, valideynlərin zərərli vərdişləri, müvəffəqiyyətsiz mamalıq anamnezi (ginekoloji xəstəliklər, abortlar, hamiləliyin kəsilməsi təhlükəsi, erkən toksikoz), hamiləliyin ilk yarısında kəskin infeksiya, gələcək valideynlərdə peşə zərərlərinin olması, ekoloji cəhətdən əlverişsiz ərazidə yaşamaq. Patogen faktorun həyata keçmə-sinin erkən vaxtlarında onun əmələ gəlməsinn müxtəlif faktorları, anadangəlmə dodaq və damaq yarığına, ümumi psixoloji və nitq inkişafına təsir edə bilən polimorf qüsur kimi baxılır.Anadangəlmə dodaq və damaq yarığı olan uşaqların reabilitasiyası ailə və cəmiyyət üçün mürəkkəb tibbi-sosial-psixoloji-pedaqoji problem təşkil edir və həm tibbdə həm də pedaqogikada aktual olaraq qalır. Dodaq və damaq qüsurlu uşaqlar öz sağlam həmyaşıdlarından daha çox hallarda, doğulanların ümumi populyasiya sayının 7%-dən 19,4%-ə qədərindən qarşılıq olaraq, 5%-dən 10%-ə qədər vaxtından öncə doğulurlar[1, səh.27]. Anadangəlmə damaq yarığı olan uşaqların çəkisi yuxarı (4500 qramdan) və az (1500 qramadək) ola bilər. Bu inkişaf patologiyası ilə az çəkili uşaqların 40,3%-də, orta çəki 41,6%-də və yüksək çəki isə yalnız 18,64%-də qeydə alınmışdır.

Damaqda yarığın olması uşağın həyatının ilk saatlarından tənəffüs və qidalanma funksiyalarının pozulmasına gətirib çıxarır.Damaq yarığı olan uşaqlar mövcud əmmə refleksini həyata keçirə bilmir. Onlarda ağız boşluğunun hermetizasiyası yoxdur, aspirasiya mümkün deyil, udqunma zamanı isə südün bir hissəsi burun yollarından tökülür. Bəzi hallarda uşaq sinəyə qoyulduğu zaman sağlam tərəfi ilə əmziyi kənardan tutur və yarığı dili ilə bağlayır və ya yarıq ananın döşü ilə bağlandıqda ana südü ilə qidalandırılması mümkün olur. Müşahidələr nətıçəsində aşkar olunub ki, uşaqların bir qismində erkən əməliyyat müdaxiləsindən sonra əmmə refleksini bərpa etmək mümkündü. Dodaq və damaq yarığı olan uşaqlarda daha çox rast gəlinən ağırlaşma pnevmaniya və bronxit (47,3%), udlağın (72,9%) və badamcıqların (36,2%) xroniki xəstəliyi hesab olunur. Uşaqların tənəffüsü sürətlənmiş olur, ciyərlərin həyat həcmi azalır, döş qəfəsi inkişafdan qalır, onun ekskursiyası azalır. Qarışıq burun-ağız tənəffüsü nəfəs vermənin davamlılığını kəskin qısaldır ki, bu da nitq tənəffüsündən və səslərin artikulyasiyasından xəbər verir. Bir çox inkişaf qüsurları 10%-dən 30, 4%-ə qədər görmə və 31,9% dayaq-hərəkət sistemi

sahəsində qeydə alınır (T.V.Zaykova, 1963; B.Y.Kolomeyçuk, 1968; L.İ.Yuryeva, 2002).

Damaq və dodaq yarığı eşitmə aparatında da dəyişikliklərə səbəb olur. Yevstax borusu ilə birbaşa əlaqədə olan əzələlərin fəaliyyətinin dəyişikliyi, burun-udlaqda xroniki soyuqdəymə proseslərinin olması təbil boşluğunda ventilyasiyanı pozur: atmosfer təzyiqini azaldır və təbil pərdəsini dartır. Fakt olaraq, anadangəlmə dodaq və damaq yarığı olan 75-100% xəstədə doğulduğu vaxtdan orta qulağın xəstəliyi olur ki, bu da nəticədə elementar fizioloji eşitmənin zəifləməsinə gətirib çıxarır.Bütün bunlar nitqin tələffüz sahəsinə eşitmə nəzarətinin inkişafına məhvedici təsir göstərir. Doğulduğu zaman bədən kütləsinin az olması, qidalanma çətinlikləri, tənəffüs yollarının daim soyuqlama və yoluxma riski uşaqların raxit, hiportrofiya, ekssudativ diatez, dispepsiya, anemiya kimi yüksək xəstəliklərinə səbəb olur. Uşaqlar somatik cəhətdən zəifləmiş olurlar ki, bu da nitq və psixi inkişafın ləngiməsinə səbəb olur. Alimlər qeyd edirlər ki, anadangəlmə dodaq və damaq yarığı olan uşaqların 42,8%-də fiziki və sinir-psixoloji inkişafında gerilik qeydə alınır. Təxminən 3% uşaq bir yaşından sonra oturmağa başlayır, 5%-i 2-3 yaşında yeriyir, süd dişlərinin çıxması 3yaşında başa çatır. A.F.Kovalenko, İ.İ.Kopik, 1973, qüsurun ağırlığından asılı olaraq, uşaqların fiziki sağlamlığını müqayisə edir (dodaq yarığı, damaq yarığı, dodaq və damaq yarığı) və belə nəticəyə gəlir: eybəcərlik nə qədər güclüdürsə fiziki inkişaf çatışmazlığı da o qədər böyükdür. Anadangəlmə damaq yarığı olan 6 yaşlı uşaqların psixoloji xüsusiyyətlərinin tədqiq edilməsi rinolaliyalı uşaqlarda normal uşaqlardan çox da fərqlənmir.Bu zaman məhdud lüğət ehtiyatına görə uşaqlarda söz-məntiq düşüncəsi, məntiqi yadda saxlama, bir sıra sözlərin əmələ gətirilməsi və əşyalar haqqında anlayışın müəyyənləşdirilməsi zəifləyir[2, səh.,12]. Rinolaliyalı uşaqlarda düşüncə fəaliyyətinin ayrı-ayrı sahələrinin inkişafdan qalması psixi inkişafın nitqin artikulyasiya sahəsinin qüsuru nəticəsində ikinci ləngiməsi xarakteri daşıyır.

N.S.Naboyçenkonun, 1997,1999, 2004, apardığı tədqiqat nəticəsində məlum oldu ki, anadan çənə-üz patologiyalı uşaqların emosional qeyri-sabitliyə, böyüklərlə və həmyaşıdları ilə münasibətdə həyəcanlanmağa meyilliliyi daha yüksək dərəcədə olur. S.P.Kondraşov, S.V.Dyakov (2002) anadangəlmə dodaq və damaq yarığı olan uşaqların psixoloji vəziyyətini təsvir edir və erkən məktəbəqədər yaşdan yeniyetməlik dövrünə kimi bütün yaş mərhələlərində çox əksər hallarda dəyişilmiş şəxsiyyət kompleksinin olduğu nəticəsinə gəlir. Alimlərin tədqiqatlarına əsasən, anadangəlmə dodaq və damaq yarığı olan uşaqların emosional-şəxsi vəziyyəti valideynlərin onun sağlımlığına görə həddən artıq təşviş içərisində olması hesabına dərinləşir. Yerli ədəbiyyatda anadangəlmə damaq yarığı olan uşaqlarda və yeniyetmələrdə nitq-səs qüsurlarının aradan qaldırılması problemləri üzrə yetəri qədər işlər var. Qeyd olunmuş müəlliflər anadangəlmə damaq və dodaq yarığı olan uşaqlarda səs

tələffüzü və səs xüsusiyyətlərini təsvir edir, artikulyasiya aparatının anatomik və funksional xüsusiyyətlərindən, nitq qüsurunun barizlik səviyyəsindən asılı olaraq, differensial korreksiya təsiri üsulları təklif edirlər.

A.Mitrinoviç-Modjeyevska (1959,1965), K.P.Bekker, M.Sovak (1981) anadangəlmə dodaq və damaq yarığı zamanı nitq qüsurunun mürəkkəb quruluşunu göstərmişlər. Onlar qeyd edirlər ki, rinolaliya və rinofoniya eşitmə pozulması, mərkəz mənşəli artikulyasiya pozulması, çənə-diş sisteminin qeyri-düzgün quruluşu səbəbilə mexaniki dislaliya kimi artikulyasiya pozulması ilə birgə ola bilər. Obyektiv tədqiqat metodlarından istifadə ilə apardıqları tədqiqatlar da həmçinin nitq pozulmasının mürəkkəb quruluşundan xəbər verir. Səs tələffüzü və səs qüsurları anatomik parametrlərdən (udlağın arxa divarı və yumşaq damaq arasında məsafə, udlağın orta hissəsinin eni, ağız boşluğunda dilin vəziyyət dəyişikliyi, dil divarının konfiqurasiyasının pozulması, dil quruluşunun asimmetriyası) funksional parametrlərdən (yumşaq damağın və udlağın arxa divarının hərəkətliliyinin, kinestetik hissiyyatın zəifləməsi; dil hərəkətinin diskoordinasiyası, ağız boşluğunda aerodinamik proseslərin dəyişikliyi) və uşağın psixoloji xüsusiyyətlərindən (psixomotor və intellektual inkişaf, xarakter, davranış, əhval-ruhiyyə, uşağın qüsuruna münasibəti) asılıdır.

1972- ci ildə Q.V.Çirkina, anadangəlmə dodaq və damaq yarığı olan uşaqlarda nitq qüsurunu nitq fəaliyyətinin sistemli analizi mövqeyindən öyrənir, anadangəlmə dodaq və damaq yarığı olan uşaqların tipologiyasını nitq inkişafı mövqeyindən təsvir edir. Səs tələffüzünün pozulma vəziyyətinə görə Q.V.Çirkina iki qrup qeyd edir: nitqin səs sahəsinin anatomik qüsurlarla birbaşa əlaqəli olan pozulması və motor idarəsi qüsurları ilə əlaqəli qüsurlar. Nitqin fonetik sahəsinin formalaşmasının ləngiməsi zamanı uşaqda ikinci sıra çətinlikləri əmələ gəlir: nitqin fonematik və leksik-qrammatik sahələrinin inkişafdan qalması, nitq yaddaşının zəifləməsi, nitq ifadəsinin qavranılması və başa düşülməsi qüsurları [2,səh.7].

Q.V.Çirkina (1987) pozulmaların nitqin defisitar tərəfi ilə birgə daha qalıcı nitq quruluşları da olduğu zaman pozulmaların mozaikliyinə; anatomik qüsurunun mürəkkəbliyinə görə oxşarlıq olduğu halda uşaqlarda nitq inkişafı xarakterinin qeyri-bərabər xarakterinə, qüsurun atipik variantına, rinolaliyanın eşitmənin zəifləməsi, dizartriya, kəkələmə və s. ilə birləşməsinə işarə edir; mənfi faktorların qarşılıqlı şərtlərlə ortaya çıxma fenomenini, onların uşağın nitqinə additiv və ümumi psixoloji təsirini ortaya çıxarır.

Z.A.Repina (1975, 1995) rinolaliyalı uşaqlarda anomal nitq təzahürünü analiz etmiş və fonematik qavrayış, morfoloji ümumiləşdirmə, yazı nitqində leksik sistemlilik və qrammatik formalaşdırma şəklində ikinci dərəcəli nitq pozulmalarının əmələ gəlməsində artikulyasiya qüsurlarının rolunu qeyd etmişdir. O, göstərilən kateqoriyalı uşaqlarda disqrafiyanın yaranmasının ikinci xarakterini nəzəri və praktiki cəhətdən təsdiq etmişdir.

T.V.Vasilyeva (1998) rinolaliyalı uşaqların leksikasını tədqiq edərək, sözlərin toplanması, nitq fəaliyyətində seçilməsi və onlarla əməliyyat aparılması proseslərinin pozulmasını, sözlərin dinamik strukturlaşdırılması pozulmasını göstərmişdir. Z.A.Repina (1975), T.V.Vasilyeva (1998) tərəfindən aparılmış korreksiya təliminin dinamikası analizi təhsil alanların nitq vəziyyətlətinin mostivasiya sferasının, idrak aktivliyinin, diqqətin, özünə nəzarətin formalaşmasından, həmçinin sosial və nitq mühitinin vəziyyətindən asılılığını göstərir.

T.V.Voloseves (1995) məktəbəqədərdən əvvəlki yaş xüsusiyyətlərini öyrənib və sübut etmişdir ki, anadangəlmə dodaq və damaq yarığı olan uşaqların hamısında nitq inkişafı ləngiməsi var. Lakin anadangəlmə dodaq və damaq yarığı olan çoxsaylı uşaq qrupları eyni hesab olunmur. Nitqin fonetik-fonematik sahəsinin pozulmaları olan uşaqlarla yanaşı nitq inkişafı, psixi, oyun fəaliyyəti inkişafında geriliyi olan uşaqlar da var. O, göstərir ki, anadangəlmə yarığı olan uşaqlarda erkən yaşlarda passiv və aktiv lüğət həcmində və keyfiyyətində, leksik-qrammatik əlaqələrin anlaşılması və istifadəsi, cümlələrin formalaşması əmələ gəlir. Pedaqoji ədəbiyyatda anadangəlmə dodaq və damaq yarığı olan körpə yaşlı uşaqların danışığa qədərki inkişaf xüsusiyyətləri haqqında dağınıq məlumatlar var. Damaq yarığı olan uşaqların nitq inkişafında iki mərhələ ayırılır. Birinci mərhələdə səs sinədəndir və bəzi səslərin tələffüzü demək olar ki, normaldan seçilmir, çünki belə uşaqlarda səs rezonatorların təsiri və iştirakı olmadan əmələ gəlir.İkinci mərhələ o zaman başlayır ki, nə vaxt ki, uşaq ilk sözləri qurmağa başlayır və eşitdiyi sözlərin səslərini dəqiq əks etdirməyə çalışır.Bu mərhələdə nitq pozulması qeyri-düzgün hərəkətin və qeyri-düzgün səs idarəsinin aşkar nəticəsidir damaq və dodaq yarığı olan uşaqların linqvistikaya qədərki inkişafını xarakterizə edərək, kəkələmə aktivliyinin yetərsizliyini, nitqin gec başlanmasını, ilk sözlərin və cümlə nitqinin yaranması arasında böyük vaxt intervalının olmasını, qeydə almışdır.

Anadangəlmə dodaq və damaq yarığı olan uşaqlarda həyatının ilk aylarından nitqin formalaşma prosesinin ləngidiyini, eşitmə-hərəkət analizatorlarının işinin təhrif olunmasını, kəkələmənin öz zamanında əmələ gəlməməsini, nitq aktivliyinin zəiflədiyini, söz lüğəti və böyüklərlə yetərsiz emosional ünsiyyət və əşya və oyun fəaliyyəti inkişafının ləngiməsi fonunda müraciət nitqinin başa düşülməsinin məhdudlaşdığını təsdiqləyirlər. Anadangəlmə damaq yarığı olan uşaqların normal uşaq səsi ilə qışqırdığını, ağladığını, qığıldadığını qeyd edilir.Onların səs tembrinin dəyişikliyi - açıq burun rezonansı- ilk olaraq kəkələmə zamanı ortaya çıxır, nə zaman ki, uşaq öz ilk samit fonemlərini artikulyasiyaya başlayır. Ədəbiyyatlarda körpə yaşda korreksiya işlərinin aparılması haqqında qeydlər az saydadır. Başlıca olaraq, burada uşaqların tərbiyə edilməsi üzrə ümumi təlimatlar və damağın plastikasına hazırlıq üzrə ayrı-ayrı üsullar əks etdirilmişdir.

V.N.Yakovenko [4,səh.101] loqopedin işinin gələcək xəstə ilə 5-6 ayında başlamaq lazım olduğuna diqqət çəkir.Loqopedik işlərin məqsədi uşağın fiziki inkişafına, nitq orqanlarının inkişafına, düzgün tənəffüsün qurulmasına, böyüklərin nitqinə görmə və eşitmə diqqətinin inkişafına yönəlmişdir. Qeyd etmək lazımdır ki, kiçik uşaqlarla iş metodikası "böyüklərin nitqinin şüursuz təqlid edilməsi cəhdi" üzərində qurulur. Körpə yaşda loqopedik yardımı valideynlər üçün psixoterapevt söhbət-konsultasiya ilə, reablitasiya nəticələrini göstərməklə, nitq pozulması mexanizmini izah etməklə, ev şəraitində eşitmə vəziyyətini müşahidə üsulları tövsiyə etməklə, inkişafetdirici oyuncaqların seçilməsinə kömək etməklə, valideynlərə uşaqla oyunda düzgün davranışı göstərməklə başlamaq lazımdır [4, səh.78] Damaq və dodaq yarığı olan uşağın artikulyasiya orqanlarının fiziki aktivliyini, qığıldamağa, kəkələməyə istənilən cəhdə təşviqi valideynlərin gündəlik zəruri vəzifələri kimi qiymətləndirmək lazımdır.Bunun üçün əmziklə oyunlar, artikulyasiya aparatının işini, səs tələffüzünü və ünsiyyəti stimullaşdıran üsullar tövsiyə edilir. Anadangəlmə çənə-üz sahəsinin anomaliyası olan uşaqlarda nitq pozulmasının profilaktikasında 2 dövr qeyd edilir: danışığa qədərki vokalizasiya və kəkələmə.

Valideynlərə tövsiyə edilir:uşağı danışığa qədərki vokalizasiya və ağızdan hava axınına təşviq etmək, artikulator orqanları ilə oyun, oral hissiyyatı və oral qnozisi artırmaq üçün masaj və passiv gimnastika, taktil aktivləşdirmə, eşitmə və görmə diqqətinin inkişafı, imitasiya və emosional ünsiyyətə təşviq.

## ƏDƏBİYYAT


1. Кравцова О.А. Расщелины губы и неба // Здоровье и образование в 21 веке. 2012. Т. 14. №2. С. 112.
2. Лаврова Е.В., Коптева О.Д., Уклонская Д.В. Нарушение голоса. М.: Академия, 2006.128 с.
3. Чиркина Г.В. Нарушение речи при ринолалии и пути их коррекции: автореф. дис. д-ра пед. наук. Москва, 1987. 34 с.
4. Чуйкин С.В., Персин Л.С., Давлетшин Н.Д. Врожденная расщелина губы и неба. М.: Медицинское информационное агентство, 2008. 386 с.

**UOT 902.**

# POLUTƏPƏDƏ AŞKAR OLUNMUŞ ZOOMORF VƏ ANTROPOMORF QULPLAR HAQQINDA

***Vəfa Mahmudova***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*

***Açar sözlər:*** zoomorf, antropomorf, keramika, qulp, qapaq,neolit-eneolit

Polutəpə yaşayış yeri Cəlilabad rayonun Üçtəpə kəndinin şərq kənarında, İncə çayın sağ (cənub) sahilində yerləşir.Qədim tarixə malik olan Muğan düzü Kür- Araz ovalığının bir hissəsidir. Kür çayı vasitəsilə isə Şirvan düzündən ayrılır. Muğan düzünün çox hissəsi dəniz səviyyəsindən aşağı olub, Kür çayı, xüsusən də Araz çayının gətirdiyi çöküntülərdən əmələ gəlmişdir. Bu bölgənin tarixin əksər mərhələlərində, Qafqazın və ümumiyyətlə, Yaxın Şərqin siyasi və mədəni inkişafında özünəməxsus yeri olmuşdur. Lakin məqsədyönlü tədqiqatların aparılmaması bölgənin daha qədim dövrlərinin öyrənilməsini əngəlləmişdir. Aparılan tədqiqatlar yalnız e.ə. VI minillikdən başlayaraq bölgədə neolit-eneolit dövründə dağətəyi ərazilərdə məskunlaşma haqqında məlumat verir.

## О ЗООМОРФНЫХ И АНТРОПОМОРФНЫХ РУЧКАХ ИЗ ПАМЯТНИКА ПОЛУТЕПЕ

***Вафа Махмудова***

**Ключевые слова**: *зооморф, антропоморф, керамика, ручка, крышка, неолит-энеолит*

*Древние поселение Полутепе находится около села Учтепе Джалилабадского района Республики Азербайджан. Это самое большое по площади поселение среди аналогических памятников этого региона. При его археологическом исследование было выявлено большое количество остатков материальной культуры. Среди них наше внимание особенно привлекло разнообразие ручек керамических сосудов. В данном исследовании мы затронули лишь два их типа: антропоморфные и зооморфные ручки. По нашему мнению они не только имели чисто*

*функциональное значение но представляли и образцы исскуства, и использовались для совершение религиозных обрядов.*

## ZOOMORPHİC AND ANTHROPOMORPHİC HANDLES FOUND AT THE MONUMENT POLUTEPE

***Vafa Makhmudova***

**Key words:** *zoomorph, anthropomorph, ceramics, lock, cap, neolithic-khalkolithic*

*The ancient settlement of Polutepe is located near the village of Uchtepe, Jalilabad region, Republic of Azerbaijan. It is the largest settlement area among similar monuments. Through the archaeological research, a large number of residues of material culture were revealed. Among them, our attention was especially attracted by the vast variety of handles of ceramic vessels. In this study, however, we observed only two of their types: anthropomorphic and zoomorphic. In our opinion they did not only carry a purely functional value but represented the samples of art, and were used for performing religious rites.*

Cənub-Şərqi Azərbaycanın Muğan hissəsində erkən əkinçi-maldar tayfalarının ilk məqsədyönlü tədqiqatı ötən əsrin 60-cı illərinin sonu 70-ci illərinin əvvəllərində başlamış və 1979-cu ilə qədər davam etmişdir. Həmin dövr Fərman Mahmudovun Əliköməktəpə yaşayış yerində başladığı arxeoloji qazıntı işləri, bölgədə kəşfiyyat aparması və bunların nəticəsi olaraq külli miqdarda faktoloji dəlillərin əldə edilməsi Muğanda məskunlaşan erkən əkinçi-maldar tayfalarının maddi-mənəvi mədəniyyətləri, onların qonşu ərazilərlə əlaqəsi və digər xüsusiyyətləri haqqında təsəvvür yaratdı [3; 4; 5]. Muğanın neolit-eneolit abidələri dünya arxeloji elminə daxil oldu və həmin dövrün öyrənilməsində əhəmiyyətli yer tutdu. Bu tədqiqatlar 1979-cu ildə dayandırıldı və yalnız 1990-cı ildə Fərman Mahmudov tərəfindən Əliköməktəpədə qazıntılar bərpa edilərək iki il davam etdi. Həmin dövrün siyasi - iqtisadi vəziyyəti ilə bağlı olaraq yenidən donduruldu. Bundan əlavə, tədqiqatların müəllifi Fərman Mahmudovun uzun sürən ağır xəstəlikdən sonra vaxtsız vəfat etməsi onun əldə etdiyi zəngin materialları tam şəkildə işləyib, arxeoloji elmi mənbələr sırasına tm daxil etməyə imkan vermədi.

Dövlətimizin siyasi-iqtisadi durumunun stabilləşməsi Muğanda dondurulmuş tədqiqatları bərpa etmək üçün zəmin yaratdı. 2004-cü ildə bölgənin neolit-eneolit dövrü abidələrinin tədqiqinin ikinci mərhələsinə start verildi. İlk növbədə Tufan Axundov tərəfindən bölgədə qısamüddətli kəşfiyyat-

tanışlıq işləri aparıldı. Məqsəd gələcək arxeoloji tədqiqatlar üçün optimal abidə seçmək idi. Nəticədə bunun üçün Polutəpə yaşayış yeri məqsədəuyğun hesab edildi.

Polutəpə yaşayış yeri Cəlilabad rayonun Üçtəpə kəndinin şərq kənarında, İncə çayın sağ(cənub) sahilində yerləşir. Bu abidənin seçilməsi əsasən bir neçə səbəblə şərtlənmişdir:

1. Sahəsinə görə Polutəpə Qafqazda bizə məlum olan həmdövr abidələrin ən böyüyüdür. Onun sahəsi altı hektara yaxındır.
2. Bu yaşayış yerinin ətrafında bir neçə, ondan çox-çox kiçik olan həmdövr yaşayış yerləri mövcuddur. Belə vəziyyət, fikrimizcə, həmin ərazidə vahid sistemin mövcudluğu və Polutəpənin həmin sistemin mərkəzi olduğunun göstəricisidir.
3. Polutəpə yaşayış yeri F. Mahmudovun tədqiq etdiyi Əliköməktəpə yaşayış yerinin bir km-dən bir qədər artıq məsafədə, eyni abidələr sistemində və eyni çay kənarında yerləşmişdir. Orada aparılan tədqiqatlar nəticəsində Əliköməktəpə qazıntıları ilə bağlı F. Mahmudovun vəfatından sonra qaranlıq qalan tərəfləri aydınlaşdırmaq və bu abidəni tam şəkildə elmi dövriyyəyə daxil etmək imkanı yaranırdı.

Tədqiqatdan konkret nəticə əldə etməkdən ötrü bütün işlər məqsədyönlü, kompleks şəkildə, digər elm sahələrinin mütəxəssisləri ilə birlikdə vahid proqram əsasında aparılmışdır. Nəticədə abidə haqqında kifayət qədər yeni məlumatlar alınmış və sistemə salınmışdır.

Hər zaman Muğan abidələrində olduğu kimi, yenə də arxeoloji materialın əsasını küllü miqdarda saxsı məmulatı təşkil etmişdir. Bunların içərisində müxtəlif ölçülü, formalı, təyinatlı, texnoloji və bədii xüsusiyyətli qabları və məişət əşyalarını fərqləndirmək mümkün olmuşdur.

Əldə edilmiş çoxsaylı saxsı materiallar (bir neçə ədəd çıxmaqla) bitki qarışıqlı gil kütləsindən hazırlanmışdır. İri ölçülü nümunələrin əksəriyyəti bad üsulu ilə formalanmışdır. Orta ölçülü qabların bir qismi və kiçik qabların hamısı isə bir kütlə parçası və yaxud kütləyə əlavələr edilməklə hazırlanmışdır. Bunlarla yanaşı, bəzi xeyrə tipli qablar hörülmə səbətlərin içəri tərəfinə gil kütləsi yaxmaq üsulu ilə formalanmışdır. Belə qabların bir qisminin xarici səthində səbətin izləri qabarıq şəkildə saxlanılmış, bəzilərində isə izlərin üzərinə əlavə gil məhlulu çəkməklə hamarlanmışdır. Açıq formalı qablar iki üzdən də, bağlı formalı qablar az miqdarını çıxmaqla yalnız xarici üzdən anqoblanmışdır [1].

İri və orta ölçülü qabların əksəriyyəti yastı geniş oturacaqlı, düz dik, bəzi hallarda cüzi genişlənən, yaxud azca daralan divarları, enli ağız kənarları, əksər halda dodaqsız, bəzi nümunələrin isə ağız kənarı zəif dodaq kimi

formalanmışdır. Bunlarla yanaşı oturacağı kiçik ölçülü, şişman gövdəli, ağız hissədən cüzi daralan nümunələr də əldə edilmişdir. Belə qabların bəzilərinin oturacaqlarının alt hissəsində dairəvi hörgü izləri mühafizə olunmuşdur.

Orta ölçülü qablar daha geniş çeşidlidir. Burada enli oturacaqlı qazan və xeyrələrlə yanaşı, yuvarlaq gövdəli orta ölçülü boğazlı qablar da az deyil. Qazan tipli qabların əksəriyyətinin iki tərəfdən yumrucuq formalı tutacaqları var. Yuvarlaq gövdəli nümunələrin bəzilərində əsasən Muğan üçün xarakterik olan qalın iri çubuqvari qulpları var.

Kiçik ölçülü qab nümunələrinin çoxu xeyrə və kasa tiplidir. Bunların bir qismi yastı oturacaqlı azca açılan düz və yaxud cüzi şişman divarlıdır. Bir qismi isə, əsasən kiçik və miniatür ölçülü nümunələr, yuvarlaq oturacaqlı yarımşar formalıdır. Xeyrə və kasaların ağzı dodaqsızdır.

Dulusların bəzədilməsində ağız kənarında yapma məməcik, ayparalardan istifadə edilmişdir. İri və orta həcmli şişman gövdəli qabların azca daralan ağızlarının altı qabarıq köbəylə əhatələnmişdir.

Polutəpə qazıntılarında hər zaman olduğu kimi, Muğana xas olan xeyli sayda boya naxışlı nümunələr əldə edilmişdir. Bunlar müxtəlif növ orta və kiçik həcmli qab parçalarından ibarətdir. Naxışlar kasa və xeyrə tipli qabların üzərinin ya daxili, ya da xarici səthinə, bəzən isə hər iki üzünə çəkilirdi. Bağlı qablarn naxışı yalnız xarici səthinə salınırdı.

Maraqlı dulus tapıntılarının arasında qapaq və qulp fraqmentlərini göstərmək olar. Polutəpə abidəsindən xeyli sayda adi, dairəvi, zoomorf və antromorf formalı qulplara rast gəlinmişdir. Onların içində maraqlı olan bəzi qulplar aşağıdakılardan ibarətdir:

Birinciqulpungilinə saman qatılmış, qəhvəyi rəngdədir. İkinci qulpunhər iki səthi qəhvəyi olub şüyrələnmişdir. Üçüncü qulp zoomorf tipli, gili samanlı, qəhvəyi rəngdədir. Dördüncü qulp da zoomorf tipli, samanlı olub, krem rəngdə anqoblanıb. Qalan qulpların hamısının demək olar ki, gilinə saman əlavə olunub, qara, boz və qəhvəyi rənglərdədir.

Son tədqiqatlar Polutəpə yaşayış yerinin eneolit təbəqəsinin e.ə V minilliyin sonuna aid edilməsini təsdiqləməklə son mərhələsinin e.ə IV minilliyə keçməsini güman etməyə zəmin yaradıb [2].

Əsas qazıntı sahəsi ilə yanaşı Alxantəpə yaşayış yerinin sərhədlərini və mədəni təbəqəsinin xüsusiyyətlərini müəyyənləşdirməkdən ötrü abidənin ərazisi hesab etdiyimiz 1,5×2,5 m ölçüdə stratiqrafik şurflar qoyuldu. Nəticədə yaşayış yerinin sahəsi, mədəni təbəqənin xüsusiyyətləri, strukturu və qalınlığı müəyyən edildi. Onun əhatə etdiyi ərazi 4 hektar, mədəni təbəqəsinin qalınlığı 2,6 m-dən az deyil və bütövlükdə, eyni etnomədəniyyət ənənələrinin daşıyıcılarına məxsusdur.

Aparılan arxeoloji qazıntılarla yanaşı, 2008-ci ildə kəşfiyyat işləri nəticəsində neolit-eneolit dövrünə məxsus Süleyman-Xaraba adı ilə yeni

yaşayış yeri aşkar edilərək ilkin tədqiq edildi. Mənsubiyyətinə görə bu abidə Muğanda məlum olan əksər həmdövr abidələrlə eynilik təşkil edir.
Görülən işlərin davamı olaraq ekspedisiya 2009-cu ildə əsaslı qazıntı işlərini Polutəpə və Alxantəpə yaşayış yerlərində aparmışdır.

Polutəpənin şərq hissəsində mədəni təbəqə 2,2- 2,3 m dərinliyə qədər götürulərək tədqiq edilmişdir. Orta əsr təsərrüfat quyularının dağıdıcı təsiri bu səviyyədə kəskin azalmışdır və təbəqə nisbətən salamat idi. Burada eneolit dövrünə aid beş qəbir küpəsinin qalıqları, döşəmə, yerə basdırılmış manqal, külli miqdarda saxsı qab fraqmentləri, qida qalıqları olan müxtəlif heyvan, quş və balıq sümükləri, daş alətlər, gildən və daşdan insan heykəlçikləri aşkar edilmişdir. Qazıntı sahəsinin cənub-qərb hissəsin-də 150-168 sm dərinliyində orta əsrlərə aid iri dulus kürəsinin qalıqları aşkar edildi.

Polutətə abidəsindən qeydə alınan saxsı nümunələrinin analizi aşağıdakı nəticələri fərz etməyə əsas verir.

1. Zoomorf formalı qulplar dövrün dini dünyagörüşünün bəzi aspektlərini əsk edirir.

a) Öküz və iti xatırladan zoomorf qulplar o dövrün qədim sakinlərinin öküzə, itə və müxtəlif heyvanlara sitayişi ilə əlaqələndirə bilərik.

2. Antropomorf formalı qulplar isə aşağıdakı mülahizələri irəli sürməyə imkan verir:

a) ana kultunun mövcud olması;

b) qədim insanların insan fizianomiyası və anatomiyası haqqında təsəvvürlərinin olması;

c) Polutəpənin neolit sakinlərinin heykəltaraşlıq və rəssamlıq vərdişlərinin formalaşması.

## ƏDƏBİYYAT

1. Ахундов Т.И., Махмудова В.А., Алмамедов Х.И. и др. О работе неолит-энеолитических экспедиции на Мугане. Археологические исследования в Азербайджане. Баку, 2009.

2. Махмудова В.А.,Ахундов Т.Южный Кавказ в кавказско-переднеазиатских этнокультурных процессах IV тыс.до н.э. Баку,2008.

3. Махмудов Ф.Р., Нариманов И.Г. Раскопки на поселениях Гаргалар-тепеси и Аликемектепеси в 1971 году. // Археологические и этнографические изыскания в Азербайджане в 1971 году. Баку: 1972 (а). с. 5-8.

4. Махмудов Ф.Р., Нариманов И.Г., Раскопки на поселения

Аликемектепеси. / Итоги полевых археологических и этнографических исследований за 1972 год в Азербайджанской ССР. Баку, 1973. с. 4-6.
5. Махмудов Ф.Р. Культура Юга-Восточного Азербайджана в эпоху бронзы и раннего железа. Автореф… дисс. на соиск. канд. ист. наук. Тбилиси: 1979.

























UOT 930.22

# DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNƏ GÜRCÜSTANDAN BAXIŞ

***Vahid Ömərov***
*AMEA Qafqazşünaslıq İnstitutu*
*vahid-o@mail.ru*

**Açar sözlər:** *Qafqazda münaqişə, Dağlıq Qarabağ münaqişəsi, Gürcüstan mətbuatı, münaqişəyə iqtidarın yanaşması, ekspert rəyləri, daxili siyasi vəziyyət, xarici siyasət, lokal, regional, qiobai müharibələr, milli maraqlar, təhdidlər*

*Ermənistanın Azərbaycana təcavüzünə gürcü mətbuatında yanaşmaları təsnif edilir, qruplaşdırılır:1)rəsmi Gürcüstan rəhbərliyinin mövqeyi. 2)Gürcü tarixçilərinin, müstəqil politoqlarının, siyasətçilərinin, konfliktoloqlarının, jurnalistlərin,müxalifətin münaqişəyə dair rəyləri, proqnozları açıqlanır.Gürcüstan rəhbərliyi Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllində maraqlıdır.Buna görə də rəsmi dairələr Dağlıq Qarabağı müstəqil qurum kimi tanımır,orada baş verən bütbün "siyasi prosesləri" (hər cür "qondarma seçkiləri") qəbul etmir.Hər iki qonşu dövlətlə mehriban qonşuluq siyasəti yeritməyi əsas gətirən Gürcüstan iqtidarı neytrallığa, "ehtiyatlı" siyasət yürütməyə üstünlük verir.Hərbi ekspertləri, konfliktoloqları,politoloqları narahat edən məsələ Dağlıq Qarabağda lokal müharibənin regional,hətta qlobal müharibəyə çevrilmək təhlükəsi və bu zaman Gürcüstanın milli maraqlarına və təhlükəsizliylnə təhdidlərin yaranmasıdır.Gürcü ekspertlər Türkiyə və Pakistanın Azərbaycana köməyini siyasi müharibənin "dini qarşıdurma"ya çevrilməsi kimi dəyərləndirirlər. Gürcü mətbuatında Dağlıq Qarabağ münaqişəsilə bilavasitə bağlı olan ermənilərin yaşadıqları Cavaxeti və əhalisinin əksəriyyəti azərbaycanlılardan ibarət olan Borçalı (Kvemo Kartli) qarşıdurması baş verməsi təhlükəsindən də ehtiyat edilir.*

*Gürcü tərəfini narahat edən digər təhlükə odur ki, qlobal müharibə başlayarsa Rusiya öz müttəfiqi Ermənistana hərbi yardım etmək üçün ya Gürcüstandan koridor kimi istifadə edə bilər,ya da Osetiyanın separatist rejimini "sürünən işğal"a sövq etməklə Gürcüstanın ərazilərinin işğalını daha da dərinləşdirərək həmin "yeni işğal olunmuş ərazilər" vasitəsilə birbaşa Ermənistanla əlaqə yarada bilər.Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı gürcü mətbuatında bədbin(hətta,qeyri-obyektiv, ədalətsiz) və nikbin(obyektiv, ədalətli) proqnozlar səslənir.*

*Nikbin proqnoza görə Dağlıq Qarabağ Azərbaycanın əbədi ayrılmaz tərkib hissəsidir və Ermənistan bunula razılaşmalıdır. Bədbin proqnoza görə "Dağlıq Qarabağ əsrlər boyu mübahisəli ərazi olub öz həllini tapmamış bir ərazidir,müasir dövrdə onun həlli qeyri-mümkündür".*

## КОНФЛИКТ В НАГОРНОМ КАРАБАХЕ: ВЗГЛЯД ИЗ ГРУЗИИ

***Вахид Омаров***

**Ключевые слова:** *конфликт на Кавказе, Нагорно-карабахский конфликт, грузинская пресса, подход правительства к конфликту, мнения экспертов, внутренняя политическая ситуация, внешняя политика, местные, региональные и глобальные войны, национальные интересы, угрозы*

*В статье приводится краткая информация о причинах возникновения конфликтов на Кавказе, в том числе возникновения нагорно-карабахского конфликта. Классифицируются подходы, отражающие агрессию Армении против Азербайджана в грузинских СМИ. А,также в отношении конфликта, связанного с Нагорным Карабахом рассмотрены:*

*1) официальная позиция грузинского правительства;*

*2)позиции грузинских историков и прогноз независимых политологов,конфликтологов, журналистов, оппозиционных сил.*

*Отмечено, что из-за подобных конфликтов в их районах и из-за потери части земли (Абхазия, Южная Осетия), грузинское руководство заинтересовано в мирном решении Нагорного Карабаха в рамках территориальной целостности Азербайджана ради стратегического сотрудничества с Турцией и Азербайджаном. Проблема, которая беспокоит военных экспертов, конфликтологов, политологов - это угроза перерастания войны в Нагорном Карабахе в региональную и,даже в глобальную войну, возникновение угрозы национальным интересам и безопасности Грузии. В случае глобальной войны, угроза использования Грузии в качестве коридора для переброски военной помощи России в Армению, а, Турции - в Азербайджан, может обернуться для Грузии сложной ситуацией. Исследуются неправильная, неглубокая, одностороння и необъективная информация некоторых грузинских историков об истории Нагорного Карабаха, и озвучивание пессимистичных (даже необъективных, несправедливых) и оптимистичных (объективных, справедливых) прогнозов.*

# THE CONFLICT IN NAGORNO-KARABAKH: A VIEW FROM GEORGIA

***Vahid Omarov***

**Key words:***conflict in Caucasus, the Nagorno-Karabakh conflict, the Georgian media, the government's approach to the conflict, expert's opinion, the internal political situation, foreign policy, local, regional, global wars, national interests, threats*

*In the article is given brief information about the reasons of creation of conflicts in the Caucasus, and the conflict of NagornoKarabakh. Is classified approaches of Georgian media to the aggression of Armenia against Azerbaijan; 1) the official position of the Georgian government; 2) Disclosed the forecasts of Georgian historians, independent politicians, politicians, journalists, conflictionists, opinions of opposites on the conflict. It is noted that the Georgian leadership seemed the similar conflicts in their own territories and lost part of their lands (Abkhazia, South Ossetia), so that for the strategic cooperation between Turkey and Azerbaijan they are interested in solution these conflicts in peaceful ways within Azerbaijan's territorial integrity in the Nagorno-Karabakh.*

*Military experts, conflictionists, politicians concerned about the war in Nagorno-Karabakh, would become the local, regional and even global war, and there will be increase threats for Georgia's national interests and security. If there will be create the global war the military support for Armenia by Russia, for Azerbaijan by Turkey the Georgia's territory could be used as the corridor and will lead to serious dangers Georgia. Here investigated wrong, a shallow, one-sided, even biased information of some Georgian historians and conflictionists about the history of Nagorno-Karabakh, including noted their pessimistic (even, non-objective, unfair), and optimistic (objective, fair) forecasts too.*

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq QarabağıErmənistan Respublikası hərbi təcavüzlə Azərbaycandan ayırmaq kursu götürdü.Bununla da Ermənustan -Azərbaycan Dağlıq Qarabağ münaqişəsi kəskinləşdi. Ermənistan Respublikası Dağlıq Qarabağı ya müstəqil, ya da öz ərazisinin tərkib hissəsi kimi görür, Qarabağ ətrafında işğal etdiyi rayonları qondarma Dağlıq Qarabağın təhlükəsizliyini təmin edən "bufer zona" hesab edir. Hətta Ermənistanın "Milli Təhlükəsizlik doktrinası"nda Dağlıq Qarabağ üçün təhdidlərin Azərbaycan və Türkiyədən gəldiyi rəsmi şəkildə təsbit edilmişdir. Azərbaycan hökuməti münaqişəni öz ərazi bütövlüyü çərçivəsində beynəlxalq

hüquqa uyğun olaraq Dağlıq Qarabağa ən yüksək muxtariyyat verməklə və azərbaycanlı qaçqınların öz yurd-yuvalarına qayıtması ilə həll etmək istəyir. Ermənistan isə Dağlıq Qarabağın Azərbaycandan tam ayrılmasını istəməklə yanaşı,"xalqların müqəddəratını təyinetmə hüququna" "əsaslanır", azərbaycanlı məcburi köçkünləri isə öz ərazilərinə buraxmaq istəmir. Beynəlxalq hüquq və dünyanın əksər güclü dövlətləri ərazi bütövlüyü prinsipini müdafiə edir. Ermənilər "bir dəfə öz müqəddəratlarını təyin edib" dövlət yaradıblar (əslində Azərbaycan torpaqlarında), indi də yenə Azərbaycan ərazisində ikinci dəfə "öz müqəddaratlarını təyin edib" ikinci erməni dövləti yaratmaq istəyirlər.

Rəsmi Gürcüstan rəhbərliyi öz ərazilərində oxşar münaqişələrin (Abxaziya, Cənubi Osetiya) baş verdiyinə və ərazilərini itirdiyinə,Türkiyə və Azərbaycanla strateji əməkdaşlığına görə Dağlıq Qarabağın Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllində maraqlıdır. Gürcüstan bəyan etmişdir ki, "Biz Gürcüstan üçün qardaş olan iki respublika arasında hərbi münaqişədən narahatıq. Bizim mövqeyimiz belə olub və belə də olaraq qalacaqdır ki, biz Qafqazda və bizimlə qonşu olan ölkələrdə sülh istəyirik"[4].

Gürcüstan Qarabağ münaqişəsində daim praqmatik mövqe tutmuş və tam neytrallıq nümayiş etdirmişdir. Gürcüstan bu mövqeyini davam etdirməlidir. Gürcüstanın hüquq və siyasət institutunun dekanı Bakur Kvaşilava Gürcüstanın qonşular arasında vasitəçilik roluna şübhə ilə yanaşır. B. Kvaşilavanın fikrincə, əgər tərəflər Tbilisidə görüşmək istəsələr Gürcüstan bu imkanı təmin etməlidir."Lakin Gürcüstanın, məsələn İsveçrənin Rusiya-Gürcüstan münasibətlərində yerinə yetirdiyi funksiyaya bənzər vəzifəni həyata keçirmək üçün bu mərhələdə ehtiyatları yoxdur ki, fəal vasitəçilik rolunu həyata keçirsin" [4].

Gürcüstan Avropa İttifaqı ilə əlaqələrdə fəal rol oynayır: "Əgər regionda partlayış baş verərsə, Avropa İttifaqı ilə qonşuluqda böyük-qeyri sabitlik yarana bilər. Onda Aİ siyasi və maliyyə investisiyası qoyduğu resursları, bütövlükdə Gürcüstanı itirə bilər" [4].

Aprel döyüşləri zamanı Gürcüstanın keçmiş baş naziri Georgiy Kivilikaşvili Dağlıq Qarabağ ətrafında baş verən hadisələrlə əlaqədar keçirdiyi iclasda döyüş əməliyyatlarının başlanması ilə əlaqədar öz narahatlığını bildirmişdir. Baş nazir sülh və stabilliyin təmin olunması üçün beynəlxalq birliyin səylərini artıracağına ümid etdiyini qeyd etmişdir.

Rəsmi dövlət mövqeyinə görə Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü tanıyır və Ermənistanın Azərbaycana hərbi təcavüzünün aradan qaldırılmasına və beynəlxalq hüquq normalarına uyğun qısa müddətdə həll olunmasına tərəfdardır. Gürcüstan münaqişənin həllində vasitəçi-mediator rolunda çıxış etməyə hazırdır.

Əslində bütün əsrlər boyu Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağa 1924-ci ildə muxtar vilayət statusu verildi.Tarixçi D.Şveladze

yazır:"1988-ci ildə köhnə yaralar təzələndi və Ermənistanın təşəbbüsü ilə silahlı qarşıdurma başladı.Qanlı qarşıdurma 1994-cü ildə barışıqla sona çatdı. 1994-cü ildə müqavilə imzalandı. ... Dağlıq Qarabağ bu gün müstəqil qurumdur (?), real olaraq Ermənistana tabe olan tanınmayan dövlətdir. Amma rəsmi olaraq Dağlıq Qarabağ Ermənistana birləşdirilməyib. Hazırda həmin ərazidə əhalinin əksəriyyəti ermənilərdir..."[2].

Konfliktoloq Zaza Tsotniaşvili "Dağlıq Qarabağ münaqişəsi və Gürcüstan"adlı məqaləsində göstərir ki, münaqişə olduqca çətindir. Xrolonogiyaya nəzər salsaq, Qarabağ münaqişəsi öz başlanğıcını 11-ci əsrdə tapmışdır. Müllifin fikrincə, adətən bütün Qafqazın münaqişələrinə ümumi yöndən yanaşıldığı üçün Abxaziya və Cənubi Osetiya məsələsini də buna bənzədirlər.Amma əlbəttə ki, aralarında böyük fərq var.Konfiloktoloq göstərir ki, xristian albanlar tərəfindən yaradılmış mühit, əsrlər boyunca xristian ibadətgahları var idi və hal -hazırda da var.Bu mühit sonradan dəyişib müsəlman mühitinə çevrildi.Daha sonralar XIX əsrdə Qarabağ Çar Russiyası imperiyasının təsir dairəsinə düşdü, müəyyən dövr ərzində (XIX əsr ərzində) Qarabağ Ermənistanın (?) təsiri altında idi. Amma Qafqazdakı sovet dönəmində, Rusiya və Türkiyə arasında aparılan danışıqlardan sonra (1921-ci ildən etibarən) Qarabağ Azərbaycanın nəzarəti altına keçdi. Xəritədə də dəqiqliyi ilə görmək olar ki, Qarabağ faktiki olaraq Azərbaycanın ortasında yerləşir və onun Ermənistanla sərhədi belə yox idi. Tarixi təcrübəyə nəzər salsaq imperiyaların, bu və ya digər ölkələrin sahələrinə bu cür mərmilər yerləşdirmələrinin məntiqi izahını görərik.1988-ci ildə postsovet dövründə ermənilər və azərbaycanlılar arasında çox genişmiqyaslı qarşıdurma başlandı. Şuşa rayonunu işğal edərək ermənilər asanlıqla Qarabağa girdilər. Bildiyiniz kimi, Qarabağ bu gün "müstəqil" qondarma, guya öz müqəddəratını təyin etmiş respublikadır. Onlar bu ərazinin Ermənistana birləşməsi barəsində birmənalı şəkildə elan etməsələr də, məlumdur ki, Dağlıq Qarabağ Ermənistanın nəzarəti altındadır [3].

Gürcüstanlı politoloq Aleksandr Kuxianidze göstərir: "Birincisi, Ermənistan artıq Dağlıq Qarabağı lşğal edib, Azərbaycandan yeni ərazi iddiasında deyil. İkincisi, Azərbaycana da neft planlarını həyata keçirmək və əmin-amanlıq lazımdır. Üçüncüsü, ruslar artıq keçmişdəki kimi o qədər də güclü mövqe tutmurlar. Çeçen müharibəsindən sonra Rusiyanın separatçı qüvvələrə yardımı zəifləyib. O, daha çox BMT-nin və ya ATƏT-in müşahidəçiliyi altında vasitəçilik və sülhməramlı funksiyanı yerinə yetirməyə cəhd edir" [4]. Lakin gürcü politoloqu unudur ki, Ermənistan Azərbaycandan təkcə Dağlıq Qarabağı deyil, Naxçıvanı da "istəyir". Azərbaycan isə öz ərazi bütövlüyünü, lazım gəlsə, hərbi yolla da həll etməyə hazırdır.

Gürcüstan Şərq və Qərblə körpü rolu oynamağa cəhd edərək İran, Rusiya və Qərb arasında tarazlığın yaranmasında maraqlıdır. Eyni zamanda,

Mərkəzi Asiya, Azərbaycan, Türkiyə və Qərb respublikaları ilə birgə layihələrdə də iştirak edir. Bütün bunlar isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində tam neytrallıq nümayiş etdirir.

Müstəqilliyin ilk illərində Cavaxetidə yaşayan ermənilər Gürcüstanın mərkəzi hakimiyyətinə müqavimət göstərdilər, təyin olunmuş rəhbərləri qəbul etmədilər, yerli ermənilər gürcü ordusunda xidmətdən yayındılar, "fədailər"adlanan yarımhərbi təşkilat yaratdılar ki, onlar da Qarabağ döyüşlərində iştirak etdilər [4]. Axalkalakidə yerləşən Rusiya qoşunlarından silah əldə edən ermənilər Qarabağda azərbaycanlıları qanlarına qəltan edirdilər. Yeni münaqişənin başlanmasından ehtiyat edən Gürcüstan hökuməti burada fəaliyyət göstərən qanunsuz silahlı dəstələri tərksilah etmək üçün qəti addımlar ata bilmirlər. Erməni tarixçiləri saxta "dəlillərlə" Cavaxkın (onlar Cavaxetiyanı belə adlandırırlar) tarixən ermənilərə mənsub olduğunu "sübut etməyə" çalışırlar. Bəzi qüvvələr regionun statusunu yüksəltmək istəyirlər. 1995-ci ildə qəbul edilmiş Gürcüstan Konstitusiyasına federalizm quruluşunu irəli sürürdülər. Onlar federalizmə Abxaziya və Cənubi Osetiya probleminin həlli yolu kimi baxırdılar. Bundan sui-istifadə edən Cavaxetiyanın sosial-siyasi təşkilatları və hərəkatın əlaqələndirmə şurası 1995-ci ilin yayında Gürcüstanın dövlət başçısına və parlamentinə müraciət edərək regionda "Vahid Federativ Gürcüstan Respublikası tərkibinə siyasi özünüidarəetmə konstitusiya hüququ" verilməsini xahiş etdi"[7].Lakin Gürcüstanın hakimiyyət orqanları regionun federal statusunu müzakirə etməkdən imtina etdilər. Ermənistan hökuməti Cavaxetiyadakı separatizmi açıq müdafiə etməkdən çəkinir. Çünki, Gürcüstanla yeni münaqişə onun Rusiya ilə yeganə quru yolunun blokadasına gətirib çıxara bilər.

## ƏDƏBİYYAT


1. Aladaşvili İrakli. Kimindir, kimindir...? Qonşumuz olaraq "İskander"?//"KVİRİS PALİTRA" – qəzeti http:// www. kvirispalitra. ge/military/ 32460-visia-visia-chvens-mezob lad-qiskanderiq.html.

2. Qatenadze Kristine .Ermənistanla-Azərbaycanın "mübahisəli torpaqları".Dağlıq Qarabağ konflikdi necə başlamışdır?//http://www.allnews.ge.

3.Tsosinaşvili Zaza Dağlıq Qarabağ münaqişəsi və Gürcüstan// **TV** საპატრიარქოსტელევიზიაერთსულოვნებაhttps://www.youtube.com/watch?v=NVwGzTDd8UA&in.

3.Ахмател‌и Н.Карабахский Конфликт Грузия придерживается нейтралитета //http//www/bec/com /rusian/.

4. Карабахский конфликт: Грузия придерживается нейтралитета. BBC. Русская служба//Russian/ikter/notional/2016 104/z/04/406 karabakh/nasiya/.

5 Кухианидзе Александр. Армянская и азербайджанское меньшинство в Грузии. О национальной и внешней политике Грузии // https/Vip.ar/helpi.
6.Россия вооружает Армению и Азербайджан-СМИ//https:www. apsny. ne. /2016/ mil/ 1474417560. phn.
7. Свободная Грузия.1995 1 августа.
8.Ситуация в Нагорной Карабахе:Взгляд из Грузии//http://www/noravankcom//artikles /detai/ibn/FIFMENT ID=14573/.

**UOT 297.18.**

# HƏDİSİ-ŞƏRİFLƏRDƏ VƏ MİLLİ-MƏNƏVİ MƏDƏNİYYƏTİMİZDƏ VALİDEYN VƏ QONŞU HAQLARI

***İbrahim Quliyev***
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*quliyev.ibrahim.78@mail.ru*

**Açar sözlər:** *valideyn, islam, Quran, Məhəmməd (s), qonşu*

*Azərbaycan atalar sözlərinin tarixi çox qədimlərə gedib çıxır. Nağıllarda, dastanlarımızda atalar sözlərinə tez-tez rast gəlmək olar. Şifahi xalq ədəbiyyatımızın ən qədim nümunələrindən olan "Kitabi-Dədə Qorqud" dastanında da çoxlu atalar sözlərinə rast gəlmək mümkündür. Məsələn, "qarı düşmən dost olmaz", "çıxan can geri dönməz", "əski pambıq bez olmaz" və s.*

*Atalar sözləri toplanmamışdan də yazılı ədəbiyyatımızın görkəmli nümayəndələri tərəfindən öz əsərlərində işlədilmişdir. Nizami, Xaqani, Füzuli kimi şairlərimiz öz əsərlərində xeyli miqdarda atalar sözləri işlətmişlər.*

# ПРАВА РОДИТЕЛЕЙ И СОСЕДЕЙ В НАШЕЙ НАЦИОНАЛЬНО-ДУХОВНОЙ КУЛЬТУРЕ И ХАДИСАХ

***Ибрагим Гулиев***

**Ключевые слова:** *родитель, ислам, Коран, Мухаммед (с), сосед*

*Уважать и почитать родителей  является важным поступком в религии. Забота о родителях и их довольство  это залог прошения грехов. В Исламе придается большое значение уважению родителей и приказано за ними ухаживать.  Всевышний Аллах так говорит в Священном Коране:*

*"И повелел твой Господь чтобы вы не поклонялись никому кроме него а родителям делали добро. Если достигнут у тебя старости один из них или оба то не говори им уфф и не кричи на них а говори им свое благо родное. И проявляй по отношению к ним смирение из милосердия и говори: Господь мой, помилуй их растивших меня, когда я был маленьким".*

*Соседские отношения являются одним из наиболее важных тем в Исламе. Всевышний Аллах так говорит в Священном Коране:*

*"И поклоняйтесь Аллаху и не придавайте ему сотоварища, будьте добрыми в отношении родителей, близких, сирот, бедных, путника (который остановился у вас) соседа который является родственником и соседа не родственника (чужого человека)".*

## THE RIGHTS OF PARENTS AND NEIGHBORS IN OUR NATIONAL-SPIRITUAL CULTURE AND HADITH`S

***Ibrahim Guliyev***

**Key words:** *The parents, Islam, Qur'an, Muhammad (p.b.u.h), The neighbour.*

*Respect and honor parents is an important act of religion. Caring for parents and their satisfaction is the key to petition sins. In Islam attaches great importance to respect parents and ordered to take care of them. Almighty Allah so says in the Holy Qur'an:*

*"And your Lord has decreed that you not worship except Him, and to parents, good treatment. Whether one or both of them reach old age (while ) with you, say not to them ( so much as ) "uff", and do not repel them but speak to them a noble word.*

*Neighborly relations are one of the most important themes in Islam. Almighty God so says in the Holy Qur'an:*

*"Worship Allah and associate nothing with Him, and to parents do good, and to relatives, orphans, the needy, the near neighbor farther away, the companion at your side, the traveler, and those whom your right hands possess. Indeed, Allah does not like those who are self-deluding and boastful".*

Xalqımızın milli-mənəvi mədəniyyətinin tərkib hissələrindən biri olan atalar sözlərində dostluq, qardaşlıq, mehribanlıq kimi gözəl xüsusiyyətlər təbliğ olunur. Məsələn: "dost yolunda boran olar, qar olar", dost dosta tən gərək, tən olmasa gen gərək", "dost min isə, azdır, düşmən bir isə, çoxdur", "dost gəlişi bayram olar" [2, 101].

İnsanların təsərrüfatla məşğul olması, orta əsrlərdə bəylərin zülmünə uğraması, və başqa amillər də bəzi atalar sözlərinin meydana gəlməsində heç də az rol oynamamışdır. Məsələn, əkinciliklə əlaqədər: "əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "şərti şumda kəsək ki, xırmanda yabalaşmayaq",

maldarlıq və ya ovculuqla əlaqədar: "ceyranın yüyürməyin gördüm ətindən əlmi üzdüm", "malı qırov öldürər qışın adı bədnamdır", "atılan ox geri qayıtmaz", bəylərə və onların zülmünə qarşı olaraq: "koxanı gör, kəndi çap", "ac bəydən tox it yaxşıdı", "yer bəyin, yurd xanın, işlə hey çıxsın canın" kimi atalar sözlərini misal göstərmək olar[2, 99].

Atalar sözlərinin meydana gəlməsində təbii ki, aforizmin, məşhur deyimlərin rolu çox böyükdür. Bu səbəbdəndir ki, zaman-zaman atalar sözlərinə bəzi mədəniyyətlərin, dinin təsiri olmuş, onlardan qaynaqlanmış, bəhrələnmiş və öz səmərəsini vermişdir.

Tarixdən bildiyimiz kimi, VII əsrdə islam ordusu Azərbaycana yürüşlərə başlamış və nəticədə İslam dini Azərbaycanda yayılmışdı. İslam dininin Azərbaycanda yayılmasından sonra insanların yaşam tərzinə, onların məişətlərinə öz təsirini göstərmiş və bu sahələrlə yanaşı, dilimizə və xalq ədəbiyyatına da öz təsir gücünü göstərməyə başlamışdı[9, 92]. Azərbaycan dilinə bir çox ərəb sözlərinin keçməsi məhz bununla bağlıdır. Yazılı ədəbiyatda demək olar ki, bütün yazarların öz əsərlərini ərəb dilində yazması, ərəb dilinin dövlət dili səviyyəsinə qalxması və o zaman üçün səciyyəvi olan saray ədəbiyyatının bütün nümunələrinin ərəb dilində olması bilavasitə Azərbaycanın ərəb xilafətinin tərkibinə qatılması ilə bağlıdır.

Yazılı ədəbiyyat kimi, şifahi xalq ədəbiyyatı da bu təsirdən kənarda qalmamışdır. Peyğəmbərimizin (s) vəfatından sonra Qurani-Kərimin, hədisi-şəriflərin Ərəbistan sərhədlərindən kənara çıxması və digər xalqlara öyrədilməsi, təbliğ edilməsi öz təsirini xalq ədəbiyyatına göstərməyə bilməzdi.

Bu səbəbdəndir ki, bəzi Azərbaycan atalar sözləri həzrət Peyğəmbərimiz (s) və onun əhli-beytinin (ə) hədislərindən qidalanmış, onlardan qaynaqlanmış, bu müqəddəs kəlamlarla tamamilə uzlaşmışdır. Bəzən bir hədisi-şərifin həm də bir atalar sözü kimi dilimizdə işlənməsi, xalq arasında atalar sözü kimi təşəkkül tapması buna əyani sübutdur.

Həzrət Məhəmmədin (s) bir çox hədisi-şərifləri Azərbaycan atalar sözləri ilə tamamilə üst-üstə düşür. İnsanların yaxşı işlərə təşviq edilməsi, pis işlərdən çəkindirilməsi həm hədisi-şəriflərin, həm də atalar sözlərinin ən əsas şüarıdır. Peyğəmbərimizin (s) hədisi-şəriflərinin təsir etdiyi mövzuların başında ata-anaya yaxşılq, qonşuluq haqqı, səbir etmək, doğruluq göstərmək, yaxşılıq etmək, həyalı olmaq, niyyəti saflaşdırmaq, zülm etməmək, xəsislik göstərməmək, xəyanaətkarlıq etməmək, yalan danışmamaq, hiylə işlətməmək və s. gəlir.

Ana-ataya yaxşılıq etmək dinimizin vacib buyurduğu əməllərdəndir. Valideynə yaxşılıq etməyin çox bərəkətli və səmərəli faydalarından biri günahların bağışlanmasıdır. İslam dinində də ata-anaya böyük dəyər verilmiş, onlara hörmət etmək, qayğısına qalmaq əmr olunmuşdur. Allah taala Qurani-Kərimdə belə bəyan edir:

“Rəbbin belə əmr etdi: Sadəcə Allaha ibadət edəcəksiniz. Ana və atanızla yaxşı rəftar edəcəksiniz. Onlardan biri və ya hər ikisi sənin yanında yaşlanarsa, heç vaxt onlara “uf” belə demə. Onları danlama. Onlara hörmətlə müraciət et. Onlara mərhəmət edərək təvazö qanadlarını aç. Rəbbim! Balacalığımda onlar məni necə şəfqətlə böyütdülərsə, sən də onlara elə mərhəmət et söylə”[8, İsra, 23-24].

Bundan əlavə, Məsumların (ə) kəlamlarında da aşkar şəkildə bəyan olunmuşdur ki, ata-anaya kömək etmək insanın günahlarını aradan aparır. Çoxlu hədislər bu həqiqəti açıqlayır.

Peyğəmbərimiz (s) və onun məsum əhli-beyti (ə) öz hədislərində ana-ata haqqında çox gözəl fikirlər söyləmiş, onlara yüksək dəyər vermişlər. Öz valideynlərini erkən yaşlarında itirən həzrət Məhəmməd (s) söylədiyi gözəl kəlamları ilə bir övladın öz valideynlərinə qarşı davranışının necə olması lazım olduğunu göstərmiş, valideyn-övlad münasibətlərinin qrafikini çəkmişdir.

Peyğəmbərimizə (s) “ən yaxşı rəftar edilməsi lazım olan şəxs kimdir?” - deyə soruşulduqda, belə cavab vermişdir: “Anan, sonra anan, daha sonra yenə anan, sonra atan, sonra da sənə yaxın olan qohum-əqrabalarındır” [6, Birr-2].

Peyğəmbərimizin (s) anaya verdiyi dəyəri bir başqa hədisi-şərifdə daha aydın görə bilərik: “Cənnət anaların ayaqları altındadır” [5, cihad-6].

Peyğəmbər (s) buyurur ki, ana əvəzində xalaya xidmət etmək onun günahlarını aradan aparar və bu növ günahların kəffarəsi olar. Bu qurucu və yaradıcı amildən əsla qafil olmamalıyıq. Necə ki, İmam Səccaddan (ə) gəlmiş başqa bir hədisdə Peyğəmbər (s) valideynə xidmət etməyi bütün günahların bağışlanması səbəbini bildirir.

Peyğəmbərimiz (s) həmçinin öz hədislərində ana-ataya qarşı çıxmağı, onlara itaətsizlik etməyi yasaqlayaraq buyurmuşdur: “Böyük günahlar bunlardır: Allaha şərik qoşmaq, ana-ataya itaətsizlik etmək, haqsız yerə adam öldürmək və yalan yerə and içmək” [3, diyat-2].

Bir hədisi-şərifində isə Peyğəmbərimiz (s) bir övladın atanın haqqını ödəyə bilməyəcəyini belə söyləmişdir: “Heç bir övlad atanın haqqını ödəyə bilməz. Əgər onu qul olduğu halda satın alıb azad edərsə, atalıq haqqını qismən ödəmiş olar” [5, itq-25].

Xalqımızın milli mentalitetində, adət-ənənəsində, mənəvi dəyərləri arasında ilk yeri ana-ataya yaxşılıq, onların hörmətini saxlamaq, sözlərinə qulaq asmaq, hər zaman yanlarında olmaq, xəstələndikləri zaman onlara qulluq etmək, övladın öz əməli ilə onları daim fərəhləndirməsi tutur. İstər yazılı ədəbiyyatda, istərsə də şifahi xalq ədəbiyyatında bu mövzu geniş yer tutmaqdadır. Müdrik insanlar, mütəfəkkirlər, yazıçı və şairlər ata-ana haqqında çox dəyərli fikirlər söyləmiş, öz əsərlərində bu mövzuya geniş yer vermişlər. Şifahi xalq ədəbiyyatında da bu mövzuda bayatılar, ağılar, atalar sözləri vardır. Belə atalar sözlərinə aşağıdakıları misal göstərmək olar:

“Anadan əziz yenə anadır”, “Ana ürəyi, dağ çiçəyi”, “Ata evin dirəyidir”,“Ata oğlunun pisliyini istəməz”[2, 60].

Qurani-Kərimin ayələrindən, hədisi-şəriflərdən və atalar sozlərindən göründüyü kimi, həm xalqımızın adət-ənənəsində, milli-mədəni dəyərlərimizdə, həm də dinimizdə ata-anaya hörmət, onlara qarşı mərhəmətli olmaq, onlara qayğı göstərmək, onları sevmək çox önəmli yer tutur. Peyğəmbərimizin (s) həyatı ilə tanış olduğumuz zaman onun nə qədər anaya məhəbbət göstərdiyini açıq-aşkar görə bilərik. Belə ki, öz anasını erkən yaşlarında itirən Peyğəmbərimiz (s), analığı həzrət Həliməyə hər zaman hörmət etmiş, onun gəldiyini görəndə ayağa qalxmışdır.

Bu yazılanlardan belə nəticəyə gəlmək olar ki, ana-ataya yaxşılıq etmək, onlarla gözəl bir şəkildə davranmaq haqqında Peyğəmbərimizin (s) dediyi hədisi-şəriflər eyni mövzuda olan atalar sözlərinə çox güclü təsir etməkdədir.

Qonşuluq münasibətlərinə gəldikdə isə qeyd etmək lazımdır ki,müqəddəs İslam dinində ən önəmli mövzulardan biri də qonşulara yaxşılıq etmək, onlarla xoş davranmaqdır. Uca Allah müqəddəs kitabımız Qurani-Kərimdə belə bəyan edir:

“Allaha ibadət edin və ona heç bir ortaq qoşmayın. Anaya, ataya, qohumlara, yetimlərə, yoxsullara, yaxın qonşuya, uzaq qonşuya, yanınızdakı yoldaşa, yolçuya və böyüyü olduğunuz şəxslərə yaxşı davranın” [8, Nisa, 36].

Bu ayədə möminlərə Allah taala tərəfindən on vəzifə verilir. Bütün bu vəzifələrin birincisi, Allaha şərik qoşmamaqdır. Daha sonra ata-anaya, qohumlara, yetimlərə, yoxsullara və bununla bərabər qonşulara yaxşı rəftar etmək əmr edilir.

Peyğəmbərimiz (s) və onun əhli-beyti (ə) də öz hədisi-şəriflərində qonşuluq haqqında gözəl kəlamlar söyləmiş, qonşu haqqının tapdalanmamasına xüsusi önəm vermişlər.

Hədislərinin birində Peyğəmbərimiz (s) belə buyurur:

“Ey Əbuzər! Şorba bişirdiyin zaman suyunu bol elə. Sonra da qonşularını gözdən keçir və lazım bildiklərinə gözəl bir şəkildə təqdim et” [6, Birr-143].

Digər hədisində Peyğəmbər (s) müsəlman qadınlara belə xitab edir:

“Ey müsəlman qadınlar! Qonşu xanımlar bir-biri ilə hədiyyələşməyi azaltmasınlar! Alıb verdikləri şey bir qoyun hissəsi belə olsa” [3, Ədəb-30].

Digərbir hədisində isə Peyğəmbərimiz (s) möminlərə belə müraciət edir:

“Alaha və axirət gününə iman edən kimsə qonşusuna yaxşılıq etsin. Allaha və axirət gününə iman edən kimsə qonağına ikram etsin. Allaha və axirət gününə inanan kimsə ya faydalı söz söyləsin, ya da sussun!” [6, İman-77].

Digər bir rəvayətdə isə Peyğəmbərimiz (s) belə buyurmuşdur:

“Allaha və axirət gününə iman edən kimsə qonşusunu narahat etməsin” [3, Ədəb-31].

Görkəmli hədis alimi Məhəmməd bin Yaqub əl-Küleyni (876-941) "Cabirdən belə nəql edir ki, bir gün İmam Məhəmməd Baqir (ə) ona belə demişdi: "Ey Cabir, bir kimsənin tərəfdarımız görsənməsi və biz Əhli-beyti sevdiyini söyləməsi kifayət ola bilərmi? Vallah bizim tərəfdarlarımız yalnız Allahdan çəkinən və yalnız Allaha itaət edənlərdir. Ey Cabir! Onlar təvazökarlıq ilə, xüşu ilə, əmanatə riayət etmələri ilə, Allahı çox zikr etmələri ilə, oruc tutmaları ilə, namaz qılmaları ilə, ana və ataya yaxşılıq etmələri, yoxsul qonşularına, kasıblara, borclulara, yetimlərə kömək etmələri, doğru sözlü olmaları ilə, Quran oxumaları ilə, insanlar haqqında xeyirdən başqa bir söz söyləməməklərilə tanınarlar. Tayfaları içərisində hər kəsin əşyalarını əmanət etdiyi kimsələrdir onlar". Dedim ki: "ey Peyğəmbərın (s) oğlu! Bu zamanda bu xüsusiyyətlərə sahib bir adam tanımırıq..." [4, 123].

Milli-mədəni dəyərlərimiz arasında qonşu ilə yaxşı rəftar etmək, qonşunun-qonşuya maddi və mənəvi yardım etməsi, ona həmişə kömək əlini uzatması çox əhmiyyətli yer tutur. Bu səbəbdəndir ki, atalar sözlərində qonşuluq haqqında bir çox məsəllər vardır. Bütün bu sözlərdə, bu məsəllərdə bizə tərifə layiq qonşuluğun xüsusiyyətləri öyrədilir, bildirilir. Bunlara misal olaraq aşağıdakı atalar sözlərini göstərmək olar:

"Yaxın qonşu, uzaq qohumdan yaxşıdır" [7, 216]. "Qonşum şah – mən də şah, qonşum tox – mən də tox" [1, 170]. "Qonşu qonşuya baxar, özünü oda yaxar" [2, 101]. "Qonşu qonşu olsa, kor qız ərə gedər" [7, 170]. "Qonşunun muncuğunu oğurlayan gorda taxar" [1, 170].

Nəticə olaraq bunu deyə bilərik ki, istər atalar sözlərində, istərsə də hədisi-şəriflərdə qonşuluğun, qonşuluq haqlarının qorunmasının önəmli olduğu, qonşuya paxıllıq etməkdən çəkinmək vurğulanmışdır. Uca Allah da öz kitabında qonşularla yaxşı rəftar etməyi möminə verilən on vəzifədən biri saymışdır. Həm hədislərdə, həm də ayədə yaxşı qonşu olmağın ölçüsü xeyirli və faydalı olmaqda görünür və insanlara, yaxınlarına, dostlarına, müsəlman qardaşlarına, xeyiri dəyməyən bir insanın yaxşı bir insan olmadığı açıqlanmış, dönə-dönə təkrarlanmışdır.

Həmçinin, qonşuluq haqqında deyilən hədisi-şəriflərdən və atalar sözlərindən belə nəticəyə gəlmək olar ki, bu mövzuda deyilmiş hədislər atalar sözlərinə böyük təsir etmişdir.

## ƏDƏBİYYAT


1. Bəydilli Cəlal. Atalar sözləri. Öndər nəşriyyat, Bakı, 2004. 235 s.
2. Əfəndiyev Paşa. Azərbaycan şifahi xalq ədəbiyyatı. Maarif nəşriyyatı, Bakı, 1981.
3. əl-Buxari Məhəmməd bin İsmail. Səhihi-Buxari. ər-Riyad, 2000. 1513 s.
4. əl-Küleyni Məhəmməd bin Yaqub. Üsuli-kafi. 8 cilddə. 2-ci cild. I nəşri, Beyrut, 1429/2008.
5. ən-Nəsai Əhməd bin Şüeyb. Sünəni-Nəsai. Beyrut, Darül-fikr, 1981.
6. ən-Nişaburi Müslüm bin Həccac. Səhihi-Müslüm. ər-Riyad, 1999. 1523 s.
7. Qasımzadə Hamid. Atalar sözü. Yazıçı nəşriyyatı, Bakı, 1985.
8. Qurani-Kərim. Tərc: Z. Bünyadov, V. Məmmədəliyev. Bakı, Azərnəşr, 1991. 711 s.
9. Mahmudlu Yaqub. Azərbaycan tarixi. Təhsil nəşriyyatı, Bakı, 2002.

**UOT 902.**

# CƏNUB-ŞƏRQİ AZƏRBAYCANIN ENEOLİT DÖVRÜ ABİDƏLƏRİNİN TƏDQİQİ HAQQINDA

***Afiq Abdullayev***
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu*
*afigabdullayev@mail.ru*

**Açar sözlər:** *neolit, eneolit, Muğan, Əlikömək təpə, Polu təpə*

*Məqalədə Azərbaycan Respublikasının cənub-şərq bölgəsi olan Muğanın eneolit dövrünə aid abidələrinin tədqiqat tarixi yazılmış, tədqiqatçıların fikirləri və mülahizələri əsasında bu bölgənin eneolit mədəniyyətinin yayılma sərhədləri göstərilmiş, abidələr haqqında ayrıca qısa məlumat verilmişdir. Həmçinin, məqalədə müəllifin tədqiqatçıların fikirlərinə elmi yanaşması da yerini tutmuşdur.*

# THE STUDY OF THE MONUMENT OF THE CHALCOLİTHİCPERIOD IN THE SOUTH-EAST OF AZERBAIJAN

***Afig Abdullayev***

**Key words:** *neolithic, chalcolithic, Mugan, Alikomektepe, Polutepe*

*This article is about the history of research on the Chalcolithic architecture in the Mugan region located in the south east of Azerbaijan. Based on the findings and conclusions made by various archeologists who has researched in this region, the article will shed light on the scope of Chalcolithic traditions in Mugan region. Moreover, brief information about each piece of architecture in the region is provided. The author expresses also his own opinion on the previously made findings.*

# ОБ ИССЛЕДОВАНИИ ПАМЯТНИКОВ ПЕРИОДА ЭНЕОЛИТА ЮГО-ВОСТОЧНАЯ АЗЕРБАЙДЖАНА

***Афиг Абдуллаев***

**Ключевые слова:** *неолит, энеолит, Муган,* Аликомектепе, Полутепе

*В статье последовательно дана история изучения памятников эпохи энеолита Муганской равнины занимающей юго-восточную часть Республики Азербайджана. На основе предположений авторов исследования показан ареал распространения традиции Муганскогоэнеолита. Помимо, этого дана информация о каждом памятнике отдельно. А также отражено отношение автора на высказанные авторами мнения.*

Muğan bölgəsində eneolit dövrü üzrə arxeoloji tədqiqatlar hələ keçən əsrin 60-cı illərinin ortalarından başlamışdır. Bu arxeoloji ekspedisiyalarda təşkilatçı və ya iştirakçı kimi İdeal Nərimanov, Fərman Mahmudov, Hatəm Kəsəmənli, Hidayət Cəfərov, Roza Arazova, Qüdrət İsmayılzadə, Tufan Axundov, Xəqani Alməmmədovkimi arxeoloqların adlarını qeyd etmək olar. Arxeoloji tədqiqatlar səfər, kəşfiyyat və əsaslı arxeoloji qazıntılardan ibarət olmuşdur. Əsaslı arxeoloji qazıntılar 1971-1979-cu illərdə İ.Nərimanov və F.Mahmudov (Əlikömək təpə yaşayış yeri), 1990-1991-cu illərdə F.Mahmudov (Əliköməktəpə yaşayış yeri) tərəfindən aparılmış, 2004-cü ildən isə T.Axundov (Polutəpə yaşayış yeri) tərəfindən başlayaraq günümüzə qədər davam edir. Müxtəlif illərdə aparılan tədqiqatlar nəticəsində 30-dan çox eneolit dövrü abidəsivə ya yaşayış yeri qeydə alınaraq elmi ədəbiyyata daxil edilmişdir. Bu dövrə aid yaşayış yerlərinə daha çox İncəçay, Mişarçay, Qurudərə çayları hövzəsində rast gəlinmişdir. Bu yaşayış yerləri sırasında Əliköməktəpə, Polutəpə, Paşatəpə, Fəttəpə, Qız təpə (və ya İlanlı təpə), Camalxantəpə, Süleyman xaraba, Mişarçay I, II, III, Qurudərə I, II, III, IV, V, VI İncəçay kimi yaşayış yerlərini xüsusilə qeyd etmək lazımdır[6, səh. 53].Bu abidələrdən yalnız Əliköməktəpə və Polutəpə yaşayış yerlərində əsaslı arxeoloji qazıntılar aparılmış, Fəttəpəsi stratiqrafik şurf vasitəsi ilə tədqiq edilmişdir. Digər abidələrin dövrü haqda fikirlər yalnız vizual baxış və yerüstü materiallın toplanılması və nəzərdən keçirilməsi nəticəsində formalaşmışdır.

Mişarçay I, II, IV yaşayış yerləri 1965-ci ildə İ.Nərimanovun rəhbərliyi altında arxeoloji ekspedisiyanın kəşfiyyat səfəri zamanı Mişarçayın Cəlilabad

rayonu ərazisindən keçən sahillərində yerləşən təpələrdə aşkar olunmuşdur [17, səh. 88 - 90].

Qurudərə I, II, III, IV, V, VI yaşayış yerləri 1965-ci ildə İ.Nərimanovun rəhbərliyi altında arxeoloji ekspedisiyanın kəşfiyyat səfəri zamanı Qurudərə adlanan çay yatağının Cəlilabad şəhəri və Mişarçaya yaxın hissəsində qeydə alınmışdır [17, səh. 91 - 94].

Əlikömək təpə yaşayış yeri Muğan bölgəsinə 1966-cı ildə arxeoloji kəşfiyyat səfəri zamanı aşkar edilmişdir. O zaman abidənin dövrü yerüstü materialların toplanması ilə təyin edilmişdir [8, səh. 20].Yaşayış yeritəpə şəklində olub, Cəlilabad rayonunun Üçtəpə kəndinin şimal-şərq qurtaracağında, İncəçay çayının sağsahilində yerləşir. Təpənin hündürlüyü çay sahilindən 5 m hündürlükdə olmaqla, ərazisi təxminən 1 ha-dır[8, səh. 10].1971-ci ildə İ.Nərimanovun rəhbərlik etdiyi arxeoloji ekspedisiya Əlikömək təpəsinin şimal-şərq hissəsində arxeoloji qazıntılara başlamış və sonrakı illərdə onun bilavasitə iştirakı ilə F.Mahmudovun rəhbərliyi altında 1972-1979-cu illərdə ardıcıl davam etmişdir. Qazıntılar nəticəsində mədəni təbəqənin ümumi qalınlığının 5,1 m olduğu müəyyən edilmişdir. Ümumilikdə, yaşayış yerinin600$m^2$sahəsində qazıntılar aparılmışdır. Məlum olmuşdur ki, Əlimkömək təpəsi orta əsrlər (XVII-XVIII əsr müsəlman qəbristanlığı), antik (1 ədəd təsərrüfat quyusu və içində qarışıq materiallar -saxsı məmulatı və bəzək əşyaları), orta tunc (3ədəd torpaq qəbir), ən əsası isə eneolitdövrlərininmaddi mədəniyyətlərini özündə əks etdirir [9, səh. 16].Tədqiqatlar nəticəsində 4 m qalınlığı olaneneolit təbəqəsində(0-1-2-3-4-5) ardıcıl olmaqla 6 inşaat qatı müəyyən edilmişdir [8, səh. 16-18].

Camalxan təpəyaşayış yeri keçən əsrin 70-ci illərində bölgədə aparılan tədqiqatlar zamanı aşkar edilmişdir. Bu yaşayış yeri Cəlilabad rayonunun Şiləvəngə kəndi yaxınlığında aşkar olunmuşdur. Abidə Əlikömək təpəsindən cənubda yerləşir. Toplanmış keramika məmulatına əsasən abidənin Əlikömək təpəsi ilə təqribən eyni dövrə aid olduğu söylənmişdir[16, стр. 60].

İncəçay yaşayış yeri F.Mahmudovun Əlikömək təpəsində qazıntılar apardığı ərəfədə həmin kəndin yaxınlığında qeydə alınmışdır. Bu yaşayış yeri Cəlilabad rayonu, Üçtəpə kəndində, Əlikömək təpəsindən 300 m qərb tərəfdə yerləşir [5, səh. 25].

Paşa təpə yaşayış yeri H.Kəsəmənlinin 1970-ci ildə bölgəyə kəşfiyyat səfəri zamanı aşkar edilmişdir. Bu yaşayış yeri Cəlilabad rayonun Cəfərxanlı kəndinin cənubunda yerləşir. Təpənin hündürlüyü 3-4 m, diametri 35 m-dir [4, səh. 17].

Qız təpə (və ya İlanlı təpə) yaşayış yeri 1970-ci ildə bölgəyə kəşfiyyat səfəri zamanı aşkar edilib. Qız təpə yaşayış yeri Cəlilabad rayonunun Təklə kəndinin girəcəyində yolun sağ tərəfində yerləşir. Təpənin hündürlüyü 5-6 m-ə çatır [4, səh. 17]. Sulu təpə yaşayış yeri də həmin ildə aşkar edilib. Abidə

Cəlilabad rayonun Üçtəpə kəndindən şimala doğru 3 km məsafədə yerləşir. Muğanın bu dövrə aid edilən digər yaşayış yerlərindən əldə edilmiş maddi mədəniyyət qalıqları bənzər materiallardan ibarət olmuşdur [4, səh. 15].

Cəlilabad rayonu Üçtəpə kəndinin girəcəyində, kənd qəbristanlığının yanında və İncə çayın sağ sahilində yerləşən Polu təpə yaşayış yerində 2004-cü ildə arxeoloq T.Axundovun rəhbərliyi altında "Muğan arxeoloji ekspedisiyası" tərəfindən arxeoloji qazıntılara başlanılsa da, geniş miqyaslı işlər 2006-cı ildən davam etdirilir. Polutəpə abidəsi 6 ha ərazini əhatə etməklə öz həmdövr abidələri arasında Muğanda bizə məlum olanların ən böyüyüdür. Yaşayış yerində bu günədək hər birinin uzunluğu 20 m, eni 8 m olan 3 pilləli sahədə arxeoloji qazıntılar aparılıb[1, səh. 23-24]. Qazıntılar zamanı IX-XI əsrlərə aid (əsasən təsərrüfat quyularında aşkar edilmiş saxsı və daş alət və əşya qırıqları, heyvan sümükləri və s.) materiallar aşkar edilib. Həmçinin, bu yaşayış yerində Kür-Araz mədəniyyətinə aid maddi-mədəniyyət nümunələri də qeydə alınıb. Son tədqiqatlar zamanı abidənin eneolit təbəqəsinin qalınlığının 6 m-dən artıqolduğu məlum olub.

Süleyman xarabayaşayış yeri T.Axundov tərəfindən 2004-cü ildə ərazidə kəşfiyyat aparılan zaman aşkar edilmiş və Əlikömək təpəsi ilə eyni mədəniyyətin daşıyıcısı olduğu məlum olmuşdur [1, səh. 22].

Fət təpə yaşayış yeri Cəlilabad rayonunun Üçtəpə kəndindən şimal tərəfində yerləşir. 2006-cı illərdə bu abidədə T.Axundov tərəfindən kəşfiyyat xarakterli qazıntılar aparılmış, 7 m hündürlüdə olan təpənin 6 metrinin mədəni təbəqə olduğu məlum olmuşdur. Bunun da 5,5 m hissəsi eneolit təbəqəsidir [1, səh. 22]. Muğan ərazisində eneolit abidələrin tədqiqi nəticəsində, bu abidələrin dövrü, mədəni mənsubiyyəti və əlaqələri haqda müxtəlif fikirlər formalaşıb.

İ.Nərimanov Muğan bölgəsinin bu dövrə aid materialları ilə Qarabağ və Urmiya ətrafının həmdövr materialları arasında paralellik aparmış, o dövrdə Ön Asiyanın qədim tayfaları ilə mədəni-iqtisadi əlaqələrin olması qənaətinə gəlmişdir [16,s. 95, 159]. Tədqiqatçı bu yaşayış yerlərindən əldə edilmiş saxsı məmulatlarının tədqiqindən sonra materialları eneolit dövrünün sonuna aid etmiş və onların tunc dövrünə keçidin əlamətlərini daşıdığını qeyd etmişdir [16,s. 61, 95].

F.Mahmudovun tədqiqatları ilə tanış olduqdan sonra məlum olur ki, o, da bu yaşayış yerlərinin dövrünün müəyənləşdirilməsində həmkarı İ.Nərimanovla həmfikirdir. Adları çəkilən tədqiqatçılar eyni qənaətə gəlmişlər ki, Muğan bölgəsində Əliköməktəpə abidəsi və onunla həmdövr abidələr Azərbaycanda eneolit mədəniyyətinin inkişaf etmiş sonrakı regional variantıdır və dövr etibarilə eneolit dövrünün sonlarına aiddir.Bundan əlavə İ.Nərimanov və F.Mahmudov hesab edir ki, Muğanın eneolit abidələrinin tikinti qalıqları və tapıntı nümunələri bənzərlik baxımından Naxçıvanın da həmdövr yaşayış yerləri ilə çox yaxındır [17, s. 96].

F.Mahmudov Əlikömək təpə yaşayış yerində aşkar olunan bəzi saxsı nümunələrini Urmiyaərtafı Dalma təpə eneolit yaşayış yerinin keramikası ilə eyniləşdirmiş və mədəni əlaqələrin olduğunu söyləmişdir [9, s. 24]. Həmçinin, o, aşkar olunan boyalı və boyanaxışlı saxsı məmulatlarını Xələf və Ubeyd mədəniyyətinin boyanaxışlı qabları ilə müqayisə edərək, Əlikömək təpə qablarının Ubeyd mədəniyyəti ilə oxşarlıq təşkil etdiyini qeyd etmişdir [7, səh. 3-11].

Əliköməktəpə yaşayış yerindən tapılmış dörd ədəd xırda metal əşayanın spektral analizi onların xalis misdən olduğunu göstərmişdir. F.Mahmudov bu metal məmulatlarını Əlikömək təpə sakinlərinin metal ilə ilkin tanışlığı kimi şərh etmişdir [6, səh. 66].

Muğan bölgəsindəeneolit dövrünün digər tədqiqatçısı arxeoloq T.Axundov fərqli yanaşma irəli sürmüşdür. Onun mülahizəsinə görə Əlikömək-təpə yaşayış yeri neolit dövrü adlandırılmalıdır. Arxeoloqbumülahizələrini müxtəlif arxeoloji elmi dəlillər gətirərək izah etməyə çalışmışdır [14, səh. 51-54]. Daha sonralar Əlikömək təpəsində, Polu təpədə və Fət təpədə tədqiqatçı belə qənaətə gəlmişdir ki, Muğan bölgəsinin yaşayış yerləri səciyyəvi materiallar və ümumi mədəniyyət baxımından özünəməxsusluğu ilə seçilir. Bunları nəzərə alan tədqiqatçı bu bölgə haqqında danışılanları“Muğan neolit ənənələri” adı altında bütövləşdirmək qənaətinə gəlmişdir [13, s. 353].

T.Axundov Polutəpə yaşayış yerinin xronoloji dövrünü e.ə.V minilliyin sonu e.ə.IV minilliyin əvvəllərinə aid etmişdir [1, səh. 22]. 2018-ci ildə AMEA Radiasiya Problemləri İnstitutunun əməkdaşları ilə birlikdə Polutəpə yaşayış yerindən götürülən nümunələr üzərində aparılan kimyəvi və radioktiv analizlərin nəticəsində yaşayış yerinin tarixinin yuxarıda göstərilən dövrlə eyni olduğu qənaətinə gəlinmişdir [19, p. 147-151].

Arxeoloqlar Azərbaycanda eneolit dövrünün olmaması fikrinin yalnız gümandan ibarət olduğunu göstərmiş, daha çox elmi tərəqqinin arxeologiya elminə qarşılıqlı təsiri ilə gələcəkdə daha dəqiq fikir söyləməyə imkan verəcəyini qeyd etmişlər [3, səh. 4-12].

Tədqiqatçılar Əlikömək təpəsindən əldə edilən obsidian (çaxmaqdaşı) nümunələrinin Kəlbəcər rayonunun obsidian yataqlarından olmasını [11, стр. 30-31] və Polutəpə daş məmulatlarını nmüxtəlif xüsusiyyətlərinə görə 17 tipoloji qrupda cəmləşməsini [12, s. 26-27] qeyd etmişlər..

Əlikömək təpəsindən əkinçiliyə aid tapılan nümunələr əsasən taxıl və dənli bitkilərin, meyvə və giləmeyvə qalıqlarının formalarıdır. Taxıl növlərindən əsasən yabanı 2 cərgəli arpa və evcil 6 cərgəli arpa növləri, yumşaq və bərk yumru buğda növləri və s. aşkar edilmişdir. Taxıl növləri paleobotanik akad. İ.Mustafayev tərəfindən təyin edilmişdir [16, стр. 141].

Arxeoloq X.Alməmmədov Mil düzünün və Muğanın (Əlikömək təpəsi) həmdövr yaşayış yerlərinin saxsı məmulatları arasındaanaloji təhlil apararaq,

onların hazırlanma texnologiyasında, tərkiblərində,boya naxışlarında eynilik olduğunu söyləmişdir [2, səh. 60].

Qeyd etmək lazımdır ki, Azərbaycanda bəhs etdiyimiz yaşayış məskənlərindən aşkar olunan müxtəlif materiallar və inşaat təbəqələri əsasən eneolit dövrünün xüsusiyyətlərini daşıyır. Bu mədəniyyət qonşu və yaxın regionların eneolit dövrü mədəniyyətləri ilə təmas nəticəsində formalaşmışdır. Yaxşı olar ki,Azərbaycan ərazisində neolit və eneolit dövrü mədəniyyətləri kompleks şəkildə öyrənilsin.

Muğan bölgəsinin eneolit dövrü yaşayış məskənlərindən aşkar olunan daş, sümük və saxsı məmulatlarının hazırlanma texnologiyasını və ümumi tipologiyasını Azərbaycanın digər bölgələrinin eneolit dövrü yaşayış məskənlərindən aşkar olunan məmulatlar ilə müqayisə edərək demək olar ki, Muğan bölgəsinin eneolit ənənəsi Gəncəbasar, Qarabağ və Naxçıvan bölgələrinin eneolit ənənələri ilə birlikdə Azərbaycanın ümumi eneolit dövrü mədəniyyətini təşkil edir.Muğan bölgəsində aparılar ardıcıl tədqiqat işləri Azərbaycanın eneolit dövrünün tədqiqində mühüm elmi əhəmiyyətə malikdir.




**Şəkil 1.**Muğan bölgəsinin Azərbaycan Respublikasına daxil olan hissəsi [18, стр.179, рис.1]




**Şəkil 2.** Gəncəbasar, Qarabağ, Muğan eneolit mədəniyyəti ənənələrinin yayıldığı bölgələr [15, стр.237].

## ƏDƏBİYYAT


1.Axundov T.İ. Muğanın neolit-eneolit abidələrində tədqiqatlar. “Azərbaycanda arxeoloji tədqiqatlar - 2008” jurnalı, Bakı, 2008, səh.21-25

2.Alməmmədov X.İ. Azərbaycanın eneolit dövrü boyanaxışlı keramikasının rəng və naxışlanma motivləri. “Azərbaycan Arxeologiya və Etnoqrafiyası” jurnalı. 2007, №2. səh 57-65

3.Cəfərov H.F. Neolit, Eneolit, yoxsa Neolit-Eneolit (Eneolit dövrü anlayışının yaşamaq haqqı varmı?). AMEA, “Xəbərlər” jurnalı, №4, Bakı, 2017. səh.4-12

4.Kəsəmənli H.P. 1970-ci il hesabatı. AMEA AE İns.-un elmi arxivi, İş № 106

5.Mahmudov F.R. 1967-ci il hesabatı. AMEA AE İns.-un elmi arxivi. İş № 48

6.Mahmudov F.R. Əlikömək təpəsində arxeoloji qazıntıların ilkin yekunları. “Daş dövrü və Azərbaycanda eneolit” kitabı. Bakı, 1984. Səh 53-75

7.Mahmudov F.R. Əliköməktəpəsinin boyalı qabları və onların bəzi cənub paralelləri. Qədim və orta əsr şərqi və Aralıq dənizi hövzəsi (Elmi əsərlərin tematik toplusu. Bakı, 1989. Səh. 3-11

8.Nərimanov İ.H., Mahmudov F.R. 1971-ci il hesabatı. AMEA AE İns.-un elmi arxivi. İş №57.

9.Nərimanov İ.H., Mahmudov F.R. 1974-cü il hesabatı. AMEA AE İns.-un elmi arxivi. İş № 125.
10. Nərimanov İ.H., Mahmudov F.R. 1977-ci il hesabatı. AMEA AE İns.-un elmi arxivi. İş № 301.
11. Аразова Р.Б. Каменные орудия труда ранных земледельческо-скотоводческих племен Западного Азербайджана. Изд. "Элм". Баку, 1986.
12. Аразова Р.Б. Предварительные резултаты изучения каменных изделий поселения Полутепе. Azərbaycan Arxeologiyası jurnalı, cild 19, № 1, Bakı, 2016, səh. 23-32.
13. Ахундов Т.И. "Муганский неолит" – традиции начала кавказский цивилизации. "Кавказоведческие разыскания"жур. №6, Тб. 2016. стр.353-357
14. Ахундов Т.И. К проблеме археологии Кавказа эпохи неолит-бронза. "Qafqazın arxeologiya və etnoqrafiyası" Beynəlxalq elmi konfransın materialları. Bakı, 2000, səh.51-54
15. Ахундов Т.И. Памятники Муганской степи и предпосылки расселенияранних земледельцевна Южном Кавказе в эпоху неолита-энеолита. "Stratum Plus", №2, 2011. стр.219-237)
16. Нариманов И. Г. Культура древнейшего земледельческо-скотоводческого населения Азербайджана (эпоха энеолита VI-IV тыс. до н. э.), Изд. "Элм", Баку, 1987
17. Нариманов И.Г., Махмудов Ф.Р. "Энеолитические памятники на Мугана". "Azərbaycan SSR EA xəbərləri", Bakı, 1967, № 2. səh.88-96
18. Махмудов Ф.Р. Культура юго-восточногоАзербайджана в эпоху бронзы и раннего железа. Б. 2008.
19. Ahkundov T.İ, Mammadov G.S., Ahadova A.A, Abdullayev A.N. Dating of Charcoal Samples from the Polutepe Archeological site in Azerbaijan. "Asian Journal of Humanities and Social Studies", vol. 06, 2018. p. 147-151

**UOT 37.**

# 1920-1991-cı İLLƏRDƏ AZƏRBAYCANDA ALİ PEDAQOJİ TƏHSİL: TƏDQİQİ VƏ TƏDRİSİ PROBLEMLƏRİ

***Şiruyə Azadəliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*shiruyya55@g.mail.com*

**Açar sözlər:** *Azərbaycan, təhsil tarixi, pedaqoji təhsil, tədris, təhsil,*

*1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafının əsas mərhələlərinin, xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bu sahədəki 70 illik zəngin təcrübənin ümumiləşdirilməsi ali pedaqoji təhsil sistemini mükəmməl bünövrə üzərində qurmağa kömək edə bilər. Yetmiş illik keçmiş elə bir tarixi materialdır ki, onu tənqidi mövqedən dərk edib qiymətləndirmədən ictimai özünüdərk mümkün deyil. Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin təşkilində və inkişafında buraxılan səhvlərə, yol verilən nöqsanlara baxmayaraq, nailiyyətlərimiz kifayət qədər böyük olmuşdur. Lakin 1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü, diversifikasiyası və inkişaf tendensiyaları nə pedaqogika üzrə fəlsəfə, nə də elmlər doktoru dissertasiyalarının predmeti olmamış, problemə kompleks baxış həyata keçirilməmişdir. Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixi sistemli yanaşma və tarixi-müqayisəli təhlil tələb edir.*

## ВЫСШЕЕ ПЕДАГОГИЧЕСКОЕ ОБРАЗОВАНИЕ В АЗЕРБАЙДЖАНЕ В 1920-1991 ГОДАХ: ПРОБЛЕМЫ ИССЛЕДОВАНИЙ И ПРЕПОДАВАНИЯ

***Шируя Азадалиева***

**Ключевые слова:** *Азербайджан, история образования, педагогическое образование, преподавание, образование*

*Определение основных этапов и характеристик развития и развития высшего образования в Азербайджане в 1920-1991 годах и обобщение 70-летнего богатого опыта в этой области может помочь построить более совершенную систему педагогического образования на идеальном фундаменте. Семьдесят лет - это исторический материал, который нельзя объяснить публике без критики. Несмотря на недостатки в организации и развитии высшего педагогического обра-*

*зования в Азербайджане в советское время, несмотря на наши недостатки, наши достижения были довольно высокими. Однако формирование, диверсификация и тенденции развития высшего педагогического образования в Азербайджане в 1920-1991 гг. Были предметом философской философии и докторской диссертации, и проблема не была тщательно рассмотрена. В советское время развитие высшего педагогического образования в Азербайджане требует систематического подхода и историко-сравнительного анализа.*

## HIGHER PEDAGOGICAL EDUCATION IN AZERBAIJAN IN 1920-1991: PROBLEMS OF RESEARCH AND TEACHING

***Shiriya Azadalieva***

**Keywords:***Azerbaijan, history of education, teacher education, teaching, education*

*The development of the basic stages and characteristics of education and development of the highest education in Azerbaijan in 1920-1991, and the 70th anniversary of the birth of a goddess in this region can help to eradicate the most advanced system of pedagogical education in the ideal foundation. It is about a decade - it is a historical material that you can read and write without criticism. When faced with the lack of organization and development of pedagogical education in Azerbaijan, the Soviet time, our unhappiness, our inability to become more and more dignified. Formation, diversification and tendency of higher education in Azerbaijan in 1920-1991 years. He was a philosopher of philosophy and doctoral dissertation, and this problem was thoroughly examined. In Soviet times, the development of higher education in Azerbaijan requires a systematic approach and historical-comparative analysis.*

Cəmiyyətin ahəngdar inkişafında, onun intellektual potensialının formalaşdırılmasında, maddi sərvətlərin insan kapitalına çevrilməsində təhsil, xüsusilə də ali təhsil mühüm əhəmiyyət kəsb edir. Azərbaycan təhsilinin Avropaya inteqrasiya etdiyi bir vaxtda məhz ali təhsil sosial – iqtisadi və mədəni sahələrdə davamlı inkişafa təkan verən real qüvvə hesab edilir. Bu səbəbdən də son illərdə ali pedaqoji təhsilin məzmunu milli dövlətçilik prinsipləri və azərbaycançılıq ideologiyasına uyğun yeniləşdirilmiş, bu təhsil pilləsində əsaslı islahatlar aparılmış, ölkənin ehtiyaclarına uyğun rəqabətə davamlı kadr hazırlığı və insan kapitalının formalaşdırılması istiqamətində mühüm addımlar atılmışdır.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji kurs və dövlətimizin başçısı İlham Əliyevin bu kursu uğurla davam etdirməsi sayəsində ali pedaqoji təhsilin dinamik inkişafında böyük nailiyyətlər əldə edilmiş, ali təhsilin dünya təhsil sisteminə inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, əhalinin ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılması istiqamətində xeyli işlər görülmüşdür. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsili Azərbaycanın davamlı inkişaf strategiyasının ən öncül istiqamətlərindən biri hesab edərək demişdir: «Azərbaycanın gələcək inkişafı məhz təhsillə bağlıdır. Bilikli, savadlı uşaqlar, gənclər gələcəkdə ölkəni idarə edəcəklər. Təhsil bilik, elm, tərəqqi deməkdir. Təhsilə qoyulan vəsait ölkəmizin gələcəyinə qoyulan vəsaitdir. Bütün inkişaf etmiş ölkələrin səbəbi də məhz ziyalı təbəqəsidir, elmi texniki tərəqqidir, texnoloji yeniliklərdir. Biz bu yolu seçmişik [1, 63].

Deməli, Azərbaycanda ali pedaqoji təhsil özünün inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoymuşdur. Bu mərhələdə də təhsilin, o cümlədən ali pedaqoji təhsilin inkişaf metodologiyasını ulu öndərin 1999-cu ilin martında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı yekun nitqində söylədiyi "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz...həyatımızın bütün sahələrində dəyişiklik təkamül xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, onillərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir qanun yaradasan" – fikirləri təşkil edir. Respublikamızda təhsil, o cümlədən ali pedaqoji təhsil sahəsində aparılan islahatlar, yeniləşmə və təkmilləşmə milli zəminə, tarixi təcrübəyə və həm də bəşəriyyətin yaratdığı təcrübəyə, təhsil-tərbiyə ənənəsinə əsaslanır. Çünki milli-ənənəvi təcrübə ümumbəşəri təcrübə ilə inteqrasiyada müasirlik mahiyyəti daşıya bilər.

Müasir dövrdə Azərbaycanda ali pedaqoji təhsil quruculuğunda tarixilik, varislik, müasirlik və millilik prinsipinin gözlənilməsi, Avropa təhsil ənənələrinin öyrənilməsi və tətbiqi ilə yanaşı, 1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafının əsas mərhələlərinin, xüsusiyyətlərinin müəyyənləşdirilməsi, bu sahədəki 70 illik zəngin təcrübənin ümumiləşdirilməsi ali pedaqoji təhsil sistemini mükəmməl bünövrə üzərində qurmağa kömək edə bilər. Yetmiş illik keçmiş elə bir tarixi materialdır ki, onu tənqidi mövqedən dərk edib qiymətləndirmədən ictimai özünüdərk mümkün deyil.Tarixi şüurun yeni səviyyəsi azad humanitar təfəkkürlə, köhnə stereotiplərin dağıdılması vasitəsi ilə təmin edilə bilər. Hazırda elə bir ictimai-siyasi, elmi-mədəni və pedaqoji mühit yaranıb ki, vaxtı ilə "həll olunmuş" tarixi-pedaqoji problemlərin yeni həll yollarının müəyyənləşdirilməsi olduqca zəruri və vacibdir.

Ulu öndər Heydər Əliyevin qeyd etdiyi kimi: «1920-ci ildən 1991-ci ilə qədər Azərbaycanın həyatında xüsusi bir dövr olmuşdur. Azərbaycan müstəqil olmamışdır, ancaq Azərbaycan xalqı böyük inkişaf yolu keçmişdir” [2,3-16]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev isə demişdir: «Azərbaycanın təhsil tarixi hər birimizin fəxr etdiyi nailiyyətlərlə zəngindir”. Bu baxımdan Azərbaycanda ali pedaqoji təhsilin sovet dövrü mərhələsinin müqayisəli şəkildə öyrənilməsi, təhlil edilməsi, inkişaf tendensiyalarının müəyyənləşdirilməsi, düzgün elmi qənaətlərin inkişaf etdirilməsi olduqca zəruri və vacibdir. Keçmişi bilməmək təkcə indinin dərkinə zərər gətirmir, o həm də gələcəyə nüfuz etmə təşəbbüslərini təhlükə altında qoyur.

Sovet təhsil sisteminin bütün məqsəd və məramı insanları soykökündən uzaqlaşdımaq, dili, məsləki bir olan vahid sovet xalqı formalaşdırmaq olsa da, vahid yanaşmalara və ciddi məhdudiyyətlərə baxmayaraq Azərbaycanda ali pedaqoji təhsil sahəsində diqqətəlayiq nailiyyətlər əldə edilmişdir. Ulu öndər Heydər Əliyev həmin nailiyyətləri yüksək qiymətləndirərək demişdir ki, bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı, belə güclü inkişaf edə bilməzdi, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərdə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq [3,580].

Faktlara diqqət yetirək: 1920-1991-ci illərdə Azərbaycanda təhsil tamamilə yeni məzmun kəsb etdi, təhsil siyasəti sosializm və kommunizm tələblərinə uyğun nəsil yetişdirməyə yönəldildi. Bu məqsədlə Respublikada geniş məktəb şəbəkəsi yaradıldı, onların tədris - maddi bazası möhkəmləndirildi, pedaqoji kadrlarla təmin edilməsi, dərslik və dərs vəsaitləri ilə təchiz olunması sahəsində müvafiq tədbirlər həyata keçirildi, məktəbyaşlı uşaqlarınhamılıqla icbari ümumi orta təhsilin əhatə olunmasına şərait yaradıldı. Azərbaycanda 1930-1934-cü illərdə icbari ibtidai təhsil, 1935-1958-ci illərdə 7 illik icbari natamam orta təhsil, 1959-1960-cı illərdə icbari 8 illik təhsil, 1967-1975-ci illərdə icbari ümumi təhsil həyata keçirildi [4,13]. 1990-cı ildə respublikada 4356 ümumtəhsil məktəbində hər il orta hesabla 1,4 milyon şagird təhsil alırdı.Onların təhsil-tərbiyəsi ilə 132 min müəllim məşğul olurdu. Məktəbəqədər tərbiyə müəssisələrində 191 min uşağın tərbiyəsi ilə 18,8 min tərbiyəçi məşğul olurdu.Həmin illərdə 231 məktəbdənkənar təhsil-tərbiyə müəssisəsini əhatə edən şəbəkə formalaşdı. Peşə təhsili sahəsində yeni inkişaf strategiyası və proqramı hazırlanıb həyata keçirildi. O dövrdə respublikada 176 texniki-peşə məktəbi fəaliyyət göstərirdi. 17 ali məktəbdə 172 ixtisas üzrə kadr hazırlığı aparılırdı. Azərbaycandan kənarda, SSRİ-nin 50-dən artıq böyük şəhərinin 135 mülkü, 105 hərbi ali məktəbində 200-dən çox nadir ixtisas üzrə

17 mindən artıq azərbaycanlı mütəxəssis hazırlanmışdı. Respublikanın ali məktəblərində 70 ölkədən 1915 nəfər əcnəbi tələbə təhsil alırdı. Yaşı 15-dən yuxarı olan əhalinin hər min nəfərindən 129-u ali, 146-sı orta ixtisas, 425-i ümumiorta, 190-nı natamam orta təhsilli idi [5, 694].

Sovet hakimiyyəti illərində, xüsusilə də 20-50-ci illərdə həm ictimai-siyasi, həm də elmi-pedaqoji mühit olduqca ziqzaqlı olmuş, Buxarinin təbirincə desək, dəhşətli ağılsızlıq baş vermiş [6,9], Azərbaycan xalqının milli təfəkkürünün flaqmanları olan minlərlə ziyalı Stalin repressiyasının qurbanı olmuş, xalqın mənəviyyatına ağır zərbə vurulmuşdu. Həmin illərdə ictimai-siyasi həyatda baş verən hadisələri tədqiqatçılar belə səciyyələndirir: ”İnsan beyni törədilmiş cinayətləri təsəvvürdə canlandırmaqda acizdir” [7].

Sərt və ciddi qanunların tətbiqi ilə səciyyəvi olan 30-40-cı illərdə təhsillə bağlı qəbul edilmiş qərarlar, sinfi mübarizənin gücləndirilməsi haqqında Stalin ideyası məktəb həyatında demokratik ənənələrin inkişafını ləngitməklə yanaşı, həm də yeni arzuolunmaz istiqamətin formalaşmasına səbəb oldu. Təhsil müəssisələri demokratik ənənələrdən uzaqlaşmağa məcbur oldu. ”Məktəb haqqında 30-cu illərdə qəbul edilən qərarlar təkcə siyasi sənəd deyil, həm də pedaqoji prosesə partiyalı rəhbərliyi təmin edən metodoloji proqram idi” [8, 38].

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanda ilk ali pedaqoji təhsil müəssisəsi təşkil edilərkən Demokratik Respublika dövründə fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin az da olsa təcrübəsi var idi.Sadəcə bolşeviklər bu təcrübədən istifadə etmək istəmədilər. Moskvada olduğu kimi, Azərbaycanda da ali təhsilin təşkili prosesi siyasiləşdirildi. Əvvəlki ali məktəb “burjua ali məktəbi” adlandırıldı, elmi-pedaqoji kadrlar isə “burjua professorları” adlandırılaraq ali təhsilin təşkilinə cəlb edilmədilər. Təqiblərə məruz qalan bəzi müəllimlər ya ölkəni tərk etdilər, ya da müəllimlikdən uzaqlaşdılar. Nəticədə ali məktəblərə və elmi idarələrə təcrübəsi və biliyi olmayan, sovet hakimiyyətinin ilk illərində qısa müddətli kurslarda hazırlanmış “yeni sovet mütəxəssisləri” elmi və pedaqoji işə cəlb edildilər. Heç bir elmi dərəcəsi, bəzi hallarda isə ali təhsili belə olmayan Moskvadan göndərilən “mütəxəssislər” ali məktəblərdə müəllimlik vəzifəsinə götürüldülər.

Tələbə kontengentinin seçimində də siyasi sifariş hakim idi. Ali məktəblərə ilk növbədə fəhlə və kəndli uşaqları götürülürdü. Keçmiş milli burjuaziyanin və sovet hökumətinin varlı hesab etdiyi insanların övladlarının ali məktəbə daxil olmaq hüququ məhdudlaşdırılmışdı. Türkiyədən dəvət edilən müəllimlərin çoxu az sonra müxtəlif bəhanələrlə geri qaytarıldı. Məktəb özünün keçmiş kökündən və təcrübəsindən ayrılaraq hakim sinfin xidmət vasitəsinə çevrildi. Maraqlıdır ki, ölkə vətəndaşlarının ali təhsil almasına məhdudiyyətləri nəzərdə tutan RSFSR XKS-nin 2 avqust 1918-ci il tarixdə qəbul etdiyi “Ali məktəblərə qəbul haqqında” dekretini bolşeviklər Azərbaycanda hakimiyyəti

ələ aldıqdan dərhal sonra tətbiq etməyə başladılar.Bu da təbii ki, ali təhsilin inkişafında arzuolunmaz istiqamətin formalaşmasına səbəb oldu.

Azərbaycanda ali təhsilli müəllim kadrları hazırlanması tarixini öyrənmək həm sovet dövründə, həm də müstəqillik illərdə aktual olmuş, Azərbaycan tarixşünaslığında, pedaqogikaşünaslığında ali pedaqoji təhsilin təşkili və inkişafı ilə bağlı maraqlı araşdırmalar aparılmış, dissertasiyalar müdafiə olunmuş, monoqrafiyalar yazılmış, dərslik və dərs vəsaitləri hazırlanmış, ayrı-ayrı təhsil müəssisələri ilə bağlı yubiley kitabları nəşr olunmuşdur. Tədqiqatların böyük bir hissəsi sovet hakimiyyəti illərində marksizm-leninizm ideologiyasının prinsipləri əsasında aparıldığından xeyli təhriflərə və yanlışlığa yol verilmiş, Azərbaycan xalqının ta qədimdən 1920-ci ilə qədərki təhsil tarixinin mühüm məqamları araşdırmaların predmetinə çevrilməmiş, Ə.Bəhmənyar, N.Gəncəvi, N.Tusi, Ə.Marağayi, İ.Nəsimi, Ş.İ.Xətai, M.Füzuli, M.P.Vaqif və b. mütəfəkkirlərin təhsil aldıqları məktəb və mədrəsələrin təhsil tariximizdəki oynadığı mütərəqqi rol inkar edilmiş, cəhalət yuvası kimi səciyyələndirilmişdir. Xalqın milli-mənəvi dəyərlərindən, mentalitetindən uzaqlaşdırılması yolunda sistemli və ardıcıl siyasətin nəticəsi idi ki, tədqiqatçılar yazırdı: ”İnqilabdan əvvəl Azərbaycan xalqı cəhalət pərdəsi altında inləyir, mədəniyyətsizlik içərisində boğulurdu”. Və ya yüksək tribunalardan elan edilirdi ki, Azərbaycan xalqı inqilabdan əvvəl başdan-başa savadsız olmuşdur. Son araşdırmalar sübut edir ki, XIX əsrin sonlarında indiki Azərbaycan (Şimali Azərbaycan) ərazisində yaşayan ziyalıların sayı 5635 nəfər, XX əsrin əvvəllərində isə 12 mindən çox olmuşdur [9, 296].

Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafı ilə bağlı tədqiqatlarda sovetoloji tədqiqat prinsipləri üstünlük təşkil etdiyindən birtərəfli və pərakəndə aparıldığından, onun bütün mərhələləri, istiqamətləri eyni peşəkarlıqla araşdırılmadığından, ayrı-ayrı zəruri məsələlərə siyasi mövqedən qiymət verildiyindən çox zaman obyektiv fikir söyləmək mümkün olmamış, fakt və hadisələr birtərəfli izah edilmişdir. Bu dövrdə təhsilşünaslıq dövlətin ideoloji maraqlarının ifadəçisinə çevrilmişdi. Bu səbəbdən də problemin hərtərəfli və sistemli tədqiqində mövzu ilə bilavasitə və bilvasitə bağlı olan əsərlər (dissertasiyalar, monoqrafiyalar, kitab və kitabçalar, dərslik və dərs vəsaitləri), arxiv sənədləri, statistik toplular, dövri mətbuat materialları yenidən nəzərdən keçirilmiş tədqiq və təhlil olunmuşdur. Mövzu ilə bilavasitə bağlı olan bir neçə əsərə diqqət yetirək.

Tamella Musayevanın «Birinci beşillik illərində Azərbaycanda xalq maarifi uğrunda mübarizə» (1964), «İnqilab və Azərbaycanda xalq maarifi» (1979) monoqrafiyalarında 1920-1940-cı illərdə Azərbaycan təhsilinin təşkilindəki çətinliklər, uğursuzluqlar, nailiyyətlər təhlilə cəlb olunmuşdur. Burada Azərbaycanda xalq maarifinin inkişafının bütün istiqamətləri ilə yanaşı, həm də

Bakı Dövlət Universiteinin pedaqoji fakültəsi və Ali Pedaqoji İnstitutun təşkilinin 20-30-cu illər mərhələsi ilə bağlı maraqlı məlumatlar verilmişdir.

Mehdi Salahovun «Azərbaycanda ali təhsilin təşkili və inkişafı» [10] adlanan dissertasiyasında respublikamızda XIX əsrin 20-40-cı illərində ali pedaqoji təhsilin təşəkkülü və inkişafının ilkin mərhələsi araşdırılmışdır. Burada o dövrdə mövcud olan ali pedaqoji təhsil müəssisələrinin hər biri haqqında qısa da olsa məlumat verilmişdir. Onun «Azərbaycanda ali təhsil: tarixi, problemləri və perspektivləri» [11] monoqrafiyasında isə sovet hakimiyyəti illərində Azərbaycanda ali təhsilin inkişafı, tarixi, problemləri və perspektivləri tədqiqat predmetinə çevrilmişdir. Əsərdə respublikada yalnız ali pedaqoji təhsilin deyil, ümumiyyətlə ali təhsilin bütün istiqamətlərinə toxunulmuş, müqayisəli təhlillər aparılmışdır.

Elmira Qasımovanın «Azərbaycanda ali pedaqoji təhsil» adlı namizədlik dissertasiyası [46], "Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən (1920-1930)" [12] monoqrafiyası bu baxımdan diqqəti cəlb edir. Tarixi aspektdə yazılan bu əsərdə də ali pedaqoji təhsilin təşəkkülü və inkişafının ilkin mərhələsi haqqında kifayət qədər dəyərli faktlar vardır. Monoqrafiya son illərdə (2000-ci il) nəşr edildiyindən qiymətləndirmə və təhlil səviyyəsinə görə seçilir.

Mais Əmrahovun Mehdi Salahov və Nazir Əsədovla birgə yazdığı "Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri" [13] dərs vəsaitində 1917-1941-ci illərdə Azərbaycanda ali təhsil sahəsində sovet dövlətinin həyata keçirdiyi təhsil siyasətinin mühüm məqamları araşdırılır, ali pedaqoji təhsilin təşkili və inkişafında xidmətləri olanlar haqqında oçerklər verilir, müqayisəli təhlillər aparılır. Onun "Azərbaycanda xalq maarifi müharibə illərində (1941-1945-ci illər)" [14] əsərində konkret olaraq 1941-1945-ci illərdə Azərbaycanda xalq maarifinin inkişafına toxunulur, müharibənin çətinliklərinə baxmayaraq təhsilin bütün pillələrində və səviyyələrində inkişafın səbəbləri inandırıcı faktlarla təhlil və təqdim olunur, təhsilin, o cümlədən ali pedaqoji təhsilin inkişafını nəzərdə tutan SSRİ Nazirlər Sovetinin və Sov.İKP MK-nın qərarlarının siyasi və pedaqoji əhəmiyyəti səciyyələndirilir. Nəzər Paşayevin "Azərbaycanda sosialist mədəniyyətinin inkişafı", "Sovet Azərbaycanında mədəni inkişafın tarixi oçerkləri"," Sovet Azərbaycanında mədəni inqilabın qələbəsi" adlı monoqrafiyalarında Azərbaycanda sosialist mədəniyyətinin inkişaf istiqamətləri təhlil edilərkən ali təhsilə, o cümlədən ali pedaqoji təhsilə xüsusi diqqət yetirilmiş, cəmiyyətin mənəvi potensialının formalaşmasında sovet müəllimlərinin rolu yüksək qiymətləndirilmişdir.

Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji İnstitutu (indiki ADPU), Kirovabad Dövlət Pedaqoji İnstitutu (indiki Gəncə Dövlət Universiteti), Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutu (indiki Bədən Tərbiyəsi və İdman Akademiyası), Azərbaycan Pedaqoji Rus dili və Ədəbiyyatı

İnstitutu (indiki Bakı Slavyan Universiteti), Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutu (indiki Azərbaycan Dillər Universiteti), Naxçıvan Dövlət Pedaqoji İnstitutu (indiki Naxçıvan Dövlət Universiteti) və Xankəndi Pedaqoji İnstitutu ilə bağlı yazılan yubiley kitabları Azərbaycanda ali pedaqoji təhsilli müəllim kadrlarının hazırlanmasında ayrı-ayrı təhsil müəssisələrində həyata keçirilən elmi-pedaqoji, metodik işləri öyrənmək baxımından dəyərlidir.

İsmət Məmmədovanın "Naxçıvanda pedaqoji təhsilin inkişafı" [15] adli namizədlik dissertasiyasında 1917-1977-ci illərdə Naxçıvanda pedaqoji təhsilin inkişafı araşdırılır, pedaqoji kurslar, pedaqoji məktəblər, Müəllimlər İnstitutu, APİ-nin Naxçıvan filiali və Naxçıvan Dövlət Pedaqoji İnstitutunun fəaliyyətinin ilkin mərhələsi haqqında geniş məlumat verilir. Əliyənnağı Məhərrəmovun [16] tədqiqatlarında Azərbaycanda ali pedaqoji təhsilin inkişafının 60-70-ci illər mərhələsi araşdırılır. Onun həm namizədlik dissertasiyasında, həm də "Azərbaycanda ali pedaqoji təhsilin inkişafı tarixindən" [16] adlı monoqrafiyasında XX əsrin 60-70-ci illində ali pedaqoji məktəblərin maddi-texniki bazasının möhkəmləndirilməsi, pedaqoji və elmi pedaqoji kadr hazırlığının məzmununun təkmilləşdirilməsi, ixtisaslarının artırılması, professor-müəllimlərin və tələbələrin elmi tədqiqat işlərinin istiqamətləri, tələbələrin sosiallaşmasında tələbə inşaat dəstələrinin və yataqxanaların rolu araşdırılır.

Fərid Baxşəliyevin «Heydər Əliyev və Azərbaycan təhsil sistemində aparılan islahatların əsas istiqamətləri» [17] adlı pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiyada Azərbaycanda təhsilin, o cümlədən ali pedaqoji təhsilin inkişafında Heydər Əliyevin rolu işıqlandırılır. Əsaslandırılır ki, Azərbaycanda ali pedaqoji təhsilin inkişafının 70-80-ci illər mərhələsi Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun qəbul etdiyi qərar və sərəncamlar, irəli sürdüyü nəzəri fikirlər, şəxsi təşəbbüsləri ölkədə ali pedaqoji təhsilin inkişafının ən mühüm qarantı olmuşdur. T.Baxşəliyevin «Azərbaycanda ali təhsil»adlı namizədlik dissertasiyasında keçən əsrin 60-cı illərinin ikinci yarısında Azərbaycanda ali təhsilin inkişafı təhlil olunur. Əsərdə ali təhsilin digər sahələri ilə yanaşı, ali pedaqoji təhsilin də müəyyən problemləri təhlil olunur.

Azərbaycanda ali pedaqoji təhsilli müəllim kadrlarının hazırlığının 20-50-ci illər mərhələsini öyrənmək baxımından Ağahəsən Rzayevin əsərləri [18] maraq doğurur. Onun həm namizədlik, həm də doktorluq dissertasiyası ali pedaqoji təhsilin inkişafına həsr olunmuşdur. Daha çox təsviri xarakter daşıyan, dövrün siyasi tələbləri və konsepsiyaları əsasında yazılan "Azərbaycan xalq maarifi altıncı beşillikdə", "Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişafı tarixindən", "Azərbaycanda ali pedaqoji təhsilin tarixi oçerkləri" adlı əsərləri pedaqoji istiqaməti ilə diqqəti cəlb edir. Bu əsərlərdə ali pedaqoji təhsilli müəllim kadrları hazırlığı sahəsində dövlətin təhsil siyasəti təhlil edilir, kəmiyyətcə inkişaf statistik rəqəmlərlərlə verilir, ali pedaqoji

təhsilin təşkili, məzmunu və inkişafı ilə bağlı dəyərli fikirlər irəli sürülür. Metodoloji yanaşma düzgün olmadığından xeyli təhriflərə, səhv mülahizələrə yol verilir. Sovet dövründəki inkişafın konturları zəngin tarixi-pedaqoji irsimizin, təhsil-tərbiyə ənənələrimizin tənqidi üzərində qurulur. Belə təhlil və təqdimat üsulu yanlış olduğundan heç vaxt obyektivliyi və reallığı əks etdirə bilməz. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixini öyrənmək baxımından "Sovet Azərbaycanında ali məktəbin inkişafı", "Azərbaycanda xalq maarifinin sürətli inkişafı", "Azərbaycan ali məktəblərində IX və X beşilliklərdə elmin inkişafı" adlı kollektiv əsərlər maraq doğurur. Bu əsərlər daha çox ümumiləşdirici xarakter daşıdığından o dövrdə mövcud olan ali məktəblər (o cümlədən ali pedaqoji məktəblər) haqqında qısa məlumat verilir.

Misir Mərdanovun 4 cildlik " Azərbaycan təhsil tarixi" [19] kitabı ta qədimdən bu günümüzədək Azərbaycanda təhsilin bütün pillələrinin və səviyyələrinin inkişafını özündə ehtiva edən dəyərli bir mənbədir. Mündəricatına və məzmununa görə analoqu olmayan bu kitabın II cildi Sovet Azərbaycanında ümümi orta, peşə, orta ixtisas, ali təhsilin və pedaqoji mətbuatın,elmi-pedaqoji kitabxananın, xalq maarif muzeyinin inkişafına həsr olunmuşdur.Burada ali pedaqoji təhsilli müəllim kadrları hazırlığını həyata keçirən təhsil müəssisələrində pedaqoji və eimi fəaliyyət vəhdətdə araşdırılır. Bu da təbiidir.Təhsil ilə elmin inkişafı bir-biri ilə sıx bağlıdır. Biri digərinin inkişafını şərtləndirir.Təhsil müəssisələrində elmi-pedaqoji tədqiqat işi aparmadan müasir tələblərə cavab verən kadr hazırlığı aparmaq mümkün deyil. Ali məktəb elminin təşəkkülü və inkişafı ardıcılliqla verilmişdir.Bir sıra elm sahələrinin yaranmasına səbəb olan ilk araşdırmaların məhz ali məktəblərdə həyata keçirilməsi əsaslandırılmışdır. Kitabda ali təhsil ocaqlarında yaranan elmi məktəblər, onların əsasını qoyan elm xadimləri, o cümlədən pedaqoq alimlər haqqında da ətraflı məlumat verilmişdir.

Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin təşkilində və inkişafında buraxılan səhvlərə, yol verilən nöqsanlara baxmayaraq, nailiyyətlərimiz kifayət qədər böyük olmuşdur. Lakin 1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü, diversifikasiyası və inkişaf tendensiyaları nə pedaqogika üzrə fəlsəfə, nə də elmlər doktoru dissertasiyalarının predmeti olmamış, problemə kompleks baxış həyata keçirilməmişdir. Sovet hakimiyyəti illərində Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixi sistemli yanaşma və tarixi-müqayisəli təhlil tələb edir.

1920-1991-ci illərdə Azərbaycanda ali pedaqoji təhsilin inkişafı ilə bağlı müəyyən araşdırmalar olsa da, onun tədrisi istənilən səviyyədə deyil.Ali pedaqioji təhsilin ümumi istiqamətləri ilə bağlı yalnız ADPU-nun magistratura səviyyəsində tədris olunan "Təhsil tarixi" fənninin tədrisində məlumat verilir. Halbuki, gələcək müəllimlərin hazırlığında ali pedaqoji təhsil tarixi ilə bağlı geniş məlumatların verilməsi daha əhəmiyyətli olar.

## ƏDƏBİYYAT

1.Prezident İlham Əliyev və Azərbaycanda təhsilin inkişafı. Bakı, 2008
2.Müstəqil Azərbaycan Respublikasının gənclərinin birinci forumunda Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin çıxışı // «Azərbaycan məktəbi», 1996, №2, səh. 3-16.
3.Əliyev H.Ə. Təhsil millətin gələcəyidir. Bakı, Təhsil, 2002
4.Mərdanov M.C. Azərbaycan təhsil tarixi. II cild, Bakı, Təhsil, 2011
5.Azərbaycan Milli Ensiklopediyası. Bakı, 2007
6.Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. Bakı, "Bakı Universiteti", 1991
7.Azərbaycan tarixi. XX əsr. 2-ci cild. B.:Çaşoğlu, 2004
8.Rüstəmov F. Azərbaycanda pedaqogika elminin inkişaf yolları (1920-1991). Peladqogika üzrə elmlər doktoru dissertasiyası. Bakı, ADPU, 2003
9.Mərdanov M.C. Azərbaycan təhsil tarixi. I cild, Bakı, Təhsil, 2011
10.Salahov M. Azərbaycanda ali təhsilin təşkili və inkişafı. Tarix üzrə fəlsəfə doktoru dissertasiyası. Bakı, APİ, 1967
12.Qasımova E. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən (1920-1930). Bakı, 2000
13.Əmrahov M.İ., Salahov M.N., Əcədov N.N. Azərbaycanda ali məktəb quruculuğu, ali pedaqoji təhsilin təşkili və inkişafı tarixinin oçerkləri (1917-1941-ci illər). Bakı, Mütərcim, 2001
14.Амрахов М.И. Народное образование в Азербайджане в годы войны (1941-1945 гг.). Баку, АГПУ, 2004
15.Məmmədova İ. Naxçıvanda pedaqoji təhsilin inkişafı (1917-1977-cü illər). Namizədlik dissertasiyası. Bakı, APİ, 1993
16.Məhərrəmov Ə. Azərbaycanda ali pedaqoji təhsilin inkişaf tarixindən (1961-1981-ci illər), Bakı, ADPU, 1998
17.Baxşəliyev F.R. Heydər Əliyev və Azərbaycan təhsil sistemində aparılan islahatların əsas istiqamətləri (problemin öyrənilməsinin müqayisəli tarixi təcrübəsi). Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. Bakı, 2009
18.Rzayev A.Q. Azərbaycanda ali pedaqoji təhsilin inkişafı tarixindən (1920-1930). Namizədlik dissertasiyası, APİ, 1959; Azərbaycanda sovet hakimiyyəti illərində ali pedaqoji təhsilin inkişafı tarixindən. Bakı, Azərnəşr, 1960; Из истории высшего педагогического образования в Азербайджане. Баку, Азернешр, 1957; Основные этапы развития высшего педагогического образования в Азербайджанской ССР. Дис. докт. пед. наук. Тбилиси, 1968;Очерки истории высшего педагогического образования в Азербайджане, Баку, Маариф, 1966
19.Mərdanov M.C.Azərbaycan təhsil tarixi. II cild, Bakı, Təhsil, 2011

**UOT 94.**

## RUSİYA-POLŞA MÜNASİBƏTLƏRİNİN TARİXİNƏ DAİR

***Mehparə Tajdehibonab***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*m.tajdehibonab@gmail.com*

**Açar sözlər:** *Polşa, Rusiya,Reç Pospolita, tarix, dövlət, üsyan*

*Rusiya genişlənmə siyasətini tətbiq etdiyi hər dövrdə ilk hədəfə alınan ölkələrdən biri Polşa olmuşdur. Eyni şəkildə, Rusiyanın daxili böhran və ya döyüşlərlə məşğul olduğu dövrlərdə Polşada Rusiyanı zəiflədəcək strategiyalar gündəmə gəlməkdə idi.*

*İki ölkə arasında münasibətlərin tarixinin təhlili, tarixi yaddaşın məzmununun ayırd edilməsi müasir dövrdə iki dövlət arasında münasibətlərin daha dolğun və dərindən başa düşülməsinə yardım edir.Məqalədə uzun tarixi dövr əhatə edilməklə Rusiya və Polşa əlaqələri haqqında məlumat verilir. Bu iki slavyan ölkəsi arasında ziddiyyətli, mürəkkəb, bəzən stabil, bəzən isə kəskinləşən siyasi münasibətlər tədqiq edilmişdir.*

*Müəllif həmçinin, müasir dövrdə Rusiya – Polşa münasibətlərinin xarakterinə beynəlxalq arenada baş verən hadisələrlə yanaşı, hər iki xalqın, xüsusilə siyasi dairələrin tarixi yaddaşının əsaslı təsirini nəzərdən keçirmişdir.*

## ИСТОРИЯ РОССИЙСКО-ПОЛЬСКИХ ОТНОШЕНИЙ

***Мехпара Таджедехибонаб***

**Ключевые слова:** *Польша, Россия, Речь Посполита, история, государство, восстание*

*Польша была одной из первых целевых стран в каждом периоде политики России по расширению. Точно так же, когда Россия занималась внутренними кризисами или войнами, в повестке дня стояли стратегии по ослаблению России в Польше.*

*Анализ истории отношений между двумя странами, различая содержание исторической памяти, способствует более глубокому пониманию отношений между двумя странами в современную эпоху. В*

*статье представлена информация о российских и польских отношениях, охватывающих долгую историческую эпоху. Были изучены противоречивые, сложные, иногда стабильные, иногда интенсивные политические отношения между этими двумя славянскими странами.*

*Автор также рассмотрел характер российско-польских отношений в современную эпоху, а также события, происходящие на международной арене, а также исторический эффект двух народов, особенно политических кругов.*

## THE HISTORY OF RUSSIAN-POLISH RELATIONS

***Mehpara Tajdehibonab***

**Key words:** *Poland, Russia, Polish–Lithuanian Commonwealth, history, state, rebellion*

*Poland was one of the firstly targeted countries, in each period, which Russia's expanding policy is applied. Thestrategies, which weaken Russia, werebusiness of meeting also in the periods, in which Russia was simultaneouslyengaged with theinternal crisis or battles.*

*Historical analyses of the relations between two countries, distinguishing thecontent of the historical memory – aids to understandthe relations between two countries more substantially and profoundly in the modern period. It is informed about the relations between Russia and Poland in thearticle by covering the long historical period. Contrary, complicated, sometimes stable, and sometimesincisive political relationsbetween two Slavic countriesareinvestigated.*

*Azwell, the author browsedespeciallyreasonableeffect of the historical memory of the political circles of both nation, adjoining with theeventsoccurred in theinternationalsphere to thecharacter of therelationsbetween Russia and Poland in themodernperiod.*

Rusiya və Polşa arasında münasibətlər uzun tarixi dövrü əhatə etməklə, həm də qeyri-stabilliyi və mürəkkəbliyi ilə xarakterizə olunur. İki ölkə arasında münasibətlərin tarixinin təhlili, tarixi yaddaşın məzmununun ayırd edilməsi müasir dövrdə iki dövlət arasında münasibətlərin daha dolğun və dərindən başa düşülməsinə yardım edir.

Qeyd etdiyimiz kimi, Polşa və Rusiya arasında münasibətlərin kökü erkən orta əsrlərə gedir. Rusiyada rus dövlətçiliyinin başlanğıcını Kiyev Rus

dövlətinin yaranmasından hesablayırlar [3, 4]. Əgər nəzərə alsaq ki, Kiyev Rus dövləti 3 şərqi slavyan xalqının – rusların, ukraynalıların və belorusların ümumi dövlətidir, bu yanaşma ilə qismən razılaşmaq olar. Belə olan halda rus xalqı ilə polyak xalqı arasında münasibətlərin başlanğıcını 981-ci ildən, yəni Kiyev knyazı Vladimir Svyatoslaviçin "lyaxlara hücumu və onların şəhərlərini, o cümlədən Psomıslı və Çerveni ələ keçirməsini götürmək olar [7, 222]. Ancaq çox keçmədi ki, iki dövlət arasında münasibətlər normallaşdı və dostluq əlaqələri nigah diplomatiyası ilə daha da möhkəmləndirildi: Vladimirin oğlu Svyatopolk Polşa kralı I Cəsur Boleslavın qızı ilə evləndi [2, 472]. Göründüyü kimi, Kiyev Rus dövlətinin knyaz sülaləsi ilə Polşa kral sülaləsi arasında ittifaqlar da bağlanmış və çox hallarda siyasi ittifaqlar nigah bağları ilə möhkəmlənmişdi.

1018-ci ildə Kiyev Rus dövlətində daxili çəkişmələr zamanı knyaz Vladimirin oğlu Svyatopolk qardaşları ilə mübarizədə kömək üçün qayınatası I Cəsur Boleslava müraciət etmişdi. Fürsətdən istifadə edən I Cəsur Boleslav Svyatopolkun qardaşı Yaroslavl Mudrıya qalib gəlmiş, Kiyevi tutmuş, lakin xalq üsyanı nəticəsində qovulmuşdur [1, 89].

Polyakların Kiyev Rus dövlətinin işinə növbəti dəfə qarışması 1069-cu ilə aiddir. 1068-ci ildə Yaroslavl Mudrının oğlu, Kiyev knyazı İzyaslava qarşı xalq üsyanı baş verdi. İzyaslav Polşaya, bacısı oğlu kral II Cəsur Boleslavın yanına qaçmağa məcbur oldu. 1069-cu ildə polyakların köməyi ilə İzyaslav Kiyevdə hakimiyyətini bərpa etdi, lakin 1073-cü ildə yenə qardaşları Vsevolod və Svyatoslav tərəfindən taxtdan salındı və Polşaya qaçdı. Nəhayət, 1076-cı ildə İzyaslav Polşa qoşunlarının köməyi ilə Kiyevdə hakimiyyətini bərpa etdi.

1132-ci ildə Kiyev Rus dövləti ayrı-ayrı knyazlıqlara parçalandıqdan sonra Polşa daha çox qərbirus knyazlıqları ilə, xüsusən Qaliç və Volın knyazlıqları ilə münasibətlər qururdu. 1199-cu ildə hər iki knyazlıq Volın knyazı Roman Mstislavoviç tərəfindən birləşdirilmiş və indiki Qərbi Ukraynanın, Belorusiyanın, Polşanın, Moldovanın müəyyən ərazilərini əhatə etmişdi. 1340-cı ildə Polşa kralı III Kazimir Qaliç - Volın knyazlığına hücum edir və bir necə il ərzində knyazlığı ələ keçirib Polşanın tərkibinə qatır[6, 26].

XIV əsrdən Polşa, Litva və Moskva knyazlığı arasında qərbi rus torpaqlarında hegemonluq uğrunda mübarizə başladı. Bu mübarizədə Litva və Polşa 1385-ci ildə Kreyevsk uniyası bağlayaraq Moskva knyazlığına qarşı qüvvələrini birləşdirdilər. Ancaq XVI əsrə qədər, yəni Mərkəzləşmiş Rus dövlətinin yaranmasına qədərki dövrdə polyak-rus münasibətləri o qədər də intensiv olmamışdır. Rus torpaqlarında monqol zülmünə qarşı mübarizə getməklə bərabər, həm də mərkəzləşmə prosesi gedirdi və əsas diqqət daxili məsələlərə yönəlmişdi. Yalnız İvan Qroznının dövründən başlayaraq rus-polyak münasibətlərində yenidən canlanma yaranmışdı. Bu da təsadüfi deyil.1552-ci ildə Kazan və 1556-cı ildə Həştərxan xanlıqlarını ələ keçirdikdən sonra İvan

Qroznı 1558-ci ildə Baltik dənizinə çıxmaq uğrunda Livon ordeni ilə müharibəyə başladı [8,143].

1583-cü ilədək sürən Livoniya müharibəsi Rus dövlətinin məğlubiyyəti ilə nəticələndi. Polşa kralı Stefan Batorinin təzyiqləri ilə Rus dövləti 1582-ci ildə Polşa ilə, 1583-cü ildə İsveçlə sülh bağlamağa məcbur oldu˙ [8, 151]. Müharibə nəticəsində Rus dövləti nəinki Baltik dənizinə çıxış əldə etdi, əksinə Baltik dənizinə yaxın bəzi ərazilərindən də əl çəkməyə məcbur oldu. Şərqi Avropada üstünlük uğrunda ilk Rus dövləti-Polşa toqquşmasından Polşa daha da möhkəmlənmiş çıxdı.

XVI əsrin sonunda rus dövlətində siyasi vəziyyət gərginləşmişdi ki, bu da 1598-ci ildə İvan Qroznının oğlu çar Feodor İvanoviçin ölümü ilə bağlı idi.

Reç Pospolitada Rus dövlətində yaranan bu qarışıqlıqdan istifadə etməyi düşünürdülər. Reç Pospolitaya daxil olan Ukrayna ərazilərində özünü Uqliç şəhərində müəmmalı şəraitdə öldürülən İvan Qroznının kiçik oğlu Dmitri adlandıran, əslində Moskva Çudov monastrının rahibi Qriqoriy Otrepyev adlı şəxs peyda oldu. “Yalançı Dimitri” çar taxt-tacını mənimsəmiş Boris Qadınova qarşı çıxdı və ona qarşı mübarizədə kömək üçün həm rus boyarlarına, həm də Polşa maqnatlarına, sonra isə Polşa kralı III Siğizmunda müraciət etdi. “Yalançı Dimitri” kömək üçün Roma katolik kilsəsinin dəstəyini qazanmaq üçün gizlincə katolik məzhəbini də qəbul etmiş vəsöz vermişdi ki, Rus dövlətində hakimiyyətə gəldikdə Rus pravoslav kilsəsini Vatikana tabe edəcəkdir[8, 151].

1604-cü ilin payızında I “Yalanşı Dimitri” şlyaxta hərbi dəstələri ilə Rus dövlətinə hücum etdi. 1605-ci ilin iyununda o, Moskvaya daxil oldu və taxta çıxdı. 1606-cı ilin mayında I Yalançı Dmitri ödürüldü, polşalı maqnatlar, şlyaxta Moskvadan qovuldu. Hakimiyyəti ələ keçirən boyarlar İvan Qroznının qohumu Vasiliy Şuyskini çar seçdilər[8, 175]. Ancaq V.Şuyskinin kəndlilərə rəğmən imzaladığı amansız qanunlar tezliklə İvan Bolotnikovun rəhbərliyi ilə kəndli müharibəsinə səbəb oldu. 1606-1607-ci illəri əhatə edən kəndli müharibəsi çar orduları tərəfindən darmadağın edildi.

İ.Bolotnikovun başçılığı ilə kəndli müharibəsinin qızğın çağında Polşa feodalları yenə Rus dövlətinin daxili işlərinə qarışmağa başladılar. Onlar Ukrayna ərazilərindən şəxsiyyəti bu günədək tarixə bəlli olmayan bir şəxs tapdılar, hansı ki, yenə “Dmitri” adı ilə çıxış etməyə başladı[8, 175]. Tezliklə o, öz ətrafında kəndli və yoxsul şəhər kütlələrini toplaya bildi. Ancaq II Yalançı Dmitrinin də ordusunun əsasını Polşadan gəlməkdə davam edən silahlı şlyaxta dəstələri təşkil edirdilər. V.Şuyskidən narazı boyarlar və zadəganlar da II Yalançı Dmitrinin tərəfinə keçdilər.

1608-ci ilin iyununda polyaklarla birlikdə Moskvaya hücum edən II Yalançı Dmitri şəhəri ala bilmədi və Moskva yaxınlığındakı Tuşino kəndində düşərgə saldı. “Tuşin oğrusu” ləqəbi verilən II Yalançı Dmitri Moskvanı mühasirəyə aldı və eyni zamanda polyak şlyaxtasının da iştirakı ilə onun

qoşunları Volqaboyudan tutmuş şimala qədər Rusiya ərazilərini ələ keçirdilər. Tezliklə polyakların ələ keçirdiyi bir çox ərazilər xalq üsyançıları tərəfindən azad edildi.

Xalq kütlələrinə arxalanmaqdan çəkinən V.Şuyski isə rus ərazilərini polşalılardan azad etmək üçün İsveçlə müqavilə bağladı. İsveçlilərin də köməyi ilə çar ordusu 1609-cu ilin yayınadək polşalıların ələ keçirdiyi ərazilərin böyük hissəsini azad edərək Moskvaya yaxınlaşdı. Polşa şlyaxtasının qüvvələri ilə Moskvanın alınmasını mümkünsüz sayan Polşa kralı III Siğizmundun qoşunları 1609-cu ilin sentyabrında Moskva istiqamətində yürüşə başladı. Tuşindəki şlyaxta dəstələri də Smolenskdə kralın qoşunları ilə birləşdilər. 1610-cu ildə II Yalançı Dmitri öldürüldü və rus çarının qoşunları Moskvaya daxil oldu. Lakin 1610-cu ilin iyununda Moskva yaxınlığında Polşa qoşunları rus qoşunlarını darmadağın etdi və Rus dövlətinin siyasi vəziyyəti ağırlaşdı. Boyarlar çar V.Şuyskini hakimiyyətdən devirdilər və Rus dövlətində "Yeddi boyar" hakimiyyəti bərqərar oldu. Boyarlar xəyanət yoluna qədəm qoyaraq 1610-cu ilin avqustunda Rus taxt-tacına Polşa kralı III Siğizmundun yeniyetmə oğlu Vladislavı dəvət etdilər və bu hadisədən bir ay keçməmiş Polşa qoşunları Moskvaya daxil oldu. Beləliklə, Rus dövlətinin paytaxtı və ərazilərinin böyük hissəsində polşalıların hakimiyyəti bərqərar oldu.

Ancaq 1611-ci ilin əvvəlindən Rus torpaqlarında polyaklara qarşı milli-azadlıq hərəkatı başladı və hərəkat genişlənərək xalq ordusuna çevrildi. Polşa ilə müharibə daha 6 il davam etdi və 1618-ci ildə kral III Siğizmundun Moskvanı tutmaq cəhdi boşa çıxdıqdan sonra tərəflər arasında Deulino kəndində barışıq bağlandı. Barışığın şərtlərinə əsasən Smolensk əraziləri Polşanın əlinə keçdi.

Beləliklə, XVII əsrin əvvəllərində "Smuta" yəni "Qarışıqlıq" illərində Polşanın Rus dövlətinin ərazilərini ələ keçirmək cəhdi baş tutmadı, rus xalqı öz müstəqilliyini qoruyub saxlamağı bacardı.

XVII əsrdə, Smutadan sonrakı illərdəReç Pospolita daxili həyatındakı problemlər səbəbindən daha çox müdafiə olunmalı olmuşdur. Belə ki, 1632-1634-cü illərdə Rus dövləti Smolenskini Reç Pospolitadan almaq uğrunda müharibəyə başladı. Lakin rus qoşunları elə ilk döyüşlərdən Polşa kralı IV Vladislavın qoşunları tərəfindən darmadağın edildi. 1634-cü ilin Polyanovsk sülhünə görə Reç Pospolita hələ əvvəlki dövrlərdə ələ keçirdiyi rus şəhərlərindən yalnız kiçik qəza mərkəzi olan Serpeyski qaytardı. Polşa, eyni zamanda, Rusiya üçün çox vacib olan siyasi şərti qəbul etdi – IV Vladislav rus taxt-tacına olan iddialarından əl çəkdi[6, 66].

Ancaq Rus hökuməti 1630-cu illərdə həyata keçirə bilmədiklərinə1654-1667-ci il müharibəsində nail oldu. Fasilələrlə 13 il davam edən müharibə 1667-ci ilin yanvarında Rusiya və Reç Pospolita arasında Andrusovo barışığının imzalanması ilə başa çatdı[10,727-734]. 1686-cı ildə isə Reç

Pospolita ilə Rusiya arasında "əbədi sülh" bağlandı. Bu sülhün şərtlərinə görə Polşa Kiyev də daxil olmaqla Solsahil Ukraynasını və Smolenskini Rusiyaya verdi[11, 770-786]. "Əbədi sülh" bağlandıqdan sonra Rusiya ilə Polşa arasında sülh dövrü başladı və 100 il ərzində tərəflər arasında müharibə olmadı.

XVII əsrin sonu – XVIII əsrin birinci yarısında Reç Pospolita ağır iqtisadi və siyasi böhran dövrünü yaşayırdı. Məhz bu dövrdə Polşada Rusiyayönümlü kursun tərəfdarları formalaşmışdı. 1696-cı ildə Yan III Sobeskinin ölümündən sonra qısa fasilə ilə 70 ilə yaxın Reç Pospolitanı alman mənşəli krallar idarə etdilər.

Saksoniya kürfrüstü II Avqust 1697-ci ildə hakimiyyətə gəldi. Almanpərəst rus çarı I Pyotrla dostluq münasibəti saxlayan II Avqust 1699-cu ilin 21 noyabrında Rusiya ilə İsveçə qarşı Preobrajenski müqaviləsi bağladı[6, 77]. Şimal müharibəsi dövründə, 1701-ci ildə İsveç kralı II Karl Reç Pospolitaya hücum etdi və paytaxt Varşavanı ələ keçirib 1704-cü ildə Stanislav Lesinskinin kral təyin edilməsinə nail oldu. Lakin 1709-cu ilin Poltava döyüşündə XII Karl məğlub olduqdan sonra I Pyotrun köməyi ilə Saksoniyalı II Avqust yenidən Reç Pospolitanın kralı oldu[6, 76].

1733-cü ildə II Avqust dünyasını dəyişdi və Avropada "Polşa varisliyi" uğrunda müharibə başladı. Rusiya bu müharibədə II Avqustun oğlu III Avqustun tərəfində çıxış edirdi. Fransanın dəstəyi ilə Stanislav Leşinkiy yenə Reç Pospolitanın kralı elan olunsa da, 5 oktyabr 1733-cü il tarixdə rus qoşunları Varşavanı ələ keçirdilər və Seym Rusiyayönümlü III Avqustu kral elan etdi[6, 81]. III Avqust 1763-cü ilədək Reç Pospolitanı idarə etmişdir.

Saksonların Reç Pospolitanı idarə etdiyi dövrü Polşanın Rusiyanın marionetkasına çevrildiyi dövr adlandırmaq olar. Polşanın vətənpərvər insanları hər vasitə ilə ölkəsini "alman idarəçiliyindən xilas etmək istəyirdilər və Seymdə bu qruplaşmanın başında knyaz Çartorıski dururdu. III Avqustun ölümündən sonra Reç Pospolita taxt-tacı uğrunda daxili çəkişmələr yenidən qızışdı. Daxili mübarizədə təklənən Çartorıski və tərəfdarları dəstək üçün Rusiya imperateritsası II Yekaterina ilə yaxınlaşdılar və 1764-cü ildə II Yekaterina öz favoriti və Çartorıskinin qohumu Stanislav Avqust Ponyatovskini Reç Pospolitanın (1764-1795) kralı təyin etdi[6, 82]. Ponyatovski Polşanın son kralı kimi tarixə düşmüşdür.

Qonşu Prussiya zəifləmiş Reç Pospolitanın bölüşdürülməsini təklif edirdi, lakin Reç Pospolitanın ləğvində maraqlı olmayan Rusiya bu tipli təklifləri qəbul etmirdi.

1768-ci ildə başlayan rus-türk müharibəsi zamanı Polşa hökumətindəki rusmeyilli dairələr Osmanlı dövləti ilə separat danışıqlara başladılar. Rusiya tərəfdən polyakların bu hərəkətləri xəyanət kimi qiymətləndirildi və cavab olaraq Rusiya Prussiyanın Reç Pospolitanı bölmək təklifinə razılıq verdi. 1772-ci ilin yanvarın 4-də Rusiya və Prussiya arasında Reç Pospolitanın

bölüşdürülməsi haqqında Peterburq konvensiyası imzalandı[9, 131-137]. 1772-ci ildən sonra Reç Pospolita hökumətində yenidən rusmeylli qüvvələr üstünlüyü ələ aldılar.18 sentyabr 1773-cü il tarixdə Rusiya ilə Reç Pospolita arasında Varşava müqaviləsi bağlandı[13, 827-833]. Reç Pospolita I bölgünün nəticələrini tanımağa məcbur oldu.

1787-ci ildə başlayan II rus-türk müharibəsi fonunda Rusiya ilə Reç Pospolita arasında gərginlik yenidən artdı.

Rus-türk müharibəsi 1791-ci ildə, Rusiya–İsveç müharibəsi isə 1792-ci ildə başa çatdı və Prussiya dərhal Reç Pospolitanı ataraq Rusiya ilə yaxınlaşmağa başladı.

Polşada vətənpərvər qüvvələr Böyük Fransa inqilabından ilham alaraq mübarizəni fədakarcasına davam etdirirdilər. 1791-ci ilin mayın 3-də Varşavada çağrılan Fövqəladə Seym tərəfindən Konstitusiya qəbul edildi və Seym Reç Pospolitanın 1772-ci il bölüşdürülməsini tanımadığını elan etdi[6, 84]. Seymin bu bəyanatı konservativ maqnatlar və çar hökumətinin narazılığına səbəb oldu. Fransa inqilabına və Polşa konstitusiyasına nifrət bəsləyən II Yekaterina Reç Pospolitanın ikinci bölüşdürülməsinə razılıq verdi. 1793-cü ildə baş tutan bölgüyə görə Rusiyaya Belorusiya və Sağsahil Ukraynasının bir hissəsi düşdü[6, 89]. Prussiya Qdanskı, Torunu və Böyük Polşanın əksər hissəsini götürdü, 3 may 1791-ci il konstitusiyası ləğv edildi. Rusiya Reç Pospolita üzərində “kardinal hüquqlarını” itirdi. Beləliklə, Rusiyanın “Polşa məsələsi”ndə tutduğu mövqe, yəni Reç Pospolitanı zəif dövlət olaraq qoruyub saxlamaq siyasəti iflasa uğradı.

Reç Pospolitanın ikinci bölüşdürülməsi Polşada general Tadeuş Kostyuşkonun rəhbərliyi ilə xalq üsyanına səbəb oldu. 1794-cü ildə üsyan A.V.Suvorovun komandanlığı ilə rus qoşunları tərəfindən amansızcasına yatırıldı, T.Kostyuşko əsir alındı. Üsyanın məğlubiyyətindən sonra 1795-ci ildə Reç Pospolitanın üçüncü bölüşdürülməsi baş verdi və bu bölgüyə əsasən Reç Pospolita dövləti ləğv edildi. Tarixi Polşa əraziləri isə Prussiya və Avstriya arasında bölüşdürüldü.

XIX əsrin siyasi xəritəsində Polşa adlı dövlət olmamışdır. Təsadüfi deyil ki, Polşa tarixçiləri XIX əsri polyaklar üçün “itirilmiş əsr” sayırlar. XIX əsrin əvvəllərində Polşa - Rusiya münasibətləri ilə bağlı ən tez baş verən hadisələr Napoleon ordusunun Moskvadan geri çəkilməsi ilə bağlıdır. Məlumdur ki, 1807-ci ildə bağlanan Tilzit sülhünün şərtlərinə əsasən Reç Pospolitanın I və II bölüşdürülməsi zamanı Avstriyaya və Prussiyaya düşən Polşa ərazilərində Napoleon Böyük Varşava hersoqluğunu yaratmışdı. 1812-ci ilin iyunun 28-də Polşa krallığının Baş Konfederasiyası elan edildi. Varşava hersoqluğunun 100 minlik ordusu müharibənin sonunadək Napoleonun tərəfində vuruşmuşdur. 1812-ci ilin noyabrında rus ordusu tərəfindən təqib olunan Napoleon ordusu Polşa ərazilərini tərk etməli oldu. 1815-ci ilin mayın 3-də Vyana konqresinin

qərarına əsasən Varşava hersoqluğuna daxil olan Polşa əraziləri Rusiya, Prussiya və Avstriya arasında bölüşdürüldü[14, 117-118].

Varşava hersoqluğunun böyük hissəsi Rusiyaya düşdü və bu ərazidə Vyana konqresinin qərarına əsasən muxtar hüqüqlara məxsus olan Polşa Çarlığı yaradıldı.1815-ci ilin iyunun 20-də Polşa çarlığının Konstitusiyası qəbul olundu, eyni zamanda Çarlığın əhalisi and içərək Rusiya təbəəliyini qəbul etdilər. 1829-cu ildə çar I Nikolayın Varşavada özünü Polşa kralı elan etməsi polyakların kütləvi etirazına səbəb oldu. 1830-cu ilin noyabrın 29-da Polşada Rusiya müstəmləkəçiliyinə qarşı üsyan başladı. Üsyan nəticəsində üsyançılar çar idarəçiliyini ləğv etdilər, Polşa Seymi tərəfindən Polşa ərazilərində Romanovlar sülaləsi qeyri-qanuni elan olundu[16]. Üsyançılar "Milli hökumət" yaratdılar və 1872-ci ilədək mövcud sərhədlərdə Polşa dövlətinin bərpası şüarını irəli sürdülər.

1831-ci ilin yanvarında çar I Nikolay Polşa üsyançılarına qarşı 125 minlik rus ordusunu göndərdi. 1831-ci ilin fevralında Stoçekedə polyaklar rus ordusu üzərində qələbə çaldılar. 1831-ci ilin baharında Polşa ordusunun uğurlarına baxmayaraq payıza doğru çar ordusunun sayı 2 dəfə artırıldı və 1831-ci ilin sentyabr-oktyabr aylarında üsyançılar darmadağın edildilər. Polşa Seymi və ordusu ləğv edildi, inzibati islahat nəticəsində voyevodalar quberniyalarla əvəz olundu, katolik və uniat əhaliyə qarşı basqılar başladı, onlar pravoslavlığa məcbur edilirdilər[6, 101]. Polşa çarlığının 1815-ci il Konstitusiyası ləğv edildi, əvəzində 1832-ci ildə çar hökuməti "Orqanik Status" qəbul etdi[6, 100].

Polşalıların çar Rusiyasına qarşı növbəti çıxışı 1863-1864-cü illərin Yanvar üsyanıdır. Ancaq qüvvvələr nisbəti hökumət qüvvələrinin tərəfində idi. Nəticədə, üsyan məğlubiyyətlə bitdi. [22].

XX əsrdə Polşa tarixinin ən əhəmiyyətli günü 11 noyabr 1918-ci ildir. Məhz həmin gün Kompyen meşəsində Antanta olkələri ilə Almaniya arasında barışıq imzalandı, I Dünya müharibəsi başa çatdı. Elə həmin gün Polşada hakimiyyət uzun müddət Rusiya imperiyasına qarşı mübarizə aparan Polşa sosialist partiyasının lideri Yuzef Pilsudskinin əlinə keçdi. 123 illik fasilədən sonra Polşa Avropanın müstəqil dövlətlər ailəsinə qayıtdı [25].

Müstəqil Polşa dövlətinin bərpası 1919-cu ildə keçirilən Versal sülh konfransında təsdiqləndi: konfransda Dansiq (Qdansk) azad şəhər elan olundu, "Polşa dəhlizi"ni yaradan Poznan, Pomeraniyanın və Prussiyanın bəzi rayonları Polşaya verildi.

1919-1921-ci illərin Sovet – Polşa müharibəsi Polşanın qələbəsi ilə başa çatdı və 1921-ci ildə bağlanan Riqa müqaviləsinin şərtlərinə görə Qərbi Ukrayna Korosten şəhərinədək və Qərbi Belorusiya Polşaya birləşdirildi.

1920-ci ildə Polşa-Litva müharibəsi də Polşanın qələbəsi ilə başa çatdı və Vilnüs Polşaya birləşdirildi. Beləliklə, Y.Pilsudski 3 il apardığı müharibələr

nəticəsində tarixi Reç Pospolitanının böyük hissəsini bərpa etdi və onun yaratdığı dövlət tarixə II Reç Pospolita kimi düşmüşdür.

1922-1939-cu illərdə SSRİ ilə Polşa arasında münasibətlər gərginliyi ilə yadda qalmışdır. Polşanın antisovet siyasəti və Almaniya ilə yaxınlaşması SSRİ-ni də məcbur etdi ki, cavab tədbirləri görsün. SSRİ rəhbərliyi ölkədə yaşayan polyak əhalisini II Reç Pospolitanın "beşinci kolonu" yəni Polşa dövlətinin antisovet fəaliyyətinin bazası elan etdi [20] və SSRİ-də mövcud olan polyakların milli rayonlarının ləğv edilməsi qərara alındı.

Polşanın Almaniyaya meyli 1938-ci ilin Münhen sövdələşməsi zamanı daha açıq şəkildə özünü büruzə verdi. Çexoslavakiyanın bölüşdürülməsində iştirak edən Polşa hələ 1920-ci illərdən iddia etdiyi və Çexoslavakiyanın tərkibində olan 227 min əhalisi olan Teşinsk və Trıştatvilayətlərinə qoşun yeritdi və ələ keçirdi.

Münhendən sonra baxmayaraq ki, Almaniya Polşa üçün də təhlükəyə çevrilmişdi, Polşa antisovet mövqeyində durmaqda idi və vəziyyətdən çıxış yolunu Böyük Britaniya və Fransa ilə yaxınlaşmaqda görürdü və 1939-cu ilin mayında adı çəkilən ölkələrlə qarşılıqlı yardım haqqında müqavilələr bağlandı.

1939-cu ilin avqustun 23-də SSRİ ilə Almaniya arasında hücum etməmək haqqında pakt imzalandı. Bu sənəd tarixə Molotov-Ribbentrop paktı kimi düşmüşdür. Pakta əlavə edilən konfendisional profokola görə II Reç Pospolita iki ölkə arasında təsir dairəsinə bölündü. Təsadüfü deyil ki, Polşa cəmiyyətinin yaddaşında Molotov–Ribbentrop paktı və ona əlavə edilən konfendisional profokol "ölkənin dördüncü bölüşdürülməsi" kimi qalmışdı [26].

Molotov–Ribbentrop paktından bir həftə sonra – 1939-cu ilin sentyabrın 1-də alman qoşunları Polşaya hücüm etdi və 2 həftə ərzində Polşa işğal edildi, Polşa dövləti ləğv edildi. 1939-cu ilin sentyabrın 17-də Sovet Ordusu Qərbi Ukrayna və Qərbi Belorusiya əhalisini müdafiə məqsədi ilə II Reç Pospolita sərhədlərini keçdi və sentyabrın 29-na kimi bütün Qərbi Ukraynanı və Qərbi Belorusiyanı SSRİ-nin tərkibinə qatdı. Qeyd etmək lazımdır ki, Qırmızı Ordu tarixi Polşa ərazilərinə girmədi - bu ərazilər Almaniyanın işğalında idi. Polşa hökuməti Rumıniyaya, oradan da Parisə qaçdı[5, 26].

1939-cu ilin sentyabrından başlayaraq SSRİ keçmiş II Reç Pospolitanın şərq hissəsində, yəni Qərbi Ukrayna və Qərbi Belorusiyada mülki əhaliyə, o cümlədən polyaklara qarşı kütləvi repressiyalar tətbiq edirdi.

5 mart 1940-cı il tarixdə Daxili İşlər Xalq Komissarı L.P.Beriya İ.V.Stalinə göndərdiyi qeyddə "islah olunmayan, Sovet İttifaqına düşmən olan polyak hərbi əsirlərinin Sovet düşərgələrində saxlanılmasını faydasız hesab etdiyini bildirir" [23]. Beriyanın əsir polyakların məhv edilməsi haqqında təklifi qəbul olunur və 1940-cı ilin 22 mart tarixindən başlayaraq Smolensk yaxınlığında, Katın adlı meşədə polyak əsilli hərbi əsirlərin güllələnməsi başlayır və nəticədə 15 minə yaxın polyak hərbçisi öldürülür[23].

1941-ci ilin iyununda faşist Almaniyasının SSRİ-yə hücumu Polşa siyasətçiləri üçün çox çətin bir çağırış oldu. SSRİ ilə münasibətlərdə Polşa siyasiləri iki düşərgəyə bölündülər.

II Dünya müharibəsi zamanı baş verən hadisələri sıraladıqda polyaklar üçün ən vacib hadisələrdən birinin Varşava üsyanı olduğu üzə çıxır [17]. 1944-cü ilin 20 iyulunda Sovet qoşunları Polşa ərazilərinə daxil oldular. 1944-cü ilin avqustun 1-də Varşavada üsyan başladı. Üsyan Polşanın faşist qəsbkarlarından azad olunmasına yönəlmişdi.

Varşava üsyanı 02 oktyabr 1944-cü ildə yatırılmışdır. 2 ay alman faşistləri ilə savaşan Polşa üsyançıları Qırmızı Ordudan kömək gözləmiş, lakin sovetlər kömək göndərməmişlər, üsyan almanlar tərəfindən amansızcasına yatırılmışdır[24].

İkinci Dünya müharibəsindən sonra Polşada sosializm quruluşu bərqərar oldu. Müharibədən sonrakı dövrdə (1945-1948) Gizli Polşa Dövləti Qırmızı Ordu hissələrinə və Sovet yönümlü Polşa hakimiyyətinə qarşı mübarizəapar-masına baxmayaraq, 1945-ci ildə Sovet ordusunun Şərqi Avropada hərbi qələbələri, Avropanın SSRİ, Böyük Britaniya və ABŞ arasında təsir dairəsinə bölüşdürülməsi nəticəsində Polşa təqribən yarım əsrlik bir dövr ərzində (1945-1989) SSRİ-nin təsir dairəsinə düşdü [15].

Müharibədən sonrakı illərdə Polşa siyasətində həm iqtidar partiya çərçivəsində, həm də möhkəmlənməkdə olan demokratik müxalifət çərçivəsində yenidən realist cərəyan meydana gəldi. Bu, məşhur Polşa siyasətçisi Adam Bromkenin də dediyi kimi "Polşada realizm və idealizm" xətlərinin yaranmasına və onların qızğın mübarizəsinə gətirdi[19].

M.S.Qorbaçovun başladığı "yenidənqurma" siyasəti Polşada əsaslı dəyişikliklərin həyata keçirilməsinə təkan verdi. SSRİ-nin bu məsələdə "köməyi" o oldu ki, o, artıq Polşanın daxili işlərinə qarışmır, öz daxili və xarici problemlərinin həlli ilə məşğul olurdu. Bu da Polşaya imkan verdi ki, 1989-cu ildən SSRİ-nin hegemonluğunu dəf edərək islahatlara başlasın.

XXI əsrin başlanğıcında Polşa siyasətşünasları hesab edirdilər ki, Polşa ilə Rusiya arasında münasibətlər tarixində elə bir mərhələ başlamışdır ki, 400 il ərzində ilk dəfədir ki, iki ölkə arasında maraqların prinsipial toqquşması müşahidə edilmir. Onlar bu fikri onunla əsaslandırırdılar ki, "güclənmiş və Qərblə əməkdaşlıq siyasəti yeridən Rusiya Polşanın milli maraqlarına cavab verir"[4, 23]. Lakin, son illər Rusiyanın xarici siyasət kursunda baş verən dəyişikliklər, onun ABŞ və Avropa İttifaqı ilə münasibətlərinin soyuqlaşması fonunda yenə də Rusiya-Polşa münasibətlərində geniş əməkdaşlığa maneə yaradan gərginliyin mövcud olduğu müşahidə edilməkdədir. Şübhəsiz ki, müasir dövrdə Rusiya – Polşa münasibətlərinin xarakterinə beynəlxalq arenada baş verən hadisələrlə yanaşı, hər iki xalqın, xüsusilə siyasi dairələrin tarixi yaddaşı əsaslı təsir göstərməkdədir.

## ƏDƏBİYYAT

1. Вернандский Г.В. Золотой век Киевской Руси. - М.: Алгоритм, 2012, 400 с.

2. Греков Б.Д. Киевская Русь. Отв.ред.Л.В.Черепнин, ред., А.Ц.Мерзон. –Л.:1953, 569 с.

3. Дыбковская А. и др. История Польши с древнейшие времён до наших дней – Варшава:Научное издательство ПВН, 1995, 942 с.

4. Ежи Вятр. Польша – Россия: национальные интересы или историческая память? // «Социология», № 3, 2011, с.23-35.

5. История Второй Мировой войны 1939–1945 гг. Том 3. Начало войны. Подготовка агрессии против СССР. — М.: Воениздат, 1974.-498 с.

6. Краткая история Польши: С древнейших времен до наших дней. М.: "Наука", 1993. – 528 с.

7. Мавродин В.В.Образование Древнерусского государства. — Л.: Издательство Ленинградского Государственного ордена Ленина Университета, 1943, 430 с.

8. Образование Древнерусского государства. — Л.:Издательство Ленинградского Государственного ордена Ленина Университета, 1943, 430 с.

9. Петербургская конвенция между Россией и Пруссией о первом разделе Польши.// Под стягом России: Сборник архивных документов. М., Русская книга, 1992.с.131-137.

10. Т.1, (1649-1675- гг.), №104, СПб.,1830, 1029 с.

11. ПСЗ – 1, т.-2, (1676-1688), №1186,СПб.,1830, 974 с.

12. ПСЗ – 1, т.-18, (1767-1769,), №13071,СПб.,1830, с.448-470, 1081 с.

13. ПСЗ – 1, т.-19, (1770-1774 ), №14042,СПб.,1830, 1081 с.

14. ПСЗ – 1, т.-33, (1815-1816), №25842,СПб.,1830, 1171 с.

15. 3 kadencja, 69 posiedzenie, 3 dzień (07.01.2000) // Sejm Rzeczypospolitej Polskiej, PraceSejmu III kadencji. URL:http://orka2.-sejm.gov.pl/Debata3.nsf/main/511BD6D3 (дата обращения 13.05.2018).

16. 4 kadencja, 11 posiedzenie, (16.04.1998) // Senat Rzeczypospolitej Polskiej, Prace Senatu IV kadencji. [Warszawa], 1997–2001.URL:http:// ww2.senat. pl/K4/DOK/ sten/011-t/111g.htm (датаобращения 13.05.2018).

17. MonteCassino – najbardziejzaciętabitwaIIwojnyświatowej. https:-//www.polskieradio. pl/39/156/Artykul/1126540, Monte-Cassino-—najbardziej-zacieta-bitwa-II-wojny-swiatowej.

18. Pamiętajmydzisiaj, pamiętajmywprzyszłości / KaczyńskiL. A. // OficjalnastronaPrezydentaRzeczypospolitejPolskiej. 14.04.2008. URL:http:-//www.prezydent.pl/¬archiwum/¬archiwum-aktualnosci/rok-2008/art,148,521,-pamietajmydzisiaj-pamietajmy-w-przyszlosci.html (дата обращения 13.05.2018).

19. Polands politics: idealizm vs. Realizm. Cambridge.1967.

20. Prezydent w "Sygnałachdnia" o obchodach 70. rocznicywybuchu II Wojny Światowejipodwyższaniupodatkow / Kaczyński L. A. // Oficjalnastrona Prezydenta Rzeczypospolitej Polskiej.5.09.2009.URL:http://www.prezydent.-pl/archiwum/archiwum-strony-lecha-kaczynskiego/wypowiedzi-prezydenta/wywiadykrajowe/art,541,prezydent-w-sygnalach-dnia-o-obchodach-70-rocznicy-wybuchu-ii-wojny-swiatowejpodwyzszaniupodatkow.html (датаобращения 10.05.2014).

21. Sprawozdanie Stenograficzne z 12 posiedzenia Sejmu Rzeczypospolitej Polskiej w dniu 10 marca 2006 r. (trzecidzieńobrad). Warszawa, 2006. S. 335.

22. SprawozdanieStenograficzne z 33 posiedzenia SejmuRzeczypospolitej Polskiej w dniu 26 stycznia 2007 r. (trzecidzieńobrad). Warszawa, 2007. S. 300.

23. Sprawozdanie Stenograficzne z 37 posiedzenia Sejmu Rzeczypospolitej Polskiej w dniu 14 marca 2007 r. (pierwszydzieńobrad) Warszawa, 2007. S. 118.

24. SprawozdanieStenograficzne z 23 posiedzenia Sejmu Rzeczypospolitej Polskiej w dniu 3 października 2008 r. (trzecidzieńobrad). Warszawa, 2008. S. 350.

25. Uchwała Sejmu Rzeczypospolitej Polskiej z dnia 1 lipca 2009 r. w sprawieuczczenia 90. rocznicypodpisania Traktatu Wersalskiego // Monitor Polski. 2009. №41. Poz. 645.

26. Uchwała Sejmu Rzeczypospolitej Polskiej z dnia 23 września 2009 r. Upamiętniającaagresję Związku Radzieckiegona Polskę 17 września 1939 r. // Monitor Polski. 2009. №63. Poz. 831.

**UOT 37.**

## B.B.KOMAROVSKİNİN PEDAQOJİIRSİNİN AZƏRBAYCANDA TƏRBİYƏ NƏZƏRİYYƏSİNİN İNKİŞAFINA TƏSİRİ

***Röya Cəfərli***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*cafarli84@mail.ru*

**Açar sözlər:** *prof.B.B.Komarovski, pedaqogika, fiziki tərbiyə, əmək tərbiyəsi, estetik tərbiyə*

*XX əsrin 20-ci illərində Azərbaycanda yeni tipli məktəblər yarandı. Bu məktəblər üçün yeni məzmun müəyyənləşdirildi. Məktəblilərin tərbiyəsinin məzmunu, məqsədi, prinsipləri, metodları və təşkili formaları haqqında B.B.Komarovski konseptual fikirlərin müəllifidir. Azərbaycanda tərbiyə nəzəriyyəsinin inkişafında onun ideyaları mühüm rol oynamışdır.Məqalədə həmin məsələlər araşdırılır.*

## ВЛИЯНИЕ ПЕДАГОГИЧЕСКОГО НАСЛЕДИЯ Б.Б.КОМАРОВСКОГО НА РАЗВИТИЕ ТЕОРИИ ВОСПИТАНИЯ В АЗЕРБАЙДЖАНЕ

***Роя Джафарли***

**Ключевые слова:** *проф. Б.Б.Комаровский, педагогика, физическое воспитание, трудовое воспитание, эстетическое воспитание*

*В 20-е годы XX века в Азербайджане были созданыновые школы. Было пределенновый контент для этих школ. Б.Б.Комаровский является автором концептуальных идей о содержании, цели, принципах, методах и формах воспитания школьников. Его идеи сыграливажную роль в развити и теории воспитания в Азербайджане. Эти вопросы были рассмотрены в статье.*

# INFLUENCE OF PEDAGOGICAL HERITAGE OF B.KOMAROVSKY ON THE DEVELOPMENT OF THE THEORY OF EDUCATION IN AZERBAIJAN

***Roya Jafarli***

**Key words:** *prof. B.Komarovsky, pedagogy, physical education, labor education, aesthetic education*

*In the 1920s, new schools were established in Azerbaijan. New content was defined for these schools. B.Komarovsky is the author of conceptual ideas about the content, purpose, principles, methods and forms of education of schoolchildren. His ideas played an important role in the development of thetheory of educationing Azerbaijan. These issues were considered in the article.*

XX əsrin 20-ci illərindən başlayaraq Azərbaycanda yeni tip məktəblər - sovet məktəbləri təşkil olunmağa başladı. Bu tip məktəblərin hər birində yeni məzmun müəyyənləşdirildi ki, bu da yeni cəmiyyət qurucularının formalaşmasını təmin etməli idi. Yeni insan tərbiyəsi məktəbin və pedaqogika elminin diqqət yetirdiyi ən mühüm problemlərdən biri idi. Xarici ölkə alimlərindən fərqli olaraq azərbaycanlı tədqiqatçılar tərbiyə prosesini pedaqogika elminin predmeti hesab edir, onu geniş və dar mənada şərh etməyə çalışırdılar. Onlar bir-birini inkar edən müxtəlif nəzəriyyələri müdafiə edirdilər. Bu nəzəri fikir toqquşmasında B.B.Komarovskinin elmi qənaətləri məntiqiliyi və tarixiliyi ilə seçilirdi. O, problemin düzgün həlli üçün "tərbiyənin mahiyyətini və tərbiyə prosesini müəyyən edən amillərin mənşəyinin ətraflı öyrənilməsini" əsas sayırdı. Onun tədqiqatlarında, xüsusilə "Pedaqojinin ümumi əsasları" [1] dərs vəsaitində bu məsələ daha geniş şəkildə öz elmi-pedaqoji həllini tapmışdır. Kitab üç hissə kimi nəzərdə tutulsa da müəllif onun ancaq birinci hissəsini- tərbiyə tarixini nəşr etdirmişdir. İkinci hissədə tərbiyənin sosiologiyası, üçüncü hissədə isə tərbiyənin fəlsəfəsi öz əksini tapmalı idi. Həmin dövrdə həm rus, həm də azərbaycanlı tədqiqatçılar pedaqogikanın predmetinin məktəbyaşlı uşaqların tərbiyəsi ilə məhdudlaşdırılmasını vacib hesab edirdilər. O, tərbiyə obyektinin (daha doğrusu, pedaqogika elminin tədqiqat obyektinin) ancaq məktəb yaşlı uşaqları əhatə etməsi fikrini qəbul etməyərək yazırdı: "Biz, tərbiyə obyektinin xüsusilə uşaq və gənclik yaşlarından ibarət olmalıdır – fikrinə qətiyyən meyl göstərmirik. Bəşəriyyətin bütün tarixi aşkarca göstərir ki, tərbiyə birinci növbədə böyükləri və ən axırda uşaq kütləsini əhatə edir. İndi, dünyanın yeni ictimai quruluşunda

bilavasitə iştirak etdiyimiz üçün bütün yaşlı əhalinin yenidən tərbiyə edilməsinin müstəsna bir əhəmiyyəti olduğuna qənaətkəsb edirik" [1,6].

B.B.Komarovskinin bu fikri özünəqədərki ideyalardan tamlığı, dolğunluğu, elmi tutumu ilə fərqlənsə də, burada ziddiyyətli məqamlar da nəzərə çarpır. Fikrimizcə, tərbiyə ilk növbədə uşaqları əhatə etməlidir, nəinki böyükləri. Yaş budağı əymək daha asan deyilmi? B.B.Komarovskinin fikrincə, pedaqoji bütün cəmiyyətin zehni, moral (əxlaq-R.C.) və texniki inkişafı şərtlərini, bütünlükdə öyrənməklə məşğul olmalıdır [1,6].Təbii ki, pedaqoji elmlər sisteminə daxil olan elmlər (məktəbəqədər pedaqogika, məktəb pedaqogikası, sosial pedaqogika, xüsusi pedaqogika, hərbi pedaqogika, ali məktəb pedaqogikası və s.) cəmiyyətin müxtəlif yaş qrupuna aid olan üzvlərinin təhsil və tərbiyəsinin inkişaf qanunauyğunluqlarını öyrənir. B.B.Komarovskinin XX əsrin 20-ci illərində irəli sürdüyü bu fikir (pedaqogikanın bütün yaş qruplarını əhatə etməsi) 40-60-cı illərdə Azərbaycanda nəşr olunan pedaqogika kitablarında təqdir edilməmişdir. Buradadaha çox məktəbyaşlı uşaqların təlim, tərbiyə və təhsilindən bəhs olunur. Amma cəmiyyətin texniki inkişaf şərtlərinin öyrənilməsini pedaqogikanın predmeti hesab etmək onun hüdudlarının həddindən artıq genişləndirilməsi və vəzifəsinin mürəkkəbləşdirilməsidir. O, "bu elmin sərhədləri müəyyən edilməmişdir... tərbiyə prosesinin təkamülünü izləmək və mühitin müxtəlif şəraitindən asılı olaraq tərbiyə prosesinin almış olduğu tərbiyə sistemləri və təşkilat formalarını müəyyən etmək üçün... yaşlı əhalinin yenidən tərbiyə edilməsinin müstəsna bir əhəmiyyəti olduğunu" [1,6] qeyd edir.

Burada yenidən tərbiyə anlayışı yaşlı əhalinin təhsil və təlim məsələlərini əhatə edir. Tərbiyənin praktik istiqamətlərinin gücləndilməsində tarixi-pedaqoji irsin öyrənilməsini vacib hesab edən B.B.Komarovski yazırdı:"Keçmiş zamanlara aid olan tərbiyənin məqsəd, təşkilat və texnikasını aydınlaşdırdıqdan sonra, bu sistemi doğuran ictimai, iqtisadi şəraiti təyin etməyə və eyni zamanda tərbiyə ənənələri ilə olan həyati rabitələri tapmağa çalışardıq" [1,7]. O, tərbiyənin ümumi inkişaf xətlərini müəyyənləşdirməklə yanaşı, tarixiliyi məqsəd kimi götürmür, onun müasir təcrübə üçün yararlı cəhətlərini önə çəkir. Tərbiyə nəzəriyyəsinin tarixi aspektdən öyrənilməsi onun inkişaf təmayüllərini və dinamikasını müəyyənləşdirməyə imkan verir. Tərbiyənin müxtəlif cəmiyyətlərdə inkişaf istiqamətlərinin də fərqli olduğunu qeyd edən B.B.Komarovski təklif etdiyi pedaqogikanın heç də "normativ pedaqoji" kimi qəbul edilməsini istəmir. Tərbiyə fəaliyyətinin səmərəli qurulması üçün tərbiyə obyektinin psixoloji xüsusiyyətlərinin dərin öyrənilməsinin vacibliyini əsaslandırır. Bir çox tədqiqatçılar (P.P.Blonski, A.P.Pinkeviç, A.G.Kalaşnikov) tərbiyənin ancaq "məqsədəuyğun, planlı və mütəşəkkil təsirdən ibarət olduğunu" [2,64] əsaslandırmağa çalışdıqları halda, B.B.Komarovski bu fikirlərlə qətiyyən razılaşmır, mühitin (geniş mənada)

yalnız mütəşəkkil təsirini deyil, həm də “qeyri-mütəşəkkil” təsirini nəzərə almağı zəruri sayırdı. Onun fikrincə, “tərbiyə prosesinin tarixinə aid olan amilləri sistematik bir surətdə təhlil etmək yolu ilə onu təyin edən qanunları” [1,5] aşkar etmək mümkün olar. Tərbiyə tarixi ilə pedaqogika tarixini eyniləşdirənlərlə razılaşmayaraq, irəli sürülən məsələni əsas metodoloji problemkimi önə çəkir, onun düzgün həllini pedaqogikanın mövzusunun müəyyənləşdirilməsinin başlıca şərti hesab edirdi. “Tərbiyə yalnız təsir sistemi (mütəşəkkil, əvvəlcədən düşünülmüş təsir) kimi qəbul edildikdə, pedaqoji mütəşəkkil proses, daha doğrusu, məktəb divarları arasında cərəyan edən proses elmi olaraq qalır” [1,18]– qənaətinə gələn B.B.Komarovski problemə həmkarlarından fərqli baxışı ilə seçilirdi. Onun fikrincə, “tərbiyə məfhumu altında bütün istehsal-ictimai münasibətlərin, insan üzərinə olan bütün təsirləri kimi tərəqqi ediləcək olursa, o zaman pedaqoji didaktika sahəsindən çox-çox uzaqlara doğru genişlənmiş olar” [1,18].

Onun bu fikri rus pedaqoq-alimlərindən V.Y.Struminskinin, V.N.Şulqinin, M.V.Krupeninin fikirlərinə uyğun idi və hətta daha dolğun idi. Bu yanaşma, göründüyü kimi, ənənəvi deyildi. Ənənəvi pedaqogika məktəb işlərinin məhdud məsələləri ilə məşğul olurdusa, yeni pedaqogika B.B.Komarovskinin təbirincə, “bütün ictimai prosesin tam kimi, bütövlükdə tədqiqi ilə məşğul olmalı idi” [1,15].

Göründüyü kimi, B.B.Komarovski pedaqoji prosesi – mütəşəkkil və qeyrimütəşəkkil kimi iki yerə ayırırdı. B.B.Komarovski özünəqədərki nəzəri-pedqoji irsi araşdıraraq belə qənaətə gəlir ki, tərbiyənin iki formasının yaranması (mütəşəkkil və qeyri-mütəşəkkil) insanların həyatı xüsusi surətdə sonrakı öyrənmələrinin məhsuludur. Belə ki, ibtidai icma cəmiyyətində tərbiyə primitiv xarakter daşıyırdı. Həmin dövrdə uşağın tərbiyəsi onun bəslənməsi və böyüdülməsindən yaşlı nəslin təcrübəsinin böyüyən nəslə verilməsindən ibarət idi. Tədricən tərbiyə təcrübənin nəsildən-nəsilə ötürülməsi kimi geniş məzmun kəsb etməyə başladı.

B.B.Komarovski mütəşəkkil və qeyri-mütəşəkkil tərbiyə prosesinin daimi qarşılıqlı əlaqədə olmasını bidirərək yazırdı:” ...əsrin ən mühüm pedaqoji məsələsi iki momentdən ibarətdir:a) formal və qeyri-formal, təsadüfi və planlı tərbiyə vasitələri arasında müvazinəti saxlamalı və b) təbii-qeyri mütəşəkkil tərbiyə prosesini, ictimai qüvvələrin lazımı qayda üzrə təşkili yolu ilə, planlı və məqsədəuyğun bir hala gətirməlidir” [1,12]. O, problemi əhatəli və geniş şəkildə izah etmək məqsədilə C.Dyuidən sonrakı tədqiqatları təhlilə cəlb edir, rus pedaqoqları A.G.Kalaşnikov, A.P.Pinkeviç və V.N.Şulqinin nəzəri fikirlərini ümumiləşdirir.

Yuxarıda qeyd etdiyimiz kimi, onlar pedaqoji prosesi ancaq “daimi, planlı, mütəşəkkil və məqsədəmüvafiq” təsir kimi izah etdiklərindən pedaqogikaya mütəşəkkil pedaqoji proseslərə aid bir elm kimi baxırdılar. Onlar

pedaqoji prosesin tədqiqini heç bir pedaqoji proses olmayan ibtidai cəmiyyətdən başlayırdılar. A.P.Pinkeviç insanların köçəri həyatdan yarımoturaq həyata keçmələrini pedaqoji prosesin başlanması dövrü kimi səciyyələndirir, məhz bu dövrdə pedaqoji prosesin bəzi elementlərinin təşəkkül tapdığını bildirirdi [1,12]. Din və əxlaqın meydana gəlməsilə əxlaq normalarını yeni nəslə vermək ehtiyacı yaranır.

B.B.Komarovski qədim dövrdə tərbiyənin təşkili ilə bağlı nəzəriyyələri təhlil edir, xüsusilə Leturnonun fikirləri üzərində dayanır. Qədim dövrdə böyüyən nəslin tərbiyəsi ilə bağlı nəzəri fikirləri ümumiləşdirən B.B.Komarovski haqlı olaraq A.P.Pinkeviç tənqid edir. Çünki o, pedaqoji işin yaranmasını məktəbin təşkili ilə bağlayır. Halbuki sistemli məktəb təhsili olmayan bədəvilərdə "müəyyən psixoloji tip yetişdirən tərbiyəedici mühit" var idi. B.B.Komarovskinin "insan kütlələrinin tərbiyəsi məktəbdənkənar və çox vaxt məktəblərin əksinə olaraq getmişdir" –fikri maraq doğurur və reallığı əks etdirir. Onun fikrincə, məktəb, ümumiyyətlə həyatdan geri qalır və yeni məfkurələr doğurmaq əvəzinə, əski məfkurələri, ənənələri və adətləri saxlamaq məqsədi daşıyır. Bu gün də cəmiyyətdə baş verən hadisələr göstərir ki, məktəb cəmiyyətin artan tələbatını ödəyə bilmir. Kütləvi məktəblərə sanki alternativ yaranan repetitorluq məktəbi (fərdi təhsil, ayrı-ayrı kurslarda təhsil) ildən-ilə böyüməkdədir. Məktəblərdə intellektual cəhətdən böyüyən nəslin həyata hazırlanmasında müəyyən problemlər olduğu kimi, mənəvi cəhətdən də hazırlıqda bu problemlər qalmaqdadır. Məktəblərimizdə müəllimlərimizin şagirdlərlə apardığı tərbiyəvi fəaliyyət intellektual fəaliyyətlə əvəz olunmuşdur. Hər bir şagird məktəbdə ailəsinin, təmsil etdiyi icmanın adət-ənənəsinin, mənəvi-əxlaqi dəyərlərinin təmsilçisi kimi çıxış edir.

B.B.Komarovskinin tərbiyə nəzəriyyəsi ilə bağlı araşdırmalarında diqqəti cəlb edən diğər bir məsələ, tərbiyənin obyeki ilə bağlı fikirləridir. O yazır:"pedaqoji ədəbiyyatda belə bir əfsanə şiddətlə və inadla davam etmişdir:guya ilk növbədə tərbiyə obyekti cocuqluq (uşaqlıq-R.C.) və gənclik olmuş və yalnız ictimai tərəqqi təsiri ilə (son əsrdə- XX əsr nəzərdə tutulur-R.C) böyük əhali də bu obyektlər sırasına keçmişdir" [1,17]. O, bu problemlə bağlı Avropa və Amerika təcrübəsinə istinad edərək tamamilə fərqli fikir söyləyir. Pedaqogika tarixçilərinin qədim dövrdə tərbiyə işinin təşkilinə ciddi əhəmiyyət vermədiklərini bildirir. Bu da onunla bağlı idi ki, yeni qurulan sovet cəmiyyətini öz təhsil-tərbiyə sistemini qurmaq düşündürürdü. Sovet ideologiyasının təbliğatçıları ənənəvi tərbiyə sistemini bütünlüklə inkar edirdilər. Belə bir şəraitdə B.B.Komarovski yazırdı:" İbtidai cəmiyyətdəki tərbiyə şəklini (formasını-R.C.) təyin etmək istədiyimizdən aşağıdakı əsas suallara cavab verməliyik: a) müəyyən cəmiyyət içərisində, onun əxlaqına sistematik bir surətdə təsir edən hadisələr varmı? b) bu proses müntəzəmmidir? İlk növbədə tərbiyə obyekti və subyekti kimdir? c) bu prosesin məqsədi və qəti vəzifəsi

nədən ibarətdir? ç) tərbiyə prosesini hansı müəssisə və təşkilatlar idarə edir, bu prosesin təşkilatı, quruluşu, texnikası nə cürdür? d) tərbiyə prosesinin qəti proqramı və metodları varmı?" [1,18].

B.B.Komarovskinin tərbiyə nəzəriyyəsində tərbiyənin məqsədinin (cəmiyyətlərin xarakterinə uyğun olaraq) müəyyənləşdirilməsi, onun üst qurum hadisəsi kimi təhlilə cəlb edilməsi mühüm yer tutur. Bu yanaşmada B.B.Komarovski insan əxlaqının dəyişməsində bioloji (irsi meyllər) və ictimai-iqtisadi amillər, istehsalat münasibətlərinin, planlı və mütəşəkkil tərbiyə işinin yerini və rolunu müəyyənləşdirməyə çalışır. O, rus alimlərinin (xüsusilə, Kalaşnikovun, Şulqinin, Krupeninin) tərbiyəyə verdikləri bütün tərifləri araşdıraraq E.Medınskinin "tərbiyə, insan və insan qrupları üzərinə edilən bütün xarici təsirlərin məcmuyudur" [3,85] -fikirlərini daha dolğun hesab edir, digər təsirlərin (təbiətin təsiri, iqtisadi amil, həyat, ideologiya və s.) içərisində tərbiyəçilərin rolunu kiçik hesab edir.

B.B.Komarovski tərbiyədə ictimai mühitin oynadığı rolu izah edərkən ilk növbədə, ictimai təşkilatların yaranmasını önə çəkir. Bəzi tədqiqatçılar ictimai təşkilatların ailədən, cəmiyyətdən və dövlətdən əvvəl, bəziləri isə əksinə, sonralar yarandığını iddia edir. O, bu mübahisəli məsələnin genezisinə toxunmadan qeyd edir ki, ibtidai icma cəmiyyətində yaranan belə təşkilatlar insanların (xüsusilə uşaqların) tərbiyəsində mühüm rol oynamışdır.

B.B.Komarovskinin ictimai tərbiyə metodları ilə bağlı izahları da tarixilik və müasirlik baxımından maraq doğurur. Onun fikrincə, təqlid xarici səbəblərə qarşı olan irsi reaksiya formasıdır. İbtidai cəmiyyətin yeksək dərəcələrində şüurlu təqlidə təsadüf edilir. Müəyyən bir prosesin təkrarına meyl göstərən təqlid reaksiyası insanın yaradılışından mövcuddur. Ancaq cəmiyyətin inkişafının aşağı səviyyələrində bu reaksiya üzvi funksiyalar kimi davam edir. Təqlidin heyvanlarda da olması fikrinə münasibət bildirən B.B.Komarovski bu təqlidin qeyri-ixtiyari və həm də zahiri xarakterdə olması fikrini irəli sürür. B.B.Komarovski ictimai təlqin nəzəriyyəsinin nümayəndələrindən biri olan Tardınatavistlik nəzəriyyəsinə, Bolduinin fikirlərinə münasibət bildirərək təlqin və təqlidin bioloji əsaslarının eyni olması fikrini irəli sürür. Qeyd edir ki, "təqlid bəsit şəklində ən çox şüurlu və sadəcə təlqin formasından ibarətdir" [1,22]. Müəllif nəticə etibarı ilə təlqini də təqlid kimi əxlaqın xüsusi metodu hesab edərək əxlaqın özünün dərin ictimai-iqtisadi əsaslarının olması fikrini irəli sürür.

B.B.Komarovski ictimai tərbiyə metodlarını ancaq tarixi aspektdə araşdırmamışdır. Sovet məktəbi və məktəbliləri üçün tərbiyə metodlarının seçilməsində iştirak etmiş, problemlə bağlı keçmiş İttifaq səviyyəli diskussiyalarda Azərbaycanı A.O.Makovelski ilə birlikdə təmsil etmiş, öz elmi mövqelərini müdafiə etməklə yeni pedaqoji nəzəriyyələrin formalaşmasındarol oynamışdılar. O, tərbiyəni geniş mənada təhlilə cəlb edir, tərbiyəvi əhəmiyyəti

olmayan təhsili qəbul etmir, tərbiyənin tərkib hissələrini aşağıdakı kimi təsnif edirdi:

a) bədən tərbiyəsi (bədənə təsir edir);
b) əql və bədii tərbiyə (ruha təsir edir);
c) hiss və hərəkət tərbiyəsi (duyğu üzvləri və əzalara təsir edir);
ç) ictimai-əxlaqi tərbiyə (əxlaqın yetkinləşdirilməsi).

Sonrakı tədqiqatlarında tərbiyənin tərkib hissələri ilə bağlı fərqli bölgüyə istinad edir. “Pedaqoji seminarlar” kitabında Kalaşnikovun, Şulqinin və Pinkeviçin tərbiyənin tərkib hissələri ilə bağlı təsnifatına münasibət bildirən B.B.Komarovski hər üç yanaşmada ortaq dəyərlərin daha çox olması fikirinə gəlir və əxlaqın ideolojiləşdirilməsi məsələlərini önə çəkir.Tərbiyənin tərkib hissələrini aşağıdakı kimi təsnif edir:

1) bədən tərbiyəsi;
2) zehni tərbiyə;
3) əxlaq və ictimai tərbiyə;
4) emosional estetik tərbiyə;
5) internasional tərbiyə;
6) din əleyhinə tərbiyə (ateizm tərbiyəsi);
7) xarakter tərbiyəsi;
8) cinsi tərbiyə [3,113-119].

Bu təsnifat yeni deyildi və rus elmi pedaqoji fikrində mövcud olan bölgülərin təkmilləşdirilmiş formasından ibarət idi. Sovet pedaqogikasında bu təsnifat müəyyən təkmilləşdirmə aparılaraq 80-ci illərin sonuna kimi istifadə olunmuşdur. 30-cu illərdə B.B.Komarovski təsnifata əmək tərbiyəsini daxil etmədiyi halda, 40-cı illərdə əmək tərbiyəsini tərbiyənin müstəqil tərkib hissəsi kimi təhlil və təqdim edirdi. Müəllimlər, tələbələr, aspirantlar və kitabxana işçilərindən ötrü pedaqoji şəxsi təhsil üçün nəzərdə tutulan “Pedaqoji seminarlar” da [3] verilən məzmun suallar şəklində qoyulub. Şəxsi təhsil ilə məşğul olan işçilər (müəllimlər, tələbələr, aspirantlar və kitabxana işçiləri) həmin suallara cavab tapmaqla, müqayisələr etməklə, ümumiləşdirmələr aparmaqla peşəkarlıqlarını artıra bilərdilər. Məsələn, tərbiyənin tərkib hissəsi olan “bədən tərbiyəsi” mövzusunu öyrənərkən onlar “bədən tərbiyəsi” ilə “fiziki təhsil” anlayışları arasındakı əsas fərqləri izah etməli, bədən tərbiyəsinin fərdi və ictimai dəyərini üzə çıxarmalı, bədənin inkişafı ilə əqli inkişaf arasındakı korrelyasiyanın mahiyyətini, bədən tərbiyəsinin əxlaqi inkişafa təsirini, bədən tərbiyəsinin məzmun və vasitələrini (rejim, oyun, gəzinti, əyləncələrin təşkili, gimnastika, idman və s.), şəxsi bədən tərbiyəsinin, məktəblərdə tibbi nəzarətin əhəmiyyətini, məktəb gigiyenasını bilməli və onlar haqqında geniş təsəvvürə malik olmalı idilər. 30-cu illərdə elmi-pedaqoji ədəbiyyatda tərbiyənin tərkib hissələrinə “cinsi tərbiyə”nin daxil edilməsi mütərəqqi bir hal idi. 40-60-cı illərdə “cinsi tərbiyə” anlayışı tərbiyənin

tərkibindən çıxarılmışdır.Yalnız 70-ci illərdə bu problem yenidən aktuallaşmış [4] , cinsi tərbiyənin bioloji, psixoloji və fəlsəfi aspektləri ilə bağlı araşdırmalar meydana gəlmişdir ki, bu istiqamətdə də prof.Əbdül Əlizadənin tədqiqatları xüsusilə əhəmiyyətlidir. "Cinsi tərbiyə" mövzusunu öyrənənlər aşağıdakı suallara cavab verməli idi:

-qadın və kişilər üçün xüsusi tərbiyə formalarına ehtiyac varmı?

-qadın və kişilərin birgə oxumasının əleyhinə çıxanların fikrinə münasibətiniz neçədir?

-şuralar İttifaqında geniş miqyasda tətbiq edilmiş müştərək təlim-tərbiyə təcrübəsinin nəticəsi nə göstərir?

-cinsi maarif və cinsi tərbiyənin mahiyyətini necə başa düşürsünüz?

Maraqlıdır ki, burada müəyyən yaş dövründə cinsi maarif zamanı oğlan və qızlara normal həyat üçün zəruri olan intim həyat və cinsiyyət orqanları haqqında məlumat verilməsi nəzərdə tutulurdu. Belə məlumatların hansı dərsdə, kim tərəfindən, hansı vasitələrlə verilməsi, müştərək təlim zamanı necə təşkil olunması ilə bağlı ciddi müzakirə predmetinə çevrilirdi. Çox təəssüf ki, bu gün də şagirdlərimiz arasında cinsi maarifləndirmə işləri olduqca zəif təşkil olunur. Onlar öz cinsi sağlamlıqları ilə bağlı kifayət qədər məlumatlı olmurlar. Bu da təbii ki, məktəblilərdə sonralar özünü büruzə verən cinsi xəstəliklərin yaranmasına səbəb olur.

B.B.Komarovskinin yaradıcılığında məktəblilərin zehni (əqli), əxlaqi, beynəlmiləl, fiziki, cinsi, əmək, xarakter tərbiyəsi ilə yanaşı hərbi-siyasi tərbiyəsi də mühüm yer tutur. Hərbi-siyasi tərbiyə anlayışına 20-30-cu illərdə nəşr olunan elmi-pedaqoji və metodiki ədəbiyyatda [5] rast gəlinmir. İkinci dünya müharibəsinin başlanması, Almaniyanın qəflətən SSRİ-nin sərhədlərini keçməsi təhsil müəssisələrində müdafiə işlərinin qurulmasını və hərbi-siyasi tərbiyə işinin təşkilini tələb edirdi. Lakin bu işin mktəbdə səmərəli qurulması üçün metodik tövsiyələrə ehtiyac var idi. Belə bir dövrdə B.B.Komarovskinin "Vətən müharibəsi şəraitində məktəbin təlim-tərbiyə işləri" [6] adlı metodik əsəri nəşr olundu. B.B.Komarovski müharibə şəraitində məktəbin vəzifəsini belə səciyyələndirirdi:"məktəb gələcək döyüşçüləri hazırlamaq, gənc nəsli Qızıl Ordunun gələcək döyüşçüləri üçün lazım olan mənəvi keyfiyyət, hərbi və elmi biliklə silahlandırmaq işində öz məsuliyyətini başa düşməlidir" [6,3]. Müharibə illərində tərbiyə işlərinə verilən diqqətin xüsusi olaraq gücləndirilməsi tələb edilirdi.

Hərbi-müdafiə işlərində məqsəd məktəb qurtaran gələcək döyüşçülərə bir sıra bilik və vərdiş verməkdən ibarət idi.Onları (zəruri bilik, bacarıq və vərdişi) B.B.Komarovski 2 yerə ayırırdı:1) məktəblilər sıra yarışını, sərrast nişan almağı, əl bombasını atmağı və süngü döyüşünü bacarmalı, düşmən tanklarını məhv edə bilməyi, maskalanmağı, top və mina atəşindən, aviasiya hücumundan yayınmağı və HKHM vasitələrindən istifadə etməyi bilməli

idilər; 2) döyüşçü kimi bir sıra mühüm psixi və əxlaqi keyfiyyətlərə (intizamlılıq, mütəşəkkillik, dözümlülük, cəsarət, zirəklik, qəhrəmanlıq, ölümdən qorxmamaq, son damla qanına qədər düşmənlə vuruşmaq, yoldaşlıq və qarşılıqlı kömək) malik olmalı idilər. Yalnız bədən tərbiyəsi və hərbi təlim dərslərində gələcəyin döyüşçüsü üçün zəruri olan bu keyfiyyətlərin formalaşdırılmasını müəllif qənaətbəxş saymırdı. O, məktəbin bütün işini, məktəb direktorunun, müavinlərin, sinif rəhbərinin, müəllimlərin fəaliyyətini bu nöqteyi-nəzərdən yenidən qurmağı vacib hesab edirdi.

B.B.Komarovskinin yaradıcılığında tərbiyənin təşkili məsələsinin araşdırılması mühüm yer tutur. O yazır:"İbtidai cəmiyyətdə tərbiyə subyekti olduğu halda burada müəyyən tərbiyə obyekti, tərbiyə məqsədi və müəyyən vasitələrinin tətbiqi də vardır" [1,25]. Lakin bunlar ibtidai şəkildə idi. Bu ibtidaililiyin içində maraqlı olan o idi ki, burada daha çox böyüklərin həyat və əxlaqına diqqət yetirilirdi. Böyüklərdən sonra gənclərin tərbiyəsinə önəm verilirdi. Kiçikyaşlı uşaqların tərbiyəsinə isə az əhəmiyyət verilirdi.

Tərbiyə nəzəriyyəsini tarixi aspektdə şərh edən B.B.Komarovski cəmiyyətin təbəqələrə ayrılmasının tərbiyə prosesinə təsirini araşdıraraq belə qənaətə gəlir ki, "hələ ibtidai cəmiyyətdə belə ayrılma olsa da, sonralar cəmiyyətin təbəqələrə ayrılması getdikcə dərinləşdi, xüsusi iqtisadi və ictimai siniflər meydana çıxdı... hakim sinif tərbiyəni məhkum sinif üzərində siyasi təsir silahı kimi işlətməyə başladı" [1,27]. Hakim təbəqənin övladlarına idarəetməklə bağlı zəruru vərdişlər, mədəni ənənələr öyrədildiyi halda, məhkum insanlar itaətkar bir ruhda tərbiyə edilirdilər. B.B.Komarovski iki fərqli tərbiyə sisteminin yaranmasını əsaslandırarkən Leturnnun araşdırmalarına istinad edir. Mövcud biliklərin gənc nəslə öyrədilməsi, pedaqoji vəzifənin həyata keçirilməsi kahinlərin missiyası idi. Elə bu səbəbdən də onlar böyük nüfuza malik idilər. İstənilən bir sənətin öyrədilməsi ailə ənənələri ilə bağlı idi. Məsələn, Misirdə arxitektura sənəti bir ailənin 25 nəslini əhatə etmişdir. Onun araşdırmalarına görə, kasıbların övladları ən yaxşı halda ibtidai təhsil almaqla kifayətlənə bilərdi. Hətta aristokratlar üçün nəzərdə tutulan məzmunun kasıblara öyrədilməsi qadağan idi.

Bu baxımdan B.B.Komarovskinin qədim Peru rəhbərlərindən olan Tunak Yupankinin fikirlərinə münasibəti diqqəti cəlb edir. Peru rəhbər deyirdi:"Yalnız zadəganların bilməsi lazım gələn şeyləri xalqa öyrətməməli, əks təqdirdə xalq məsələni anlar və hökumətə zərər verər. Xalq içərisində hər kəs öz atasının sənətini öyrənməlidir. Qaraguruha (kasıb təbəqəyə -R.C.) mənsub adam üçün başqalarının üzərində hakim olmaq ədəbsizlikdir və elə adamın ictimai vəzifəyə təyini, vəzifənin qiymətini düşürməyə (aşağı salmağa-R.C.) bərabərdir [1,29]. B.B.Komarovski Leturnonun əsərindən iqtibas etdiyi bu fikri təhlil edərək yazır:"Bu qeyddə hakim aristokratiyanın tərbiyə sahəsindəki sinfi siması çox gözəl nəzərə çarpır. Kütlə yalnız etirazsız, şikayətsiz, zəhmətlə

yaşamağa hazırlanmalı, aristokratiya isə, öz uşaqlarını bu kütləni idarə etməyə və rəhbərliyə hazırlamalıdır" [1,29]. Dövləti idarə edənlər qanunu və əsas idarəetmə prinsiplərini yaxşı bilməli idi. Tərbiyəni inhisara alan aristokratlar təhsil almağı özlərinin imtiyazı hesab edirdilər. Onlar tərbiyədən (mütəşəkkil tərbiyədən) siyasi idarəçilik vasitəsi kimi istifadə edirdilər.

Cəmiyyətin siniflərə bölünməsinin tərbiyə sahəsində də fərqli baxışların meydana gəlməsinə səbəb olduğunu əsaslandıran B.B.Komarovski sinifli cəmiyyətdə əsas tərbiyə müəssisələri üzərində geniş dayanır. Öncə ailə tərbiyə mühiti kimi araşdırılır, ailə tərbiyəsinin cəmiyyətin təsiri ilə dəyişməsinin xarakterik xüsusiyyətləri müəyyənləşdirilir, ailə tərbiyəsi ilə bağlı Avropa və Rusiya təcrübəsi ümumiləşdirilir, həm Avropa, həm də rus alimlərinin fikirlərinə tənqidi münasibət bildirilir. Ailəni tərbiyəedici mühit kimi araşdıran Lesqaftın 1910-cu ildə nəşr etdirdiyi "Məktəbli tipləri" adlı əsəri əhatəli araşdırılır. Lesqaft xüsusi həyat şərtlərinin nəticəsində meydana çıxan altı əsas tip müəyyənləşdirir: a) yaltaq tip; b) izzəti-nəfs tip; c) təmiz ürəkli tip; ç) ərköyün və ya çox əzizlənmiş tip; d) gözdən salınmış tip; e) məzlum tip [1, 39-40].

B.B.Komarovski tədqiqatlarında tərbiyə prosesinin əsas ünsürlərini müəyyənləşdirmiş, sistemləşdirmiş, məzmununu şərh etmişdir. Onun bu ideyaları sonrakı elmi-pedaqoji ədəbiyyatda, pedaqogikaya aid dərs vəsaitlərində təkrarlanmışdır. O dövrün elmi-pedaqoji ədəbiyyatının, pedaqoji mətbuatının araşdırılması sübut edir ki, B.B.Komarovski bütün çətinliklərə, fikir ayrılıqlarına, bəzən də təzyiqlərə baxmayaraq düzgün elmi fikirlərin formalaşmasında, Azərbaycanda pedaqogika elminin təşəkkülündə və inkişafında müstəsna xidmətlər göstərmişdir.

## ƏDƏBİYYAT

1. Komarovski B.B. Pedaqojinin ümumi əsasları. Baki, Azərnəşr,1930, 64 s.
2.Rüstəmov F. Pedaqogika tarixi. Bakı, Nurlan, 2006, 748 s.
3. Komarovski B.B. Pedaqoji seminarlar. Bakı, Azərnəşr,1930, 157 s.
4. Rüstəmov F.Azərbaycan pedaqogikaçünaslığı.Bakı, Elım və təhsil, 20-16
5. Блонский П.П. Избранныепедагогические и психологическиесочинения в 2-х томах. Том I.Москва: «Педагогика», 1979, 306 с.
6.Komarovski B.B. Vətən müharibəsi şəraitində məktəbin təlim-tərbiyə işləri. Bakı, Azərnəşr, 1942, 24 s.

**UOT 94(479.24)**

# ОБРЯД ЖЕРТВОПРИНОШЕНИЯ И ПРАЗДНИКИ В АЗЕРБАЙДЖАНЕ В ЭПОХУ АНТИЧНОСТИ (IV в. до н.э.-III в. н.э.)

***Севда Самедова***
*НАНА Институт Археологии и Этнографии*
*sevdasamedova@mail.ru*

**Ключевые слова:** *обряд жертвоприношения, Албания, Атропатена, праздники*

# AZƏRBAYCANDA ANTİK DÖVRDƏ (IV ə.e.ə. - III b.e.) QURBAN AYİNİ VƏ BAYRAMLAR

***Sevda Səmədova***

**Açar sözlər*:*** *qurban ayini, Albaniya, Atropatena, bayramlar*

*Təqdim olunan məqalədə müəllif etnoqrafik baxımından iki vacib məsələlərə toxunur, qədim zamanlarda qurban kəsmə ayinindən və bayramlardan. Müəllif qədim və orta əsrlər boyu qurban kəsmə ayinində baş verən dəyişiklikli araşdırır və burada qöstərir ki, xristian dininin ortaya çıxması ilə insanı qurban gətirmək ayini Albaniyada ciddi təngid olundu, qınandı və təqiblər başlandı və sonrakı illərdə Alban dövləti tərəfindən tam ləgv olundu. Məqalədə qöstərilir ki, ən birinci dəfə insan qurban qətirməsi ayini zərdüştlik dini tərəfindən tənqid edilmişdir və bu dində nəin ki insan, hətta heyvanları qurban qətirməsi tənqid olunurdur. Kiçik Avesta dövründə Atropatenada heyvanları qürban qətirmək mərasimi dağ yüksəkliklərində yerinə yetirilirdi, adətən bu mərasimi bir qayda olaraq yunan tanrılarına təqdis həsr olunurdu. Məgalədə Gurban bayramından, həmçinin qədim bayramlardan - Mehrigan, Novruz və s. söz açılır.*

# CEREMONY OF SACRIFICE AND HOLIDAYS IN ANCIENT AZERBAIJAN (IV century bc - III century ad)

***Sevda Samadova***

**Key words:** *Rite, Albania, Atropatena, holidays, sacrifice*

*In the presented article the author touches on two important questions from the field of ancient ethnography: the ritual of sacrifice and holidays. The author examines the changes that took place in the ritual of sacrifice in the ancient and medieval centuries. With the emergence of the Christian religion, the rite of human sacrifice began to be condemned and persecuted in Albania. The article notes that for the first time the rite of human, and indeed of animal sacrifice, was criticized by the Zoroastrian religion. In Atropatene, in the age of the Younger Avesta, animal sacrifices were still made, and performed this ceremony on the mountainous heights, usually honoring Greek deities. The article also talks about Gurban Bayramy, as well as about such ancient festivals as Mehrigan, Novruz, etc.*

В истории всех религий известны разнообразные обряды жертвоприношения - от простейших, невинных их форм и до диковинных. Выявление археологами в крупных городищах Албании остатков мощных зданий с базами колон (типа эллинских), указывают на то, что здесь имелись грандиозные общественные объекты, возможно, храмы с большими земельными угодьями (1, 98; 2,68). По сообщению Страбона, вблизи Иберии находилась святилище богини Селены «во главе большой и густонаселённой священной области» стоит жрец – самый уважаемый человек после царя (XI, IV, 7). Жрец распоряжается рабами храма, многие из которых, одержимые божеством, изрекают пророчества» (XI, IV, 7). По сообщению же Диона Кассия, Помпей во время похода на Южный Кавказ свою армию расположил «у реки Кюрн в области Анаит» (XXXVI, 53,5). Храмы античной эпохи имели производственное используемое имущество – землю и рабов. З.И. Ямпольский отмечает, что такая храмовая собственность в античную эпоху называлась «хора», которая означала земля, область, страна (1, 15). Соответственно сообщению Помпония Мелы, в восточной части Албании на острове Каспийского моря имелась священная земля (III, 6, 58). Предположительно, эта священная область была закрытой территорией, на что указывает то обстоятельство, что у античного автора отсутствует сведение о иеревсах и иеродулах в ней, а

это, в свою очередь, говорит о том, что описываемая земля являлась святилищем более примитивного характера или древним пиром (1, 152).

Исстари основным содержанием древних культов являлись человеческие или животные жертвоприношения. Целью совершения обряда жертвоприношения и связанных с ним действий, было достижение признательности богов. Так было у древних эллинов, египтян, ацтеков и т.д., так было и у древних албанцев.

Более подробное описание сцены человеческого жертвоприношения в одном из главных албанских пантеонов приводится Страбоном: «Того из них, кто став одержим божеством, в уединении скитается по лесам, жрец приказывает схватить и, связав священной цепью, пышно содержать весь год (XI, IV,7). Под конец, эту жертву (иеродула) «умащают» благовониями, вероятно, маслами, изготовленными из «священных» растений и «вместе с другими жертвами (имеется в виду скот – авт.) подвергают закланию. «...Кто-то из толпы, хорошо знакомый с этим делом, выступает со священным копьём в руке, которым по обычаю можно совершать человеческое жертвоприношение и вонзает его сквозь бок в сердце жертвы. Когда жертва валится наземь, они получают известные предзнаменования по способу её падения и объявляют всем» (XI, IV, 7). Труп жертвы приносили в специально отведённое место для совершения обряда очищения и перешагивали через неё. В народе существует примета, по которой перешагивать через лежачего человека нельзя, так как ему при этом передаются болезни и неприятности перешагивающего человека. Предметами, которыми пользовались при совершении жертвенного обряда, являлись священная цепь и копье (1, 155). На богатом комплексе наскальных изображений Апшерона, имеется изображение вышеописанной Страбоном сцены обряда жертвоприношения (1 тыс. до н.э.) (2, 15-17). Этот обряд в Албании полностью исчез при принятии христианства (3,17, 31).

В средневековье обряд человеческого жертвоприношения стал считаться диким злым обрядом человекоубийства и преследовался на государственном уровне. Согласно христианскому вероучению, Иисус Христос принёс себя в жертву в искупление всех людских грехов, чтобы не было больше надобности в человеческих или каких-либо других жертвоприношениях.

Известно, что греки совершали жертвоприношение богам и героям в отдельности. Героям – ночью, богам – днём при свете солнца; для богов сжигали лишь часть жертвенного животного, а оставшуюся лучшую часть туши животного поедали. Для героев же жертвенное животное целиком сжигали, а, после, закапывали, чтобы никто не ел жертвенное мясо. Богам закалывали животных светлой масти, а героям – чёрной. При

жертвоприношениях богу, голову животного поднимали вверх, а при жертвоприношении героям – наклоняли вниз. Жертвенник богу сооружали высоким, героям же – низким. Жертвенник богу имел вид трубы, по ней кровь животного стекала в землю (4, 58-59). Существовали ли схожести в обрядах жертвоприношений богам и героям, да и вообще, другим культам в античной Албании, нам неизвестно. Учитывая влияние эллинской культуры, мы можем лишь предположить, что в Албании обряд жертвоприношения сопровождался гаданиями, трапезами, различного рода играми и состязаниями. Из источников известно, когда Александр Македонский перед предстоящими сражениями, а также по случаю чествования погибших воинов, отдавал приказ о проведении обряда жертвоприношения. Борясь со смертью за жизнь, Великий полководец потребовал совершения обряда жертвоприношения скотом. История Древнего мира повествует о жертвоприношениях животных, посвящённых Олимпийским богам.

Если в античной Албании, как это происходило в древнем Риме и Греции до принятия христианства, приносились человеческие жертвоприношения, то на территории Атропатены было сильно влияние зороастрийской религии, которая первоначально вообще исключала кровавые жертвоприношения скотом. Страбон пишет, что персидские обычаи одинаковы у мидян (XV, III, 13). Персы приносят своим богам в жертву животных (XI, III,13). Однако на территории Мидийской Атропатены в период существования Гат (самая древняя часть Авесты) животных жертвоприношений богам не совершали. Известно, что великий математик античности - Пифагор, будучи в плену у персов, изучил основные философские концепции зороастризма, приобщился к учениям и взглядам жрецов и магов. В одной из его заповедей, данных ученикам и последователям изложено: «Смертью и убийством живых существ богов - не чтить. Приносить в жертву быков запрещено». И даже, когда учёный открыл, что в прямоугольном треугольнике гипотенуза имеет соответствие с катетами, он принёс в жертву быка, сделанного из пшеничного теста (5, 36). Впоследствии в архаической Младшей Авесте стали проповедоваться кровавые жертвоприношения скота (6, 25). В ней имеется сообщение о том, что в жертву богам люди приносили около 10 тыс. голов мелкого рогатого скота (7,10, 7). Приступая к обряду жертвоприношения, зороастрийцы сначала превозносят хвалу своему народу и царю, а затем читают молитвы за здравие и благополучие близких, родных, себя и своей семьи.

В Древней Греции богу Зевсу в жертву в большом количестве приносились быки, причём значимыми были порода животного, его возраст, цвет шерсти, наличие на нём особых примет и т.д. По поводу

жертвенных быков, в античных текстах нередко упоминается выражение - гекатомба (жертва ста). Известен случай, когда в эллинских городах были принесены в жертву сразу 450 быков (8, 9, 127). Интересным фактом является то, что в современной Греции отмечается праздник «Хурбан», название и значение которого сводится мусульманскому священному празднику жертвоприношения «Курбан (жертва) байрамы». Главным жертвенным животным здесь является бык. По завершению обряда жертвоприношения из мяса жертвенного животного, как правило, быка, готовят праздничную трапезу, пускаются в пляски, проводят различные состязания, в том числе популярный поединок, называемый «кулеш» («güləş» тюркское слово – борьба, состязание) (9).

Принося жертвы идолам, древние люди уверовали в то, что, тем самым они будут услышаны богами. По их воззрениям, идолы являлись своего рода посредниками между земным миром и высшими духовными мирами. Каждый человек, совершая жертвоприношение скотом в искупление собственных грехов, должен был понять, что по справедливости, жертвой должен быть он, но, совершая этот обряд, он получал помилование от бога и шанс жить дальше. Смысл и значение праздника жертвоприношения сохранен по сегодняшний день. С.А. Токарев по поводу обряда жертвоприношения пишет: «в различные эпохи служители культов требовали от верующих всё более обильных жертв духам и богам; отсюда обычаи «вкладов», пожертвований и пожалований (в древности - в пользу храмов, позднее - церкви, монастырям). Из них составлялись огромные владения, служившие в средневековой Европе и на Руси основой экономического могущества церкви» (10, 589). Здесь достаточно упомянуть о походе Александра Македонского на Восток, и сборе им из капищ драгоценностей, пожертвованных местным населением алтарю Огня.

В мире ислама широко празднуется жертвенный праздник «Курбан байрамы». Согласно Корану, Ангел Джебраил (Гавриил) явился к пророку Ибрахиму (Аврааму) во сне и передал ему повеление от Аллаха принести в жертву своего первенца Исмаила (Измаила), Ибрахим отправился в долину Мина, к тому месту, где ныне стоит Мекка и начал приготовления, однако это оказалось испытанием, посланным Всевышним Аллахом. И, когда жертва была почти принесена, Аллах заменил для Ибрахима жертву сыном на жертву ягнёнком (агнец). Праздник символизирует милосердие бога и то, что вера – лучшая жертва. Жертвенными животными, как правило, бывают овцы, которые так же, как и в случае с быками в Греции, тщательно отбираются во время праздника.

Страбон сообщает: «персы не воздвигают статуй или жертвенников, но приносят жертвы на возвышенном месте, почитая небо

